# İmanın gözəllikləri

Harun Yəhya
(Adnan Oktar)

# İçindəkilər

**I hissə**: Peyğəmbərimiz (s.ə.v)-in dilindən cənnət

**II hissə**: Qulaq ardına vurulan Quran hökmləri

**III hissə**: Quran möcüzələri

**Əlavə hissə**: Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq

romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# I Hissə
# Peyğəmbərimiz (s.ə.v)-in dilindən cənnət

İnsan, dünyada nəfsinin pisliklərinə qalib gəlib ömrünü Allahın razı olacağı şəkildə keçirməklə məsuldur. Bunun üçünsə ona təxminən 60-70 il kimi çox az müddət verilmişdir. Allah, rizasını qazanan qulları üçün dünyadakı bu qısa həyatın ardınca əbədi və bənzərsiz bir həyat yaratmışdır. Dünyadakı bu ömür göz açıb yumana qədər sürətlə tükənib keçir. Bu müddət ərzində səbirli, həmişə gözəl əxlaqlı və Allahın səmimi bir qulu olan kəslər, axirətdə çox böyük mükafatla, yəni əbədi cənnət həyatı ilə qarşılaşacaqlar. Şübhəsiz ki, bu Rəbbimizin qullarına olan lütfkarlığının, rəhmətinin və sevgisinin çox mühüm təcəllasıdır.

Allah hər insanı, hər şeyin ən gözəlindən, ən mükəmməlindən zövq alacaq və bunları çox arzulayacaq ruh ilə yaratmışdır. Bu səbəblə də insan, həyatı dərk etməyə başladığı andan etibarən bu mükəmməlliyə nail olmağı həmişə çox istəyər. Həmişə gözəllik və nemət axtarar. Lakin bunu nə qədər çox istəsə və bunun üçün nə qədər çox səy göstərsə də, dünyada heç vaxt axtardığı mükəmməlliklə qarşılaşa bilməz. Çünki Allah dünya həyatını xüsusi olaraq qüsurlu və əskik şəkildə yaratmışdır.

Əlbəttə ki, Allahın belə yaratmasında bir çox hikmət var. Çünki; **"o Allah ki, yaradandır, (ən gözəl şəkildə) qüsursuzca var edəndir, "forma və surət" verəndir. Ən gözəl adlar Onundur. Göylərdə və yerdə olanların hamısı Onu təqdis edir. O, Əzizdir, Hakimdir"** (Həşr surəsi, 24), ayəsiylə bildirildiyi kimi, Allah mükəmməl yaradır. Rəbbimiz hər şeyə və hər istədiyini yaratmağa qadirdir. Dolayısilə dünyadakı bu çatışmazlıqların bir məqsədi var. Rəbbimizin bu cür yaratmasının hikmətlərindən biri, insanın cənnətin varlığını qavraması və bunun üçün səmimi səy göstərməsini təmin etməkdir.

Allah insanın fitrətini təkcə cənnətdə rahatlıq tapa biləcəyi və nəfsinin istəklərini təkcə burada təmin edə biləcəyi şəkildə yaratmışdır. Quranın bir çox ayəsində bu həqiqət insana bildirilmişdir. Əsil həyatını cənnətdə yaşayacağını, buna görə də, bütün səyini sonsuz gözəlliklər yurdu olan cənnətə qovuşmağa yönəltməsini xatırlatmışdır. Bu mövzudakı Quran ayələrindən bəziləri belədir:

**Bu dünya həyatı əyləncə və oyundan başqa şey deyildir. Axirət yurdu isə əsil həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

**Həqiqət budur ki, əbrar olanlar (yaxşılar, dürüst olanlar), əlbəttə, nemətlər içində olacaqlar. Onlar taxtlar üstündə seyrə dalacaqlar. Sən onların çöhrəsində səadət parlaqlığı görəcəksən. Onlara möhürlü, xalis şərabdan içirdiləcəkdir. Onun sonu müşkdür. Buna görə də yarışmaq istəyənlər, bunun üçün yarışsınlar! (Mutaffifin surəsi, 22-26)**

**Allah istədiyinin ruzisini artırar və azaldar. Onlar dünya həyatı ilə sevindilər. Halbuki dünya həyatı axirətdəki əbədi xoşbəxtliklə müqayisədə müvəqqəti faydadır. (Rad surəsi, 26)**

**Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı var. (Qaf surəsi, 35)**

Peyğəmbərimiz (s.ə.v) də bir hədisində dünya həyatı ilə müqayisədə cənnətin insan üçün necə böyük nemət olduğunu belə bir nümunə ilə açıqlamışdır:

**Cənnətdə, yay qədər bir yer, Günəşin üstündə doğduğu və ya batdığı şeydən (dünyadan) daha xeyirlidir. [Kütüb-i Sitte-14, səh. 429/2]**

İnsan, bu mövzuda heç bir məlumata sahib olmasa belə, dünyanın əskikliklərini və nəfsindəki, nemətlərə qarşı olan arzu hissini bir qədər düşündüyü təqdirdə, bu həqiqəti asanlıqla dərk edə biləcək. Çünki Allah, dünya həyatının həqiqi həyat olmadığının başa düşülməsindən ötrü insan üçün bir çox dəlil yaradır. İnsan demək olar ki, hər gün ilk növbədə öz vücudunda olmaqla, dünya həyatının əskiklikləriylə qarşılaşır. Təkcə həyatda qala bilmək üçün belə, çox sayda tədbir görmək məcburiyyətindədir. Ən kiçik etinasızlıq etdikdə xəstəliklər, yaralanma halları və hətta ölümlə də üzləşə bilir. Ömrünün böyük hissəsini vücudunun acizliklərini aradan qaldırmağa ayırar. Lakin bütün bu səyə baxmayaraq, keçən illərlə birlikdə vücudu xeyli korlanar. İnsan vücudu kimi, ən gözəl çiçəklər belə vaxt keçdikcə solar; ən gözəl rəngli, ən xoş qoxulu çiçəklər, lalələr, bənövşələr çürüyüb məhv olar. Ən ləzzətli və ən təzə görünən meyvələr, tərəvəzlər qısa müddətdə çürüyüb yeyilə bilməyəcək hala gələr. Ən ehtişamlı evlər, əşyalar, avtomobillər vaxt keçdikcə köhnələr, dağılıb gedər.

Bu sayılanlar insanın dünyada təmasda milyonlarla əskiklikdən yalnız bir neçəsidir. Lakin təkcə bunlar belə, insanın arzuladığı əsil yerin dünya olmadığını başa düşməsi üçün kifayətdir.

İnsan, bütün bu əskikliklər qarşısında daxilən, həmişə mükəmməl olan, bu əskikliklərin heç birinin olmadığı bir dünyada yaşamaq istəyər. Xəstəliklərin, ölümlərin, müharibələrin, döyüşlərin, pisliklərin, əskikliklərin, çətinliklərin heç yaşanmadığı bir dünyada yaşamağı arzulayar. Bu məqsədlə də, heç bir problemin yaşanmadığı xoşbəxt bir həyatı, dünya şərtlərində meydana gətirə bilməyin yollarını axtarar. Halbuki, Allah Quranda insanlara bu həyatı təkcə cənnətdə yaşaya biləcəklərini bildirmişdir. İnsanın bunun üçün etməsi lazım olan şey isə olduqca asandır: Rəbbimizin rizasına uyğun bir həyat yaşamaq. Bundan sonra da (Allahın təqdiriylə) arzuladığından və xəyal edə bildiyindən xeyli üstün, mükəmməl və əbədi xoşbəxtliklə dolu bir həyatla qarşılaşacaq.

İnsanın axtardığı, arzuladığı, sevdiyi hər şeyin yalnız cənnətdə olduğunu başa düşməsi üçün, Allah Quranda cənnət nemətləri haqqında bir çox məlumat vermişdir. Kitabın sonrakı hissələrində Quran ayələri və Peyğəmbərimiz (s.ə.v)-in hədisləri istiqamətində Rəbbimizin bizim üçün hazırladığı bu bənzərsiz nemətləri bir-bir sadalayacağıq.

Həmçinin İncildəki, Quran ayələri və Peyğəmbərimiz (s.ə.v)-in hədisləri ilə uyğunlaşan sözlərə də yer verəcəyik. Quran ayələrində bizə İncilin zaman keçdikcə təhrif edildiyi, buna görə də, içində müxtəlif yanlış inancların olduğu bildirilir. İndiki vaxtda mövcud olan İncildə haqq hissələr ola biləcəyi kimi insanlar tərəfindən əlavə olunmuş səhv məlumatlar da vardır. Bu səbəblə

də İncildə olan açıqlamaları Quran ayələriylə və Peyğəmbərimiz (s.ə.v)-in hədisləriylə uyğun olduqları ölçüdə qiymətləndirmək lazımdır.

Bu kitabda da bu meyar nəzərə alınmış və İslami mənbələrə uyğun olan İncildəki bəzi açıqlamalara yer verilmişdir. Bu kitabın qarşıya qoyduğu məqsədlərdən biri, insanlara əsil həyatın dünyada deyil, cənnətdə yaşanacağını, nəfslərinin arzuladığı gözəlliklərin dünyada deyil, cənnətdə olduğunu xatırlatmaqdır. Daha əvvəl heç düşünməsələr belə, ruhlarında mükəmməlliyə qarşı olan arzuları təmin edə biləcək yeganə həyatın cənnətdə olduğunu qavramalarına kömək etməkdir.

Digər bir məqsəd isə insanların cənnətin bənzərsiz gözəlliklərini, əbədiyyən davam edəcək zövqlərini dərindən düşünmələrini təmin etməkdir. Çünki həm Quran ayələri, həm də Peyğəmbərimiz (s.ə.v)-in hədisləri, bizə bir çox insanın daha əvvəl heç düşünməmiş ola biləcəyi cənnət nemətləri barədə xəbər verir. Cənnətdəki ehtişamın, tükənməz nemətin və yaşanılacaq gözəl həyatın başa düşülməsi, insanların cənnətə qovuşma arzularını və bu həyatı qazanmaq üçün göstərəcəkləri səyi artıracaq. Allahın sonsuz rəhmətinə və bənzərsiz nemətlərinə layiq ola bilmək üçün böyük şövq və əzmlə xeyrlərdə yarışmalarına vəsilə ola biləcək.

Əlbəttə ki, kitab boyunca təsvir ediləcək cənnət, insan ağlının və məlumatının qavrayışıyla məhdudlaşır. Əslində Allahın Quranda bildirdiyi və Peyğəmbərimiz (s.ə.v)-in hədisləriylə təsvir etdiyi cənnətin mükəmməlliyi və gözəlliyi, insanın dünyada özünə verilən ağılla qavraya biləcəyindən və düşünə biləcəyindən xeyli üstün və bənzərsizdir. İnsan cənnətə aid gözəllikləri, təkcə dünya həyatında bildiyi nemətlərlə müqayisə edib, bunlarla eyniləşdirərək başa düşə bilir. Lakin Rəbbimizin orada saleh bəndələri üçün hazırladığı nemətlərin gözəlliyi, həqiqi halı ilə yalnız axirətdə qavranıb yaşanıla biləcək. İnsanın ruhu təkcə orada bunlardan zövq ala biləcək. Bunun bir hikməti isə Rəbbimizin bütün bu nemətləri və gözəllikləri yalnız iman gətirən qullarına verməsidir. Allah inkar edənləri cənnət nemətlərindən məhrum etmişdir. Ayələrdə cənnətə girə bilməyən kəslərin axirətdə hədsiz dərəcədə cənnətə daxil olmağı arzulayacaqlarından və yaşayacaqları böyük peşmanlıqdan bəhs edilir. Bu kəslər həsrətlə cənnəti xatırlayacaq, əbədiyyən böyük peşmanlıqla cənnətə girməyi arzulayacaqlar. Əlbəttə ki, onlar da dünya həyatında cənnətin varlığından, oradakı gözəlliklərdən xəbərdar olmuş lakin bu həqiqəti görməzlikdən gəlmişlər. Nəfslərindəki bu istəyi dünya həyatında təmin edə biləcəklərini düşünərək var gücləriylə dünyaya yönəlmişlər.

Ümid edilir ki, bu kitabda izah edilənlər, belə böyük yanılmaya qapılan insanların həqiqi həyatın axirətdə yaşanacağını başa düşmələrinə və həyatlarını, Rəbbimizin rizasını qazanaraq keçirmələrinə vəsilə olar. İman gətirənlərin isə cənnətə qovuşma arzularını, şövq və əzmlərini artıraraq Allahın ən sevdiyi qullarından ola bilmək üçün xeyirlərdə yarışmalarını təmin edər.

## Allahın cənnət əhli üçün hazırladığı nemətlər

İnsanlar olmasını istədikləri, lakin, dünya şərtlərində mümkün olmayan şeyləri bəzən filmlər və romanlar üçün mövzu olaraq ələ alarlar. Bu cür fikirləri fantastik, qeyri-real kimi sifətlərlə xarakterizə edərək həqiqət olmadıqlarını vurğulayarlar. Əksər insanlar bu xəyal məhsulu mükəmməlliklərin real olmasını istəyər və bunları əldə etmək üçün yarışarlar. Lakin dünya şərtlərində bunların reallaşmasının qeyri-mümkün olduğunu bilmək və bu gözəllikləri yalnızca xəyal etmək onların ruhunda dərin zövq meydana gətirməz. Əksinə yaşadıqları mühitdəki əskiklikləri bir

qədər də görərək dünyanın həqiqi üzünü görmələrinə, bu da öz deyimləriylə "keflərinin qaçmasına" səbəb olar. Əlbəttə ki, təsvir etdiyimiz bu ruh halı iman etməyən kəslər üçündür.

Axirətin varlığına yəqinliklə iman edən möminlər isə təxəyyülün sərhədlərini aşan bütün ehtimalların Allahın "ol" deməsiylə reallaşa biləcəyini, axirətdə cənnət neməti olaraq qarşılarına çıxa biləcəyini bilərlər. O zaman insan, dünyada "olsa nə gözəl olar" deyə düşündüyü hər gözəllik və nemətə, cənnətdə qovuşa bilməyi ümid edə bilər. Bunu ümid edən insan, istədiyi hər şeyə qovuşa biləcəyi cənnətə layiq ola bilmək üçün ciddi səy göstərməyə başlayar.

Peyğəmbərimiz (s.ə.v) bir hədisdə, Allahın saleh bəndələri üçün axirətdə *"heç bir gözün görmədiyi, heç bir qulağın eşitmədiyi və heç bir insanın ağlına gəlməyən bəzi nemətlər"* olacağından bəhs etmişdir. [Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 306/497]

Allah cənnəti təsvir edib tanıtdığı ayələrlə insanlara dünyadakılarla müqayisə edilməyəcək bir nemət üfüqü açır. **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı var"** (Qaf surəsi, 35) ayəsiylə cənnətdəki bu nemət bolluğu xəbər verilir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində möminlərə özlərini gözləyən cənnət nemətləri haqqında bu ayəni xatırlatmışdır:

**Artıq heç bir insan, etdiklərinə əvəz olaraq özləri üçün göz aydınlığı olaraq (saysız-hesabsız nemətlərin) olduğunu bilməz. (Səcdə surəsi, 17)** [Tezkireti'l Kurtubi, səh. 306/498]

Allahın cənnətdə bəxş edəcəyi nemətlər düşünülərkən unudulmaması lazım olan mühüm bir xüsus da, insan ağlının çox məhdud olmasıdır. Bundan ötrü də insan, özünə vəd edilən nemətlərin bolluğunu, müxtəlifliyini, bənzərsiz gözəlliklərini zehnində tam şəkildə canlandırmaya bilər. Quranda və hədislərdə bildirilən nemətlər, edilən təsvirlər insanların cənnət nemətlərini anlamaları üçün, dünyadakı gözəlliklərin bəhs olunduğu bənzətmələrlə təsvir edilir. Lakin bunlar cənnətdə olduqca mükəmməl hallarıyla mövcud olacaqlar. Çünki, Allah, sonsuz ağlının təcəllası olaraq cənnəti bütün çatışmazlıqlardan uzaq mükəmməl məkan kimi yaratmışdır.

İnsanın məhdud düşünmə çərçivəsini belə bir nümunə ilə izah edə bilərik: insan, görmə duyğusuna sahib olmayıb, yalnız dadbilmə, iyləmə, eşitmə və toxunma duyğularıyla yaradılmış olsaydı; gözə xitab edən nemətlər özünə nə qədər təsvir edilib izah edilsə belə bunların nə olduğunu qavraya bilməzdi. Rəngdən, işıqlıqdan, estetikadan, simmetriyadan, ehtişamdan bəhs edildikdə, bu insan bütün bunları başa düşməyə bilərdi. Eynilə hal-hazırda bizim bilmədiyimiz, lakin Allahın cənnətdə yaradacağı və bizə yeni üfüqlər qazandıracaq başqa duyğular da ola bilər. Dolayısilə təkcə beş duyğuya malik olduğumuz bu dünyada nə cür nemətlərdən xəbərsiz olduğumuzu tam şəkildə qavramaya da bilərik.

Fikir, düşüncə və xəyal üfüqümüzdəki məhdudluğu, pəncərəsiz bir evin içindən heç çölə çıxmadığını fərz etdiyimiz bir kimsənin vəziyyətinə də bənzədə bilərik. Evin xaricindəki gözəlliklərdən (dağların, çayların, ağacların görünüşündən, bir-birindən estetik çiçəklərdən, sevimli heyvanlardan, aydın səmadan, Günəş şüasının parlaqlığından və sairədən) xəbərsiz olan bu insan, hansı nemətlərdən məhrum olduğunu da dərk edə bilməz. Üstəlik, bu müqayisə dünyadakı gözəlliklər əsasında apardığımız bir müqayisədir. Dünyanın nemət və gözəllikləri isə cənnət

nemətləriylə müqayisədə olduqca əskik və qüsurludur. Bu baxımdan iman gətirən bir insan cənnəti də sahib olduğu məhdud məlumatlar çərçivəsində, məhdud baxış prizmasıyla qiymətləndirməkdən çəkinməli və belə səhvliyə yol verməməlidir. Çünki, insan Rəbbimizin bildirdiklərindən başqa, cənnətlə əlaqədar incəliklərin, cənnət əhli üçün hazırlanmış sürprizlərin nələr ola biləcəyi haqqında fikir sahibi belə deyil. Quranda bu vəziyyətə diqqət çəkilən ayələrdən birində Allah: **"Orada onlar üçün istədikləri hər şey hazırlanmışdır. Üstəlik, hüzurumuzda bundan da artığı var"** (Qaf surəsi, 35) deyə buyurur.

Bir rəvayətə görə isə Peyğəmbərimiz (s.ə.v) cənnət nemətlərini belə təsvir etmişdir:

**Cənnətə qaçan yoxdurmu? Çünki, cənnətdə ağla, xəyala gəlməyən nemət var. [Tezkireti'l Kurtubi, səh. 306-307/499]**

## Cənnətdəki zənginlik və bolluq

Din əxlaqından uzaq yaşayan cəmiyyətlərdə zənginlik hər dövrdə güc və etibarın simvolu olmuş və insanların həyatları boyu adətən birinci dərəcəli hədəflərindən biri olmuşdur. Bunun səbəblərindən biri iman etməyən insanların çox vaxt, təkcə zəngin olduqları təqdirdə həqiqi mənada xoşbəxt ola biləcəklərini düşünmələridir. Bu kəslər sahib olduqları şeyləri təkcə bu yolla zəmanət altına ala biləcəklərini, rahatlığı, hüzuru və xoşladıqları gözəl şeyləri də bu yolla əldə edə biləcəklərini zənn edərlər. Dolayısilə bütün ömürləri boyu mal-mülk əldə etmək, pul yığmaq və məqsədəuyğun sərmayələr qoymaq üçün səy göstərərlər. Eyni zamanda da bir gün bitəcəyi, tükənəcəyi narahatlığından ötrü sahib olduqları bu malları, əşyaları istifadə etməkdən, pulları xərcləməkdən mümkün qədər çəkinər, sərvətlərinin daimi olması üçün hər üsulu tətbiq edərlər.

Lakin dünya şərtlərində nə qədər çalışılsa da, sahib olunan zənginlik insanın ruhunda gözlənildiyi kimi zövq meydana gətirməz. Bəzi sahələrdə insana rahatlıq versə də, qüsurlarla, əskiklərlə dolu dünya şərtlərində yaşanan zənginlik də təkcə buna uyğun ölçüdədir. Necə ki, "dünya" sözü ərəbcədəki "deniy" sözündən meydana gəlmişdir. Bu söz isə alçaq, dəyərsizləşmiş, bəsit, dəyərsiz kimi mənalara gəlir.

Allahın dünyanı belə əskik, qüsurlu və müvəqqəti kimi sifətlərlə yaratmasının bir hikməti də, insanların cənnətdəki gözəlliklərin dəyərini daha yaxşı təqdir edə bilmələrini təmin etmək ola bilər. Bunu belə bir nümunə üzərində düşünə bilərik: uşaqlığından etibarən yoxsulluq içində yaşayan bir insan, olduqca ehtişamlı əşyaların olduğu, dəyəri ölçülə bilməyəcək qədər çox gözəl incəsənət əsərlərinin olduğu, aztapılan qidalardan ibarət olan nemətlərin təqdim edildiyi, qiymətli daşlarla bəzənmiş bir məkana dəvət edilsə, qarşılaşdığı bu mühitin gözəlliyi ona çox təsir edəcək və xeyli coşacaq. Şübhəsiz ki, insanın aldığı bu zövq və keçirdiyi həyəcan hissi uşaqlığından etibarən bu mühitdə yaşayan bir insana nəzərən xeyli çox olacaq. Bizim dünyadakı mövqeyimiz də müəyyən mənada bu yoxluq və yoxsulluq içindəki insanın vəziyyətinə bənzədilə bilər. Lakin burada ifadə etmək lazımdır ki, dünyadakı ən zəngin insan belə, cənnət şərtləri nəzərə alındıqda kasıb insandır. Üstəlik, insan dünya şərtlərində bu zənginliyə də həqiqi mənada heç vaxt sahib ola bilməz. Çünki dünyanın ən zəngin insanı da olsa sonunda bir neçə metr bezə sarılaraq torpağa basdırılacaq, beləliklə də, sahib olduğu hər şeyi, bütün sərvətini geridə qoyacaq. Allah bir ayədə dünyadakı nemətlərin müvəqqəti olduğunu belə bildirir:

**Dünya həyatının məsəli göydən endirdiyimiz suyun məsəlinə bənzəyir ki, onun sayəsində insanların və heyvanların yediyi yer bitkiləri bir-birinə qatışır. Nəhayət, yer öz bərbəzəyinə bürünüb rövnəqləndiyi və onun sakinləri ona qadir olduqlarını güman etdikləri vaxt, gecə yaxud gündüz əmrimiz yerə yetişər. Biz onu, elə bir biçilmiş sahəyə döndərərik ki, sanki dünən heç bol məhsulu olmamışdı. Biz ayələri düşünən insanlar üçün beləcə bir-bir izah edirik. (Yunis surəsi, 24)**

Cənnət mühitində bəxş edilən zənginlik dünya şərtlərinin əksinə insanların ürəklərinin istədiyi kimi yaşayacaqları, heç vaxt bitmə, tükənmə narahatlığı keçirməyəcəkləri əbədi zənginlikdir. Necə ki, Quranda bildirilən; **"hara baxsan, nemət və böyük mülk görərsən"** (İnsan surəsi, 20) ayəsiylə cənnətdəki bu zənginliyə diqqət çəkilmişdir.

İncildə də cənnət xüsusiyyəti olaraq bolluq təsvir edilir:

**Sizdə olanı verin, sizə veriləcəkdir. Yaxşı şəkildə basdırılmış, silkələnmiş və daşmış, dolu bir qabla qucağınıza boşaldılacaq. Hansı qabla versəniz, eyni qabla alacaqsınız. (Luka, 6-cı hissə, 38)**

Cənnətdəki zənginlik, Allahın sonsuz gözəllikdəki sənətinin təcəllalarını və göz qamaşdıran böyük ehtişamı əhatə edən, ən yaxşı estetik xüsusiyyətləri və uyğunluğu təqdim edən zənginlikdir. Həmçinin də bütün bu gözəlliklər möminlərin istək və arzularına ən çox xitab edən halı ilə bəxş edilir. Çünki zənginlik, təkcə bu yolla gözəlliklərə çevrildiyi təqdirdə insan ruhuna zövq verən məna qazanar.

Sonrakı səhifələrdə "cənnətdəki məkanlarının gözəlliyi" başlığı altında verilən bir çox hədis, eyni zamanda cənnətdəki zənginliyi də vurğulayır. Çünki, bu məkanların gözəlliyi, estetik olmalarıyla yanaşı bəzədilmələri üçün istifadə edilən vəsaitlərin çox qiymətli olmalarından da irəli gəlir. Peyğəmbərimiz (s.ə.v) bir hədisdə, cənnətin tikilməsində hansı vəsaitlərdən istifadə olunduğunu soruşan bir insana belə cavab vermişdir:

**Gümüş kərpicdən və qızıl kərpicdən! Qarışığı da qoxulu müşkdən. Cənnətin çınqılları inci və yaqut, torpağı isə zəfərandandır... [(Tirmizi), Kutubu Sitte-14, səh. 451/6]**

Yadda saxlanılması lazım olan başqa şey isə; cənnət əhli üçün vəd edilən zənginliyin həddi-hüdudu olmayan, bitmə, tükənmə narahatlığının yaşanmadığı bolluqda olmasıdır.

## Cənnət xəzinələri:

Hədislərdə bəhs olunan xəzinələr də cənnətdəki möhtəşəm zənginliyi vurğulayar. Bu zənginliyi düşünərkən bunun çox qüdrətli, mülkünün sonu olmayan Allahın əsəri və təcəllası olduğu, Rəbbimizin istədiyi bəndələrinə bu nemətləri verdiyi unudulmamalıdır. Peyğəmbərimiz (s.ə.v) bu həqiqəti bu sözləriylə xatırlatmışdır:

**Sənə ərşin altından, cənnət xəzinələrindən bir sözə dəlalət edimmi? Belə deyərsən: "La havlə vəla qüvvətə İlla Billah" (Allahdan başqa nə məhrum edəcək, nə də verəcək bir güc var) Onda Allah buyurar ki: "Qulum təslim oldu və nicat tapdı". [Ramuz el-Ehadis-1, səh. 166/3]**

Dünyadakı zənginlik eynilə insanın sahib olduğu digər hər şey kimi əbədi və daimi deyil. Bir insan nə qədər zəngin olsa da, bu zənginliyi təkcə bir neçə on il davam edəcək. Bundan daha artığına hər şeydən əvvəl insanın öz ömrü çatmaz. Buna görə də iman etməyən kəslərin dünyadakı ən böyük hədəflərindən birini təşkil edən, onların həris xarakterə bürünmələrinə səbəb olan varlanma hərisliyi çox qısa müddət davam edər. İncildə də dünya sərvətinin müvəqqəti olduğu, əsil əbədi olanın isə cənnətdəki xəzinələr olduğu və bu səbəblə də iman edənlərin axirət üçün səy göstərmələrinin lazım olduğu yazılmışdır:

*Yer üzündə özünüzə xəzinələr toplamayın. Burada güvə və pas onları yeyib yox edər, oğrular da girib oğurlayarlar. Bunun əvəzinə özünüzə göydə xəzinələr toplayın. Orada nə güvə, nə pas onları yeyib yox edər, nə də oğrular girib oğurlayar. Xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq. (Matta, 6-cı hissə, 19-21)*

Eyni zamanda nə qədər böyük zənginlikdən söhbət getsə belə, lazım gəldikdə buna müəyyən dəyər biçə bilmək, nəticəni rəqəmlərlə ifadə edə bilmək mümkündür. Halbuki cənnət nemətləri dəyəri ölçülə bilməyəcək qədər böyük gözəlliyə və xüsusiyyətlərə malikdir və Allahın razı olduğu qullarına hesabsız şəkildə verilər. Allah Quranda; **"bəli, bu Bizim verdiyimiz nemətdir. O, tükənməzdir"** (Sad surəsi, 54) ayəsiylə cənnət nemətlərinin bu xüsusiyyətlərini bildirmişdir. Başqa bir ayədə isə Allah; **"tükənib azalmayan və qadağan edilməyən (meyvələr)"** (Vaqiə surəsi, 33) deyə buyuraraq cənnətdəki qidaların da eyni xüsusiyyətə sahib olduqlarını bildirir. Allahın bildirdiyi kimi cənnət nemətləri tükənməz, azalmaz və yox olmaz. Bu nemətlər cənnət əhlinə həmişə verilər. Cənnət xəzinələri, şübhəsiz ki, Allahın iman edən qullarına cənnətdə təqdim edəcəyi nemətlərdəndir. Bütün mülkün sahibi olan Allah, cənnəti üçün seçdiyi qullarına bu xəzinələri hesabsız şəkildə, sonsuza qədər verəcək.

## Cənnətdəki mülkün bolluğu:

Mülkün, zənginliyin hesabsız şəkildə bol olması cənnətə məxsus xüsusiyyətdir. Peyğəmbərimiz (s.ə.v) hədislərində, cənnətdəki mülkün bolluğu ilə əlaqədar belə buyurmuşdur:

**Cənnətdə ən aşağı dərəcəyə sahib olan kimsənin cənnətdəki mülkünün tamaşası (seyr etməsi, gəzməsi) iki min il çəkər və bu mülkün ən uzaq qismini ən yaxın kimi görər... [Ramuz el-Ehadis-1, səh. 113/8]**

**Əgər cənnətdə olan şeylərdən bir dırnaq ölçüsündə hər hansı şey görünsəydi yerlə göy arasını başdan-başa bəzəyərdi. Əgər cənnət əhlindən biri görünüb bilərziklərini göstərsəydi, Günəşin ulduzların işığını kölgədə qoyduğu kimi Günəşin işığını kölgədə qoyardı. [(Tirmizi), Büyük Hadis Külliyatı-5, səh. 409/10096]**

Hədisdə də diqqət çəkildiyi kimi cənnətdəki nemətlərin çox az hissəsi belə dünya ölçüləri ilə müqayisə edildikdə çox möhtəşəm böyüklüyü əks etdirir. Yuxarıdakı hədislərdən birində bilərziklərin ulduzlardan daha parlaq olduqları ifadə edilərək göz qamaşdırıcı olduqlarına diqqət

çəkildiyi halda, başqa bir hədisdə isə cənnət əhlinin zinətlərinin dirsəklərə qədər gəlib çıxmasına diqqət çəkilərək, yenə buradakı bolluq vurğulanır:

**Cənnət əhlinin zinətləri, dəstəmaz suyunun çatdığı yerlərə kimi çatar. [Ramuz el-Ehadis-1, səh. 247/7]**

## Qiymətli daşların və filizlərin bolluğu:

Allah, Quranda bildirdiyi; **"onlar diqqətlə bəzənmiş ləl-cəvahiratlı taxtlar üstündədirlər"** (Vaqiə surəsi, 15) və **"Ədn cənnətləri (onlarındır); oraya girərlər, orada qızıldan bilərziklərlə və incilərlə bəzənərlər..."** (Fatir surəsi, 33) ayələriylə cənnətdə müxtəlif ləl-cəvahiratlar və qiymətli daşların olmasına diqqət çəkir. Cənnətlə əlaqədar Quranda və hədislərdə bəhs olunan ləl-cəvahiratlar, bəşəriyyət tarixində həmişə zənginlik və ehtişamın simvolu olmuşdur. Çox qiymətli olan bu ləl-cəvahiratlar az hallarda rast gəlinən gözəlliyə sahibdirlər. Almaz, mirvari, yaqut, qızıl, gümüş kimi zinətlər bütün insanların bəyəndikləri, bunlarla bəzənmiş əşyaları görməkdən zövq aldıqları gözəlliklərdir.

Cənnət neməti olaraq mirvaridən bəhs edilən hədislərdən bir neçəsi belədir:

**...Behiştliklərin başında tac var. Tacdakı tək bir mirvari belə, məşriq (şərq) ilə məğrib (qərb) arasını işıqlandırar. [(Tirmizi), Kutubu Sitte-14, səh. 451/6]**

**Qadının boynundakı mirvarilərdən biri qərblə şərq arasını işıqlandırar... Başında olan tacların ən kiçik mirvarisi də yenə şərqlə qərb arasını işıqlandırar. [Ramuz el-Ehadis-1, səh. 99/8]**

Mirvari, cənnətdəki nemətlərin görülməmiş dəyərlərini vurğulamaq baxımından mühüm nümunədir. Mirvarinin çıxarıla bilməsi üçün, təhlükəli dənizlərdə bir çox dəfə dərinliklərə daxil olmaq lazımdır. Üstəlik, çox sayda toplanan istiridyənin az hissəsində bu qiymətli zinətə rast gəlinər. Bu kiçik daşın gözəlliyi ilə yanaşı onu dəyərli edən başqa xüsusiyyət də yuxarıda bəhs etdiyimiz kimi böyük zəhmətlər nəticəsində əldə edilməsidir.

Dünyada əldə etmək üçün xeyli vaxt, zəhmət və xərc tələb edən bu qiymətli daş axirətdə bol miqdarda olacaq. Olduqca qiymətli, aztapılan bir gözəlliyin bol olması, şübhəsiz ki, insan ruhunda fərqli həyəcan meydana gətirəcək. Həmçinin ayələrdə bildirilən cənnət nemətləri bizim təsəvvür etdiyimizdən çox fərqli gözəlliklərdə ola bilər. Hədislərdə də; "şərqlə qərb arasını işıqlandıracaq parlaqlıqda olan bir mirvari"dən bəhs edilərkən, bizim belə bir mirvarinin parlaqlığını, valehedici xüsusiyyətini təsəvvür etməyimiz qeyri-mümkün ola bilər.

## Cənnət məkanlarının gözəlliyi

Dünyanın ən gözəl məkanları arasında saraylar, köşklər həmişə qabaqcıl yerləri tutar. Bu məkanların möhtəşəm gözəllikləri təsvir edilərkən də həmişə gözəl mənzərəyə sahib olmalarından, əşyalarının çox qiymətli olmasından, dekorasiyanın gözəl olmasından, sütunların, qızıl zərli taxtların, mebellərin ehtişamından bəhs edilər.

Allahın Quranda bildirdiyi cənnətlə əlaqədar ayələrdə də insanların xoşladıqları məkanlardan (köşklərdən, saraylardan, bağçalardan, otaqlardan) tez-tez bəhs edilər. Dünyada məhdud sayda olan bu məkanlar, cənnətdə mükəmməl və ən möhtəşəm hallarıyla Allahın sevdiyi bəndələrinin yaşadığı məkanlar olaraq sonsuza qədər mövcud olacaqlar.

Cənnət məkanlarındakı zənginlik və bolluğun təsvir edildiyi hədislərdən bir neçəsi belədir:

**Bir kərpici gümüş, bir kərpici qızıl, qarışığı kəskin qoxulu müşk, döşəməsi mirvari və yaqut, torpağı isə zəfərandandır, oraya girən xoşbəxt olar, ümidsiz olmaz, əbədi olar, ölməz... [Büyük Hadis Külliyyatı-5, səh. 408/10088]**

**...Cənnətin çınqılları mirvari və yaqutdan, torpağı isə zəfərandandır... [(Tirmizi); Kutubu Sitte-14, səh. 451/6]**

Hədislərdə cənnət məkanlarının hər vəsaitinin çox qiymətli olduğuna diqqət çəkilmiş və çınqıl kimi geniş yayılmış daş parçalarının əvəzinə inci və yaqut olacağı bildirilmişdir.

## Cənnətdəki köşklər

Dünyadakı gözəlliklər dünya şərtlərində nə qədər mükəmməl olsalar da, yenə də mütləq bir çox qüsurlara sahibdirlər. Dolayısilə dünyadakı ən gözəl köşk belə cənnət köşklərinin yanında olduqca sadə qalar. Hər şeydən əvvəl zamanın, dünyada sahib olunan bir çox gözəllik üzərində korlayan və köhnəldən təsiri var. Məsələn, hər hansı bir köşk heç istifadə edilməsə belə, qulluq göstərilmədiyi təqdirdə zaman keçdikcə tamamilə köhnəlib xarab olar. İçindəki əşyalar köhnələr, nəm və rütubətin təsirindən kiflənər, beləcə də, çürüməyə başlayar. Döşəmələrin dayanıqlığı zaman keçdikcə azalmağa, parçaların rəngləri də solmağa başlayar. Həmçinin əşyaların üstünü qalın toz təbəqəsi örtər və ətrafı hörümçək torları bürüyər. Beləliklə də, bu möhtəşəm məkan zaman keçdikcə yaşana bilməyəcək hala gələr. Cənnətdəki məkanlar isə bütün bu əskikliklərdən, zamanın köhnəldən təsirlərindən uzaqdır. Quranda cənnət köşklərindən bəhs edilərkən bu köşklərin altından çaylar axdığı, yüksək və təhlükəsiz yerlər olduqları bildirilir:

**İman gətirib yaxşı işlər görənləri altından çaylar axan cənnətdəki hündür köşklərdə yerləşdirəcəyik. Onlar əbədi olaraq orada qalacaqlar. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir! (Ənkəbut surəsi, 58)**

**Sizi bizə yaxınlaşdıra biləcək nə var-dövlətiniz, nə də oğul-uşağınızdır. Ancaq iman gətirib yaxşı işlər görənlər istisnadır. Məhz onlar üçün etdikləri əməllərə görə qat-qat artırılmış mükafat vardır və onlar cənnətdəki hündür köşklərində əmin-amanlıq içindədirlər. (Səba surəsi, 37)**

Peyğəmbərimiz (s.ə.v)-in bir hədisində isə cənnət köşkləri belə təsvir edilir:

**Qurfələr (cənnət köşkləri) qırmızı yaqut, yaşıl zəbərcəd (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) və ağ mirvaridəndir. Onlarda heç bir qüsur və**

**nöqsan yoxdur. Cənnət əhli bunlara, sizin göyün şərq və qərb tərəfindəki parlaq ulduzlara baxdığınız kimi baxar... [Ramuz el-Ehadis-1, səh. 225/6]**

İncildə də Allahın axirət yurdunda hazırladığı məkanlardan belə bəhs edilir:

*Bilirik ki, içində yaşadığımız bu dünyəvi çadır dağılsa, göylərdə Allahın bizə verdiyi bir iqamətgah, əllə hazırlanmamış və sonsuza qədər qalacaq bir evimiz vardır. (Korintlilərə İkinci Məktubu, 5-ci hissə, 1)*

Cənnət təsvirlərindəki zənginliyə dair bütün incəliklər, hər dövrə xitab edən, hər kəsin bəyənəcəyi gözəlliklərdir. Zənginlik və ehtişamın simvolu sayılan yaqut, zümrüd, mirvari kimi ləl-cəvahiratlar hər kəsin sahib olmaq istəyəcəyi çox qiymətli və nadir tapılan daş-qaşlardır. Buna görə də cənnət köşklərinin bu daş-qaşlardan hazırlanmış olması, onların ölçüyəgəlməz dəyərlərini vurğulamaq baxımından olduqca əhəmiyyətlidir.

Bunlardan qırmızı rəngin çalarlarındakı şəffaf daş olan yaqut, yer üzündəki dörd qiymətli daşdan ən az rast tapılanıdır. Mirvari isə parlaq, sədəf rəngi, hamarlığı və yumru formasıyla fövqəladə estetikaya malikdir. Böyük zəhmətlər nəticəsində əldə edilən bu kiçik parça da olduqca xüsusi yolla əmələ gəlir. İstiridiyə içindəki kiçik bir qum dənəsinin ətrafının zaman keçdikcə kalsium karbonatla örtülməsi nəticəsində belə gözoxşayan gözəllik əmələ gəlir. Şübhəsiz ki, cənnətlə əlaqədar edilən bu cür bənzətmələr, verilən təriflər yenə dünya şərtlərinə görə verilən nümunələrdir. Bu, insanların baxış prizmasının genişlənməsinə, cənnəti düşünmələrinə vəsilə olması baxımından zəruridir. Lakin cənnətdəki bu gözəlliklər olduqca mükəmməl şəkildə olacaq.

Cənnətdəki hər incəlik ən xoşa gələcək gözəlliklərlə yaradılmışdır. Peyğəmbərimiz (s.ə.v) cənnət köşkləri ilə əlaqədar olan digər bir hədisində belə buyurub:

**Cənnətdə bir köşk vardır ki, ətrafı bürclər (kiçik qala, qüllə), otluq, bol sulu yerlərlə əhatələnmişdir. Beş min də qapısı var... [Ramuz el-Ehadis-1, səh. 125/5]**

Bəhs edilən köşklərin gözəlliyinə gözəllik qatan digər xüsusiyyət isə bu köşklərin olduqca möhtəşəm məkanlar içində yerləşmələridir. Məsələn, yuxarıdakı hədisdə də təsvir edildiyi kimi bəzi köşklərin yaşıllıqlarla əhatələnməsi və su kənarında yerləşmələri ayrı gözəllikdir. Bu köşklər dəniz sahillərində, okeanların qumlu sahillərində, göl sahillərində, çay kənarlarında, çağlayan bir şəlalənin qarşısında və bunlar kimi heyranlıq oyandıran yerlərdə inşa edilmiş ola bilərlər.

Həmçinin hədislərdə cənnət köşkləriylə əlaqədar belə bir xüsusiyyətə daha diqqət çəkilir:

**Cənnətdə elə köşklər vardır ki, içindəki çöldəkini, çöldəki içindəkini görər... [Ramuz el-Ehadis-1, səh. 125/9]**

**Cənnətdə köşklər vardır ki, içlərindən çölləri, çöllərindən içləri görünər. [Kutubu Sitte-14, səh. 447/2]**

Yuxarıdakı hədislərdən anladığımıza görə cənnətdəki bəzi köşklər, insanların həm içərini, həm də çölü görə bilmələrinə imkan verən şüşə və ya başqa şəffaf vəsaitdən yaradılmış ola bilərlər. Döşəmə, divarlar və tavanın bu şəkildə şəffaf olması isə içində yaşayan kəslərə rahatlıq və zövq verməsi baxımından çox gözəl xüsusiyyətdir.

Bu hədislə işarə edilən şey, insanların cənnətdə həm içərini, həm də çölü eyni anda görə bilmələrinə imkan verən ayrı baxış prizmasının mövcud olduğu da ola bilər. Yəni cənnətdə

dünyada yaşadığımızdan fərqli ölçülərdə baxış prizmasına sahib olma imkanımız da ola bilər. Çünki, insan bəzən olduğu yerdən başqa yerdə olanları görmək istəyə bilər.

Məsələn, istədiyimiz zaman səmaya baxdığımızda planetləri, ulduzları heç bir texnoloji alətə ehtiyac duymadan bütün incəliklərinə qədər görə bilməyi arzulayarıq. Lakin, təkcə parlaq nöqtələri görərik. Bir əşyaya baxdığımızda bunun atom səviyyəsindəki görünüşünü də çılpaq gözlə görməyimiz mümkün deyil. Dolayısilə görüş sahəmiz, içində olduğumuz məkanla və gözümüzün görüş sahəsiylə məhdudlaşmışdır. Məhz cənnətdə gözün iti görməsi, istəyə əsasən hər hansı yerə fokuslanıb incəlikləri görə bilməsi, divar bənzəri heç nəyin görüşə mane olmaması da mümkün ola bilər. Çünki, cənnətdə hər şey insanın istəyinə əsasən yaradılır və cənnət əhlinin görmək istədiyi hər hansı şey gözlərindən gizli qalmayacaqdır. Allah bu həqiqəti Quranda: **"...orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey var..."** (Zuxruf surəsi, 71) ayəsiylə müjdələyir.

Yenə Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən birində cənnət köşklərinin heç bir dəstək və dayaq olmadan dayandıqlarından bəhs edilir. Şübhəsiz ki, bu vəziyyət də bənzərsiz və həyəcan verici bir gözəlliyə işarə edir:

**Bir gün Rəsulullah (s.ə.v): "Cənnətdə elə köşklər vardır ki, nə yuxarıdan asılacaq qarmaqları və nə də altlarında dirəkləri vardır" deyə buyurdu. Bunu dinləyən səhabələr, "ey Allahın elçisi, o köşklərin əhli oraya necə girəcək?" deyə soruşdu. Rəsulullah (s.ə.v): "Onlar quşlar kimi uçaraq girəcəklər" deyə buyurdu. [Dünya Sonrası Safer, səh. 294]**

## Cənnətdəki şəhərlər:

**Cənnətdə "Rəyyan" deyilən bir çay var. Üstündə mərcanlardan ibarət bir şəhər salınmışdır. Onun qızıl və gümüşdən yetmiş min qapısı var. Bax bu, Quran əhlinə məxsusdur. [Ramuz el-Ehadis-2, səh. 326/4]**

Yuxarıdakı hədisdə Peyğəmbərimiz (s.ə.v)-in diqqət çəkdiyi qızıl və gümüş, ehtişamın, zənginliyin və incəsənətin simvolu olmuş filizlərdir. Hər ikisi də parlaq, möhkəm, forması asanlıqla dəyişən və çətin əldə edilən metallar olub tarix boyu çox mühüm yerə sahib olmuşdurlar. Yer üzündə hər tona 0,004 qram qədər qızıl düşür. Qızıl şaxtalarında isə hər tondan 6-12 qram qızıl əldə olunur. Dolayısilə qızıldan bir qab əldə etmək üçün tonlarla ağırlıqdakı bir qaya emal prosesindən keçirilməlidir. Onun istər çətinliklə əldə edilməsi, istərsə də yer üzündə digər filizlərə görə daha az nisbətdə tapılması dəyərini qat-qat artırır. Parlaq, möhkəm, forması asanlıqla dəyişən bu qiymətli filiz insanların zövqlərinə xitab etməsi baxımından çox mühüm yerə malikdir.

Bu da estetik və sənət dəyəri olduqca yüksək əsərlərin hazırlanmasında seçilməsini təmin edər. Bizə gözəl gələn, bol və gözoxşayan bir çox şey, ya qızıldan hazırlanmışdır ya da qızılla bəzənmişdir. Həmçinin qızıl, əşyaların bəzədilməsində, cildçilik, xəttatlıq, miniatür, illüstrasiya kimi bir çox sənət sahəsində də əvəzolunmaz bir vəsaitdir. Bu baxımdan hədislərdə diqqət çəkilən məkanlarda qızıldan bol miqdarda istifadə olunması da, insanların xoşladığı qiymətli bir nemətin nişanəsidir. İnsanlar qızılı dünya həyatında ən çox külçələr halında görərlər. Nadir hallarda bəzi əşya və aksesuarlara, bəlkə də, bir sarayda qızılla örtülmüş sütunlara rast gələrlər. Bütün bu saydıqlarımız qızılı yalnızca bəzi kiçik zinət əşyalarında görməyə alışmış insanlarda böyük təəccüb

hissi oyadar. Vəziyyət belə olduqda isə saf qızıldan tikilmiş bir göydələnin və ya bir köşkün, villanın xəyalını belə qurmaqda çətinlik çəkərlər. Bunun həqiqət olduğunu düşünmək belə insan ruhunu xeyli həyəcanlandırar və ona zövq verər. Aşağıdakı hədisdə isə cənnətdəki binaların kərpiclərinin qızıldan və gümüşdən olduğu bildirilir. Bu, onsuz da çox gözəl olan cənnət evlərinin ehtişamını daha da artırır və onları daha möhtəşəm hala gətirir:

**Cənnət binalarının bir kərpici qızıl, bir kərpici gümüş, qarışığı müşk, çınqılı mirvari və yaqut, torpağı isə zəfərandandır... [Ramuz el-Ehadis-1, səh. 200/6]**

Necə ki, aşağıdakı hədisdə də qızıl bir dirəkdən bəhs edilərək cənnətdəki zənginlik və ehtişam digər bir cəhətdən daha vurğulanır:

**Cənnətdə qızıldan bir dirək və üzərində zəbərcəddən (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) şəhərlər vardır ki, onlar cənnətə ulduzlar kimi işıq saçarlar... [Ramuz el-Ehadis-1, səh. 125/6]**

Yuxarıdakı hədisdə diqqət çəkilən digər bir cəhət də şəhərlərin yüksəkliyi ola bilər. Şübhəsiz ki, dünya şərtlərində mənzərəsi və verəcəyi rahatlıq baxımından yüksək bir şəhərə üstünlük verilər. Bu şəhərlərin cənnətdəki mükəmməl mənzərələr içində yerləşdiyi düşünülsə, bu məkanların insan ruhuna nə qədər çox zövq verəcəyi daha yaxşı aydın ola bilər. Hədislərdəki bu məkanlar (dirəklər üzərindəki şəhərlər) Quranda bildirilən yüksək köşklərlə əlaqədar ayələrlə eynilik təşkil edir:

**Lakin Rəbbindən qorxub-çəkinənləri, altından çaylar axan yüksək köşklər gözləyir. Bu, Allahın vədidir. Allah vədinə xilaf çıxmaz. (Zumər surəsi, 20)**

Şəhər həyatı təsəvvürümüz etdikdə ilk öncə bir çox mövzuda yaşanan problemlər canlanır. Yol hərəkəti, səhiyyə, nəqliyyat, hava çirkliliyi, infrastruktur, su, elektrik, telefon, təhlükəsizlik kimi daha bir çox mövzudakı çatışmazlıqlar insanların ömürləri boyu məşğul olduqları problemlərə çevrilmişdir. Hətta insanların daha rahat, daha sistemli həyat yaşamalarını təmin etmək və bu problemləri aradan qaldırmaq üçün bir çox peşə meydana gəlmişdir.

Halbuki cənnət şəhərlərində əsla belə vəziyyət yaşanmadığı kimi bu problemlərə səbəb olan amillər də aradan qalxmış olacaq. Həmçinin Allahın; **"...orada nə (yandırıcı) günəş, nə də dondurucu soyuq görərlər"** (İnsan surəsi, 13) ayəsində bildirdiyi kimi, cənnətdəki hava, insan ruhunun və bədəninin ən zövq alacağı və ən rahatlayacağı istilikdə olacaq. Bu səbəblə də xüsusi istilətmə və ya sərinlətmə sisteminə də ehtiyac qalmayacaq. Bənzər şəkildə sonrakı hissələrdə yer verəcəyimiz kimi cənnətdə nəqliyyat çətinliyi də olmayacaq (doğrusunu Allah bilər).

Hədisdə cənnətdəki binalardan bəhs edilərkən bunların qarışığının müşk, yəni çox gözəl qoxulu bir maddə olacağı ifadə edilir. Göründüyü kimi Allahın cənnətdə yaratdığı nemətlər bütün duyğularımıza da xitab edəcək şəkildə yaradılır. Gözəl qoxu insanlar üçün çox böyük nemətdir. Qızılgülün, qərənfilin, zanbağın, sünbülün, yasəmənin, akasiya və şam ağaclarının qoxuları insanlar üçün çox böyük lütfdür. Bunlarla yanaşı bir-birindən fərqli qoxular da insan ruhunda çox xoş təsir yaradar. Cənnətdəki gözəl qoxular dünyadakılarla müqayisə edilə bilməyəcək gözəllikdə olduqları kimi insanların heç gözləmədikləri incəliklərdə qarşılarına çıxacaq. Peyğəmbərimiz (s.ə.v)-in hədisində bildirdiyi kimi binaların qarışığının müşk olması bunun ən gözəl nümunələrindən biridir.

Şübhəsiz ki, qarışığı müşk olan gözəl qoxulu bir bina, Allahın cənnətdə möminlər üçün hazırladığı gözəlliklərindən təkcə biridir.

## Cənnətdəki saraylar:

Bir hədisdə cənnətdəki saraylardan belə bəhs edilir:

**Cənnətdə mirvaridən bir saray vardır. Bu sarayın içində qırmızı yaqutdan yetmiş ev vardır. Hər evin içində yaşıl zəbərcəddən (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) yetmiş ev vardır. Hər evin içində yetmiş taxt, hər taxtın üzərində də hər rəngdən yetmiş döşək vardır. Hər evin içində yetmiş süfrə, hər süfrədə də yetmiş növ yemək vardır. Həmçinin hər evin içində yetmiş nəfər xidmətçi vardır... [Tezkireti'l Kurtubi, səh. 323/554]**

Bu mövzuyla əlaqədar başqa bir hədis isə belədir:

**Şübhəsiz ki, cənnət saraylarından birinin içində yetmiş mənzil (yer, dünya, ev) vardır. Hər mənzilin girmək üçün yetmiş qapısı vardır, hər qapıdan da digər qapıdan daxil olan qoxudan başqa cənnət qoxularından bir qoxu daxil olar... [Tezkireti'l Kurtubi, səh. 323-324/555]**

Hədislərdə cənnət saraylarının ən qiymətli daşlardan inşa edildiyinə, ən gözəl və ən rahatlıq verəcək şəkildə dekorasiya edildiklərinə, içlərində nemət bolluğu olduğuna diqqət çəkilir. Dünya həyatına razı olmayan və bu həyatın müvəqqəti bəzəklərinə aldanmayan möminlər, axirətdə hər nemətin əsli, ən mükəmməli və əbədi olanı ilə mükafatlandırılarlar. Axirət yurdunu istəyərək ciddi səy göstərmələrindən ötrü, həqiqi zövq və sevinci bir-birindən gözəl bu cənnət məkanlarında sonsuza qədər yaşayarlar. Buradakı mühit hər cür dəbdəbəyə, əzəmətə, zənginliyə sahib olmaqla yanaşı, cənnət əhlinin həmişə Allahı zikr etdikləri və Ona qəlbən şükür etdikləri nəcib və təmiz mühitdir. Allah bir ayədə cənnət əhlinin şükür etdiklərini və xoşbəxt olduqlarını belə bildirir:

**(Onlar) dedilər: "Bizə verdiyi vədini yerinə yetirən və bizi bu yerə varis edən Allaha həmd olsun ki, biz cənnətin istədiyimiz yerində sakin ola bilərik. Yaxşı əməl sahiblərinin mükafatı necə də gözəldir!" (Zumər surəsi, 74)**

## Cənnətdəki otaqlar:

Cənnət məkanlarıyla əlaqədar olaraq bir çox hədisdə çadırlar da təsvir edilmişdir. Bu hədislərdən bir neçəsi belədir:

**Şübhəsiz ki, cənnətdə (mömin üçün) içi boşaldılmış tək bir mirvaridən bir çadır vardır. Bu çadırın eni 60 mil (təxminən 100 km) uzunluğundadır. Bunun hər yerində (möminə məxsus) bəzi ev camaatlı vardır ki, onlar başqalarını (yəni bir-birlərini) görə bilməzlər. (Lakin) Mömin onları ziyarət edib gəzər. [Tezkireti'l Kurtubi, səh. 325/560]**

**Möminin cənnətdə hündürlüyü 60 mil (təxminən 100 km) olan mirvari bir çadırı vardır. [Büyük Hadis Külliyyatı-5, səh. 408/10091]**

**Genişliyi də elədir. (Yəni, altmış mildir). Orada möminin ailələri olacaq. Mömin onları bir-bir ziyarət edəcək... [(Buhari, Müslim ve Tirmizi); Büyük Hadis Külliyyatı-5, səh. 408/10092]**

**Cənnət əhlindən dərəcəsi ən aşağı olanın səksən min xidmətçisi vardır. Onun üçün mirvaridən, zəbərcəddən (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) və yaqutdan bir çadır qurular. Bu çadır, Cabiyədən Səna şəhərinə qədər uzanan böyüklükdədir. [(Tirmizi), Büyük Hadis Külliyyatı- 5, səh. 412/10114]**

Hər şeyin ən mükəmməl halıyla yaradıldığı cənnətdə çadırlar da mümkün ola biləcək ən böyük rahatlıqda möminlərə zövq verəcək, rahatlıqlarına, arzularına xitab edəcək şəkildə yaradılacaqdır. Peyğəmbərimiz (s.ə.v)-in bildirdiyi kimi qiymətli cövhərlərdən hazırlanılan bu çadırlar görünməmiş böyüklüyə sahibdirlər. Hədislərdə cənnət əhlinin, çox böyük və hündür olan mirvari dənələrinin içində, ailələri və yaxınlarıyla birlikdə mükəmməl həyat yaşadıqları xəbər verilir. Şübhəsiz ki, bu Rəbbimizin bənzərsiz yaratma gücünün və sənətinin təcəllasıdır. Dünya həyatında bir çox çatışmazlıq, qüsur və acizlik içində yaşayan insanın belə gözəlliyi zehnində canlandırması belə həyəcan vericidir. Gözəlliyi və ehtişamıyla yanaşı, zümrüd və yaqutdan hazırlanmış olan cənnət çadırlarının içində bir insan xidmət edənlərin sayı da dünyada Allahın rizasını, rəhmətini və cənnətini ümid edərək çalışıb yorulan hər kəs üçün böyük müjdədir.

## Cənnətdəki bazarlar:

Bazarlar insanların ehtiyaclarını ödəmələri üçün onlara bir çox seçim təqdim edən alış-veriş məkanlarıdır. Bu alış-veriş mərkəzlərində bütün qida məhsulları və əşyalar müxtəlif çeşidləriylə, fərqli paketlərdə qablaşdırılmış şəkildə mövcud olur. İnsanlar, yaxşı qidalanmaq, fərqli dadları sınamaq, qəşəng və gözəl geyinmək, işlərini asanlaşdıracağını düşündükləri vəsaitləri satın almaq, bəyəndikləri və rahat olacaqlarını düşündükləri əşyaları əldə etmək istəyi ilə bu yerlərə gedərlər. Məhz insanların dünya şərtlərində xoşladıqları bu neməti Allah cənnətdə də ən gözəl halıyla yaradacaq. Cənnətdəki bazarlar saysız növdəki nemətlə, bolluq sevinci meydana gətirən görünüşləriylə cənnət əhlinin qəlblərindəki bu arzuya xitab edəcək. Üstəlik cənnətdə, dünyada bu nemətlə yanaşı mövcud olan bir çox çatışmazlıq da aradan qalxmış olacaq. Məsələn, insanlar dünyada alış-veriş məkanlarını gəzməkdən zövq almalarına baxmayaraq, bundan yorularlar. Bir çox insanın bu yerləri rahatlıqla gəzə biləcək qədər çox vaxtı da yoxdur. Bundan başqa alver etmə imkanına sahib insanlarla yanaşı, bundan zövq almasına baxmayaraq, istədiyini satın alma imkanına sahib olmayan insanlar da vardır. İnsanlar pulunu ödədikləri təqdirdə bu cür bolluq içərisindən istədikləri məhsulu seçə bilərlər. Lakin əgər bu imkana sahib deyillərsə, təkcə bu məkanları gəzməklə kifayətlənməlidirlər. Halbuki Peyğəmbərimiz (s.ə.v)-in hədislərdə xəbər verdiyinə görə insanlar cənnət bazarlarında istədikləri hər şeydən istədikləri qədər ala biləcəklər. Orada alış-veriş deyə bir şey olmayacaq, hər kəs bəyəndiyi hər şeyə sahib ola biləcək. Bu məkanlardakı nemətlər isə insanların daha əvvəl heç görmədikləri və xəyalını belə qurmadıqları növdə olacaq. Allah bol lütfkarlığıyla hər kəsə bəyənib istədikləri bütün şeyləri verəcək və heç kimin heç nəyi əskik olmayacaq.

Hədislərdə bu vəziyyətdən belə bəhs edilir:

**Şübhəsiz ki, cənnətdə bir bazar vardır ki, mələklər oranı ziyarət edərlər. Orada gözlərin bənzərini görmədiyi, qulaqların eşitmədiyi və ağla gəlməyən nemətlər vardır. Ürəyimizin istədiyi hər şey bizə gətirilər. Lakin orada hər hansı şeyi satmaq və satın almaq yoxdur. O bazarda cənnət xalqının bir hissəsi digər hissəsiylə qarşılaşar. Hündür imarət və mövqe sahibi sərmayəçi də mövqe baxımından özündən aşağı dərəcədə olan kimsə ilə qarşılaşar. Onların içində hər hansı şeyi əskik olan bir nəfər yoxdur ki, qarşılaşdığı insanın əynində gördüyü bəzəkli paltarlardan ötrü narahat olsun. Sözünü bitirmədən əyni daha gözəl paltara bürünər. Şübhəsiz ki, cənnətdə heç kəs kədərlənməz. [Tezkireti'l Kurtubi, səh. 325-326/563]**

**Şübhəsiz ki, cənnətdə bir bazar vardır. Lakin orada hər hansı şeyi satmaq və satın almaq yoxdur. Təkcə kişilər və qadınlar, surət və görünüşləri vardır. Buna görə də orada hansı surətə düşmək istəsə, həmin surətə də düşəcəkdir. [Tezkireti'l Kurtubi, səh. 326/564]**

Hədisdə ayrı bir nemət olaraq kişi və qadın surətlərinin varlığından da bəhs edilir. İstənilən vaxt istənilən surətdə ola bilmək, beləliklə bir-birindən çox fərqli gözəl görünüşlərdə ola bilmək, bir çox insanın dünyada xəyalını qurduğu bir fikirdir. Hər insan sağlam və mükəmməl üz və fiziki gözəlliyə sahib olmağı arzulayar. Saç rəngi, göz rəngi, üz xətləri, dəri rəngi, boyu, bədən quruluşu kimi daha bir çox fiziki xüsusiyyət insanlara anadangəlmə verilmişdir. Cənnətdə, dünyada tək növ gözəllikdən duyulan monotonluq hissinin olmaması, gözəlliyin insanın istədiyi qədər, istədiyi şəkildə dəyişə bilməsi də insan ruhuna zövq verəcək ayrı bir nemətdir.

Digər bir hədisdə isə cənnətdəki bazarlarda möminlərin oturacaqları gözəl qoxulu, rahat yerlər olduğuna, cənnət əhlinin bu yerlərdə tanış olub söhbət etdiklərinə, bir sözlə, insanın xoşlayacağı ictimai həyatın mövcudluğuna diqqət çəkilir:

**Şübhəsiz ki, cənnətdə elə bazarlar vardır ki, orada alış-veriş yoxdur. Lakin cənnət əhli oraya çatdığı vaxt təzə və parlaq mirvari və müşk torpağa sərilərək oturar. Dünyada olduqları kimi, o cənnətlərdə də bir-birləriylə tanış olarlar. Dünyada necə bir insan olduqlarını və özlərinin Rəbbinə necə ibadət etdiklərini, gecələri necə əhya etdiklərini, gündüzləri necə oruc tutduqlarını, dünyanın zənginliyi ilə kasıblığının necə olduğunu, ölümün necə olduğunu... və nəhayət hansı yolla cənnət əhlindən olduqlarını danışıb müzakirə (və söhbət) edərlər. [Tezkireti'l Kurtubi, səh. 326/565]**

## Cənnətdəki qidalar

Cənnətdə insanların nəfslərinin xoşuna gələcək, ürəklərinin istədiyi və arzuladıqları olduqca ləzzətli bir çox qida olduğu Quranda və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində bildirilir. Xüsusən də dünyada bəyənilən qidalar arasında olan ət və meyvənin hər növü cənnət əhlinə veriləcək. Allah ayələrində cənnət əhlinə verilən bu nemətlərin gözəlliyini belə xəbər verir:

**Arzulayıb seçəcəkləri meyvələr və istədikləri quş əti. (Vaqiə surəsi, 20-21)**

**Bu etdikləri əməllərə görə (onlara verilər). (Vaqiə surəsi, 24)**

Həm Quran ayələrində, həm də hədislərdə cənnət əhlinə təqdim edilən bəzi nemətlərin dünyadakılarla bənzər olduğuna diqqət çəkilir. Allah bu həqiqəti bir ayədə belə bildirir:

**(Ey Məhəmməd) İman gətirib saleh əməllər edənlərə müjdə ver ki, həqiqətən onlar üçün ağacları altından çaylar axan cənnətlər vardır. Onlara ruzi olaraq, hər dəfə onun məhsullarından yedirildikdə: "Bu ki, əvvəlcə bizə verilən ruzidir!" deyəcəklər. Halbuki onlara (dünyadakının) oxşarı verilmişdir. Onlar üçün orada pak zövcələr var və onlar orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 25)**

Cənnət neməti olaraq verilən qidaların hər biri, həm estetik cəhətdən gözəl, həm də olduqca ləzzətlidir. Bunlardan xüsusən meyvələr, görünüşləri, rəngləri, qoxuları və özlərinə məxsus dadları ilə bir-birlərindən mükəmməldirlər.

Məsələn, çiyələk bir çox insanın sevərək yediyi, qoxusunu və ləzzətini çox xoşladığı bir meyvədir. Lakin bütün gözəlliyinə baxmayaraq, çox yeyildiyi təqdirdə bəzi insanların orqanizmində allergik reaksiyalara səbəb ola bilər. Bu, dünya həyatına məxsus əskiklikdir. Dünyadakı bütün nemətlər kimi meyvələrin də bir çox baxımdan qüsurlu tərəfləri vardır. Yetişdirilmələrindən başlayaraq, satın alınmalarına, yuyulmalarına, ayırd edilmələrinə qədər bir çox zəhmətli mərhələdən keçərlər. Çəkilən bütün zəhmətlərə baxmayaraq, bəzən çürüyər, bəzən də dadları əskik olar. Bir sözlə insanlar bir şeylər yeyərkən əslində bir çox çatışmazlığın, çətinliyin də öhdəsindən gəlməyə çalışarlar. Dünya həyatına məxsus olaraq qidaların hamısı müəyyən qüsurla yaradılır ki, bu da insanların bu nemətlərin əsillərinə qovuşmağı arzulamalarına səbəb olur. Üstəlik, nə qədər sevilən bir qida olsa da, həmişə yeyildiyi təqdirdə bu qidadan alınan zövq əvvəlki kimi çox olmaz.

Cənnətdəki qidalar və meyvələr cənnət əhlinin önünə qüsursuz və zəhmətsiz şəkildə gələrlər. Allah Quranda; **"(meyvələrin) kölgələri onlara çox yaxındır və yığılmaları xeyli asanlaşdırılmışdır"** (İnsan surəsi, 14) ayəsiylə bu meyvələri əldə etməyin olduqca asan olduğunu bildirmişdir. Cənnətdə ağacın qolundan qoparılan bu meyvələrdə toz və çirk yoxdur, tərtəmizdirlər və xeyli ləzzətlidirlər. Başqa ayələrdə isə Allah cənnət meyvələri ilə əlaqədar olaraq belə buyurur:

**Əməllərinizin nəticəsi kimi varis olduğunuz cənnət budur. Orada sizin üçün bir çox meyvələr vardır, onlardan yeyəcəksiniz. (Zuxruf surəsi, 72-73)**

Peyğəmbərimiz (s.ə.v) isə bir hədisdə cənnətə girəcək möminlərə; **"onu meyvələri aşağıya doğru sallanan uca cənnətə qoyun!"** deyildiyindən bəhs edir. [Büyük Hadis Külliyyatı-5, səh. 413/10120]

Cənnətdə qida ehtiyacdan ötrü deyil, Allahdan bir nemət və hədiyyə olaraq zövq üçün yeyilir. Orada iman edənlər acmaq və susamaq kimi dünyaya məxsus acizliklərdən xilas olmuşdurlar. Təhrif olunmuş İncildə isə cənnətə layiq kəslərdən bəhs edilərkən; *"artıq acmayacaqlar, artıq susamayacaqlar..."* ifadəsi keçir. (Yuhannaya Gelen Esinleme, 7-ci hissə, 16)

Cənnət nemətlərinin ayə və hədislərdə vurğulanan digər bir xüsusiyyəti də çox bol olmalarıdır. Allah axirət yurdunda saysız-hesabsız ruzi olduğunu və tükənməcəyini Sad surəsindəki ayələrdə belə bildirir:

**Haqq-hesab günü üçün sizə vəd edilən budur. Bəli, bu Bizim verdiyimiz nemətdir. O, tükənməzdir. (Sad surəsi, 53-54)**

İncildə də qidaların tükənməyəcəyinə işarə edən bir məlumat belə qeyd olunur:

*Müvəqqəti olan qida üçün deyil, sonsuz həyat boyu qalan qida üçün çalışın... (Yuhanna, 6-cı hissə, 27)*

## Meyvələrin bolluğu:

Meyvələr bədəni zəhərli maddələrdən təmizləyən, xəstəliklərə qarşı bədəndə immunitet yaradan, vitamin və mineral baxımından çox zəngin, insana rahatlıq verən, sağlamlıq və gözəllik qazandıran tərtəmiz qidalardır. Peyğəmbərimiz (s.ə.v) bu cənnət nemətiylə əlaqəli olaraq bir hədisində belə buyurur:

**Sidrətül Müntəha ağacının hər bir meyvəsi yarıldıqda içindən yetmiş iki rəngdə və növdə qida çıxar ki, orada o birisinə bənzəyən heç bir rəng və növ yoxdur. [Tezkireti'l Kurtubi, səh. 312/517]**

Peyğəmbərimiz (s.ə.v) bu hədisində cənnətdəki meyvələrin rənglərinə və növlərinə diqqət çəkmişdir. Nemətlərin bu şəkildə bir-birlərindən fərqli olmaları insanların çox xoşlayacaqları bir gözəllikdir. Bir şeyin həmişə eyni şəkildə, eyni qoxuda, ləzzətdə və ya rəngdə olmasındansa, hər dəfə birinci dəfə görülürmüş kimi həyəcan oyandıracaq şəkildə dəyişikliklərlə yaradılması çox böyük bir sürprizdir. Həmçinin bu, Allahın sonsuz yaratma gücünün və sənətinin dəlillərindən yalnızca biridir. Bu müxtəliflik cənnətdə hədsiz-hüdudsuz ola bilər. Cənnətdəki meyvələrin müxtəlifliyinə diqqət çəkilən digər bir hədis isə belədir:

**Cənnət əhlinin ən aşağı dərəcəyə sahib olanının 10000 xidmətçisi, hər xidmətçinin əlində fərqli rəngdə qızıl və gümüşdən 2 dayaz tava və içlərində ayrı-ayrı meyvələr vardır. Ən son yediyini də ilk dəfə yediyi iştahla yeyər... [Ramuz el-Ehadis-1, səh. 71/5]**

Hədisdən aydın olduğu kimi cənnətdəki nemətlər cənnət əhlinin ən zövq alacaqları şəkildə özlərinə bəxş ediləcək. Özlərinə xidmət etmələri məqsədiylə yaradılmış və bu xidməti zövqlə və diqqətlə yerinə yetirən xidmətçilərin qızıl və gümüş qablarda təqdim etdikləri növbənöv meyvələr cənnət əhlinə Allahdan verilən bir ziyafətdir. Allah ayələrdə belə buyurur:

**...Orada nəfsinizin çəkə biləcəyi və istədiyiniz hər şey sizindir. Çox bağışlayan və çox Rəhmli Allah tərəfindən verilən ziyafət kimi". (Fussilət surəsi, 31-32)**

Bununla yanaşı Peyğəmbərimiz (s.ə.v) cənnətdə ağacın qolundan bir meyvə qoparıldığı zaman bu meyvənin yerinə yenisinin gəldiyini xəbər vermişdir:

**...Cənnətin meyvəsindən qopardıqda, yerinə yenisi gələr. [Ramuz el-Ehadis-1, səh. 98/9]**

Digər bir rəvayətdə isə Peyğəmbərimiz (s.ə.v)-in bu sözlərinə yer verilir:

**Kəndli bir ərəb, "ey Allahın elçisi cənnətdə meyvə vardırmı?" deyə soruşdu. Rəsulullah (s.ə.v):**

**"Bəli Tuba deyilən bir ağac vardır" deyə buyurdu. O şəxs:**

**"Ey Rəsulullah bizim ərazimizdəki hansı ağac ona bənzəyir?" dedi.**

**Rəsulullah (s.ə.v):**

**"Sənin ərazindəki ağaclardan heç biri ona bənzəməz. Lakin sən heç Şama getdinmi? Çünki orada qoz deyilən bir ağac vardır ki, gövdə üzərində bitərək yuxarı (yəni qolları) göyə uzanar. Məhz bu ağac Tuba ağacına bənzəyər" deyə buyurdu.**

**O şəxs: "Ey Rəsulullah, o ağacın dib gövdəsinin qalınlığı nə qədərdir?" dedi. Allahın elçisi:**

**"Sənin kül-külfətinin dəvələrindən beş yaşına çatan gənc bir dəvə yola düşsə dibini gəzib qurtara bilməz və nəhayət qocalığından boynu sınar" deyə buyurdu. Kəndli ərəb:**

**"Cənnətdə üzüm vardırmı?" deyə təkrar soruşdu. Rəsulullah (s.ə.v):**

**"Bəli vardır" deyə buyurdu. O şəxs:**

**"O üzümün salxımının böyüklüyü nə qədərdir?" dedi. Rəsulu Əkrəm:**

**"Alaca qarğanın heç dayanmadan bir aylıq uçub gedəcəyi məsafə qədər" deyə buyurdu. O şəxs:**

**"O üzümün dənələri(nin böyüklüyü) nə qədərdir?" dedi. Allahın elçisi:**

**"Böyük vedrə kimidir" deyə buyurdu. O şəxs:**

**"Ey Allahın Rəsulu, o üzüm dənəsi məni və kül-külfətimi mütləq doyurar" dedi. Rəsulullah (s.ə.v):**

**"Bəli səni və kül-külfətini və qohumlarının əksəriyyətini doyurar... Cənnətin xurması ağacın dibindən qollarına doğru müntəzəm şəkildə üst-üstə yığılıb düzülmüşdür. Meyvələri böyük küplər kimidir. Nə vaxt bir meyvə qoparılsa yerinə**

**başqası gələr. Cənnətin suyu çuxursuz yerlərdən axar. Cənnət üzümünün hər bir salxımı on iki arşındır".**

**[Tezkireti'l Kurtubi, səh. 312-313/518]**

Cənnət meyvələri düşünülərkən, dünyadakı meyvələrlə məhdudlaşdırılaraq düşünülməməlidir. Peyğəmbərimiz (s.ə.v)-in yuxarıdakı hədisində təkcə bir neçə meyvənin fərqli yaradılışı nümunə olaraq verilmişdir. Lakin cənnət istənilən hər şeyin ən gözəl halı ilə mövcud olacağı, ağlımıza gəlməyən, lakin çox xoşlayacağımız daha bir çox nemətin olduğu bir məkandır.

Quranda cənnət meyvələrindən bəhs edilən ayələrdən bir neçəsi belədir:

**Yüklü qolları bükülmüş albalı (ağacları), üst-üstə yerləşən meyvələri sallanmış banan ağacları (Vaqiə surəsi, 28-29)**

**İçlərində (hər növ) meyvə, bənzərsiz xurma və bənzərsiz nar vardır. (Rəhman surəsi, 68)**

**Və (daha) bir çox meyvələr arasında, tükənib azalmayan və qadağan edilməyən (meyvələr). (Vaqiə surəsi, 32-33)**

**Məhz onlar üçün müəyyən ruzi vardır. Müxtəlif meyvələr. Onlar hörmət görənlərdir. Nemətlərlə dolu olan (Nəim) cənnətlərində. (Saffat surəsi, 41-43)**

## Cənnətdəki qidalardan nümunələr: xurma

Bir hədisdə xurma ilə əlaqədar olaraq belə rəvayət edilmişdir:

**Bir nəfər: "Ey Rəsulullah cənnətdə xurma vardırmı? Çünki mən xurmanı sevirəm" deyə sula verdi. Rəsulullah (s.ə.v):**

**"Bəli vardır. ...cənnət xurmalarının qolları qızıldandır. Budaqlarının başları qızıldandır. Qızıldan budaqları vardır. Aləmlərdən hər hansı bir kəsin gördüyü paltarların ən gözəli kimi yarpaqları vardır. Qızıldan xurma salxımları vardır. Xurma salxımlarının saplağı da qızıldandır. Qızıldan xurma dənəsinin dibində yapışqanlı marka kağızı kimi şeylər vardır. Böyük küplər kimi meyvələr vardır ki, (onlar) köpükdən yumşaq, baldan şirindir". [Tezkireti'l Kurtubi, səh. 315/522]**

Xurmanın təsvir edildiyi digər bir hədis də belədir:

**Cənnətdəki xurma ağacının qolları qırmızı qızıldır. Saplaqları yaşıl zümrüddür. Yarpaqları ipək kimidir. Meyvəsi qüllə kimi iri dənəli, qaymaqdan yumşaq və çəyirdəksizdir. [Ramuz el-Ehadis-2, səh. 451/4]**

Diqqət yetirilsə cənnətdəki hər incəlik bizə tanış gələn, bildiyimiz ən gözoxşayan və qiymətli şeylərlə müqayisə edilərək görünüşləri və ləzzətləri ilə nə qədər qiymətli nemət olduqları vurğulanılır. Məsələn, cənnətdəki xurma ağacının qolları qızıla, yarpaqları çox gözəl və qiymətli bir parça olan ipəyə bənzədilmişdir.

Cənnətdəki xurma dənələrinin böyüklüyünə diqqət çəkilən digər bir hədis isə belədir:

**Cənnətdəki xurma ağaclarının qolları yaşıl zümrüddür. Budaqları qırmızı qızıldır. Yarpaqları cənnət əhli üçün geyiləcək paltarlardır. Onun bir qismi qısa (alt), bir qismi də içi astarlı üst paltarlarıdır. Cənnət xurması böyük küplər və vedrələr kimidir. Süddən daha ağ, baldan şirin, köpükdən yumşaqdır. İçində də çəyirdək yoxdur. [Tezkireti'l Kurtubi, səh. 314]**

Yuxarıdakı hədisdə ləl-cəvahiratlarla təsvir edilən xurmanın, görünüşüylə yanaşı ləzzətinin də Allahın istəməsi ilə çox mükəmməl olacağı vurğulanılır.

## Qarpız

Peyğəmbərimiz (s.ə.v)-in bir hədisində qarpız haqqında belə söylədiyi rəvayət edilmişdir:

**Qarpızdan istifadə edin və ona təzim (hörmət) edin. Çünki onun suyu cənnətdən, dadı da cənnətdəki daddandır... Qarpız cənnət (meyvələrin)dəndir. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 313)**

## Əncir

Bir rəvayətə görə Peyğəmbərimiz (s.ə.v) əncirlə əlaqədar bunları demişdir:

**Peyğəmbərimiz (s.ə.v) bir qab əncir hədiyyə alıb ondan yedi və səhabələrinə: "Bundan yeyin. Əgər mən bir meyvənin cənnətdən endiyini söyləsəm, məhz cənnətdən enən bu meyvə əncirdir" deyə buyurdu. (Ölüm-Kiyamet-Ahiret ve Ahirzaman alametleri, səh. 313)**

Əncir Quranda adı keçən və diqqət çəkilən meyvələrdən biridir **(Tin surəsi, 1).** Meyvələr arasında çoxlu minerallara sahib olması və enerji verən qida olması baxımından da xüsusi yerə sahibdir.

## Banan

Hədislərdə keçən digər bir cənnət meyvəsi də banandır:

**Dünyada cənnət meyvəsinə bənzəyən şey təkcə banandır. Çünki Allah (cənnətdəki meyvələr haqqında), "onun meyvələri tükənməzdir" deyə buyurmuşdur. Sən**

**isə bananı yay və qış da daxil olmaqla ilin hər fəslində tapa bilirsən. (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 312-313)**

Necə ki, cənnətin təsvir olunduğu ayələrdə, Allah bu meyvədən belə bəhs edir:

**Yüklü qolları bükülmüş albalı (ağacları), üst-üstə yerləşən meyvələri sallanmış banan ağacları, yayılıb uzanmış kölgələr, dayanmadan axan su(lar) və (daha) bir çox meyvələr arasında. Tükənib azalmayan və qadağan edilməyən (meyvələr). (Vaqiə surəsi, 28-33)**

Banan özünəməxsus gözəl qoxusuyla, bənzərsiz ləzzəti və saysız faydasıyla bir çox insanın sevdiyi bir nemətdir. Şübhəsiz ki, cənnətdəki banan da digər bütün nemətlər kimi, dünyadakına görə olduqca qüsursuz, olduqca ləzzətli və gözəl qoxulu olacaq (doğrusunu Allah bilər)

### Ət

Ayə və hədislərdə meyvədən başqa bəhs olunan nemətlərdən biri də ətdir. Allah bir ayəsində: **"Onlara istədikləri meyvədən və ətdən bol-bol verdik"** (Tur surəsi, 22) deyə buyuraraq ətin bir cənnət neməti olduğunu xəbər verir.

Peyğəmbərimiz (s.ə.v) də bir hədisdə ət haqqında belə buyurmuşdur:

**Cənnət xalqının çörəkdən sonra, ikinci ən dəyərli və ən ləzzətli qidası ətdir. Aləmlərin Rəbbi olan Allaha həmd olsun. [Tezkireti'l Kurtubi, səh. 363/654]**

Quranda və hədislərdə xüsusən diqqət çəkilən ət növü isə quş ətidir. Quranda **"istədikləri quş əti"** (Vaqiə surəsi, 21) ayəsiylə xəbər verilən quş əti bir hədisdə belə vurğulanmışdır:

**Cənnətdə sənin ürəyin quş əti istəyəcək. Dərhal qızardılmış halda önünə gətirilib qoyulacaq. [Büyük Hadis Külliyatı-5, səh. 414/10123]**

Ət növləri arasında Quranda bəhs edilənlərdən xüsusən "bildirçin əti" bəyənilən bir yeməkdir. Bu nemət cənnətdə bol-bol olacaq, müsəlmanlara ən gözəl şəkildə təqdim ediləcək (doğrusunu Allah bilər).

## Cənnətdəki insan gözəlliyi

Dünyadakı ən böyük nemətlərdən biri də insan gözəlliyidir. İnsan ən gözəl evlərə sahib olsa, ən gözəl qidaları yesə və mükəmməl yerlərdə gəzsə belə, tənha olduğu müddətcə bunlardan tam mənasıyla zövq ala bilməyəcək. Çünki, bütün bu nemətlər insanın ətrafındakı yaxınları və dostlarıyla birlikdə olduğu vaxt məna qazanar. Allahın ruhundan üfürdüyü bir varlıq olan insan, şəxsiyyəti, təqvası və gözəl əxlaqı ilə çox qiymətlidir. Bir də bu xüsusiyyətlərinin üstünə qüsursuz fiziki gözəlliyin də əlavə olunması, şübhəsiz ki, hər kəsin sahib olmaq istəyəcəyi böyük nemətdir.

Cənnətdəki insan gözəlliyinin təsvir edildiyi hədislərdən biri belədir:

**Cənnətdəki hurilər yaqut və mərcan kimidirlər. İnsan onlardan birinin üzünə baxar ki, özünü onun yanağında, aynada gördüyündən daha aydın görər. Onların mirvarilərinin ən kiçiyi şərqlə qərbi işıqlandırar. [Ramuz el-Ehadis-2, səh. 337/7]**

Cənnətdəki hurilərin gözəlliyi yaqut kimi nadir ləl-cəvahirata, mərcan kimi özünəməxsus görünüşə sahib təbii gözəlliyə bənzədilmişdir. Həmçinin baxan insanın özünü aynada gördüyündən daha aydın gördüyü bənzətməsiylə üz dərilərinin hamar olmasına və üzlərindəki aydınlığa diqqət çəkilmişdir.

Dünya şərtlərində üz dərisinin gərginliyi, şəffaflığı çox qısa müddət davam edər. Kiçik yaşlardakı dəri hamarlığı və gözəlliyi yaş irəlilədikcə bəzi dəri problemləri, korlanma və qırışma ilə yox olar. Dolayısilə bu gözəllik dünya şərtlərində daimi deyil. Lakin Allah razı qaldığı bəndələrinə cənnətdə qüsursuz və əbədi gözəlliyi vəd edir. Peyğəmbərimiz (s.ə.v) də bir hədisdə cənnətdəki gözəlliyin və gəncliyin daimiliyindən belə bəhs edir:

**Cənnət əhlinin vücudu tüksüz, üzü saqqalsız, gözləri sürməlidir, gənclikləri zail olmaz (tükənməz), paltarları köhnəlməz. [(Tirmizi), Kutubu Sitte-14, səh. 451/6]**

**Cənnət əhli cənnətə, otuz və ya otuz üç yaşında saqqalsız, tüksüz və gözləri sürməli halda girəcəklər. [Büyük Hadis Külliyyatı-5, səh. 411/10109]**

**...Ona girən nemətə nail olar, əziyyət görməz, əbədiyyət qazanar, ölümlə qarşılaşmaz. Paltarı köhnəlməz, gəncliyi yox olmaz. [(Tirmizi), Kutubu Sitte-14, səh. 451/6]**

Hədislərdə cənnət əhlinin gözlərinin yaradılışdan sürməli olduğundan da bəhs edilir. Sürmə, göz rəngini və formasını ön plana çıxardan bir bəzəkdir. Dünya şərtlərində süni yolla əldə edilməyə çalışılan, lakin yenə də mükəmməl olmayan bu gözəllik, axirətdə möminlərin təbii halı olacaq.

Peyğəmbərimiz (s.ə.v)-in cənnətdəki insan gözəlliyi ilə əlaqədar özünə verilən suallara belə cavab verdiyi rəvayət olunmuşdur:

**"Ey Rəsulullah! Allahın: "İri gözlü hurilərdir" (Vaqiə surəsi, 22) sözünü mənə izah et" dedim.**

**"Onlar ağ vücudlu, iri gözlü, qara quşun qanadları kimi sürməlidirlər" dedi.**

**"Ey Rəsulullah! Allahın: "Sanki o qadınlar yaqut və mərcandırlar" (Rəhman surəsi, 58) ayəsini izah et" dedim.**

**"Onlar əl dəyməmiş istiridyədəki mirvari kimi gözəldirlər" dedi.**

**"Ey Rəsulullah! Allahın: "O cənnətlərdə gözəl əxlaqlı, gözəl qadınlar vardır" (Rəhman surəsi, 70) ayəsini izah et" dedim.**

**"Onlar çox gözəl xasiyyətli və gözəl üzlüdürlər" deyə buyurdu.**

**"Ey Rəsulullah! Allahın: "Onlar, toz qonmamış yumurta kimidirlər" (Saffat surəsi, 49) ayəsini izah et" dedim.**

**"Onlar yumurtanın pərdəsi kimi ağ və incədirlər" dedi.**

**"Ey Rəsulullah! Allahın: "Ərlərini sevəndirlər, həmyaşıddırlar" (Vaqiə surəsi, 37) ayəsini mənasını söylə" dedim.**

**"Onlar dünyada qoca, gözləri iltihablı, saçları ağarmış və zəif halda öldükləri halda, Allah onları cənnətdə bakirə, ərlərinə sevən, aşiq və bir-birinə bağlı, bir-birlərinin həmyaşıdı edəcək" deyə buyurdu.**

**"Ey Rəsulullah! Dünya qadınlarımı üstündür, yoxsa iri gözlü hurilərmi?" dedim.**

**"Paltarın üzü astarından qiymətli olduğu kimi, dünya qadınları da hurilərdən qiymətlidirlər" dedi.**

**"Niyə ey Rəsulullah?" dedim, belə izah etdi:**

**"Namazları, orucları və Allaha olan ibadətlərindən ötrü, Allah onların üzlərini nurlandırar, özlərinə ipək paltarlar geydirər. Onların vücudları ağ, paltarları yaşıl, zinətləri sarı, buxurdanları mirvari və daraqları qızıldır. Onlar belə deyərlər:**

**"Biz burada əbədi qalacağıq. Biz sevimli və xoşbəxtik. Əsla kədərlənib sıxılmarıq. Başqa aləmə köçməyəcəyik, həmişə burada qalacağıq. Biz bu halımızdan məmnunuq və hər şeydən razıyıq. Heç kimə qəzəblənməz və hirslənmərik. Müjdə özlərinin həyat yoldaşı olduğumuz və həyat yoldaşlarımız olan kəslərədir". [Genclik ve Ölüm, səh. 422-423]**

Diqqət yetirilsə Quranda **(Rəhman surəsi, 70)** və hədislərdə cənnət qadınlarının gözəl xasiyyətli olmalarına da diqqət çəkilmişdir. Digər bir hədisdə isə cənnətdəki insanların və yaşadıqları mühitin gözəlliyi belə təsvir edilmişdir:

**Orada gözəl xasiyyətli, gözəl üzlü qadınlar vardır. (Rəhman surəsi, 70)**

Başqa bir hədisdə isə cənnətdəki insan gözəlliyi belə təsvir edilmişdir:

**...Hər bir hurinin əynində yetmiş qat paltar vardır ki, birinin rəngi digərində yoxdur. Həmçinin özünə digərində olmayan yetmiş fərqli rəngdəki ətir verilər. Hər biri huri üçün, mirvari ilə bəzənmiş qırmızı yaqutdan yetmiş taxt, hər taxtın üstündə yetmiş döşək, hər döşəyin üstündə isə kreslo vardır. Hər bir hurinin ehtiyacının ödənilməsi və ona xidmət göstərilməsi üçün yetmiş min xidmətçi qız və yetmiş min xidmətçi oğlan vardır. Hər bir xidmətçinin yanında, içində müxtəlif yeməklər olan qızıldan sinilər vardır ki, möminlərdən biri bir qabdakı yeməyin dadının və ləzzətinin digərindəkindən fərqli olduğunu görər... [Tezkireti'l Kurtubi, səh. 333/591]**

Bir çox hədisdə isə cənnət əhlinin xüsusən üz gözəlliyinə diqqət çəkilmiş, hətta bu gözəlliklərinin həmişə artdığı xəbər verilmişdir:

**Cənnət əhlinin bir bazarı vardır. Hər cümə oraya gələrlər. Birdən şimal küləyi əsər, beləliklə də, paltarlarını və üzlərini oxşayar. Bunun təsiri ilə hüsn (gözəllik) və**

**camalları (üz gözəlliyi) artar. Beləliklə ailələrinə, daha da gözəlləşmiş halda qayıdarlar. Həyat yoldaşları:**

**"Vallah, bizim yanımızdan ayrıldıqdan sonra sizin camal və gözəlliyiniz artmış!" deyərlər. Ərləri də:**

**"And olsun Allaha, siz də bizdən sonra olduqca gözəlləşmisiniz" deyərlər. [(Müslim), Kutubu Sitte-14, səh. 433/16]**

Cənnət qadınlarının nurlu gözəlliklərindən başqa bir hədisdə də belə bəhs edilir:

**...Əgər cənnət qadınlarından biri yer əhlinə görünsəydi, dünyanı və içindəkiləri işıqlığa qərq edər və ikisinin arasını da gözəl qoxu ilə doldurardı... [(Tirmizi), Büyük Hadis Külliyyatı-5, səh. 409/10095]**

Tanınmış İslam alimi Bədiüzzaman həzrətləri isə özündən hədislərdə təsvir edilən bu gözəlliyin necə olduğu soruşulduqda belə cavab vermişdir:

**Mənası, çox gözəldir və gözəlliyi şirindir. Belə ki, bu çirkin, ölü, camid (donuq, cansız) və çoxu qışır (qabıq, xarici görünüş) olan dünyada; hüsn (gözəllik) və camal (üz gözəlliyi), təkcə gözə gözəl görünüb ülfətə (vərdiş) mane olmazsa kifayət edər. Halbuki gözəl, həyatdar (canlı), rövnəqdar (gözoxşayan gözəllik), tamamilə qışırsız (qabıqsız), lüb (öz) və qabıqsız iç olan cənnətdə; göz kimi insanın bütün duyğuları, lətifələri (xoş sözləri), cinsi-lətif (yumşaq, xoş) olan hurilərdən, hurilər kimi və daha gözəl, dünyadan gələn cənnətdəki nisayi-dünyəviyyədən (dünya qadınlarından), ayrı-ayrılıqda hissi-zövqlərini, cürbəcür ləzzətlərini almaq istəyərlər... Deməli, hurilər cənnətin əqsamı (hissələri) zinətindən yetmiş tərzini, təkcə bir növdən olmadığından bir-birini sətrətməyəcək (örtməyəcək, qapamayacaq) surətdə geydikləri kimi; öz vücudlarından, nəfs və cisimlərindən, bəlkə, yetmiş mərtəbədən əlavə ayrı-ayrı hüsn (gözəllik) və camal (üz gözəlliyi) əqsamını (hissələrini) göstərirlər. [Sözler, səh. 469-470]**

## Geyimlərin gözəlliyi və müxtəlifliyi

Keyfiyyətli parçalardan hazırlanmış rahat və gözəl paltarlar geymək hamının xoşuna gələr. Cənnətdəki müxtəlif rəng və gözəllikdəki paltarlar da insanın bu zövqünə xitab edəcək. Dünya şəraitində paltarlar nə qədər gözəl olsalar da, həmişə onlarda natamamlıq olar. Bütün geyimlər zaman keçdikcə köhnələr, rəngləri solar və insanda ilk geyindiyi vaxtlardakı kimi rəğbət hissi oyandırmamağa başlayar. Bir insanın dünyada çox sayda geyimə sahib olması da, bir əhəmiyyət kəsb etməz, çünki bu geyimdən alınan zövq insanın ömrü ilə məhdudlaşır. Ölümlə birlikdə digər bütün əşyalar kimi bunlar da geridə qoyular. Halbuki cənnət geyimləri həm qüsursuz gözəllik və müxtəliflikdə, həm də əbədidirlər. Peyğəmbərimiz (s.ə.v)-in cənnət geyimlərinin bu xüsusiyyətlərinə diqqət çəkdiyi bir hədisi belədir:

**...Orada böyük köşklər, enli çaylar, bol və yetişmiş meyvələr, gözəl və dilbər zövcələr (qadın, həyat yoldaşı), bir çox daimi və gözəl rəngli paltarlar vardır. Ora uca,**

**gözəl və qüsursuz bir yurd olub, təmiz həyat yaşanılan yerdir... [Ramuz el-Ehadis-1, səh. 170/1]**

Həmçinin bu paltarlar elə boldur ki, heç kim əskiklik və ehtiyac hiss etməyəcək. Bir hədisdə bu vəziyyətə belə diqqət çəkilmişdir:

**...Onların içində hər hansı şeyi əskik olan bir nəfər yoxdur ki, gördüyü insanın əynindəki bəzəkli paltarlardan ötrü narahatçılıq hissi keçirsin. Sözünü bitirmədən əyni daha gözəl paltara bürünər... [Tezkireti'l Kurtubi, səh. 325-326/563]**

Cənnət əhlinin geyimləri də ən rahat olacaqları şəkildə yaradılmışdır. Geyilən paltarlar, cənnətdəki qüsursuzluq və gözəllik içində heç bir narahatlığa səbəb olmaz. Cənnətdə dünyaya məxsus nöqsanlar (paltarın rənginin solğunlaşması, qırışması, çirklənməsi, köhnəlməsi və s.) da yoxdur. Həmçinin cənnətdə paltarların toxunması, tikilməsi kimi hazırlıq mərhələləri də yoxdur. Cənnətdə Allahdan bir nemət olaraq hər şey həmişə ən mükəmməl halıyla mövcuddur. Cənnətdəki möminlərin paltarları ilə əlaqədar xəbər verilən digər təfərrüatlar belədir:

**...Cənnət geyimləri toxunmaz. Cənnətin meyvələri yarılar və ondan paltar çıxar... [Tezkire-i Kurtubi-1, səh. 21]**

**Cənnətdəki xurma ağaclarının qolları yaşıl zümrüddür. Budaqları qırmızı qızıldır. Yarpaqları cənnət əhli üçün geyiləcək paltarlardır. Onun bir qismi qısa (alt), bir qismi də içi astarlı üst paltarlarıdır... [Tezkireti'l Kurtubi, səh. 314]**

**...Əynində yetmiş qat paltarı olar. Ən aşağısı Tuba ağacından hazırlanmış, lalə kimi... [Ramuz el-Ehadis-1, səh. 99/8]**

Ayələrdə də cənnətdəki paltarların ipəkdən hazırlandıqları və bəzəkli olduqları belə xəbər verilmişdir:

**Onlar əyinlərinə taftadan və atlazdan yaşıl paltarlar geyəcəklər. (İnsan surəsi, 21)**

**Həqiqətən də, Allah iman gətirib yaxşı işlər görənləri altından çaylar axan cənnətlərə daxil edər. Onlar orada qızıl bilərziklərlə və incilərlə bəzədilər, libasları da ipəkdən olar. (Həcc surəsi, 23)**

## Cənnətdəki təbiət gözəlliyi

İnsan ruhu estetikadan, simmetriyadan, gözəllikdən, təmizlikdən, nizamdan, rəng uyğunluğundan, bir sözlə, mükəmməllikdən zövq alacaq şəkildə yaradılmışdır. Necə ki, təbiətdəki bütün rənglər və təsvirlər də insanın ruhundakı bu zövqə xitab edən ən yaxşı uyğunluğa və gözəlliyə sahibdirlər.

İnsanlar dincəlmək üçün həmişə təbii gözəlliklərlə əhatələnmiş məkanları seçərlər. Yaşıllıq, meşəlik, dəniz kənarı və ya çay sahili kimi yerlərdə təmiz hava, torpaq və su ilə yaxın təmasda olmaq insanlara hüzur və xoşbəxtlik gətirər.

Günəş şüalarının, təmiz havanın daxil olmadığı, təbii gözəlliklərdən uzaq mühitlər isə adətən insanların xoşuna gəlməz.

İnsanın təbii gözəllik axtarmasının səbəblərindən biri, Allahın insanı cənnət gözəlliklərindən zövq alacaq şəkildə yaratmış olmasıdır. İnsan xəbəri olsa da, olmasa da əslində cənnət nemətlərinə qovuşmağı ümid edər. Ayələrdə cənnətin təbii gözəlliklərlə dolu olacağı belə xəbər verilir:

**Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər üçün altından çaylar axan cənnətlər vardır. Məhz, bu, böyük "qurtuluş və xoşbəxtlik"dir. (Büruc surəsi, 11)**

**Cürbəcür "incəliklərə və gözəlliklərə" (və ya hər növdə olan sıx ağaclara) sahibdirlər. (Rəhman surəsi, 48)**

## Cənnət ağacları

Ağaclıq məkanlar, insanların içində olmaqdan zövq aldıqları yerlərdəndir. Onlar hər nə qədər binaların sıx yerləşdiyi şəhər mərkəzlərində yaşasalar da, adətən ağaclıq, yaşıllıq yerlərdə olmaq istəyərlər. Ağaclıq bir yerə aid mənzərəni izləmək və ya belə bir fotoşəklə, hətta portretə baxmaq belə insanlar üçün zövqdür. Dünyada bir çox faydası ilə birlikdə yaradılmış ağaclar, Rəbbimizin insanlara bəxş etdiyi nemətlərdəndir. Ağaclar, möhtəşəm görünüşləri, bənzərsiz növləri, müxtəlif rəngləri, sərinlik verən kölgələriylə, insanlara zövq verəcək şəkildə yaradılmışlar. Allahın; **"boyları bir-biriylə yarışan və sıx ağaclı bağçalar"** (Əbəsə surəsi, 30) ayəsiylə bildirdiyi ağaclar, axirətdə cənnətə məxsus üstün xüsusiyyətlərlə yaradılmışlar. Ağaclar da solmadan, qurumadan, yarpaqları tökülmədən, ehtişamlı görünüşləriylə birlikdə cənnətdə qüsursuz şəkildə yaradılmışlar. Aşağıdakı hədislərdə isə ağacların xüsusən kölgəsindən bir cənnət neməti olaraq tez-tez bəhs edilir:

**Cənnətdə elə bir ağac vardır ki, bir atlı onun kölgəsi altında yetmiş yaxud yüz il qədər gedər (yenə də onun sonuna çata bilməz). O əbədiyyət ağacıdır... Cənnətdə bir ağac vardır ki, bir şəxs dörd yaşındakı bir dişi dəvə balasına, yaxud beş yaşındakı bir dişi dəvəyə minsə, sonra da ağacın dib tərəfindəki gövdəsinin ətrafında dolanmağa başlasa, hərəkətə başladığı yerə çatmadan dəvə yaşlanaraq yerə yıxılar... Onun körpə qolları cənnətin qala divarlarını aşar. Şübhəsiz ki, cənnətdəki hər bir çay o ağacın dibindən başlayır... [Tezkireti'l Kurtubi, səh. 311/513]**

**Cənnətdə bir ağac vardır ki, minik üstündə olan bir şəxs bir əsr boyu onun kölgəsi altında hərəkət etsə onun sonuna çata bilməz. İstəyirsinizsə bu ayəni oxuyun: "Daimi kölgəliklərdə və çağlayan suların başındadırlar". [(Tirmizi), Kütüb-i Sitte-14, səh. 427/9]**

Quranda "kölgə altında olmaq"dan bir cənnət neməti olaraq belə bəhs edilir:

**İman gətirib saleh əməllər işləyənləri isə altından çaylar axan, içində əbədi məskunlaşacaqları cənnətlərə daxil edəcəyik. Onlar üçün orada pak zövcələr vardır. Biz onları “nə isti, nə də soyuq tam ölçüsündə kölgəliklərdə” yerləşdirəcəyik. (Nisa surəsi, 57)**

**Təqva sahiblərinə vəd edilmiş cənnətin vəsfi belədir; onun ağacları altından çaylar axar və onun meyvələri də, kölgəsi də daimidir. Bu qorxub-çəkinənlərin (xoşbəxt) aqibətidir, inkar edənlərin aqibəti isə oddur. (Rad surəsi, 35)**

**Onlar zövcələri ilə birlikdə kölgəliklərdə taxtlara söykənəcəklər. (Yasin surəsi, 56)**

**Şübhəsiz ki, müttəqilər kölgəliklərdə, çeşmələr başındadırlar. (Mürsəlat surəsi, 41)**

**Onlar orada taxtlara söykənəcəklər. Orada nə (yandırıcı) günəş, nə də dondurucu soyuq görərlər. (İnsan surəsi, 13)**

Təhrif olunmuş İncildə də cənnətdən bəhs edilərkən Qurandakı təriflərə uyğun olan; *"...onları nə gün, nə də yandırıcı istilik vuracaq"* cümləsi qeyd olunur. (Yuhanna'ya Gelen Esinleme, 7-ci hissə, 16)

Cənnətdəki təbii gözəlliklərin təsvir edildiyi bir çox hədisdə tuba ağacından və onun xüsusiyyətlərindən bəhs edilir. Peyğəmbərimiz (s.ə.v) bu ağacı belə təsvir edir:

**...Tuba cənnətdə olan bir ağacdır. Yüz illik bir ağacın tutduğu qədər yer tutar və cənnət paltarları da onun tumurcuqlarından hazırlanar. [Ramuz el-Ehadis-2, səh. 313/7]**

Tuba ağacı bənzərsiz xüsusiyyətlərə və görünməmiş enliyə malikdir. Bununla yanaşı dünyadakı səbəblərin hakim olmadığı cənnət mühitində cənnət paltarlarının da bu ağacdan hazırlandığı ifadə edilir. Peyğəmbərimiz (s.ə.v) başqa hədislərində cənnətdəki ağacları belə təsvir edir:

**...Cənnət ağaclarının dib gövdəsi mirvari və qızıl, yuxarısı da meyvədir. [Tezkireti'l Kurtubi, səh. 315/523]**

**Cənnətdə elə bir ağac yoxdur ki, qızıl gövdəli olmasın. [(Tirmizi), Kütüb-i Sitte-14, səh. 427/10]**

Cənnətdə Allahın bənzərsiz, sonsuz yaratmasına şahid olacağımız üçün hər şey mümkün ola bilər. Məsələn, cənnət ağaclarının meyvələri yaqut, almaz, sapfir kimi qiymətli daşlar formasında görünüb, ələ alındığı vaxt yeyiləcək hala gələ bilər.

Cənnətdəki ağacların mahiyyətini soruşan bir səhabəyə Peyğəmbərimiz (s.ə.v)-in belə dediyi rəvayət edilmişdir:

**Bu ağacların qolları qurumaz, yarpaqları tökülməz, suyu çəkilib getməz, meyvəsi tükənməz. [İlahi Dinlerde Cennet İnancı, səh. 54]**

## Cənnətdəki çaylar və dənizlər

Su mənbələri olduqları əraziyə bərəkət gətirər, oranı canlandırıb təmizləyərlər. Həmçinin suya yaxın məkanlarda iqlim şəraiti də həm yaşamaq üçün daha əlverişlidir, həm də insanların xoşlayacağı mülayimlikdədir. Məhz buna görə də, insanların istirahət etmək üçün seçdikləri yerlər də dəniz, göl və ya çay kənarlarına yaxın yerlər olar. Necə ki, Quranda təqvalı insanların Allahdan bir nemət olaraq; **"cənnətlərdə və çeşmələr başında"** (Hicr surəsi, 45) olduqları bildirilmişdir.

Peyğəmbərimiz (s.ə.v)-in hədislərində cənnətdəki çaylardan tez-tez bəhs edilir:

**Cənnət çayları, müşk dağlarının yaxud müşk təpələrinin altından başlayar. [Tezkireti'l Kurtubi, səh. 307/501]**

**Cənnətdə, bal dənizi, şərab dənizi, süd dənizi və su dənizi vardır. Digər çaylar bunlardan başlayacaq. [(Tirmizi), Büyük Hadis Külliyatı-5, səh. 409/10097]**

Hədisdə cənnətdə baldan, süddən, şərabdan dənizlərin olacağından bəhs edilir. Lakin burada bəhs edilən süd, bal və şərab dünyadakından çox fərqli, cənnətə məxsus xüsusiyyətlərlə yaradılıb. Cənnətdə bunların hər biri tərtəmiz, ləzzətli və rahatlıq verən içkilərdir. Məsələn, cənnətdə təqdim edilən şərab dünyadakı şərablara bənzəmir. Cənnət əhlini sərxoş etməyəcək və içənlərin şüurunu bulandırmayacaqdır. Allahın cənnət üçün hazırladığı içki, **"ağappaq, içənlərə ləzzət verən (bir içki)dir. O nə narahatlıq verər, nə də ondan məst olarlar"** (Saffat surəsi, 46-47) ayələriylə Quranda təsvir edilir.

Həmçinin bu nümunələr (süd, bal və şərabdan olan çaylar) cənnətdə Allahın özlərindən razı qaldığı qullarını gözləyən çox fərqli gözəlliklərin ola biləcəyinə işarə edir. Süd tez xarab olan bir qida olmasına baxmayaraq, cənnətdə süddən dəniz və çayların olması oradakı nemətlərin mükəmməliyinə aid diqqətçəkən bir nümunədir. Cənnət əhli istədiyi təqdirdə belə təsvirlərin yaradılması Allah üçün çox asandır.

Bu nemətlər təsvir edilərkən çay və dəniz ifadələrindən istifadə edilməsi də xüsusən cənnətdəki bolluğu vurğulayır. İnsanlar bu nemətləri dünya həyatında daim az miqdarda görürlər. Bankalarda, şüşə qablarda və ya fərqli qablarda satın aldıqları bu məhsulların cənnətdə ehtiyyat şəklində qarşılarına çıxması, xarab olmadan, çirklənmədən, mümkün ola biləcək ən mükəmməl ləzzətdə özlərinə bol-bol şəkildə verilməsi həyəcan verən bir nemət və gözəllikdir.

Quranda da bu çayların xüsusiyyətlərindən ətraflı şəkildə bəhs edilir:

**Təqva sahiblərinə vəd edilən cənnətin vəsfi belədir; orada xarab olmayan sudan çaylar, dadı dəyişməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan çaylar və süzülmüş baldan çaylar vardır. Orada onları hər cür meyvə və Allah tərəfindən bağışlanma gözləyir… (Məhəmməd surəsi, 15)**

Ayədə süd, bal, şərab kimi bir neçə nemət nümunə kimi verilmişdir. Lakin insanın xoşladığı hər hansı bir nemətin çay halında axması, su kimi bol və təmiz olması, xarab olmadan qalması da mümkün ola bilər. Həmçinin Allah cənnətdə içkilərin qədəhlərlə təqdim edildiyini və bu içkinin cənnət əhlinin başlarını ağrıtmayacağını, bundan məst olmayacaqlarını bildirir.

Allah digər bir ayədə; **"çeşmə şərabı ilə dolu piyalələr dolandırılacaqdır"** (Saffat surəsi, 45) deyə buyurur. Möminlər üçün cənnətdə; **"sonu müşk, qatışığı isə təsnim bulağından olan, möhürlü, xalis bir şərab"** (Mutaffifin surəsi, 25-27) hazırlanmışdır (təsnim: **cənnətdəki bulaqlardan birinin adıdır**).

Ayələrdə də bildirildiyi kimi bu içkilər eyni zamanda gözəl iyə də malikdir. Eyni zamanda cənnətdə dənizlərin altında, çayların dibində bizim təsəvvür edə bilmədiyimiz fövqəladə gözəlliklər ola bilər. Allah istəyən şəxsin nəfəs alma problemi olmadan suya daxil olmasına, çılpaq gözlə aydın şəkildə dəniz altındakı gözəllikləri görməsini mümkün edə bilər. Dünyada təkcə sənədli filmlər sayəsində öyrənilən dənizaltı gözəlliklər, cənnətdə möminlərin asanlıqla görə biləcəkləri və çox zövq alacaqları şəkildə ola bilər.

## Cənnət torpağının gözəlliyi

Cənnət torpağının gözəlliyi Peyğəmbərimiz (s.ə.v)-in hədislərində belə ifadə edilmişdir:

**Cənnətin əkiləcək ağaclarını çox əkin. Çünki onun suyu şirin, torpağı gözəldir... [Ramuz el-Ehadis-1, səh. 72/14]**

**Cənnət binalarının bir kərpici qızıl, bir kərpici gümüş, qarışığı müşk, çınqılı isə mirvari və yaqut, torpağı isə zəfərandandır... [Ramuz el-Ehadis-1, səh. 200/6]**

Hədisdə cənnət torpağı, zəfəran adlı, qiymətli bir bitkidən əldə edilən bir ədviyyata bənzədilmişdir. Bu bitki vanilinə bənzər ətri, canlı, parlaq qızıl sarısı rəngi ilə ədviyyatlar arasında olduqca xüsusi yerə malikdir. 1 kq zəfəran əldə etmək üçün 70.000-250.000 çiçək toplamaq lazımdır. Hal-hazırda zəfəran istehsalı hər keçən gün azalır. Buna təsir edən ən mühüm amil isə bitkinin yetişdirilməsindəki çətinlikdir. Çünki zəfərandan 3-4 il kimi müddətdə məhsul götürülür. Dünya şəraitində yetişdirilməsi çox çətin və zəhmətli olan bu qiymətli bitkinin, cənnətdə torpağı meydana gətirəcək qədər bol miqdarda olması orada nemətin bol şəkildə olacağına işarə edir (doğrusunu Allah bilər).

## Cənnətdəki genişlik

**Allah cənnət əhlini cənnətdə yerləşdirdiyi vaxt, geridə geniş məkan qalar. Allah orada, hər biri, yaradıldığından yox olacağı günə qədər, dünyadan daha böyük olan, üç yüz altmış aləmi yerləşdirər. [Ramuz el-Ehadis-1, səh. 30/5]**

Peyğəmbərimiz (s.ə.v)-in bu hədisində diqqət çəkdiyi kimi cənnətdə genişlik, rahatlıq vardır. Quranda cəhənnəm üçün təsvir edilən dar yerlərin, izdihamın tam əksinə cənnət geniş məkanlardan ibarətdir. Çünki insan ruhu, ətrafının açıq olmasından, rahat məkanlardan xoşlanacaq şəkildə yaradılmışdır. Quranda cənnətin genişliyindən belə bəhs edilir:

**Rəbbiniz tərəfindən bağışlanmağa və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə qovuşmaq üçün yarışın. (Ali İmran surəsi, 133)**

## Cənnətdəki gözəl qoxular

Gözəl qoxu Allahın insanlara verdiyi çox böyük nemətdir. Lakin dünyada ən gözəl qoxunun təsiri belə, çox qısa müddət davam edər. Qoxu molekullarının havada yayılması və burnun da bir müddət sonra bu qoxuya alışması bu nemətdən alınan zövqü məhdudlaşdırar. Dolayısilə qoxunun gözəlliyi qədər, öz təsirini saxlaması da əhəmiyyətlidir. Peyğəmbərimiz (s.ə.v) hədislərində cənnətdəki qoxuların gözəlliyinə və təsirinə belə işarə etmişdir:

**Cənnət qadınlarından biri yer üzünə baxsa, yer üzü müşk qoxusuyla dolar və üzünün nuru Günəş və Ayın işığını söndürər. [Ramuz el-Ehadis-2, səh. 355/5]**

**Əgər bir huri barmaqlarından birini dünyaya göstərsə (yer-göy əhli) hər bir canlı, onun qoxusunu hiss edərdi. [Ramuz el-Ehadis-2, səh. 355/4]**

**Cənnətin qoxusu beş yüz illik yerdən hiss edilər. Axirət əməli ilə dünyanı tələb edən bir kimsə cənnətin bu qoxusunu hiss edə bilməz. [Ramuz el-Ehadis-1, səh. 292/3]**

Peyğəmbərimiz (s.ə.v): **“qidalar ən təravətli və ən gözəl qoxulara malikdir"** hədisiylə də cənnətdəki qidaların qoxularındakı gözəlliyi xəbər verir. [Kütüb-i Sitte-14, səh. 448/3]

Qidaların ləzzətini hiss etməyimizdə qoxunun çox böyük payı vardır. Məsələn, bişən bir kakaolu keksin cəlbedici olmasının səbəbi, ətrafa yayılan kakao və vanil qoxusudur. Eynilə manqalda bişən ətdən, portağaldan, pomidordan, qəhvədən və ya başqa bir qida və içkidən zövq almağımızdakı səbəblərdən biri bu qida və içkilərdəki qoxudur. İybilmə duyğumuz olmasaydı yediklərimizi bir-birindən ayırd etməyimiz, hər birindən ayrı-ayrı ləzzət almağımız da mümkün olmazdı. Bu baxımdan qoxunun nemətlərin ləzzətindən alınan zövqü tamamlayıcı cəhəti vardır.

Cənnətdəki qoxuların gözəlliyindən bəhs edilən digər bir hədis isə belədir:

**...Birdən şimal küləyi əsər ki, onların üzlərinə və paltarlarına ən gözəl qoxuları yayar. [Tezkireti'l Kurtubi, səh. 325/562]**

Bir hədisdə də qoxusuyla diqqət çəkən bitkilərdən belə bəhs edilir:

**Şübhəsiz ki, xına (boyası və qoxusu) cənnətdəki qoxuların şahıdır... Allah cənnəti yaratdığı vaxt onu (gözəl) reyhan qoxusu ilə bürüdü, reyhan qoxusunu da hər tərəfdən xına (qoxusu) ilə bürüdü... [Tezkireti'l Kurtubi, səh. 342/619]**

Hədislərdə bəhs edilən reyhan gözəl qoxusuyla tanınan bir bitkidir. Lakin bizim bildiyimiz, tanıdığımız qoxular da cənnətdə xeyli fərqli, çox xoşlayacağımız şəkildədir (doğrusunu Allah bilər).

Həmçinin cənnət mühitindəki qoxular insanlara zövq verən bir nemət olmaları üçün yaradıldıqlarından, dünyada tez-tez təmasda olduğumuz xoşagəlməz qoxuların heç biri orada

olmayacaq. Bu cür qoxular insanlara dünyanın çatışmazlıqlarını xatırladan, onların cənnət mühitini arzulamalarına vəsilə olan dünyaya məxsus qüsurlardır. Cənnətdə bu cür qüsurlar aradan qaldırıldığı kimi, hər yeri də insan ruhunun zövq alacağı xoş qoxular bürüyəcəkdir. Necə ki, Peyğəmbərimiz (s.ə.v) bir hədisində cənnət üçün; *"...hər tərəfindən gözəl qoxular yayılır..."* deyə bildirmişdir. [Ramuz el-Ehadis-1, səh.170/1]

## Cənnətdə səs və söhbətlərdəki gözəllik

Dünyada Quran əxlaqından uzaq yaşayan insanların keçirdikləri kədər, narahatlıq hislərinin yaranma səbəblərinin başında hər an qarşılaşdıqları ürəksındıran, alçaldıcı, vəsvəsə verən, ümidsizliyə sövq edən, dürüst olmayan, neqativ söhbətlər gəlir. Necə ki, söhbətlərdəki ən kiçik mənfi hal belə, ən gözəl mühiti narahatedici hala gətirə bilər. Eyni zamanda səmimi-qəlbdən deyilən xoş bir söz, söylənilən qürurlandırıcı, şövqləndirici, cəsarət və ümid verici bir söz, edilən səmimi və dürüst bir söhbət, bəzən insanın ətrafındakı maddi nemətlərdən xeyli əhəmiyyət kəsb edər. İnsanlar dünya həyatında narahatlıq hissi keçirəcəkləri söhbətlərlə tez-tez qarşılaşarlar. Halbuki Allah cənnətdə bunun olmadığını, möminlərin olduqca rahat mühitlərdə qarşılıqlı söhbət etdiklərini bizə xəbər verir. Allahın sevdiyi və cənnətinə qəbul etdiyi səmimi qullarıyla söhbət etməklə yanaşı, hər cür yalandan, boş və pis söhbətlərdən uzaq olmaq möminlər üçün çox böyük nemət olacaq. Allah bir ayədə bunun bəndələri üçün çox böyük lütf olduğunu bildirir:

**Onlar orada nə “boş və mənasız söz”, nə də yalan eşidərlər. Bu Rəbbindən verilən əvəz olaraq yetərli lütfdür. (Nəbə surəsi, 35-36)**

Peyğəmbərimiz (s.ə.v) də cənnətdəki söhbətlərin gözəlliyinə belə diqqət çəkmişdir:

**Cənnət əhli elə bir kimsədir ki, Allah onun iki qulağını insanların özünə dediyi tərifiylə doldurar və o da onu eşidər. Cəhənnəm əhli isə elə bir kimsədir ki, Allah onun iki qulağını insanların özünə dedikləri pis sözləriylə doldurar və o da bunu eşidər. [Ramuz el-Ehadis-1, səh. 155/2]**

Həmçinin hədislərdə möminlərin dünyadakı səmimi söhbətlərinin axirətdə də davam etdiyi bildirilir. Cənnətdə möminlərin öz aralarında söhbət edərkən dünya həyatlarında etdiklərini yada saldıqlarından bir hədisdə belə bəhs edilir:

**Cənnət əhli cənnətdə yerləşdiyi vaxt qardaşlardan bəziləri digərlərini görmək istəyər. Birinin taxtı digərinin taxtının yanına, yaxınlıqdakının taxtı da digərinin taxtının yanına gedər. Onlar görüşdükdə hər ikisi də yaslanar və dünya həyatında aralarında keçən şeyləri qarşılıqlı surətdə danışmağa başlayarlar. Biri belə deyər: "ey qardaşım, yadındadırmı biz dünyada filan məsciddə olarkən Allaha dua etmişdik, məhz Allah da bizi bağışladı". [Ramuz el-Ehadis-1, səh. 29/12]**

## Cənnətdəki səs gözəlliyi

Cənnətdə, səs gözəlliyi də möminlərə ayrı bir nemət olaraq verilir. Həddindən artıq gur səs, cırıltılı musiqi, gurultulu mühit, çox uca səslə işləyən bir mühərrikin səsi və ya bir siqnal səsi qısa müddət davam etsə belə içində olduğumuz mühiti narahatedici hala gətirər. Necə ki, qışqırıq, fəryad, güclü əzab və ya ağrının təsiriylə çıxan səslər də insanlara cəhənnəmi xatırladan səslərdir. Peyğəmbərimiz (s.ə.v)-in hədislərdə bildirdiyinə görə cənnətdə, həm hər kəsin öz səsi çox gözəl olacaq, həm də qulaqlarına gələn hər səs özlərinə xoş gələcək (doğrusunu Allah bilər). Hədislərdə cənnətdəki səs gözəlliyinə belə diqqət çəkilmişdir:

**Cənnətdə hurilərin toplanma yerləri vardır. Səslərini qaldıracaqlar və varlıqlar onlarınkı qədər gözəl səsi o vaxta qədər heç eşitməmiş olacaqlar... [(Tirmizi), Büyük Hadis Külliyatı, səh. 409/10099]**

**Cənnətə girən hər kəsin baş və ayaq ucunda iki huri dayanar və insanların və cinlərin eşitdiyi ən gözəl səslə şeir oxuyarlar... [Ramuz el-Ehadis-2, səh. 384/7]**

## Cənnətdəki əbədi həyat və gənclik

İnsanın ömrü orta hesabla 60-70 ildir. Bu olduqca qısa müddətdir. Necə ki, Quranda axirət günü dünya həyatları haqqında açıqlama verən kəslərin ifadələri də bu istiqamətdədir.

**Dedi: "Yer üzündə neçə il qaldınız?". Dedilər: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən sayanlardan soruş". (Muminun surəsi, 112-113)**

Halbuki insanlar cənnətdə əbədi yaşayacaqlar. Allahın; **"onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar..."** (Duxan surəsi, 56) ayəsində bildirdiyi kimi adam həm ölümsüz olacaq, həm də içində olduğu nemətlər əsla tükənməyəcək. Əbədi sözüylə asanlıqla ifadə etdiyimiz bu anlayış üzərində yaxşı şəkildə düşünmək lazımdır. Çünki nəzərdə tutulan yüz, min və ya milyon il deyil, sonu olmayan bir müddətdir. Dolayısilə cənnətdə heç kimin dünyada olduğu kimi vaxtla əlaqədar hesabı, düşüncəsi olmayacaq. Bitən və ya azalan bir ömür də olmayacaq. Allah bu həqiqəti bir ayədə belə bildirir:

**Xoşbəxtlərə gəldikdə isə, onlar cənnətdədirlər. Rəbbinin istədiyi istisna olmaqla, göylər və yer durduqca onlar orada əbədi qalacaqlar. Bu, tükənməz bir sovqatdır. (Hud surəsi, 108)**

Başqa bir ayədə isə Allah cənnət əhli üçün; **"ətraflarında əbədi yaşayan gənclər fırlanar"** (Vaqiə surəsi, 17) deyə buyuraraq gəncliyin və ölümsüzlüyün cənnətdə bir nemət olaraq yaşandığına diqqət çəkir.

Cənnətdəki əbədi həyat hədislərdə belə xəbər verilir:

**Cəhənnəm əhlinə deyilsəydi ki, "dünyadakı daşların sayı qədər cəhənnəmdə qalacaqsınız" buna sevinərdilər. Cənnət əhlinə də deyilsəydi ki, "daşların sayı qədər**

**qalacaqsınız" kədərlənərdilər. Lakin onlara əbədiyyət layiq görüldü. [Ramuz el-Ehadis-2, səh.358/6]**

**...Oraya girən insana nemətlər ehtiyacı olmadan gələr. Orada əbədi yaşayar. Ölməz, paltarı köhnəlməz və gəncliyi də əldən getməz. [Ramuz el-Ehadis-1, səh. 200/6]**

**...Ora girən xoşbəxt olar, ümidsiz olmaz, əbədi yaşayar, ölməz. Nə geydikləri köhnələr, nə də gənclikləri tükənər. [Büyük Hadis Külliyatı-5, səh. 408/10088]**

İncildə isə əbədi həyatla bağlı belə yazılmışdır:

*Canını sevən, onu itirər. Lakin bu dünyada canını gözdən çıxaran, onu əbədi həyat üçün qoruyacaq. (Yuhanna, 12-ci hissə, 25)*

*...Özünüzü olduqca müqəddəs olan imanınız əsasında inkişaf etdirin... Sizi əbədi həyata qovuşduracaq olan mərhəmətini gözləyərkən özünüzü Allahın sevgisində qoruyun. Bəzi qərarsız kəslərə mərhəmət edin. Bəzilərini oddan çəkib xilas edin... Xilaskarımız olan vahid Allah, sizi düşməkdən qoruyacaq və Öz uca hüzuruna böyük sevinc içində təmiz halda çıxardacaq gücdədir... (Yahuda'nın Mektubu, 20-24)*

*...Aranızda geyimlərini ləkələməmiş bir neçə insan var ki, onlar ağ geyimlər içində mənimlə birlikdə yeriyəcəklər. Çünki buna layiqdirlər. Qalib gələn, beləcə ağ geyimlər geyəcək. Beləsinin adını ömür kitabından heç silməyəcəyəm... (Yuhanna'ya Gelen Esinleme, 3-cü hissə, 4-5)*

*...Dünya yaranandan bəri sizin üçün hazırlanmış olan azadlığı miras götürün... Bunlar əbədi əzaba düçar olacaq, dürüstlər isə əbədi həyata qovuşacaqlar. (Matta, 25-ci hissə, 34-46)*

Bir insan dünyada nə qədər gözəl, nə qədər zəngin, nə qədər sağlam olsa da ölümdən qaça bilməyəcəkdir. Dolayısilə insan dünya şəraitində hər şeyə hər kəsdən çox sahib olsa da bunların yox olacağı, onları əskik hala gətirər. Dünyadakı nemətlərin müvəqqəti olmasının bir hikməti də bu nemətlərin cənnətdəki əslini istəməyimiz üçündür. Dünyada gördüyümüz bütün gözəlliklər, aldığımız bütün zövqlər həm qüsurlu, həm də müvəqqətidir. Halbuki cənnətdəki bu nemətlər zamandan və səbəblərdən asılı olmadan yaradılmışdır. Dolayısilə cənnətdəki nemətlər daimi olacaq. Allah ayələrdə cənnətdə yaşanılan bu əbədiliyi belə müjdələyir:

**Rəbbi Öz tərəfindən onları mərhəmət, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələyir. Onlar orada əbədi qalacaqlar. Şübhəsiz ki, ən böyük mükafat Allahın yanındadır. (Tövbə surəsi, 21-22)**

**Onlar orada əbədi qalacaq və oranı tərk etmək istəməyəcəklər. (Kəhf surəsi, 108)**

## Cənnətdəki əbədi gənclik

Quran əxlaqından uzaq yaşayan kəslər hələ gənclik illərindən etibarən yaşlanma qorxusu içində yaşayarlar. Bir tərəfdən yaşlılığın gətirdiyi xəstəlikləri, acizlikləri düşünər, digər tərəfdən də

bu vəziyyətdə özlərinə baxacaq birinin olub-olmayacağı mövzusunda narahatlıq hissi keçirərlər. Bu və bənzəri narahatlıqlar keçirən çox sayda insan yaşlılıq mövzusuna çox bədbin baxar.

İnsan vücudunda 20-li yaşlardan etibarən hüceyrələrin yenilənmə sürəti zəifləyər və dəri əvvəlki elastikliyini itirməyə başlayar. Sonrakı illərdə də bu köhnəlmə gözlə görülən hala gələr. Bu vəziyyət insanlarda ciddi narahatlıq meydana gətirər. Gəncliklərinin əllərindən getməsinə tamaşaçı qalmaqdan ötrü kədərlənərlər. Əlbəttə ki, iman etməyən kəslər bu vəziyyətə düşər. Çünki möminlər müvəqqəti dünya həyatında qarşılaşa biləcəkləri bütün çatışmazlıqlar, xəstəliklər və acizliklər qarşısında Allaha təvəkkül edərlər. Bir ibadət olaraq mümkün olan hər səbəbə sarılar, din əxlaqından uzaq yaşayan insanların əksinə hər cür qorxu və narahatlıqdan uzaq həyat yaşayarlar. Həmçinin dünyadakı gözəlliklərin xüsusən əskik və qüsurlu yaradıldıqlarını, əsil həyatın axirətdəki sonsuz həyat olduğunu bilər, cənnətə qovuşmaq üçün səy göstərər və bunu ümidi edərək yaşayarlar.

Dünya həyatı müvəqqəti yurddur. Allah bütün nemətlərin əslini axirətdə yaradacaq və səmimi qullarına verəcək. Cənnətdə insanlar həmişə gənc, gözəl, sağlam və gümrah olacaqlar.

Üstəlik bir insan dünya şəraitində nə qədər uzun yaşasa, yaşlanma əlamətləri nə qədər gec başlasa və ya nə qədər sağlam olsa da bir gün mütləq öləcək. Halbuki həm Quran ayələrində, həm də Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, cənnət neməti olaraq gəncliyin əbədiyyən davam edəcəyi vurğulanmışdır:

**Cənnətə sürməli və saqqalsız olaraq Yusif (ə.s) kimi gözəl, Əyyub (ə.s) kimi mehriban və otuz yaşlarındakı gənclər olaraq girəcəksiniz. [Ramuz el-Ehadis-1, səh. 249/15]**

**Kiçik yaşlı uşaqdan başlamış yaşlılara qədər bütün insanlar, otuz üç yaşındakı övladları olaraq, Adəm (ə.s) yaradılışında və Yusif (r.ə) gözəlliyində, Əyyub (ə.s) əxlaqında sürməli və bəzəkli halda həşr edilər (və bu vəziyyətdə cənnətə girərlər). [Ramuz el-Ehadis-2, səh. 507/6]**

Otuzlu yaşlar insanın kamilləşdiyi, üz ifadəsi, danışıq, hal və rəftar baxımından gəncliyin mümkün ola biləcək ən gözəl dövrüdür. Lakin unutmamaq lazımdır ki, cənnətdəki gümrahlıq və gənclik də dünyadakından çox fərqlidir. Çünki dünya şəraitində gənc bir insan da bir çox acizlik içində yaşayar. Allah cənnət əhlini axirətdə hər cür nöqsandan, qüsurdan uzaq yeni bir yaradılışla yaratmışdır. Allah bu cənnət nemətini bir ayədə belə bildirmişdir:

**Ətraflarında həmişə gənc və gümrah olan cavanlar fırlanar. Onları gördükdə səpələnmiş mirvari dənələri olduqlarını güman edərsən. (İnsan surəsi, 19)**

## Cənnət əhlinin həmyaşıd olması

Cənnət əhlinin həmyaşıd olması Allahdan verilən böyük nemətdir. Yaş fərqi din əxlaqından uzaq yaşayan insanlar arasında çox vaxt yola getməzliyə və ünsiyyətsizliyə səbəb olar. Çox vaxt bir-birləriylə eyni yaşda olan insanlar öz aralarında daha rahat olduqları üçün qruplar əmələ gətirərlər. Əlbəttə ki, bu vəziyyət müsəlmanlara aid deyil. Müsəlmanlar hansı yaşda olsalar da bir-

birləriylə olduqca yaxşı yola gedər, özlərindən kiçik və ya böyük hər yaşdakı insanla asanlıqla dostluq əlaqəsi qura bilərlər. Müsəlmanların cənnətdə bir-birləriylə həmyaşıd olaraq yaradılmaları isə Allahdan verilən ayrı nemət və gözəllikdir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində cənnət əhlinin yaşlarının əbədiyyən dəyişməyəcəyini xəbər verir:

**Bir kəs behiştlik olaraq öldükdə, böyük və ya kiçik, yaşı nə olsa da, otuz yaşında biri olaraq cənnətə girər və artıq bu yaş əbədiyyən dəyişməz. Cəhənnəmə girəcək kəslər üçün də vəziyyət belədir. [(Tirmizi), Kütüb-i Sitte-14, səh. 450/5]**

Quranda cənnətdəkilərin həmyaşıd olduqlarına diqqət çəkilən digər ayələr isə belədir:

**Onları bakirə qızlar etdik, ərlərini sevən, həmyaşıdlar. (Vaqiə surəsi, 36-37)**

## Cənnətdə istənilən hər şeyin olması

Kainatda mövcud olan hər şey Allahın sonsuz gücünü və sonsuz ağlını əks etdirir. Allah dünyada imtahanın bir tələbi olaraq hər şeyi bir qanun əsasında yaradır və bütün olub bitənləri insan ağlının qavraya biləcəyi məqbul səbəb-nəticə əlaqələri içində göstərir. Buna görə insanlar bir meyvə gördükləri vaxt bunun bir toxumdan əmələ gələn ağacın müəyyən vaxtdan sonra verdiyi meyvə olduğundan şübhə etməzlər. Əlbəttə ki, Allahın qanununa görə meyvənin dünyadakı mövcud olma səbəbi budur, lakin unutmamaq lazımdır ki, Allah istədiyi təqdirdə bütün kainatı səbəblərdən asılı olmadan da yarada bilər.

Allah istədiyini istədiyi formada və zamanda, nümunəsiz olaraq yaradan və heç nəyə ehtiyacı olmayandır. Dolayısilə Allahın yaratması üçün heç bir səbəbə, vasitəyə, mərhələyə ehtiyac yoxdur. Dünyada hər şeyin müəyyən səbəblərdən, təbiət qanunlarından asılı olması insanları təəccübləndirməməlidir. Allah bütün bu səbəblərin yaradıcısı olub, bunlardan tamamilə uzaqdır. Necə ki, cənnətdə hər şey səbəbsiz olaraq yaradılacağı üçün ağacdan qopan meyvənin yerinə dərhal yenisi gələcək, heç bir azalma olmayacaq. Səbəbləri də, nəticələri də yaradan Allahdır. Məsələn, bir ağacın kölgəsinə baxdığımız vaxt, bu kölgənin yaranma səbəbinin Günəş şüalarının əks olunma bucağı olduğunu bilərik. Kölgə Günəşin nəticəsidir, lakin Günəşi kölgənin yaranmasına səbəb edən Allahdır. Bu vəziyyət bir ayədə belə bildirilir:

**Məgər Rəbbinin kölgəni necə uzatdığını görmürsənmi? Əgər O istəsəydi, onu hərəkətsiz halda saxlayardı. Sonra Biz günəşi onun bələdçisi etdik. Sonra o kölgəni yavaş-yavaş Özümüzə tərəf çəkdik. (Furqan surəsi, 45-46)**

Dünyadakı hər şeyi bu şəkildə səbəb-nəticə əlaqəsi içində yaratması Allahın sənətidir və Rəbbimizin bu təcəllaları sonsuzdur. Allah hər şeyi istədiyi anda, istədiyi şəkildə yarada bilər və ya istədiyi hər formaya sala bilər. Kainatı yoxdan yaradan Allah, istədiyi vaxt da dünyada qavramağa çalışdığımız qanunları və səbəbləri aradan qaldıracaqdır. Saleh müsəlmanlar cənnətdə ağıllarına

gələn, xoşladıqları hər şeyi istəyə biləcək, istəmələriylə yanaşı Allahın icazəsi ilə bunlara dərhal sahib olacaqlar. İstər özləri, istərsə də ətrafları istədikləri forma və surətdə olacaq, istədikləri hər şeyi edib, ən zövq alacaqları nemətlər içində yaşayacaqlar. Üstəlik bunların heç biri bir ehtiyacı ödəmək, bir çatışmazlığı aradan qaldırmaq, bir qüsuru örtmək məqsədiylə olmayacaq, yalnız Allahdan bir nemət və gözəllik olaraq cənnət əhlinin zövq almaları üçün olacaq (doğrusunu Allah bilər).

Bu mövzuda hədislərdə verilən nümunələrdən bir qismi belədir:

**Bir insan Rəsulullah əleyhissalatu vəssəlama: "Cənnətdə at vardırmı?" deyə sual verdi. Əleyhissalatu vəssalam da:**

**"Allah səni cənnətə qoyduğu təqdirdə, orada qırmızı yaqutdan olan bir at üstündə gəzmək istəsən, o səni istədiyin hər yerə uçurub aparacaq" deyə buyurdu. Bundan sonra başqa biri də:**

**"Cənnətdə dəvə vardırmı?" deyə sual verdi. Lakin əleyhissalatu vəssalam bu insana əvvəlkinə dediyindən fərqli bir şey dedi. Belə buyurdu:**

**"Əgər Allah səni cənnətə qoysa, orada ürəyinin istədiyi hər şey, gözüyə xoş gələn hər şey olacaq". [(Tirmizi), Kütüb-i Sitte-14, səh. 431/14]**

Hədisdə bildirilən "ürəyinin istədiyi hər şey, gözüyə xoş gələn hər şey" bizim dünyadakı baxış prizmamızla, təxəyyül gücümüzlə məhdudlaşmır. Allah Quranda; **"...orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız"** (Zuxruf surəsi, 71) ayəsiylə bu nemətlərin bolluğuna diqqət çəkmişdir. Bu mövzuyla əlaqəli olan digər ayələr isə belədir:

**...Orada nəfsinizin arzuladığı və istədiyiniz hər şey sizindir. (Fussilət surəsi, 31)**

**...Onlar nəfslərinin arzuladıqları (saysız nemət) arasında əbədi qalacaqlar. (Ənbiya surəsi, 102)**

Hamımızın dünyada istəyib də, bəzən vaxt ayıra bilməməkdən, bəzən də riskli olmasından ötrü edə bilmədiyimiz bir çox şey var. Məsələn, bəziləri üçün avtomobil və ya motosikleti yüksək sürətlə idarə etmək həyəcan verici bir zövq ola bilər, bəziləri isə uzun müddət suyun dərinliklərinə dalmaq və ya yüksək dağlarda xizək sürmək, paraşütlə yüzlərlə metr hündürlükdən tullanmaq kimi təhlükəli idmanlar etmək istəyə bilər. Lakin bütün bunlar insanın həyatını təhlükə altına salan idman növləridir.

Bir çox insan da professional surətdə musiqi aləti çala bilmək, rəsm çəkə bilmək kimi xüsusi qabiliyyətlərə sahib olmaq istəyə bilər. Bu kimi şeylər qabiliyyətlə yanaşı, bəzi hallarda bilik və uzunmüddətli təhsil tələb edir. Cənnətdəki biri isə istədiyi hər şeyə sahib ola biləcəyi üçün istədiyi anda heç bir səy göstərmədən, qabiliyyət kimi bir səbəbdən asılı olmadan belə bir imkana sahib ola bilər (doğrusunu Allah bilər).

Bir hədisdə cənnətdəki istəklərin sonsuzluğu belə vurğulanmışdır:

**Rəbbi də belə buyuracaq: "...Bura, sizə bolluca nemət verəcəyim bir yerdir. Məndən nə istəyirsinizsə istəyin!"**

**Ondan razılıq istəyəcəklər. O da belə buyuracaq: "Onsuz da sizi bura yerləşdirən Mənim razılığımdır. Sizə daha bolluca nemət verəcəyəm, istəyin!"**

**Arzuları bitənə qədər dayanmadan istəyəcəklər.**

Quran ayələrində və hədislərdə cənnətdə Allahın istəməsi ilə nəfsin arzuladığı hər şeyin mümkün olacağı bildirilir. Dolayısilə insanların təkcə xəyal edə biləcəkləri, lakin dünyada reallaşması mümkün olmayan şeyləri yaşamaları da mümkün ola bilər. Məsələn, at üstündə uçmaq dünya şəraitində qeyri-mümkündür, lakin hədislərdə diqqət çəkildiyi kimi bu da Allahın istəyi ilə cənnətdə mümkündür. Bir hədisdə istəyən insanın uça biləcəyindən belə bəhs edilir:

**Əgər sənə cənnətə girmək nəsib olsa, "qırmızı yaqutdan bir ata minim" desən minərsən. "Uçum desən uçarsan". [Ramuz el-Ehadis-1, səh. 149/5]**

Digər bir hədisdə isə cənnətdəki nemət bolluğu haqqında Peyğəmbərimiz (s.ə.v) belə buyurub:

**"Allah belə buyurdu: "Mən şanı böyük olan Allah, saleh bəndələrim üçün gözlərin görmədiyi, qulaqların eşitmədiyi, insanın təsəvvüründən və ağlından heç keçməyən nemətlər hazırladım". [(Buhari, Müslim, Tirmizi), Kütüb-i Sitte-14, səh. 4419/1]**

## Cənnətdə istənilən şeylərin dərhal olması

Dünyada gözəl bir yemək istəyən kəs, bunun üçün zəhmət çəkməli və vaxt sərf etməlidir. Heç bir səy göstərmədən, hələ ağlından keçirdiyi anda bu yeməkləri qarşısında hazır vəziyyətdə görmə ehtimalı isə nəfsinin çox xoşlayacağı şeydir. Lakin bu dünya şəraitində qeyri-mümkündür. Lakin vəd edilən cənnət mühitində satın almaq, zəhmət çəkmək və vaxt sərf etmək kimi bir çox səbəb və mərhələ aradan qalxaraq, nemətlər insanın ən çox xoşlayacağı şəkildə təqdim edilər. Bir hədisdə bu vəziyyət belə bir nümunə ilə nəql edilmişdir:

**Cənnətdə sənin ürəyin quş əti istəyəcək. Dərhal qızardılmış halda qabağına gətirilib qoyulacaq. [Büyük Hadis Külliyatı-5, səh. 414/10123]**

Bir rəvayətdə Peyğəmbərimiz (s.ə.v)-in belə bir hədisi xəbər verilir:

**...O insanın ağlına quş ətindən yemək gələr və beləliklə də dərhal müxtəlif ət yeməkləri halında onun qabağına çatar. Cənnət əhli ondan istədiyi qədər yeyər. Doyduğu vaxt quşun sümükləri toplanar, sonra da uçar və istədiyi kimi qidalanmağa başlayar. [Tezkire-i Kurtubi-1, səh. 58]**

Eyni zamanda cənnət mühitindəki biri, istədiyi hər şeyi edə biləcəyi üçün hədisdə də bildirildiyi kimi istədiyi təqdirdə işə ehtiyacı olmadığı halda, zövq üçün əkinçiliklə də məşğul olması mümkündür:

**Peyğəmbərimiz (s.ə.v)-in səhrada yaşayan bir insanla danışarkən, suallarına belə cavab verdiyi rəvayət olunur:**

**Bir insan (cənnətdə) əkinçiliklə məşğul olmaq üçün Rəbbindən icazə istəyəcək. Rəbbi isə ona: "Sən istədiyin vəziyyətdə deyilsənmi?" deyəcək. O da belə deyəcək: "Bəli. Lakin, mən əkinçiliklə məşğul olmağı sevirəm". Ona icazə veriləcək, dərhal toxum əkəcək bir anda cücərəcək, böyüyəcək, dənələri sünbüllərdən ayrılıb, dağlar kimi məhsul yığılacaq... [(Buhari), Büyük Hadis Külliyatı-5, səh. 413/10119]**

## İstənildiyi kimi surət dəyişdirə bilmək

İnsanlara üzləri və fiziki görünüşləriylə əlaqədar seçim imkanı verilsə, şübhəsiz ki, hər kəs qüsursuz görünüşə sahib olmağı istəyər. Çünki insan ruhu gözəllikdən zövq alacaq şəkildə yaradılmışdır və həmişə ən qüsursuz olanı, ən mükəmməl olanı axtarar. Ən kiçik bir təfərrüatdakı qüsur belə gözünə çarpar, diqqətini çəkər. Lakin insan axtardığı qüsursuz gözəlliyi heç vaxt dünyada tam olaraq tapa bilməz. Bir insan dünyanın ən gözəl insanı da olsa, onun qaçılmaz surətdə yaşadığı acizliklər, xəstəliklər və ən əhəmiyyətlisi də bir gün öləcək olması onun bu gözəlliyinə kölgə salar. Çünki imtahanın bir tələbi olaraq dünyada demək olar ki, hər şey çatışmazlıq və qüsurlarla birlikdə yaradılmışdır. Bu çatışmazlıq və qüsurların insanların axirətə yönəlmələri və cənnət həyatını arzulamaları baxımından çox böyük xeyir və hikmətləri vardır. İnsanın xoşladığı qüsursuzluğun və gözəlliyin həqiqi yeri isə cənnətdir.

Allah insanı cənnətdə qüsursuz gözəllikdə və ən xoşlayacağı surətdə yaradacaq. Üstəlik bu gözəllik təkcə bir surətlə məhdudlaşmır. Üstün güc sahibi olan Rəbbimiz olan Allah cənnətdəki bəndələrinə istədikləri vaxt istədikləri surəti seçə biləcəkləri bir imkan verəcək, beləliklə də, cənnət əhli hər istədiyi vaxt fərqli gözəlliyə sahib ola biləcək.

Peyğəmbərimiz (s.ə.v) möminlərin cənnətdəki bazarlarda bəyəndikləri surətə girəcəklərini bir hədisində belə xəbər verir:

**Cənnətdə bir bazar vardır. Lakin orada nə alış, nə də satış vardır. Yalnız kişi və qadın surətləri vardır. İnsan bu surətlərdən hansına girmək istəsə girə bilər. [(Tirmizi), Kütüb-i Sitte-14, səh. 434/17]**

## İstəyən insanın uşaq sahibi olması

Bir kəs uşaq sahibi olmaq istəsə, bu da yenə cənnətə uyğun asanlıq və mükəmməllik içində baş verər:

**Mömin cənnətdə uşaq sahibi olmaq istədiyi vaxt; onun hamilə qalması, doğması və uşağının bir yaşının tamam olması bir anda baş verər. [Tezkire-i Kurtubi-1, səh. 55]**

Bundan başqa cənnətdə uşaqların vəziyyəti ilə əlaqədar hədislərdə bunlar bildirilir:

**Möminlərin övladları cənnətdəki bir təpədədir. Onlar, qiyamətə qədər İbrahim (ə.s) ilə arvadı Saranın tərbiyəsi altındadırlar. [Ramuz el-Ehadis-1, səh. 73/2]**

## Gecənin olmaması

Gecə dünya həyatında insanlar üçün dincəlmə vaxtı olaraq yaradılmışdır. Cənnətdə yatmağa və dincəlməyə ehtiyac qalmayacağı üçün, gecənin qaranlığına da ehtiyac qalmayacaq. Cənnətdə gecənin olmadığı hədislərdə belə bildirilir:

**Cənnətdə gecə yoxdur. O, işıq və nurdan ibarətdir... [Ramuz el-Ehadis-2, s.əh 366/4]**

## Yuxunun olmaması

Yuxu insanın dünyada yaşadığı acizliklərdən biridir. Bütün insanlar yuxuya ehtiyac duyacaq şəkildə yaradılmışdır və nə qədər istəsələr də buna qarşı müqavimət göstərə bilməzlər. Üstəlik bədən yuxusuz qaldığı təqdirdə, həm xəstəliklərə qarşı müqaviməti azalar, həm də yorğun kimi görünər. Eyni zamanda yuxuya ayrılan vaxt da az hesab edilə bilməyəcək qədər çoxdur. İnsan ömrünün təxminən üçdə bir hissəsini yuxuda keçirər. Bu həmçinin dünya həyatında onsuz da qısa olan ömrünün çox böyük hissəsini müəyyən mənada ölü kimi keçirdiyi mənasını verər. Necə ki, Quranda; **"Allah ölənlərin canını ölüm anında, ölməyənlərin canını isə onlar yuxuda ikən alar. Ölümünə hökm veriləni(n ruhunu) saxlayar, digərini isə müəyyən olunmuş vaxtadək buraxar. Həqiqətən, bunda ağıl sahibləri üçün dəlillər vardır..."** (Zumər surəsi, 42) ayəsiylə yuxunun bir növ ölüm olduğu xəbər verilmişdir. Lakin cənnətdə yuxu və yorğunluq kimi acizliklər yoxdur. Allah; **"onlara orada heç bir yorğunluq toxunmayacaq..."** (Hicr surəsi, 48) ayəsiylə bu həqiqəti bəndələrinə bildirmişdir. Bir hədisdə isə cənnətdə yuxunun olmadığı belə qeyd olunmuşdur:

**Peyğəmbər səllallahu əleyhi və səlləmdən: "Cənnət əhli yatarmı?" deyə soruşdular. O belə buyurdu: "Yuxu, ölümün qardaşıdır. Cənnət əhli yatmaz". [Büyük Hadis Külliyatı-5, səh. 414/10125]**

## Mübahisənin olmaması

Cənnət əhlinin ən mühüm xüsusiyyətlərindən biri də əxlaqlarının çox gözəl olmasıdır. Bir hədisdə cənnətdəki möminlərin əxlaqlarının gözəlliyinə belə diqqət çəkilmişdir:

**Mən cənnət bağçalarında, cənnətin üst və alt tərəfində yerləşən bir köşkə bu insan üçün zaminəm ki, o haqlı olduğu halda mübahisəni tərk edər, zarafat üçün də olsa yalan danışmaz və insanlar(a nümunə olması) üçün əxlaqını gözəlləşdirər. [Ramuz el-Ehadis-1, səh. 152/6]**

Vicdanından istifadə edən, Allahdan qorxub çəkinən kəslərin olduğu bir mühitdə hər kəs rahat olar. Gözəl əxlaqın yaşanmadığı bir yerdə isə mübahisə, qısqanclıq, döyüş, qəzəb, kin, istehza, küsəyənlik hakimdir. Quran əxlaqından uzaq yaşayan kəslər, bu pis əxlaq xüsusiyyətlərindən ötrü, öz əlləriylə cəhənnəmi xatırladan bir mühit meydana gətirərlər. Hüzurlu, xoşbəxt, təhlükəsiz bir mühit içində dostcasına, qardaşcasına, tolerantlıqla yaşaya biləcəkləri halda, dünyəvi ehtirasların arxasınca qaçıb, öz istək və ehtiraslarına qapılaraq çox böyük nemət itkisinə məruz qalarlar. Müsəlmanlar üçünsə dünyada səbirli, etidallı, ağıllı, məntiqli, stabil,

bağışlayıcı, şəfqətli, sevgi dolu, gözəl əxlaqlı olmağın verdiyi dərin imani zövq vardır. Bir mömin bu gözəl xüsusiyyətləri özündə gördükdə ayrı həzz alar, başqa möminlərdə gördükdə bunlardan da ayrı zövq alar. Əbədiyyən davam edəcək bu məmnunluq, zövq və gözəlliklər cənnətdə də artaraq davam edər. Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən birində cənnətdəki bu mühit belə təsvir edilir:

**...Ürəkləri, tək bir nəfərin ürəyi kimidir. Aralarında mübahisə, düşmənçilik yoxdur... [Kütüb-i Sitte-14, səh. 449/3]**

Buna bənzər digər bir hədisdə isə cənnət əhlinin əxlaqından belə bəhs edilir:

**Onların əxlaqı tək bir insanın əxlaqı kimidir. [Tezkireti'l Kurtubi, səh. 329/579]**

Necə ki, Allah Quranda cənnətinə layiq gördüyü mömin bəndələri üçün; **"Biz onların köksündəki kin-küdurəti çıxartdıq. Onlar taxtlar üzərində qarşı-qarşıya əyləşən qardaşdırlar"** (Hicr surəsi, 47) deyə buyuraraq, onların yaşadıqları mehriban və səmimi dostluğa diqqət çəkir.

## Kədər və sıxıntı kimi mənfi halların olmaması

Kədər, sıxıntı kimi insanlara əzab verən ruh halları din əxlaqından uzaq yaşayan kəslərdə tez-tez müşahidə olunar. Allahın hər şeyi bir tale əsasında, xeyirlə yaratdığını görmək istəməyən bu kəslər xoşagəlməz hal, çətinlik kimi görünən hadisələr qarşısında qorxu və təşvişə qapılarlar. Allaha təvəkkül etmədikləri üçün sıxılar, heyiflənər, hətta sağlamlıqlarına zərər gələcək dərəcədə xeyli kədərlənərlər. Halbuki insan özü üçün nəyin xeyir, nəyin şər olacağını bilməz, təkcə Allah bilər. Bir ayədə bu həqiqət belə bildirilir:

**...Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilər, lakin siz bilməzsiniz. (Bəqərə surəsi, 216)**

Dünyada çətinlik, sıxıntı kimi görünən bir vəziyyət axirətdə insanın cənnətə qovuşmasına vəsilə olacaq gözəlliyə çevrilə bilər. Bunu dərk edən möminlər, dünyada qarşılaşdıqları sıxıntı və çətinlik kimi görünən mənfi halları imanlarının gücü ilə özlərindən uzaqlaşdırarlar. Allaha təslim olmağın, yaratdığı hər şeydən razı qalmağın rahatlığı və hüzuru içində, qarşılaşdıqları hər hadisəni Allahın yaratdığı gözəllik kimi qiymətləndirərlər. Buna görə də cənnətə daxil olmaq ümidi ilə yaşayan möminlər dünyəvi olan heç nəyi mənfi hal kimi qiymətləndirməzlər. Cənnətdə isə Allahın rəhməti sayəsində, əbədiyyən kədər, sıxıntı, narahatlıq kimi hislərdən uzaq yaşayacaqlar. Hədislərdə cənnətdəki bu nemət belə xəbər verilir:

**...Hər bir narahatlığın ardı kəsiləcək. Cəhənnəm əhlinin narahatlığı müstəsnadır... [Ramuz el-Ehadis-2, səh. 342/15]**

**...Onlar belə deyəcəklər: "Biz əbədi yaşayanlarıq, əsla həlak olmarıq, biz xoşbəxt insanlarıq, əsla kədərlənmərik... [(Tirmizi), Büyük Hadis Külliyatı-5, səh. 409/10099]**

**...Orada heç bir dərd və təhlükə yoxdur... [Ramuz el-Ehadis-1, səh. 170/1]**

İncildə isə bu mövzu haqqında bunlar deyilir:

*..."Ağ xalat geyinmiş bu kəslər kimlərdir?, haradan gəldilər?" ...Mənə: "Bunlar, o böyük sıxıntıdan keçib gələnlərdir" dedi... Bunun üçün Allahın taxtının qarşısında dayanırlar... Taxtın üzərində oturan, çadırını onların üstünə uzadacaq... Allah onların gözlərindən axan bütün yaşları siləcək". (Yuhanna'ya Gelen Esinleme, 7-ci hissə, 13-17)*

Allah Quranda möminlərin bu hüzurlu ruh hallarını belə bildirir:

**Onlar Allahın Öz lütfündən onlara verdiyi nemətlərə sevinir, arxalarınca gəlib hələ onlara çatmamış kəsləri isə heç bir qorxu ilə qarşılaşmayacaqları və kədərlənməyəcəkləri barədə müjdələmək istəyirlər. (Ali İmran surəsi, 170)**

**Onlar deyəcəklər: "Qəm-qüssəni bizdən uzaq edən Allaha həmd olsun! Həqiqətən, Rəbbimiz Bağışlayandır, şükürün əvəzini verəndir. (Fatir surəsi, 34)**

**Artıq Allah, onları belə bir günün şərindən qorumuş, onlara parıltılı aydınlıq və sevinc bəxş etmişdir; (İnsan surəsi, 11)**

**Nemətin parıltılı sevincini sən onların üzlərində tanıyarsan. (Mutaffifin surəsi, 24)**

Daha əvvəl də ifadə etdiyimiz kimi, demək olar ki, dünyada olan hər şey imtahanın bir tələbi olaraq xüsusən əskik və qüsurlu yaradılmışdır. Möminlər dünyada qarşılaşdıqları bütün çətinlik və sıxıntılar qarşısında gözəl şəkildə səbir edər və Allaha təvəkkül edərlər. Peyğəmbərimiz (s.ə.v) hədislərində insanın təkcə cənnətə girdiyi vaxt həqiqi mənada rahatlığa qovuşduğunu xəbər vermişdir:

**Təkcə cənnətə girən şəxs rahatlığa qovuşar. [Ramuz el-Ehadis-1, səh. 138/13]**

Peyğəmbərimiz (s.ə.v) başqa bir hədisində isə cənnətdəki bu hüzurlu mühiti belə təsvir edir:

**Cənnət əbədi iqamət halında parıldayan nur, yayılmış qoxu, çox yaxşı inşa edilmiş köşk, axan çay, yetişmiş meyvə, yaşıllıq, sevinc, sərinlik, təravət yeridir. [Ölümden Sonra Diriliş, səh. 47]**

# Cənnət əhlinin Allaha olan yaxınlığı

## Cənnətdəkilərin Allahın uca Zatının təcəllasını görə bilmələri

İndiyə qədər sadaladığımız bütün bu nemətlərlə yanaşı, Allaha olan yaxınlıqları, cənnət əhlinin sahib olacağı ən böyük və ən mühüm nemət olacaq. Peyğəmbərimiz (s.ə.v)-in bir çox hədisində, cənnətdəki möminlərin Allahdan lütf olaraq Onun Zatının təcəllasını görə biləcəklərindən bəhs edilir:

**Cənnət əhli cənnətə girdiyi vaxt, Allah Təbarəkə və Təala belə buyuracaq: "Sizin üçün əlavə olaraq etməyimi istədiyiniz başqa şey vardırmı?"**

**"Sən bizim üzlərimizi dümağ etmədinmi? Bizi cəhənnəmdən xilas edib, cənnətə daxil etmədinmi; (bundan daha yaxşı və çox nə ola bilər ki?)" deyəcəklər.**

**Bundan sonra pərdə qaldırılacaq, onlara özlərinin Rəbbini görməkdən daha gözəl şey verilmədiyini başa düşəcəklər. [Büyük Hadis Külliyyatı-5, səh. 415/10130]**

**"Ey Allahın Rəsulu! Rəbbimizi görəcəyikmi?"**

**"Buludsuz bir havada ay işığında ayı görmək üçün bir-birinizi itələyərsinizmi?"**

**"Xeyr".**

**"Buludsuz bir gündə günəşi görmək üçün bir-birinizi itələyib bir-birinizə çətinlik törədərsinizmi?"**

**"Xeyr".**

**"Rəbbinizi də belə zəhmətsiz, problemsiz və açıq-aşkar şəkildə görəcəksiniz".... [(Buxari, Müslim, Tirmizi), Büyük Hadis Külliyyatı-5, səh. 416/10133]**

Bir rəvayətə görə isə Peyğəmbərimiz (s.ə.v) bu mövzu ilə əlaqədar bu sözləri demişdir:

**Cənnət əhli cənnətə girdikləri zaman, əməllərinin dərəcələrinə görə oraya yerləşəcəklər. Sonra onlara dünyadakı günlərdən cümə günü qədər bir müddətdə özlərinin Rəbbini ziyarət etmələrinə icazə veriləcək. Onlara Allahın ərşi göstəriləcək. Onlara cənnət bağçalarından bir bağçada görünəcək. Onlar üçün nur minbərləri, mirvari minbərləri, yaqut minbərləri, zəbərcəd (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) minbərləri, qızıl minbərləri və gümüş minbərləri ortaya qoyulacaq. Ən aşağı dərəcəli kəsləri belə (belə ki, içlərində aşağı dərəcəli biri yoxdur) müşk yığını üzərində oturacaq. Kürsü sahiblərinin onlardan daha üstün məclisləri olduğunu görməzlər... O məclisdə Allahın yanında olub, Onunla ünsiyyətdə olmayacaq heç kim yoxdur... [(Tirmizi), Büyük Hadis Külliyyatı-5, səh. 409-410/10100]**

**...Ədn cənnətində behiştliklərlə özlərinin Rəbbini görmələri arasında Allahın vəchindəki (üzündəki) böyüklük pərdəsindən başqa şey yoxdur. [(Buxari, Müslim, Tirmizi), Cennet 3, 2530]**

Cənnət əhlinin Allahın hüzurunda olmaqdan ötrü duyduqları xoşbəxtlik isə bir hədisdə bu sözlərlə vurğulanmışdır:

**Cənnət əhli Allahın hüzuruna iki dəfə daxil olar... Onlardan hər biri o məclisdə əməllərinə görə mirvari, yaqut, zümrüd, qızıl və gümüş minbərlər üzərində oturar. Gözləri heç vaxt bu qədər aydın olmamışdır... Bunu yenidən yaşamaq ümidi ilə sabahısı günü gözləyən halda yerlərinə qayıdarlar. [Ramuz el-Ehadis-1, səh. 120/3]**

## Allahın rizasını qazanmış olmaları

Allah cənnətdə özündən razı qaldığı bəndələrinə sonsuz nemət bəxş edir. Lakin iman edən möminlər üçün hər şeydən əhəmiyyətli olan, Allahın rizasını qazana bilmiş olmalarıdır. Möminlər dünyada mallarını, canlarını, sahib olduqları bütün imkanları Allaha yaxınlaşa bilmək və Onun rizasını qazana bilmək üçün ortaya qoymuş, bütün həyatlarını Ona həsr etmişlər. Cənnətdə isə həyatlarının bu məqsədinə nail olmağın təsviredilməz xoşbəxtliyini yaşayarlar. Bir ayədə Allahın rizasını qazanmağın nə qədər böyük nemət olduğundan belə bəhs edilir:

**Allah mömin kişilərə və mömin qadınlara altından çaylar axan, içində əbədi qalacaqları cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər vəd etmişdir. Allahın rizası isə daha böyükdür. Məhz böyük “qurtuluş və xoşbəxtlik” budur. (Tövbə surəsi, 72)**

Quranda möminlərin cənnətdə hər şeydən razı qalacaqları isə bu ayələrlə bildirilir:

**Ey mutmain (qane olmuş) nəfs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Artıq bəndələrimin cərgəsinə keç! Cənnətimə daxil ol! (Fəcr surəsi, 27-30)**

**Onların Rəbbinin yanındakı mükafatı ağacları altından çaylar axan, içində əbədi qalacaqları Ədn cənnətləridir. Allah onlardan razıdır, onlar da Ondan razıdırlar. Bu nemətlər, Rəbbindən “içi titrəyərək qorxanlar” üçündür! (Beyyinə surəsi, 8)**

Bir hədisdə cənnət əhlinin Allahdan razı qaldıqlarından belə bəhs edilir:

**"Ey Rəbbimiz, buyur! Əmrinə hazırıq! Xeyir Sənin əlindədir!" deyərlər. Allah:**

**"Razı qaldınızmı?" deyə soruşar. Onlar:**

**"Ey Rəbbimiz! Razı qalmamaq nə həddimizə! Sən bizə başqa məxluqatına vermədiyin nemətlər verdin!" deyərlər. [(Buxari, Müslim, Tirmizi), Kütüb-i Sitte-14, səh. 456-457/13]**

## Cəhənnəmdən xilas olmağın sevinci

Şübhəsiz ki, cənnət nemətlərinin hər biri ayrı-ayrılıqda çox mübarək və qiymətlidir. Xüsusən cəhənnəmin varlığı, cənnət əhlinin bu nemətlərdən aldıqları zövqü qat-qat artırar. Çünki axirətdə cənnət və cəhənnəmdən başqa insanların gedəcəyi başqa yer yoxdur. Dolayısilə Allahın cənnətinə qəbul etmədiyi bir insanın gedəcəyi yer cəhənnəmdir.

Allah dünyada insanlara yaxşı ilə pisi, gözəl ilə çirkini, xeyir ilə şəri eyni anda göstərir. Bu da iman edənlərin müqayisə aparmalarına və gözəllikdən aldıqları zövqün artmasına vəsilə olur. Allah, cənnət əhlinə, istədikləri təqdirdə, cəhənnəmdəkilərin vəziyyətini göstərərək, onların cənnətdən aldıqları zövqü artıra bilər (doğrusunu Allah bilər). Necə ki, cənnət əhlinin cəhənnəm əzabından Allahın rəhməti sayəsində xilas olmalarından duyduqları sevinc bir hədisdə belə xəbər verilir:

**Cənnət əhlindən hər kəs cəhənnəmdəki yerini görüb; "ya, Allah mənə hidayət verməsəydi?" deyər və bu onun şükür etməsinə vəsilə olar... [Ramuz el-Ehadis-2, səh. 342/1]**

Möminlərin içində olduqları bu böyük rəhməti və neməti xəbər verən digər bir hədis isə belədir:

**...Cənnətə girib, cəhənnəmdən xilas olmaq, nemətin hamısındandır. [Ramuz el-Ehadis-2, səh. 449/6]**

Cənnət əhlinin bu sevincləri Quranda belə xəbər verilir:

**...Onlar deyəcəklər: "Bizi buna qovuşduran Allaha həmd olsun! Əgər Allah bizə hidayət verməsəydi, biz özümüz doğru yola yönələ bilməzdik. Andolsun, Rəbbimizin elçiləri haqqı gətirmişdilər". Onlara belə xitab ediləcəkdir: "Əməlləriniz sayəsində varis olduğunuz Cənnət budur!" (Əraf surəsi, 43)**

Həmçinin möminlər istədikləri zaman cəhənnəm əhlinin ibrətamiz vəziyyətini, dünyada etdikləri əməllərin qarşılığını necə aldıqlarını görə də bilər. Allah Quranda cənnət əhli cəhənnəm əhli ilə arasında keçən danışıqları belə bildirir:

**Onlar cənnətlərdə bir-birlərindən günahkarlar barəsində soruşacaqlar. Sizi cəhənnəmə salan nədir? Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik. Kasıbı da yedizdirməzdik. (Batilə və ehtiraslara) Dalanlarla biz də dalardıq; din gününü (haqq-hesab və cəza) yalan hesab edirdik. Nəhayət qəti həqiqət olan ölüm bizə gəlib çatdı". (Müddəssir surəsi, 40-47)**

# Cənnət Allahın ədalətinin təcəllisidir

## Hər kəsin dünyada etdiyi əməllərin qarşılığını alması

Allah bir ayəsində: **"O, əməl (davranış və hərəkət) baxımından hansınızın daha yaxşı olacağını sınamaq üçün ölümü və həyatı yaratdı..."** (Mülk surəsi, 2) deyə buyuraraq insanın yaradılmasındakı məqsədi bildirir. Başqa bir ayəsində də bu məqsədi dərk etməyən, boş və məqsədsiz həyat yaşamaq amalında olan insanları; **"yoxsa Bizim sizi boş bir məqsəd uğruna yaratdığımızı və həqiqətən Bizə qaytarılmayacağınızı zənn etmişdiniz?"** (Muminun surəsi, 115) deyə sorğu-sual etdiyini bildirir. İnsan dünyada olduğu müddətdə Qurana inanmaqla, hər düşüncəsində və rəftarında Allahın rizasını axtarmaqla, vicdanından istifadə etməklə, gözəl əxlaqı yaşamaqla, saleh əməllər etməklə məsuldur. Bu açıq həqiqətə baxmayaraq, yaradılış məqsədindən uzaq yaşayan insanların məqsədləri fərqli olar. Halbuki insanın etdiyi hər şey, söylədiyi hər söz, hətta ağlından keçən bütün düşüncələr, axirətdə qabağına qoyulması üçün əməl dəftərinə yazılır. Allahın Quranda: **"...Şübhəsiz ki, etdiklərinizdən məsul olacaqsınız"** (Nəhl surəsi, 93) və **"etdikləri əməllərdən ötrü hər biri üçün dərəcələr vardır..."** (Ənam surəsi, 132) ayələriylə bildirdiyi kimi insanlar etdikləri bütün əməllərin qarşılığını axirətdə mütləq alacaqlar. Bu həqiqət bir hədisdə belə xəbər verilir:

**Peşman olan kimsə, Allahın rəhm etməsini gözləyər. Özünü bəyənən də Allahın qəzəbini gözləyər. Hər kəs Allahın hüzuruna, ölümündən əvvəl etdiyi əməllə gələr və mütləq onların arasında əməllərinə hökm verilər... Kim zərrə qədər yaxşılıq etsə onu görər. Kim də zərrə qədər pislik etsə onu görər. [Ramuz el-Ehadis-1, səh. 237}**

Quranda bu mövzunun xəbər verildiyi ayələrdən bir neçəsi belədir:

**Mələklər xoşluqla canlarını alıb: "Sizə salam olsun!" deyərlər. "Əməllərinizə görə cənnətə girin!" (Nəhl surəsi, 32)**

**Hər kəsin etdiyi yaxşı əməlləri qarşısında hazır şəkildə görəcəyi və etdiyi hər bir pis əməli ilə özü arasında çox böyük məsafə olmasını istəyəcəyi o günü (düşünün)... (Ali İmran surəsi, 30)**

**Sizin yanınızda olan tükənər, Allah yanında olan isə əbədi qalar. Səbir edənləri etdikləri ən yaxşı əmələ görə mükafatlandırarıq. Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə ki, gözəl həyat bəxş edər və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandırarıq. (Nəhl surəsi, 96-97)**

İncildə də hər kəsin etdiyi əməlin qarşılığını alacağı yazılmışdır:

*Allah "hər kəsə etdiyi əməllərin qarşılığını verəcək". Dayanmadan yaxşılıq edərək ucalıq, möhtərəmlik və ölümsüzlüyü axtaranlara sonsuz həyat bəxş edəcək. Lakin eqoist olanlara,*

*həqiqəti inkar edənlərə və haqsızlıq edənlərə isə qəzəblənəcək və hirslənəcək. (Pavlusun romalılara Mektubu, 2-ci hissə, 6-8)*

Allah yerdə və göydə olub bitən hər şeyi görər, hər söhbəti, pıçıltını eşidər və bütün insanların etdiyi əməllərdən xəbərdardır. Heç nə Ondan gizli qalmaz. Allahın bizə şah damarımızdan daha yaxın olduğunu, hər söhbətimizi, içimizdən keçən hər şeyi bildiyini, baxdığımız, gördüyümüz hər şeyi Allahın hər an hər cəhətdən gördüyünü yaxşı qavramaq lazımdır. Çünki Allah axirət günü insanların **"heç güman etmədikləri şeyləri"** (Zumər surəsi, 47) də ortaya çıxardacaq. İnsanların izdihamlı mühitdə və ya tək olduqları zaman, etdikləri hər şeyin, ağızlarından çıxan hər sözün, ağıllarından keçən hər düşüncənin, bəlkə də içlərində gizli qalacağını zənn etdikləri hər şeyin axirətdə müəyyən qarşılığı var. Bu, Allahın sonsuz ədalətinin təcəllasıdır. Bu həqiqəti bildirən ayələrdən biri belədir:

**Hamının etdiyi əməllərə görə dərəcələri vardır ki, Allah onlara əməllərinin əvəzini tam versin. Onlara əsla zülm edilməz. (Əhqaf surəsi, 19)**

## Cənnətin dərəcə-dərəcə olması

Quranda bildirilən; **"onlar Allah yanında müxtəlif dərəcələrə sahibdirlər..."** (Ali İmran surəsi, 163) ayəsindən də aydın olduğu kimi, cənnətə girəcək kəslər də yenə təqvalarının dərəcəsinə görə qarşılıq görərlər. Bu vəziyyətdən bir hədisdə belə bəhs edilir:

**...Cənnəti də əməllərə görə bölərlər (çox əməli olan çox pay alar). [Ramuz el-Ehadis-1, səh. 198/17]**

Əlbəttə ki, bir insan cənnətin hansı dərəcəsində olsa da, bundan mütləq razı qalacaq, çünki, Allah cənnətdəki bütün bəndələrinə razılıq vəd etmişdir. Rəbbimiz səmimi qullarının Özündən razı qalaraq cənnətə girəcəklərini bildirir (Beyyinə surəsi, 8). Lakin, necə ki, dünyada eyni nemətdən hər kəs fərqli dərəcədə zövq və ləzzət alırsa, bənzər şəkildə axirətdə də nemətlərdən alınan zövqün dərəcəsi fərqli ola bilər (doğrusunu Allah bilər). Məsələn, hər kəs gözəl mənzərəyə baxdığı zaman, gördüklərindən zövq alar, lakin içlərində Allaha ən yaxın olan, Allahın qədrini daha layiqincə təqdir edə bilən kəslər, bu gözəllikdən daha çox zövq ala bilərlər. Allah yüksək dərəcələrə layiq olacaq bəndələrinin xüsusiyyətlərini bir ayəsində belə bildirir:

**İman edənlər, hicrət edənlər və Allah yolunda öz malı və canı ilə cihad edənlərin (səy göstərənlərin) Allah yanında yüksək dərəcələri vardır. Məhz bu kəslər "qurtulan və xoşbəxt olanlar"dır. (Tövbə surəsi, 20)**

Hədislərdə isə cənnətdəki dərəcələrə belə diqqət çəkilmişdir:

**Cənnətdə yüz dərəcə vardır. Biri bütün aləmləri içinə alar. [Ramuz el-Ehadis-1, səh. 125/8]**

**Cənnət yüz dərəcədir. Doxsan doqquzu ağıl sahiblərinə məxsusdur. Geriyə qalan biri isə digər əhaliyə. [Ramuz el-Ehadis-1, səh. 200/11]**

**Cənnət əhli qurfələrdə (cənnət köşklərində) qalanları (əhli quraf) görərlər. Eynilə üfüqdə şərqdən qərbə doğru hərəkət edən mirvari tək parlaq ulduzları gördüyünüz kimi. Aralarındakı fəzilət fərqi (qurfə əhlini) belə yuxarıda göstərər. [Buhari, Müslim, Cennet 11, 2831]**

Yenə hədislərdə bildirildiyinə görə bu dərəcələrdən ən yüksək olanı Firdovs cənnətidir:

**Cənnət yüz dərəcədir. Ardıcıl iki dərəcənin arası, yerlə göy arasındakı məsafə kimidir. Firdovs ən yüksəyi olub, cənnətin orta hissəsində yerləşər və onun üstü Rəhmanın ərşidir. Cənnətin çayları buradan başlayar. Allahdan istədiyiniz zaman, Firdovs cənnətini istəyin. [Ramus el-Ehadis-1, səh. 200/4]**

Həmçinin hədislərdə Ədn cənnətindən də bəhs edilir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində Ədn cənnəti ilə əlaqədar bunları bildirir:

**Dörd Firdovs cənnəti vardır: ikisinin zinətləri, qab-qacaqları və içindəkilər qızıldandır. İkisinin zinətləri, qab-qacaqları və içindəkilər isə gümüşdəndir. (Ədn) Cənnətindəkilərlə Allahın vəchi (üzü) arasında, təkcə böyüklük pərdəsi vardır və bu çaylar (süddən, baldan, şərabdan və sudan olan çaylar) Ədn cənnətindən başlayar, sonra isə digərlərinə paylanar. [Ramuz el-Ehadis-1, səh. 272/4]**

Peyğəmbərimiz (s.ə.v) digər bir hədisində isə Ədn cənnətinin ehtişamını belə təsvir edir:

**...Bir kərpici ağ mirvaridən, bir kərpici qırmızı yaqutdan, bir kərpici də zəbərcəddəndir (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş). Palçığı xalis müşk, çınqılları parlaq, qiymətli, otları isə zəfərandandır. [Dünya Ötesi Safer, səh. 295]**

Cənnətin hər dərəcəsindəki insan özünə görə zövq alacaq. Lakin cənnət əhlindən olan bir insan, yuxarı dərəcədəki insanın aldığı zövqdən ötrü özündə çatışmazlıq hiss etməyəcək. Allah Quranda möminlərin cənnətdə **"razı"** (Fəcr surəsi, 28) qaldıqlarını, Allahdan **"razı"** (Beyyinə surəsi, 8) olduqlarını və **"kədərlənməyəcəklərini"** (Ali İmran surəsi, 170) bildirir. Necə ki, cənnət əhlinin hər dərəcəsindəki insanın nə qədər çox nemətə sahib olduğu bir hədisdə belə təsvir edilir:

**Cənnət əhlinin ən aşağı dərəcəsində olan insanın səksən min xidmətçisi, yetmiş iki zövcəsi olacaq. Həmçinin onun üçün mirvari, zəbərcəd (zümrüdə bənzəyən, parlaq, yaşıl rəngli qiymətli daş) və yaqutdan düzəldilmiş bir çadır qurulacaq və bunun uzunluğu Cabiyə (Şam torpaqlarında bir şəhər adı) ilə Səna (Yəməndə bir şəhər adı) arasındakı məsafə qədər olacaq. [(Tirmizi), Büyük Hadis Külliyyatı-5, səh. 412/10114]**

Aşağıdakı hədisdə cənnətdəki dərəcələrlə əlaqədar belə bildirilmişdir:

**Cənnətdə ən aşağı dərəcəyə sahib olan insan cənnətlərinə, zövcələrinə, nemətlərinə, xidmətçilərinə və yataqlarına baxar. Min illik yoldan görüb bunları seyr edə biləcək. Allah dərgahında olanların ən dəyərliləri isə, səhər-axşam Allahın camalını görə bilənlərdir. [(Tirmizi), Büyük Hadis Külliyyatı-5, səh. 412/10115]**

İslam alimi Bədiüzzaman Səid Nursi cənnətlə əlaqəli bir düşüncəsində, insanın təkcə “imanı” sayəsində cənnətdəki yüksək dərəcələrə sahib olmağı ümid edə biləcəyinə diqqət çəkmişdir:

**...İnsan nuru-iman ilə (imanın nuruyla), əlayi-illiyyinə (cənnətdəki ən yüksək dərəcəyə) sahib olar; cənnətə layiq dəyər qazanar. [Gençlik ve Ölüm, səh. 435]**

Səmimi müsəlman həmişə Allah dərgahında, cənnətdəki ən yüksək dərəcəyə layiq ola bilmək üçün səy göstərməlidir. Kamil iman sahibi olmaq və Allaha xeyli yaxın olmağı istəmək, Allahın rizasına uyğundur.

## Cənnət əhlinin xüsusiyyətləri

Bir çox ayə namaz, oruc, zəkat kimi müəyyən ibadətlərlə yanaşı, gözəl əxlaqla əlaqəlidir. Allah insanlara həm özlərinin gözəl əxlaqla yaşamalarını, həm də digər insanlara bunu tövsiyə etmələrini əmr edir. Allahın əmr və tövsiyələrinə iman edildiyi və hər kəsin gözəl əxlaq sahibi olduğu cəmiyyətlərdə cənnət həyatındakına bənzər ruh halı yaşanar.

Müsəlmanlar Allahın səmimi qullarıdır. Bütün düşüncələrində, rəftarlarında və söhbətlərində Allahın rizasını güdər və Ondan qorxub çəkinərək hərəkət edərlər. Şeytanın təlqin etdiyi gizli və açıq heç bir mənfi şey əsla icazə verməyən, ağlı və vicdanı təmiz kəslərdir. Axirətə də bu təmiz vicdanla gedərlər.

Allah: **"Bir zaman o, öz Rəbbinin yanına pak qəlblə gəldi"** (Saffat surəsi, 84) ayəsiylə müsəlmanların ruhlarındakı bu təmizliyi bildirərkən; **"içlərində əbədi qalacaqları ağacları altından çaylar axan Ədn cənnətləri də (onlarındır). Bu, təmizlənənlərin mükafatıdır"** (Taha surəsi, 76) ayəsiylə bu bəndələrinə cənnətini vəd etmişdir.

Səmimi müsəlmanlar qəzəb, kin, qısqanclıq kimi çirkin əxlaq xüsusiyyətlərindən təmizlənmiş, qəlbən Allaha bağlanmış şəkildə yaşayarlar. Bunlar, Allahın: **"Bunlar, iman gətirənlər və qəlbləri Allahı zikr etməklə rahatlıq tapanlardır..."** (Rad surəsi, 28) ayəsiylə bildirdiyi kəslərdir və **"iman gətirib saleh əməllər edənlər və Rəblərinə qəlbləri razı qalmış halda bağlananlar, məhz bunlar cənnət sakinləridir. Bunlar orada əbədi qalacaqlar"** (Hud surəsi, 23) ayəsində bildirdiyi kimi cənnətlə müjdələnirlər. Allah başqa ayələrdə isə; **"ey arxayın olan kəs! Razı qalmış və razılıq qazanmış halda öz Rəbbinə tərəf dön! Artıq qullarımın cərgəsinə keç! Cənnətimə daxil ol!"** (Fəcr surəsi, 27-30) deyə buyurur və dünyada təmizlənərək nəfsi mutmain (qane olmuş) qullarını cənnətinə çağırır.

Allahın razı olduğu bu xüsusiyyətlərə sahib olan iman sahiblərinin düşüncələri və hərəkətləri imanlarının dərinliyini əks etdirər. Allah sevgisi və qorxusuyla hərəkət etdikləri üçün bütün halları gözəldir. Sahib olduqları bu gözəllik Allaha səmimi surətdə qulluq etmələrindən irəli gələn bir nurdur. Bu kəslər Allahın: **"...Sən onları rüku edən, səcdəyə qapanan, Allahdan lütf və razılıq diləyən görərsən. Əlamətləri isə üzlərində olan səcdə izidir. Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkin kimi vəsf olunurlar ki, bu əkin cücərtisini üzə çıxarıb onu qüvvətləndirmiş, o da getdikcə qalınlaşıb gövdəsi üstündə şax duraraq əkinçiləri heyran etmişdir..."** (Fəth surəsi, 29) ayəsində bildirdiyi kimi üzlərindəki səcdə izindən tanınırlar.

Baxışları Allahın lütfü sayəsində olduqca gözəl və mənalıdır. Söhbətləri Allahın rizasına uyğundur və sözləri həmişə gözəldir. Allahın: **"Allahın necə bir məsəl çəkdiyini görmədinmi? Gözəl söz kökü yerdə möhkəm olan, qolları isə göyə yüksələn gözəl bir ağac kimidir. O ağac Rəbbinin izni ilə öz meyvəsini daim verir..."** (İbrahim surəsi, 24-25) ayələrində bildirdiyi kimi dedikləri sözlər həmişə gözəl nəticələr doğurar. İtaətkar, həlim, yolagedən, mehriban, səmimi və istiqanlıdırlar. Bu səbəblə də gözəl həyat içində, dostluğu, sevgini ən çox yaşayan

insanlardır. Onlara dünya həyatında bu nemət və gözəllikləri yaşadan Allahdır. Onun axirətdə verəcəyi bu nemətlər isə əbədi olacaq.

Peyğəmbərimiz (s.ə.v) də bir çox hədisində cənnətə girən kəslərin gözəl əxlaqlarına diqqət çəkmişdir. Bu hədislərdən biri belədir:

**...Cənnətə girmələrini ən çox təmin edən şeylər nələrdir? Allah qorxusu və gözəl əxlaqdır... [Ramuz el-Ehadis-1, səh. 12/8]**

Peyğəmbərimiz (s.ə.v) bir hədisdə cənnətə layiq ola bilmək üçün yadda saxlanılması lazım olan mövzuları da belə bildirmişdir:

**...Allah qorxusundan ötrü günahlardan çəkinməyiniz, qəbirlərdə çürüməyi, daxilinizi və daxilinizdəkiləri, başı və başdakıları unutmamağınızdır. Kim axirət nemətini istəsə, dünya zinətini tərk etsin. Onda qul "həqiqi mənada Allah qorxusundan ötrü günahlardan çəkinmiş" olar. O zaman Allahın dostluğuna nail olmuş olar. [Ramuz el-Ehadis-2, səh. 343/2]**

Gözəl əxlaq xüsusiyyətləri olaraq Peyğəmbərimiz (s.ə.v), "ədalətli"; "mərhəmətli", "səbirli"; "əliaçıq"; "nəzif" (təmiz); "iffətli, namuslu" və "doğruçu" olmağı hədislərində tez-tez xatırlatmışdır.

Həmçinin Peyğəmbərimiz (s.ə.v) cənnəti qazana bilmək üçün "gizlində və aşkarda xeyirxahlıq" etməyi; "xoş söz deməyi"; "bolluqda da, qıtlıqda da Allaha şükür" etməyi; "sədəqə verməyi"; "Allaha heç nəyi şirk qoşmamağı"; "elm arxasınca getməyi"; "Allahdan qorxmağı"; elçiyə "itaət" etməyi; "təkəbbürlü olmaqdan"dan çəkinməyi; "kasıb olduğu halda iffətli olub, dilənçilik və üzsüzlük etməməyi", "dürüst tacir" olmağı, Rəbbimiz olan Allahdan "razı qalmağı", "Allah üçün, dini üçün xeyirxahlıq etməyi" xatırlatmışdır.

Peyğəmbərimiz (s.ə.v)-in diqqət çəkdiyi bütün bu mövzular Quranda Allahın rizasını, sevgisini qazanmaq üçün sahib olunması lazım olan mömin xüsusiyyətləri kimi bildirilir.

İncildə isə cənnətə layiq olanların xüsusiyyətlərindən belə bəhs edilir:

*...Göylərin hökmranlığı onlara məxsusdur... Onlara təsəlli veriləcəkdir. Müjdə həlim xasiyyətli olanlaradır! Onlar yer üzünün varisi olacaqlar. Müjdə doğruluğa acıb susayanlaradır! Onlar doyurulacaqlar. Müjdə mərhəmətli olanlaradır! Onlara rəhm ediləcək. Müjdə qəlbi təmiz olanlaradır! Onlar Allahı görəcəklər. Müjdə sülhü təmin edənlərədir!... Müjdə haqq-ədalət uğrunda zülmə məruz qalanlaradır! Göylərin hökmranlığı onlara məxsusdur. Sevinin, sevinib coşun! Çünki göylərdəki mükafatınız böyükdür... (Matta, 5-ci hissə, 2-12)*

Başqa İncil hissələrində isə cənnətə girəcək kəslərin xüsusiyyətləri belə ifadə edilir:

*İsa yola düşərkən, biri qaça-qaça yanına gəldi. Qarşısında diz çöküb ondan: "Ey mənim yaxşı müəllimim, mən əbədi həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa ona: "Mənə niyə yaxşı deyirsən?" dedi. "Yaxşı olan təkcə biri var, o da Allahdır. Onun əmrlərini bilirsən; "adam öldürmə, zina etmə, oğurluq etmə, yalançı şahidlik etmə, heç kimin haqqını yemə, ata-anana hörmət et". Həmin insan: "Müəllimim, bunların hamısına gəncliyimdən bəri əməl edirəm" dedi. Ona sevgiylə baxan İsa: "Etmədiyin bir şey var" dedi. "Get nəyin varsa sat, pulunu yoxsullara ver; beləcə göydə xəzinən olar. Sonra gəl, məni izlə". (Markos, 10-cı hissə, 17-21)*

*...Bir-birinizi qardaşcasına sevin. Şəfqətli və təvazökar olun. Pisliyə pisliklə, söyüşə söyüşlə deyil, əksinə xeyir-dua ilə cavab verin. Çünki, üstünlüyü, xeyir-duanı miras almaq üçün çağırıldınız. Belə ki, "həyatı sevmək və yaxşı günlər görmək istəyən kəs, dilini pislikdən, dodaqlarını da hiyləli sözlərdən uzaq tutsun. Pis əməllərdən çəkinsin və yaxşılıq etsin. Rifahı axtarıb onun ardınca getsin. (Petrusun Birinci Mektubu, 3-cü hissə, 8-11)*

*...Dürüstlüyün, Allah yolunun, imanın, sevginin, səbrin və itaətkarlığın arxasınca qaç. İman uğrunda uca mübarizəni davam etdir. Əbədi həyatdan möhkəm yapış. Bunun üçün çağırıldın və bir çox şahid qarşısında uca inancı açıq şəkildə mənimsədin. İndiki dövrdə zəngin olanlara lovğalanmamalarını, müvəqqəti zənginliyə bel bağlamamalarını əmr et. Zövq almağımız üçün bizə hər şeyi bol şəkildə verən Allaha bel bağlasınlar. Onlara yaxşılıq etmələrini, yaxşı əməl baxımından zəngin olmalarını, əliaçıq və paylaşmağa istəkli olmalarını əmr et. Beləliklə də həqiqi həyata qovuşmaq üzrə gələcək üçün özlərinə möhkəm təməl olacaq bir xəzinə toplamış olarlar. (Pavlusun Timoteyusa Birinci Mektubu, 6-cı hissə, 11-19)*

## Cənnət sevincini yaşamaq

Müsəlmanlar üçün dünyada ən mühüm nemətlərdən biri axirətdə cənnəti qazanmağı ümid edə bilmələridir. Allah dünyanı müsəlmanların cənnətə qovuşmağı arzulayacaqları şəkildə yaratmışdır. Allahın və axirətin varlığına iman edən hər kəs, dünyada mövcud olan nemət və gözəlliklər qarşısında həmişə cənnəti xatırlayacaq, bu nemətlərin müvəqqəti olduğunu bilərək cənnətdəki əsillərini istəyəcək. Necə ki, belə bir insanın cənnətə qovuşma istəyi və bundan ötrü keçirdiyi həyəcan hissi, rəftarlarından, danışıqlarından, din əxlaqını yaşamasındakı səmimi səyindən hiss ediləcək.

Möminlər cənnətə qovuşmağı ümid etdiklərindən ötrü həmişə həyəcan içindədirlər. Həyəcan və şövqləriylə yanaşı, Rəbbimizin bənzərsiz nemətlərinə varis edəcəyi kəslərə vəd edilən cənnətlə sevinc içindədirlər.

İncildə cənnət sevincindən belə bəhs edilir:

*O gün sevinin, coşğuyla atılıb düşün! Çünki göydəki mükafatınız böyükdür... (Luka, 6-cı hissə, 23)*

İncilin başqa bir yerində isə çox az insanın cənnətə layiq olacağından bəhs edilir:

*Biri ona; "xilas olanların sayı azmı olacaq?" deyə sual verdi. İsa oradakılara belə dedi: "Dar qapıdan girməyə cəhd edin. Sizə bunu deyim ki, çoxu içəri girmək istəyəcək, lakin girə bilməyəcək. (Luka, 13-cü hissə, 23-24)*

İmanın qazandırdığı ağıl və vicdanla, cənnəti lazım olduğu kimi düşünə bilən bir insan, mənəvi dərinliyi ölçüsündə də bu nemətdən xəbərdar olaraq yaşayacaq. Cənnətin əhəmiyyətinə, heç nə ilə müqayisə edilə bilməyəcək dəyərinə diqqət çəkilən hədislərdən bir hissəsi belədir:

**Cənnətdəki bir qamçılıq yer dünya və dünyadakı şeylərdən xeyirlidir. [Ramuz el-Ehadis-1, səh. 132/9]**

**Cənnətdə yay qədər bir yer var, Günəşin üstündə doğduğu və ya batdığı şeydən (dünyadan) daha xeyirlidir. [(Buxari, Müslim, Tirmizi), Kütüb-i Sitte-14, səh. 429/2]**

Kitab boyunca Quran ayələri və hədislər vasitəsilə verilən təsvirlərlə qeyd etdiyimiz kimi, cənnətə aid hər şey dünyadakılarla müqayisə edilə bilməyəcək qədər mükəmməldir. Cənnətdəki bu üstünlük və qüsursuzluq insanın ömrü boyu axtardığı və yaşaya bilmədiyi gözəllikdir. Dolayısilə cənnətə qovuşmağı arzulamaq, ona layiq ola bilmə ümidini hiss edə bilmək və Rəbbimizin cənnət vədinin sevincini yaşamaq ayrıca çox böyük nemətdir.

## Nəticə

Kitab boyunca bəhs etdiyimiz bütün bu gözəlliklər hamımıza bir an sonrası qədər yaxındır. Ölümlə hər an başa çata biləcək dünya həyatı, axirətdəki əbədi həyatın başlanğıcıdır. Dolayısilə hər an, hər saniyə axirətə keçilə biləcəyini unutmamaq, cəhənnəmə getmə ehtimalından qorxmaq və buna görə də, cənnətdəki əbədi nemətə qovuşmaq üçün hazırlıq görmək hər kəs üçün çox əhəmiyyətlidir.

Lakin şeytan, insana, Allahın cənnətdə vəd etdiyi gözəllikləri, əbədi həyatı unutdurmaq, düşündürməmək istər. Əksinə qüsur və çatışmazlıqlarla dolu olan dünya nemətlərinə razı olmağı, bunlarla bir neçə on il yaşamağı yaxın fayda kimi göstərər. Halbuki şeytana qarşı tam əks rəftarla, cənnətin çox yaxın olduğu həqiqətini unutmayaraq səmimi səy göstərmək lazımdır.

Bütün səmimi müsəlmanlar sonsuz mərhəmət, sonsuz rəhmət, sonsuz ağıl və güc sahibi olan, qullarını sevən, onları himayə edən, dünyada və axirətdə onların yaxşılığını istəyən, onlara dünyada gözəl və şərəfli həyat, axirətdə də cənnəti istəyən Allahın zəmanəti altındadırlar. Dolayısilə bu sevinc dolu neməti müsəlmanlar heç vaxt unutmamalı və bir-birlərinə bu yaxın nemətlə müjdələməlidirlər. Necə ki, Allah Quranda möminlərin bu mövzuda bir-birlərini müjdələmələrini əmr edir:

**...(Bu,) Tövratda, İncildə və Quranda Öz üzərinə götürdüyü həqiqi vəddir. Allahdan daha çox əhdə vəfa edən kimdir? O zaman etdiyiniz bu alış-verişdən ötrü sevinib bir-birinizi müjdələyin. Məhz "böyük qurtuluş və xoşbəxtlik" budur. (Tövbə surəsi, 111)**

# II hissə

# Qulaq ardına vurulan Quran hökmləri

Bəzi insanlar dinə inandıqları və Quranı demək olar ki, hər gün oxuduqları halda Quranın bəzi ayələrini asanlıqla qulaq ardına vura bilirlər. Bəziləri bu səhvə məlumatsızlıq ucbatından yol verdiyi halda, bəziləri də həmin hökmlərə qurduqları formalaşdırdıqlarə Qurandan kənar məntiqlərinin təsiri altında bilərəkdən əhəmiyyət vermirlər. Bütün bunları edərkən Quran hökmlərinə bilərəkdən etinasızlıqla yanaşmağın Allah dərgahında onlara nə qədər böyük məsuliyyət yükləyəcəyini və onları Allah rizasından necə uzaqlaşdıracağını isə əsla fikirləşmirlər. Halbuki Allahın hökmlərinə məhəl qoymayan insanların axirətdə əzabla qarşılaşa biləcəyi Quran ayələrində əhəmiyyətlə vurğulanır. Bu yanlış zehniyyətə malik olan insanlar Quran əxlaqına uyğun olmayan məntiqə əsaslanaraq, öz aləmlərində Allahın hökmləri arasında bir növ əhəmiyyətlilik və birincilik ardıcıllığı qurur, hətta bəzi hökmləri öz həyatlarından tamamilə çıxardaraq bir kənara atırlar. Belə yanlış din anlayışı əsrlər ərzində formalaşmış batil anlayış şəklində nəsildən-nəslə ötürülərək dövrümüzə qədər gəlib çatmışdır.

Geniş yayılmış bu batil anlayışa görə, prioritet hesab edilən hökmlər ehmal edildikdə vicdani narahatlıq hiss edilə bilər. Lakin Quranda qeyd olunmasına baxmayaraq, eyni dərəcədə əhəmiyyət verilməyən əmr və qadağalar ehmal edildikdə insan heç bir narahatlıq hiss etməz. Quranda fərz olduğu açıqca bildirilən bir çox mövzu, "etsən savabdır, etməsən də heç nə olmaz" kimi olduqca yanlış məntiqlə qiymətləndirilər. Çəkinilməsi lazım olan qadağalar isə, "Allah bağışlayar" məntiqi ilə rahatlıqla pozular. Halbuki Quranın heç bir ayəsində belə bir meyardan bəhs edilmir. Gündə 5 vaxt qılınan namaz, oruc kimi ibadətlər necə ki, Allahın qəti əmirləridirsə, Quranda bildirilən digər əmr və qadağalar da eynilə bütün möminlərin itaət etməli olduqları qəti hökmlərdir. Bu məsələni belə bir misalla izah edə bilərik: bir insan cəmiyyətin əxlaqi təzyiqinin də təsiriylə zina və ya oğurluq kimi Quranda qadağan edilən rəftarlardan uzaq dayana bilər. Lakin bu insan vicdanı rahat şəkildə, başqaları barədə dedi-qodu edir, möminlərə böhtan atır, etməyəcəyi şeyi söyləyir, Allahın ayələrini inkar edən insanlarla dostluq əlaqəsi qurur və ya ehtiyacından artıq qalanı xərcləmir, Quranda bildirilən vaxtlarda Allahı təqdis edib həmd etmir, eləcə də, bu və bənzəri əmrlərə tabe olub, Quranda təsvir edilən qadağalardan, rəftarlardan çəkinməyi öz aləmində əhəmiyyətsiz hesab edirsə, bu insanın Quranda bəhs edilən İslam dinini və mömin xarakterini tam yaşadığı deyilə bilməz.

Bu insan hər nə qədər müsəlman olduğunu söyləsə də, əslində cəmiyyətin müxtəlif adət və ənənələri əsasında formalaşdırılmış, arasına bir az da İslami məhfumlar daxil edilmiş batil bir anlayışa tabedir. Bu insanların etdikləri ən böyük səhvlik isə Quranda bildirilən hökmlərdən bir neçəsini yerinə yetirmələrindən ötrü özlərini kafi hesab etmələridir. Yanlış zehniyyətə sahib olacaqlarına ehtimal belə vermədikləri üçün əsil müsəlmanlardan olduqları məsələsində özlərindən olduqca əmindirlər. Əlbəttə ki, Allah dərgahında Rəbbimizin rizası hədəflənərək edilən hər bir ibadətin qarşılığı vardır. Lakin qulaq ardına vurularaq bir kənara atılan hökmlərin də gətirdiyi böyük məsuliyyət var.

Namazını qılıb, orucunu tutan biri əgər bütün bunları səmimiyyətlə edirsə Allahın icazəsi ilə axirətdə etdiklərinin əvəzini alacaq. Lakin xəbərsiz olmadığı halda, Qurandakı digər müddəalara bilərəkdən əhəmiyyət vermir və yerinə yetirmirsə, bu təqdirdə etdiyi ibadətlərinin də puç olma

ehtimalı ola bilər. Məhz bundan ötrü də, bütün möminlər Quran ayələri ilə bu təhlükəyə qarşı xəbərdar edilmiş və atalarından qalan, batil anlayışlarla formalaşan və cahilanə şərhlərə əsaslanan bu yanlış anlayışı tərk etməyə dəvət edilmişlər. Lakin Quranda; **"nə vaxt onlara: "Allahın nazil etdiyinə tabe olun!" deyilsə, onlar: "Xeyr, biz atalarımızın getdiyi yola (ənənəyə)" tabe olarıq" deyərlər. (Bəs) ataları heç nə anlamayıb doğru yolu yönəlməyiblərsə necə?"** (Bəqərə surəsi, 170) ayəsiylə də bildirildiyi kimi, bəzi insanlar bu mövzuda xəbərdar edildikləri və doğru özlərinə göstərildiyi halda, yenə də yaşadıqları bu batil anlayışda israrlı davrana bilirlər.

Məhz bizim bu kitabla, "qulaq ardına vurulan Quran hökmləri" mövzusuna toxunmaqdakı məqsədimiz də, içində olduğu bu vəziyyəti görməmiş, axirətdəki qarşılığını düşünməmiş, şüurlu və ya şüursuzca bu yanlış zehniyyətə sahib olan bütün insanlara Quranın bütün hökmlərini bir daha xatırladaraq, onları həqiqi İslam dinini nöqsansız yaşamağa dəvət etməkdir. Çünki insanların bütün Qurana tam əməl etməklə məsul olduqları ayələrdə bildirilmişdir. Gündəlik həyatın axarına qapılaraq Quranın yüzlərlə ayəsini tərk edən, İslamı yalnız 5 vaxt namaz qılmaq və oruc tutmaqdan ibarət hesab edən bir insan axirətdə, "mənim bu ayələrdən xəbərim yox idi" deyə bilməz.

Həyatı boyu Quranda əmr edilən mövzuları öyrənməmiş olmasına və ya bunları bildiyi halda qulaq ardına vurmasına heç bir bəhanə göstərə bilməz. Belə insanın vəziyyəti ayədə; **"yoxsa siz Kitabın bir hissəsinə inanıb, bir hissəsini inkar edirsiniz? Sizdən bunu edənin cəzası dünya həyatında alçaldılmaq, qiyamətdə isə ən şiddətli əzaba məhkum olmaqdır. Allah sizin etdiklərinizdən xəbərsiz deyildir"** (Bəqərə surəsi, 85) ifadəsində xitab edilən insanların vəziyyətindən fərqli olmaya bilər. Məhz bu kitabla iman gətirən insanlar da Quranı bütün ayələriylə yaşamağa və ayələrdə bəhs edilən bu çətin əzabdan çəkinməyə dəvət edilmişdir.

## Allahı xatırlamaqda zəiflik göstərmək

**Özləri Allahı unutmuş, beləliklə də, O da onlara öz nəfslərini unutdurmuş kəslər kimi olmayın. Məhz onlar, fasiqlərin lap özləridir. (Həşr surəsi, 19)**

İnsanın Allahı xatırlamaqda zəiflik göstərməsi Ona olan yaxınlığını azaldar. Din əxlaqını yaşamayan insanlar Allahı heç vaxt xatırlamadıqları, hətta günlərlə ağıllarına gətirmədikləri üçün halal-haramı gözləmədən hər cür günah iş tutmağı və Allahın əmrlərinə əməl etməməyi həyat tərzinə çevirmişlər. Möminlər isə istər sözləri ilə, istərsə də ağıllarından keçirdikləri düşüncələri ilə bütün həyatları boyun Allahı xatırlayıb zikr etməlidirlər.

İnsanın bəzən qəflətə qapılaraq Allahı ağlından çıxartması, iman gətirən bir insanın belə bilərəkdən və ya bilməyərəkdən müxtəlif xəta və günahlar işləməsinə səbəb ola bilər. Çünki Allahı xatırlamadan ötən müddət ərzində insanın hadisələri doğru şəkildə qavrayıb qiymətləndirməsində, yaxşını pisdən ayırmasında, hərəkət, davranış və danışıqlarında, Quranın hüdudlarını qoruyacaq şüuru qorumasında mühüm qüsurlar meydana gələ bilər. Quran əxlaqına zidd olan hər cür davranış pozuntusunun səbəbi Allahı xatırlamaq məsələsində yol verilən zəiflikdir.

Allahın hökmləri qarşısında həssaslığını itirən insan bəzən elə ağlagəlməz səhvlər edər ki, sonradan vəziyyətini düzəltdikdə, bunları necə etdiyinə özü də təəccüblənər. Belə gözlənilməz səhvlər Allahı unutmağın ciddiyyətini göstərən xəbərdarlıq və işarələrdir. Bu unutqanlığın müddəti

və dərəcəsi artdıqca, yol verilən səhvlərin sayı və böyüklüyü də artar. Allahı xatırlamaqda göstərilən qəflətin sıxlığı və daimiliyi insanın imanı üçün böyük təhdiddir. Halbuki Allahı hər an xatırlamaq, Onun ayələrini düşünərək dərk etmək insanın ağlının və şüurunun həmişə açıq olmasını təmin edər. Belə olduğu zaman da, insan Quranın əmr və qadağalarına dəqiqliklə əməl edib onlara tabe olar.

Allahı həmişə xatırlayan bir insan öz acizliyini daha yaxşı dərk edər, heç bir mövzuda özünə məxsus güc və iradəyə malik olmadığını daha yaxşı anlayar. Bunun nəticəsi olaraq, həmişə Allaha dua edər və Ondan istəyər. Təkcə Allahdan istəyər, hər mövzuda Allaha müraciət edər, özünü tamamilə Allaha təslim edir. Heç bir məsələdə özünü müstəqil şəxsiyyət hesab edib lovğalanmaz. Hərəkətləri, davranışları, danışıqları Allahın himayəsi altında olar. Beləliklə də, Allah ona hər an necə və nə cür davranmalı olduğunu, ən doğru hərəkəti, ən gözəl sözü ilham edər. Ona ayədə bildirildiyi kimi; **"insanlar arasında hərəkət etməsi üçün nur bəxş edər"** (Hədid surəsi, 28). Gözəl əxlaqa nail olmasını təmin edər.

Bunun əksinə olaraq, insan Allahı xatırlamaqdan uzaqlaşdıqca, təkbaşına, tək-tənha və köməksiz qalar. Doğru düşünmək, doğru qərar qəbul etmək qabiliyyətini itirər. Gördüyü işlər müvəffəqiyyətsiz olmağa başlayar. Çünki heç bir insan Allahın yardımı və dəstəyi olmadan hər hansı məsələnin öhdəsindən gələ bilməz. Hər hansı problemi Allahdan asılı olmadan, öz gücü və iradəsi ilə həll edə bilməz və Quranda mədh edilən təqva sahibi bir mömin ola bilməz. Çünki o, hələ əvvəldən Allahı unutmaqla ən böyük səhvi etmiş və qafillərdən olmuş olar. Allahı xatırlamaq bir mömin üçün çox mühüm ibadətdir. İman gətirən bir insan gündəlik həyatın heç bir anında Allahı əsla unutmaz və Onunla olan mənəvi əlaqəsini bir an belə kəsməz. Bunu vicdanı qəbul etməz, Allaha olan sevgisi və bağlılığına bunu qətiyyən yaraşdırmaz. Quranda bildirilən Allahın hz. Musa (ə.s)-a olan xatırlatması belədir:

**Sən və qardaşın ayələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin. (Taha surəsi, 42)**

Allah, Fironun yanına gedərək onu haqq dinə dəvət edəcək, hz. Musa (ə.s) və qardaşı hz. Harun (ə.s)-a Onu zikr etməkdə zəiflik göstərməmələrini bildirmişdir. Çünki yuxarıda da bildirildiyi kimi, onları Fironun qarşısında əsil müvəffəq edəcək qüvvə Allahdır.

Bununla yanaşı Allahı az xatırlamaq münafiqlərin xüsusiyyətidir. Bu vəziyyət Quranda belə bildirilir:

**Həqiqət budur ki, münafiqlər (guya), Allahı aldatmağa çalışırlar. Halbuki O, onları aldadır. Namaza durarkən könülsüz qalxarlar. İnsanlara göstəriş edər və Allahı çox az zikr edərlər. (Nisa surəsi, 142)**

Allahı xatırlamağın iman gətirənlərin mühüm bir ibadəti olduğu bəzi ayələrdə isə belə xəbər verilir:

**...Allahı zikr etmək, şübhəsiz ki, ən böyük ibadətdir. Allah nə etdiklərinizi bilir! (Ənkəbut surəsi, 45)**

**Elə isə (yalnız) Məni yad edin ki, Məndə sizi yad edim! (Yalnız) Mənə şükür edin və (əsla) nankorluq etməyin. (Bəqərə surəsi, 152)**

## Elçiyə qəlbən hörmət bəsləmək

Allahın seçdiyi elçilərə qəlbən hörmət bəsləməyin və onlara qeyd-şərtsiz itaət etməyin fərz olduğunu Allah Quranda bildirmişdir. Bu dövrdə elçiyə itaət etmək isə təkcə onun sünnəsinə tam mənası ilə tabe olmaqla yerinə yetirilə bilər. Sünnəyə tam və şüurlu şəkildə tabe olmaq isə ayələrdə elçiyə verilən əhəmiyyət və qiyməti dərk edib qəlbə yerləşdirməklə mümkün ola bilər. Elə bu səbəbdən də bütün dövrlərdə yaşayan möminlərin elçi ilə bağlı hökmləri öyrənmələri lazımdır. Aşağıda möminlərin elçilərə qarşı göstərməli olduqları davranışları müəyyən edən Quran hökmlərindən bəhs edəcəyik.

## Elçinin nəfsini öz nəfsindən üstün tutmaq, onu müdafiə edib dəstəkləmək

Allah Quranda, seçdiyi elçilərin çox üstün və gözəl əxlaqlı mübarək insanlar olduğunu bildirmişdir. Elçilər Allahın yer üzərindəki xəlifəsi, İslam əxlaqının ən böyük təmsilçisi və möminlərin lideridirlər. Elçilər Allahın Öz bəndələri arasında ən çox razı qaldığı, Ondan ən çox qorxub çəkinən, Ona itaət etməkdə və təslim olmaqda ən irəlidə gedən, hər mövzuda möminlərə nümunə olan ən üstün əxlaqa malik insanlardır. Allah Öz elçilərinə xüsusi əhəmiyyət verir və onları bir çox ayə ilə qoruyur. Allah Öz elçilərini mövqe cəhətdən hər kəsdən üstün etmişdir. Buna görə də, elçilər mömin cəmiyyətləri arasında ən əsas və mərkəzi mövqeyə sahibdirlər. Bundan ötrü də, mömin hər zaman və hər məsələdə elçinin nəfsini öz nəfsindən üstün tutmalıdır. Bu mövzu Quranda belə bildirilir:

**Mədinə əhalisinə və ətrafındakı bədəvilərə döyüşdə Allahın Elçisindən geri qalmaları, öz nəfslərini onun nəfsindən üstün tutmaları yaraşmaz... (Tövbə surəsi, 120)**

**Peyğəmbər, möminlər üçün onların öz nəfslərindən daha üstündür... (Əhzab surəsi, 6)**

Elçilərin Allah dərgahındakı üstün mövqelərindən ötrü, Quranın bir çox ayəsində möminlərə elçiləri müdafiə edib dəstəkləmələri əmr edilmişdir:

**...Ona (Elçiyə) iman gətirənlər, dəstək olub müdafiə edənlər, kömək edənlər və onunla birlikdə endirilən nuru izləyənlər; məhz onlar nicat tapanlardır. (Əraf surəsi, 157)**

**Şübhəsiz ki, Biz səni bir şahid, bir müjdəçi və xəbərdar edən biri olaraq göndərdik ki, Allaha və Onun Rəsuluna iman gətirəsiniz, Onu müdafiə edib dəstəkləyəsiniz, ən səmimi hörmətlə ucaldasınız və səhər-axşam Onu (Allahı) təqdis edəsiniz! (Fəth surəsi, 8-9)**

**Şübhəsiz ki, Allah və Onun mələkləri Peyğəmbərə salat edərlər (salam verərlər). Ey iman gətirənlər, siz də ona salat edin (salam verin) və tam təslimiyyətlə ona salam verin. (Əhzab surəsi, 56)**

## Elçinin önünə keçməmək

Quranda xəbər verildiyi kimi, elçilər ağıl, zəka, anlayış, qavrayış və bir çox başqa xüsusiyyətləri baxımından digər möminlərdən daha yüksək yaradılışa malikdirlər. Allahın bir çox sifətləri elçilərin üzərində daha çox əks olunur, mömin əlamətlərini özlərində daha çox daşıyan insanlar Allahın seçdiyi elçilərdir. Belə olan halda mömin də öz yerini bilməli və elçinin bu açıq-aşkar üstünlüyü qarşısında hörmətli, mötədil, təslimiyyətli və dəstəkləyici əxlaq nümayiş etdirməlidir. Bu vəziyyət ayədə “möminlərin elçinin hüzurunda qabağa keçməkdən çəkinmələri” şəklində ifadə edilir:

**Ey iman gətirənlər, Allahın Rəsulunun hüzurunda önə keçməyin və Allahdan qorxun! Şübhəsiz ki, Allah Eşidəndir, Biləndir! (Hucurat surəsi, 1)**

Allahın Rəsulunun hüzurunda önə keçmək, onun qarşısında öz ağlını ön plana çıxardan üslub işlətmək, onun sözünü kəsmək kimi hörmətsizlik etmək və digər müxtəlif formalarda özünü göstərə bilər. Əlbəttə ki, bir möminin belə hərəkətləri bilərəkdən etməsini düşünmək olmaz. Lakin bir anlıq qəflətə dalaraq və unudaraq Allahın müəyyənləşdirdiyi sərhədləri aşmaqdan da şiddətlə çəkinməlidir.

## Elçinin yanında səsini qaldırmamaq

Elçilərin istər əxlaqları, istərsə də imanları ilə möminlər arasında, Quran ayələri ilə müəyyən edilmiş xüsusi və üstün mövqelərə malik olmasından əvvəlki sətirlərdə də bəhs etmişdik. Həqiqətən də ayələrdə möminlərin bir-birilərinə qarşı göstərməli olduğu davranışlarla yanaşı, elçilərə qarşı münasibət və davranışlarından da bəhs edərkən, istifadə edəcəkləri səs tonlarına qədər hər təfsilat xüsusi təsvir edilmişdir. Ayələrdə təsvir edilən bu münasibət və davranışlarda, səmimi və üstün hörmət anlayışının əsas götürüldüyünün şahidi olarıq:

**Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar. (Hucurat surəsi, 2)**

Allah möminlərin Öz Elçisi ilə danışarkən səslərini öz aralarında olduğu kimi qaldırmamalarını xatırlatmışdır. Burada diqqət yetirilməli olan xüsus isə bu davranışın ədəb və ya nəzakət qaydası olmaqdan çox, Allahın qəti əmri olmasıdır. Çünki bunun əksi olan davranışın əməlləri puç edən hərəkət olması mövzunun əhəmiyyətini açıqca göstərir. Bunu Quranın açıq hökmü kimi yox, hər hansı əxlaq qaydası kimi görmək, "yerinə yetirilsə çox yaxşı, yetirilməsə də biraz ayıb olar" kimi bir anlayışı davam etdirmək, Allahın ayələrini qulaq ardına vurmaq mənasına gələr. Halbuki elçiyə göstərilən hörmət Allaha göstərilən hörmət deməkdir. Həmçinin bunun əksi olan bir davranış nümayiş etdirilsə, bu da Allaha qarşı göstərilmiş davranış olar. Elçiyə qarşı bilərəkdən hörmətsizlik etmək isə Allahın razı qalmayacağı bir davranışdır. Lakin bilərəkdən deyil, cəhalət, düşüncəsizlik, yanlış səmimiyyət anlayışı nəticəsində elçinin hüzurunda səsini yüksəldən bir insanın, mömin də olsa, bu səhvindən dərhal imtina etməsi, elçiyə qarşı duyduğu dərin hörmət və bağlılığı ən gözəl, ən nəzakətli, ən nəcib şəkildə ifadə edəcək davranış göstərməsi vacibdir. Bu mövzunun əhəmiyyəti, bu gözəl əxlaqa riayət edənlərin təriflәndiyi və müjdələndiyi növbəti ayə ilə də çox yaxşı aydın olur:

**Şübhəsiz ki, Allahın Rəsulunun yanında səsini endirənlər; məhz onlar, Allah onların qəlbini təqva üçün sınağa çəkmişdir. Onlar üçün bağışlanma və böyük mükafat var. (Hucurat surəsi, 3)**

Eynilə elçini, hər hansı insanı olduğu kimi çöldən səsləməyin ağılsızlıq əlaməti olduğu və möminlərin bu rəftardan çəkinməli olduqları da ayədə belə bildirilmişdir:

**Şübhəsiz ki, otaqların arxasından səni səsləyənlər də, onların çoxu ağlını işlətmir! (Hucurat surəsi, 4)**

## Çağırılmadan və icazə almadan elçinin evinə daxil olmaq

Allah bütün insanlara elçilərlə münasibətdə onlara maddi-mənəvi sıxıntı və əziyyət verə biləcək davranışları qadağan edib. Qəsdən olmasa da, başqa möminlər arasında təbii hesab edilən davranışları elçinin hüzurunda etmək, bəzən sıxıntı verə biləcək düşüncəsiz hərəkət ola bilər. Ayədə bildirilən çağırılmadan və ya xəbərsiz şəkildə elçini ziyarət etmək, təklif edilmədiyi halda orada olarkən yemək vaxtını gözləmək, yeməkdən sonra uzun söhbətə başlamaq kimi düşüncəsiz hərəkətlər də Allahın Quranda qadağan etdiyi davranışlardır:

**Ey iman gətirənlər (xəbər vermədən) peyğəmbərin evlərinə girməyin, (başqa iş üçün girmiş olsanız da mütləq) yemək vaxtını gözləməyin. (Lakin yeməyə) çağırıldığınız zaman daxil olun, yeməyi yeyib bitirən kimi də dağılın və (uzun) söhbətə başlamayın. Həqiqətən bu, Peyğəmbərə əziyyət verir və o da sizdən utanır; halbuki Allah, haqq(ı açıqlamaq)dan utanmaz... (Əhzab surəsi, 53)**

Mömin, hər zaman elçi üçün əlindən gələn ən böyük dəstəyi və asanlığı təmin etməli və onun yükünü yüngülləşdirməlidir. Bu, möminin, Quranda bildirilən ən mühüm vəzifələri arasındadır.

## Müsəlman olmaq və ya edilən xidmətlərlə elçini minnət altında qoymağa çalışmamaq

Allah, bir çox insanı dinə xidmət etdirə bilər, vəzifə verə bilər. Lakin bu insanlar mömin də ola bilər, inkarı da. Necə ki, şeytanların hz. Süleymana xidmətçi olaraq təyin edilməsi Quranda bildirilən bir həqiqətdir. Mömin və ya inkarçı olmağından asılı olmayaraq, hər kəs bir vəsilədir. Yeganə güc və iradə sahibi yalnız Allahdır. Həmçinin Allah dünyadakı imtahan mühitinin bir tələbi olaraq, İslam əxlaqının hakim olmasında bu cür səbəblər də yarada bilər. Allah Öz ayələrində bütün bu həqiqətlərdən xəbərsiz olub müsəlman olduqlarına görə özlərini tapılmaz nemət hesab edən görənlərdən, müsəlman olmalarını, İslam dini və elçi üçün böyük qazanc, lütf kimi göstərənlərin pozuq əxlaqını belə əbər verir:

**Müsəlman olduqlarına görə sənə minnət qoyurlar. De: "Müsəlman olduğunuza görə mənə minnət qoymayın! Tam əksinə sizi imana yönəltdiyi üçün Allah sizə minnət qoyur! Əgər doğru deyirsinizsə (bunu belə qəbul etməlisiniz). (Hucurat surəsi, 17)**

Ayədə də bildirildiyi kimi, əslində bu məsələ insanların düşündüklərinin tam əksinədir: İslama daxil olan bir insan İslamı şərəfləndirməz, əksinə, İslam ona şərəf verər.

Allah Quranın müxtəlif ayələrində, bəyəndiyi əxlaqı yaşamağa çalışmayacaqları təqdirdə, İslama xidmət edən insanları, özlərindən daha xeyirli insanlarla dəyişdirə biləcəyini bildirir. Belə yanlış zehniyyətə sahib insanlar, bu ayələrin hökmünə girməkdən qorxmalı, bu məntiqlərini dərhal dəyişdirməlidirlər. Səmimi iman və səmimi niyyətlə, Allah rizasından başqa heç nəyə əhəmiyyət vermədən İslama xidmət edən insanın əcrini (savabını) isə Allah mütləq verəcək.

## Elçinin sözlərinə qəlbdə sıxıntı hiss etmədən itaət etmək

Mömin, Allahın və Onun elçisinin əmrlərini qəlbən təslim olaraq yerinə yetirər, onun sözlərinə itaət edərkən qəlbində ən kiçik sıxıntı duymaz. Allahın və Onun elçisinin hökm etdiyi hər

şeyin ən doğru, ən yaxşı və ən xeyirli olduğunu bilər. Hansı şərt altında olsa da, mömin ən gözəl yolun elçinin göstərdiyi yol olduğunu bilərək hərəkət edər. Bu səmimi və təslimiyyətli yanaşma isə tamamilə möminin imanından irəli gələr.

Əks vəziyyət, yəni zahirən itaət edib qəlbən təslim olmamaq isə ayələrdə bildirildiyinə görə, həmin insanın əslində iman gətirmədiyinin sübutudur:

**Xeyr elə deyil; Rəbbinə and olsun ki, mübahisə etdikləri mövzularda səni hakim təyin edib, sonra sənin verdiyin hökmə, qəlblərində heç bir sıxıntı duymadan, tam təslim olmadıqca iman gətirmiş olmazlar. (Nisa surəsi, 65)**

Bir insan müxtəlif səbəblərdən ötrü zahirən itaətkar davrana bilər, deyilənləri tam yerinə yetirə bilər. Lakin bu insan, qəlbən tam razı qalıb itaət etmədikcə, həqiqətən iman gətirmiş sayılmaz. Çünki belə davranış, o insanın qəlbində Allah və elçisi haqqında hələ də bəzi şübhə və vəsvəsələrin olduğunu göstərir. Qəlbən, yaxud başqa sözlə, "batini" itaətə malik olmaması, yalnız fiziki təslimiyyət göstərməsi həmin insanın gördüyü işlərin də puç olmasına səbəb ola bilər. Zahirən itaət etmiş olmuş ola bilər, lakin axirətdə bunların əvəzini almaya bilər. Buna görə də, mömin, Allahın elçisindən gələn hökmü qəlbən sevinclə qarşılamalı, imanının və təslimiyyətinin ləzzətini qəlbində hiss etməlidir. Haqq olan bir şeyin qarşısında kədərlənib sıxılmaq imana uyğun olan rəftar deyil.

## Dinin hökmünü yerinə yetirməyi ticarət və ya əyləncədən üstün tutmamaq

**Halbuki onlar (tamamilə Allaha və İslama təslim olmayanlar) ticarət və ya əyləncə gördükləri zaman, (dərhal) ona yüyürdülər və səni ayaq üstə qoydular. De: "Allahın dərgahında olan əyləncədən və ticarətdən daha xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır". (Cümə surəsi, 11)**

Bu ayədə dinlə öz dünyəvi mənfəətləri arasında seçim aparan insanlardan bəhs edilir. Əsasən cahil cəmiyyətlərin din əxlaqını yaşamaqdan qaçmasının bir neçə ortaq səbəbləri var. Ayədə bu səbəblərdən ən mühüm iki səbəbə - ticarət və əyləncəyə diqqət çəkilir. Ticarətə diqqət çəkilməsinin səbəbi maddi mənfəətin insanların böyük əksəriyyətinin ən zəif cəhətlərindən biri olmasıdır. Necə ki, insanların bir qismi maddi mənfəətləri naminə dinin bir çox hökmünü qulaq ardına vurarlar. Bu, özünü bəzən 5 vaxt namaz, oruc, örtünmək kimi ibadətlərdə, bəzən əxlaqi davranışlarda, bəzən də dinin başqa hökmündə göstərər.

Bəzi insanların sərvət artırmaq məsələsində belə həris olmalarının səbəbi, maddi zənginliyin bütün mövcud problemləri həll etmək kimi, sehirli qüvvəyə malik olduğu istiqamətindəki batil inancdır. Bu insanlar əldə edə bilmədikləri və həsrətini çəkdikləri hər cür imkana, zənginlik sayəsində qovuşa biləcəklərinə inanarlar. Bunların arasında xoşbəxtlik, daxili rahatlıq, əminlik, hətta ölümsüzlük vardır. Belə insanlar elə zənn edirlər ki, zənginlik onların hətta ölümlərini də gecikdirəcək və onları dünyada əbədi edəcək. Buna görə də, cahil insanlar bütün vaxt və

imkanlarını səfərbər edərək, böyük ehtiras və həvəslə ticarətə qurşanarlar. Lakin onlar heç vaxt bu məqsədlərinə zənginliklə çata bilməzlər. Belə ki, bu günə qədər heç bir insanın mal-mülkü onun ölümünün və ya qocalmasının qarşısını ala bilməyib. Çünki bir insana fayda və ya xeyir vermə gücünə malik olan yeganə qüvvə mülkün həqiqi sahibi olan Allahdır. Həmçinin zənginliklə əldə edilməsi arzulanan daxili rahatlığın, əminliyin və xoşbəxtliyin yeganə şərti, vicdanlı, Qurana və sünnəyə tam uyğun olan, Allaha qəlbən təslim olmuş həyat yaşamaqdır.

Ayədə bəzi insanlar tərəfindən dinin hökmlərinin qulaq ardına vurulma səbəbi kimi bildirilən ikinci mövzu isə əyləncədir. Əylənmək də bəzi insanlar üçün böyük ehtirasdır. Əlbəttə ki, bir insanın xoşbəxt, şən, ünsiyyətcil (ekstrovert) və fəal olması gözəl xüsusiyyətlərdir. Lakin burada üzərində dayanılan xüsus, Allahdan uzaq cahilanə əyləncə anlayışıdır ki, əslində belə ruh halında olan insanın həqiqi mənada xoşbəxt olub kef çəkməsi əsla mümkün deyil. Bəhs etdiyimiz cahilanə əyləncənin bu dərəcə böyük ehtiras olmasının səbəbi də, bəhs edilən insanların bunu özləri üçün qurtuluş və bəzi həqiqətlərdən qaçış yolu kimi görmələridir. Vicdan əzabının ruhlarına verdiyi sıxıntı və əzabdan, ölkələri gəzərək və ya çoxlu insanla tanış olaraq xilas ola biləcəklərinə inanarlar. Halbuki insanların, dinin tələblərinə məhəl qoymayaraq ticarət və əyləncə ilə nail olmaq istədikləri hədəflər, təkcə din əxlaqını yaşayacaqları zaman nail ola biləcəkləri hədəflərdir. Qəlblər Allahın əlindədir və Allah qəlblərə xoşbəxtliyi təkcə Öz dininə tabe olunduğu vaxt verəcəyini vəd etmişdir (Rad surəsi, 28).

Eyni zamanda ayədə xatırladılan çox mühüm bir mövzu da vardır: Allah dərgahında qazanılacaq şey əyləncə və ticarətdən daha xeyirlidir. Dünyanın ən gözəl evləri, avtomobilləri, mənzərələri, geyimləri, sənət əsərləri və ya ləl-cəvahiratları cənnətdə olan zənginliklə müqayisədə olduqca köhnə və bəsitdir. Dünyanın əyləncəsi isə hər zaman əskik, yarımçıq və qüsurludur. Lakin əyləncənin, coşqunun və xoşbəxtliyin həqiqi yeri Allahın ziyafət yeri kimi tərif etdiyi cənnətdir.

Buna görə də, müsəlmanlar heç vaxt dinin hər hansı hökmünü ticarət və əyləncəyə görə qulaq ardına vurmaz və onları təxirə salmazlar. Allah möminlərin bu xüsusiyyətlərini Quranda belə bildirir:

**O kəslər ki, nə ticarət, nə də alış-veriş, onları Allahı zikr etməkdən, dosdoğru namazı qılmaqdan və zəkatı verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən qorxarlar. (Nur surəsi, 37)**

## Üzrlü səbəb olmadan oturmamaq

**Möminlərdən üzrlü səbəb olmadan oturanlar ilə, Allah yolunda malları və canları ilə cəhd edənlər (səy göstərənlər) eyni deyil. Allah malları və canları ilə cəhd edənləri evdə oturanlardan dərəcə etibarilə üstün etdi. Hamısına gözəlliyi (cənnəti) vəd etmişdir; lakin Allah cəhd edənləri (səy göstərənləri) oturanlardan daha böyük mükafatla üstün etmişdir. (Nisa surəsi, 95)**

Bu ayədə Quranda bildirildiyi şəkildə şövq və həyəcana malik olmadıqları üçün, özlərinə bir o qədər məsuliyyət verilməyib sərbəst buraxılan və möminlər tərəfindən idarə edilən insanların

vəziyyəti açıqlanır. Quranda qəti əmrlə bildirildiyi halda, dinin mənfəətləri üçün səy göstərməkdən yayınmaq və peşmanlıq hissi keçirmədən bunu davam etdirmək, Quran ayələrində qınanan əxlaqdır. Quranda belə bir insanın, həyatını həmişə mübarizə içində keçirən, Allahın rizasını qazana bilmək üçün canını və malını tamamilə ortaya qoymuş möminlərdən dərəcə etibarilə çox fərqli mövqedə olduğu bildirilmişdir. Ayədə işlənən; **"dərəcə etibarilə üstün etdi"** ifadəsi, üzrlü səbəbləri olmadan oturanlarla möminlər arasındakı fərqin nə qədər böyük olduğunu göstərir. Dünya həyatındakı azacıq mənfəət, aldadıcı rahatlıq naminə axirətin üstün dərəcələrini fəda etmək əsla möminə yaraşmaz. Allahı hər şeydən çox sevən, Allahın rizasını qazanmaqdan başqa heç bir məqsədi olmayan saleh mömin üçün Allah yolunda elmi mübarizə aparmama, bu mövzuda tənbəllik göstərmək kimi bir şeydən əsla söhbət gedə bilməz. Mömin əlindəki bütün imkanlardan sonuna qədər istifadə edərək, Quran əxlaqını hakim etmək üçün fikrən mübarizə aparar və bundan böyük zövq alar. Allahın rizasını qazanmaq üçün səy göstərməyin, Allah yolunda mübarizə aparmağın verdiyi böyük həzz isə heç bir dünyəvi nemətlə müqayisə olunmayacaq qədər qiymətlidir. Bir sözlə, mömin üçün Allah yolunda elmi mübarizə aparmaq gözəllik və nemətdir.

## Etməyəcəyi şeyi deməmək

Etməyəcəkləri şeyləri söyləmələri, Quranı yaşamayan, Quran əxlaqından xəbərsiz olan insanların ortaq xarakter xüsusiyyətlərindəndir.

Bu insanlar özlərini olduqlarından üstün və vacib insan kimi göstərmək, təşəxxüs satmaq məqsədilə edə bilməyəcəkləri şeyləri deyər, öhdəsindən gələ bilməyəcəkləri işlərdən bəhs edərlər. Müvəqqəti xeyir və mənfəətlər əldə etmək üçün əslində etməyə heç niyyətləri olmadığı şeyləri vəd edirlər. Bu qeyri-səmimi hərəkətlər cəmiyyət içində çox yadırğadılmayan və əhəmiyyət verilməyən, vərdiş edilmiş bir davranışdır. Halbuki insanların edə bilməyəcəkləri şeyləri demələri Allah dərgahında sevilməyən və günah kimi xarakterizə edilən bir davranışdır:

**Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz şeyi deməyiniz Allah dərgahında qəzəb (səbəbi olması) baxımından böyüdü (böyük günha təşkil etdi). (Saff surəsi, 2-3)**

Bu davranış, yalançılıq, ikiüzlülük və səmimiyyətsizlik kimi, ayələrdə qınanmış bir çox pis xüsusiyyəti də özündə saxlayır. Quranda göstərilən gözəl əxlaqı ən mükəmməl şəkildə yaşamağı özlərinə prinsip qəbul etmiş möminlər, Allah dərgahında bəyənilməyən bu davranışdan diqqətlə uzaq dayanarlar.

## İtirilənlərə görə kədərlənməmək və əldə edilənlərə görə qürrələnməmək

Müsəlmanların Allaha və Onun dininə qeyd-şərtsiz sədaqət göstərərlər. Buna görə də, müsəlmanın din əxlaqını yaşamaqdakı şövqü, əhvali-ruhiyyəsi, gücü, qətiyyəti şəraitdən asılı olaraq dəyişməz. Bu, mühüm Quran əxlaqıdır. Bu mövzu ilə əlaqədar olaraq Quranda müsəlmanın iki əsas

xüsusiyyəti bildirilir. Birincisi, müsəlmanın heç bir çətin şəraitdə sarsılmaması və zahirən çətinlik kimi görünən hadisələrdən ötrü əhvali-ruhiyyəsinin pozulmamasıdır. İkincisi isə sahib olduğu imkanlara görə lovğalığa və təkəbbürə qapılmamasıdır. Allah müsəlmanların bu xüsusiyyətini bir ayədə belə bildirir:

**Bu sizin əlinizdən çıxana kədərlənməməyiniz və sizə verilənə də sevinib qürrələnməməyiniz üçündür. Allah təşəxxüs satıb, qürrələnən heç bir kəsi sevməz! (Hədid surəsi, 23)**

İnsan öz həyatında nələrlə qarşılaşacağını əsla bilməz. Bəzən ən gənc yaşında heç gözləmədiyi xəstəliyə tutula bilər və ya bir qəza nəticəsində ömrünü yataq xəstəsi kimi başa vura bilər. Bütün mülkünü itirə və ya qarşılaşdığı hadisələr heç ehtimal etmədiyi şəkildə baş verə bilər. Belə vəziyyətdə Allaha imanı zəif olan insanlar ümidsizliyə qapılar və düşdükləri vəziyyətlərə üsyan edərlər. Allahın onlara verdiyi bütün nemətləri bir anda unudar və Allaha olan sevgi və etibarlarını bir anda itirə bilərlər. Əsl müsəlmanların fərqi məhz bu yerdə ortaya çıxır. Çünki müsəlmanlar Allaha qeyd-şərtsiz iman gətirirlər. Onların Allaha olan sevgi və etibarları başlarına gələn hadisələrə görə dəyişmir. Şübhəsiz ki, bu çox böyük əxlaq pozuntusudur. Məhz əsil müsəlmanların fərqi bu vəziyyətlərdə ortaya çıxar. Çünki müsəlmanlar Allaha şərtsiz iman gətirərlər. Allaha olan sevgi və etibarları başlarına gələn hadisələrə görə dəyişməz. Allahın hər şeydə gözəllik və xeyir yaratdığını bilər və başlarına gələn, gözlənilməz hadisələr qarşısında yalnız səbir edərək təvəkkül edərlər.

Onların Allahın ağlına, mərhəmətinə, ədalətinə olan etibarları tam və qətidir. Buna görə də nəyi itirmələrindən asılı olmayaraq, bunu itki saymaz və buna görə məyus olmazlar. Həmçinin, Quranda əsil müsəlmanların olduqca dinamik, elmi mübarizə içində və bəzən də çətinliklərlə dolu həyat keçirəcəkləri bildirilir. Haqqı təbliğ və müdafiə edən hər müsəlman, mütləq, haqqın ortaya çıxmasından narahat olan insanların əngəl və təzyiqləri ilə qarşılaşacaq. Müsəlmanların insanları dəvət etdiyi gözəl əxlaqı öz mənfəətlərinə uyğun görməyən və din əxlaqının yaşanmasını istəməyən insanlar, əlbəttə, olacaq.

Məhz bu insanlar bəzən sözlə, bəzən də əməli surətdə müsəlmanların din əxlaqını yaşamalarına və insanları Quran əxlaqına dəvət etmələrinə mane olmaq istəyəcəklər. Bu maneələr əsnasında müsəlmanlar bəzən maddi itkiyə uğraya bilər, bəzən həyatları təhlükə ilə üzləşə bilər, bəzən də yaşadıqları yerləri tərk etmək məcburiyyətində qala bilərlər. Lakin itki kimi görünən bütün bu hadisələr müsəlmanlara axirətdə böyük mülk, gözəllik və ehtişam kimi geri qayıdacaq. Buna görə də müsəlmanlar başlarına gələn hər bir hadisəni sevinc və şövqlə qarşılayarlar.

İnsanların həyatında gözlənilməz itkilər ola biləcəyi kimi, gözlənilməz böyük qazanclar da ola bilər. Allah istədiyi insana Öz mülkünün qapılarını tam şəkildə aça bilər, ona uğur, hakimiyyət, səlahiyyət verə bilər. Belə vəziyyətdə Allah müsəlmanların sevinərək qürrələnməmələrinin lazım olduğunu bildirir. Çünki insan mal-mülkdə, səlahiyyətdə və ya hər hansı qazancda yalnız əmanət sahibidir. Belə ki, insana verilən hər şeyin əsas və yeganə sahibi Allahdır. Buna görə də insan özünə aid olan hər hansı xüsusiyyətə görə deyil, Allahın lütfünə və diləməsinə görə rahatlıq və qazanca malikdir. Məhz bunu bilən müsəlmanlar çox böyük nemətlərə və var-dövlətə malik olsalar

da, aciz olduqlarını əsla unutmaz və böyüklük iddiasında olmazlar. Sadəcə Allaha şükür edər və özlərinə verilən nemətlərin haqqını verməyə çalışarlar.

## Etdiyi əməllərə görə sevinib etmədikləri ilə öyünməmək

Gördüyü işlərlə lovğalanmaq eləcə də həqiqətdə etmədiyi işlərlə öyünmək cəmiyyətdəki bir çox insan üçün xeyli normal davranışdır. Halbuki Ali İmran surəsinin 188-ci ayəsində bu davranışın Allah dərgahında bəyənilməyən əxlaq olduğu bildirilir. Ayədə belə buyrulur:

**Etdikləri əməllərə görə sevinən və görmədikləri işlərə görə tərif olunmağı sevən kimsələri (qazanclı) hesab etmə, onların əzabdan xilas olacaqlarını da güman etmə. Onları şiddətli əzab gözləyir! (Ali İmran surəsi, 188)**

Belə davranışların təməlində insanın öz əməli hesab etdiyi, əslində isə yalnız Allahın diləməsi və yaratması ilə baş verən işləri özünə aid etmək və bunlarla öz nəfsini ucaltmaq kimi azğın cəhdlər dayanar. Halbuki insan bir işi özü etsə də, etməsə də, əslində, o işi yaradan sonsuz güc və elm sahibi olan Allahdır.

Heç bir insanın özünəməxsus müstəqil gücü yoxdur. Hər şey və hər hadisə Allahın icazəsi və diləməsi ilə baş verir. Dolayısilə insanın sərbəst şəkildə etməyə gücünün çatmayacağı bir şeyə görə lovğalanıb öyünməsi, bu şeyi yaradan Allahı lazımınca qiymətləndirə bilmədiyini göstərir. Bu da insanın öz nəfsini ilahlaşdırması (Allahı tənzih edirik) və nəfsini Allaha şirk qoşması mənasına gələr. Allah Öz ayələrində Ona şirk qoşmağın ən böyük günah olduğunu, bundan əl çəkməyən insanları bağışlamayacağını bildirmişdir. Rəbbimizin sonsuz gücünü təqdir etmək əvəzinə, özünü öyüb yüksəltməyə çalışan insanlar Quranda şiddətli əzabla müjdələnmişlər.

## Lağ etməmək, alçaldıcı ləqəblər qoymamaq

İnkarçılar özlərini yüksəltmək və başqa insanlardan üstün mövqe tutmaq arzusu ilə hər dəfə kiməsə lağ etmək, kimisə alçaltmaq, kiməsə ləqəb qoymaq kimi çirkin əməllərə əl atarlar.

Allah möminlərin bir-birlərinə qarşı cahil insanların əxlaqına aid olan bu davranışları göstərmələrini qadağan etmişdir Allahın bu hökmü Quranda belə bildirilir:

**Ey iman gətirənlər! Bir camaat digərini məsxərəyə qoymasın. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Qadınlar da qadınları lağa qoymasınlar. Ola bilər ki, bunlar onlardan daha yaxşı olsunlar. Öz nəfsinizi (öz özünüzü) yadırğayıb - hörmətdən salmayın və bir-birinizi pis ləqəblərlə çağırmayın. İman gətirdikdən sonra fasiq adlanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır. (Hucurat surəsi, 11)**

Möminlər Quranın bu hökmünün tələbi olaraq, bir-birlərinə qarşı olduqca səmimi hörmətlə yanaşarlar. Çünki mömin, Allahın ruhunu daşıyan, Allahın bir çox xüsusiyyətlərini özündə əks

etdirən, Quranın bir çox yerində təriflənmiş, sonsuz mükafatla müjdələnmiş varlıqdır. Möminlər bir-birinə Quranda bildirilən bu yaxşı gözlə baxmalı və bir-birlərinə yüksək əxlaqla yanaşmalıdırlar. Çünki əks təqdirdə, Allahın bu hökmünü qulaq ardına vuran insan həmin ayənin davamında bildirilən "iman gətirdikdən sonra fasiq adlanmaq" təhlükəsi ilə qarşılaşa bilər. Tövbə edib bu davranışını düzəltməsə, yenə ayədə bildirildiyi kimi, zalımlardan olar. Zalımlıq isə Quranda iman gətirməyənlər üçün istifadə edilən terminlərdən biridir. Sözlə, ləqəb qoymaqla yanaşı, müxtəlif mimika və hərəkətlərlə də lağ etmək olar. Allahın Hüməzə surəsindəki qaş və göz ifadələri ilə lağ edənlərlə bağlı xəbərdarlığı düşünüldüyü təqdirdə, lağ etməyin Allah dərgahında nə qədər böyük günah olduğu daha yaxşı aydın olar:

**Qeybət edib göz-qaş hərəkətləri ilə lağ edən hər kəsin vay halına! (Hüməzə surəsi, 1)**

Belə davranan insanın ayənin davamında bildirilən aqibəti, lağ etməyin möminlər üçün son dərəcə çəkinilməsi lazım gələn bir hərəkət olduğunu daha yaxşı ortaya qoyur:

**Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. O Od ki, qalxıb ürəklərə çatacaq. Həqiqətən, o Od onların üzərində qapanacaqdır. Özləri də orada yüksək dirəklərə bağlanmış olacaqlar. (Hüməzə surəsi, 4-9)**

Mömin başqa bir möminin səhvini müəyyənləşdirib, onu xəbərdar edərkən lağlağı üslub işlətməməyə və bu şəkildə onu incitməməyə çox diqqət yetirməlidir. Belə halda qarşı tərəfin səhvini müəyyənləşdirmək və onu xəbərdar etməklə, insanın özünü qarşısındakından daha ağıllı hesab etməsi, özünü səhvsiz görməyə başlaması yanlış hərəkət olar. İnsanın başqa birinin xəta, nöqsan və ya çatışmayan cəhətlərini müəyyənləşdirib ona lağ etməsi, bunları müəyyənləşdirən insanın daha ağıllı, daha üstün olduğunu göstərməz. Hətta ayədə bildirildiyi kimi, lağ edilən insan bəlkə də Allah dərgahında, özündən daha xeyirli, dolayısılə daha üstündür. Ayənin hökmünü pozaraq lağ edən insanın isə ağıllı olmadığı, tam əksinə, ağlının qapandığı ortadadır. Həmin insan bu hərəkətindən əl çəkməyib müstəğni davranışlarına davam etsə, o, başqa bir ayədə bildirildiyi kimi, "azğın" bir insana çevrilə bilər.

## Müsəlmanlara dəstək vermək və mübahisə etməmək

Allah Öz ayələrində möminlərin birlik və həmrəylik içində hərəkət etmələrini, bir-birlərinə hər məsələdə dəstək vermələrini və kömək etmələrini xatırlatmışdır.

Müsəlmanlar vicdanlı, əxlaqlı və şərəfli həyat yaşadıqları üçün Allahın sevdiyi və dəyərli saydığı insanlardır. Lakin Quranda Allah dərgahında dəyərli və hörmətli olan bu qulların sayının azlığına diqqət çəkilir. Allah ayəsində əksər insanların iman gətirməyəcəyini və iman gətirən

insanların bir çoxunun da şirk qoşmadan iman gətirməyəcəyini bildirir. Bu isə əsil müsəlmanların yer üzündə azlıq təşkil edəcəyi mənasına gəlir. Dolayısilə bircə müsəlmanın belə iman gətirənlər baxımından əhəmiyyəti çox böyükdür. Belə ki, Quranda müsəlmanların bir-birləri üçün dəyəri, qoruyucu, himayə edən, köməkçi mənasına gələn "vəli" sözündən istifadə edilərək açıqlanır.

Elə buna görə də Allah hər əsrdə sayları olduqca az olan iman sahibi insanların bir-biri ilə sıx bağlı olmalarını əmr etmişdir. Müsəlmanların bir-birinin dəyərini yaxşı bilmələri, hər hansı çətinliklə üzləşəndə bir-birinə tam dəstək vermələri və birləşmələri Quranda müsəlmanların üzərinə qoyulan öhdəliklərdən biridir. Müsəlmanlar hər bir hadisə zamanı və ya hər bir şəraitdə bir-birini Allahın əmrinə görə qoruyar və dəstəkləyərlər. Şifahi, yazılı maddi və ya mənəvi olaraq bütün imkanlarıyla müsəlmanların güclənməsi, inkişaf etməsi və irəliləməsi üçün səy göstərərlər. Allah müsəlmanların bir-birinə necə bağlı olmalarının lazım gəldiyini bir ayədə bu bənzətmə ilə xəbər verir:

**Şübhəsiz ki, Allah Öz yolunda möhkəm divar kimi səf çəkib döyüşənləri sevər! (Saff surəsi, 4)**

Ayədə bildirilən ən mühüm xüsus, müsəlmanlar arasında pozulması mümkün olmayan əlaqənin olmasının vacibliyidir. Bu, müsəlmanlar arasında mənəvi bağlılıq qədər, zahirən aydın görünən güclü bağlılığın da yaranmasının lazım olduğuna işarə edir. Yəni Quranda müsəlmanları uzaqdan seyr etmək və dəstəkləmək kimi məntiq yoxdur. İman gətirən bir insanın yeri, hər şeyi ilə müsəlmanların yanıdır. Buna görə də, inanc sahibi olan bir insan ibadətlərini, xidmətlərini və fikri mübarizəsini müsəlmanlar arasında yerinə yetirməklə, onlara dəstək verər.

Allahın şanının ucaldılması, İslam dininin maraqlarının və möminlərin haqlarının qorunması, cahil insanların əxlaqına qarşı fikri mübarizənin aparılması, çox güclü birlik və həmrəyliyə əsaslanaraq mümkün ola bilər. Eyni zamanda möminlər Qurana əməl etməkdə, Allahın əmrlərini yerinə yetirməkdə təkcə bu yolla müvəffəq ola bilər və Allahın rizasını qazana bilərlər. Buna görə də möminlər arasındakı bağlılığın, həmrəylik və qardaşlıq ruhunun zədələnməsinə və ya zəifləməsinə səbəb ola biləcək hər cür rəftar və davranışdan qətiyyətlə uzaq olmaq lazımdır. Məhz bu məqsədlə qaçılması lazım olan davranışların başında da "mübahisə etmək" gəlir.

Şeytanın da hər yöndən dəstəklədiyi bu davranışı Allah Quranda qəti şəkildə qadağan etmişdir:

**Allaha və Rəsuluna itaət edin. Bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir! (Ənfal surəsi, 46)**

Möminlər arasındakı həmrəylik və birlik, onların inkarçılar qarşısındakı güclərinə də təsir edən, həyati əhəmiyyət kəsb edən amildir. Mübahisə etmək isə ayədə də bildirildiyi kimi, bu gücü zəiflədən, heç bir məsələdə həll gətirməyən, fayda verməyən, şeytanın təşviqi ilə göstərilən nəfsani davranışdır. Buna görə də bir anlıq qəflətə qapılaraq mübahisə edən mömin dərhal diqqətini

toplayıb ayənin hökmünü xatırlamalı, etdiyi işin Allahın bəyənmədiyi bir iş olduğunu dərk edib, bu davranışından imtina etməli, tövbə edərək bir daha təkrarlamamalıdır.

Möminlər bu cür şeytani şəraitlər və ya bunlara səbəb ola biləcək danışıq və davranışlar qarşısında diqqətli olmalı, belə bir davranışa dərhal müdaxilə edərək onun qarşısını almalıdırlar. Çünki Allah möminlərin hədəfini Quranda bildirmişdir. İnkarçılar, müşriklər və münafiqlərin birləşərək iman sahiblərinə qarşı mübarizə apardığı halda, onları buraxıb möminlərlə mübahisə etmək, onların şövqünü zəiflətmək, gücünü azaltmaq Qurana uyğun olan bir davranış deyil.

Möminlərə hər məsələ ilə bağlı ən doğru yolu Allah və Onun elçisi göstərmişdir. Hansı məsələdə olursa-olsun, Allahın dərgahında qəbul edilən tək bir həqiqət var. Möminlərin heç birinin bir məsələdə digərlərindən fərqli anlayışı, fərqli düşüncəsi ola bilməz. Dolayısilə Quranda tərif edilən möminlər arasında heç bir mövzuda ixtilaf və ya münaqişədən söhbət gedə bilməz. Çünki Quranda diqqət çəkildiyi kimi, fikir ayrılığı və ixtilaf təkcə inkarçılara məxsus xüsusiyyətdir. Quranda möminlərin anlaşmazlığa düşdükləri məsələlərdə Allaha və Onun Rəsuluna müraciət etmələri əmr edilir. Beləliklə hər məsələ ən doğru şəkildə həll olunar. Yoxsa möminlərin öz aralarında, problemləri mübahisə etməklə həll etməyə çalışaraq nəticə əldə etmələri Qurana tamamilə ziddir. Digər bir ayənin hökmüylə də möminlərin mübahisə etmələrinə, aralarının dəymələrinə qarşı, şeytana qapıları bağlayacaq ən gözəl üsulun “sözün ən gözəlini söyləmək” olduğu bildirilmişdir:

**Bəndələrimə, ən gözəl sözləri demələrini söylə. Çünki şeytan aralarını vurmağa çalışır. Şübhəsiz ki, şeytan insanın açıq-aydın düşmənidir. (İsra surəsi, 53)**

## Zənnə qapılmamaq, qeybət və təcəssüs etməmək

Ey iman gətirənlər! Zənnə qapılmaqdan çox çəkinin; çünki zənnin bir qismi günahdır. Təcəssüs etməyin (bir-birinizin gizli yönlərini araşdırmayın). Bir-birinizin qeybətini etməyin (arxasından danışmayın). Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Məhz, bundan iyrəndiniz. Allahdan qorxub-çəkinin. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, çox Rəhmlidir. (Hucurat surəsi, 12)

Ayədə mömininin çəkinməli olduğu üç mühüm davranışdan bəhs edilir: zənnə qapılmamaq, qeybət etməmək, təcəssüs etməmək... Bunlar eyni zamanda bir-biri ilə bağlı olan davranışlardır. Çünki qeybət edən, yəni bir mömininin arxasınca dedi-qodu edən insan, deməli onun haqqında onsuz da bəzi mənfi zənlər də bəsləyir. Eynilə təcəssüs edən bir insan da müxtəlif zənlərdən ötrü belə davranışa yol verir.

Bu davranışların üçünün də ortaq xüsusiyyəti möminləri incidən, möminlər arasındakı bərabərliyi və həmrəyliyi pozan, sevgini, şəfqəti və mərhəməti azaldan davranışlar olmasıdır. Bütün bunlar küfr cəmiyyətinin gündəlik həyatında imtina edilməz hal almış çirkin vərdişlərdir. Cahil cəmiyyətin çox təbii qarşıladığı bu vərdişlərin əslində nə qədər narahatedici hərəkətlər olması ayədəki qeybətlə bağlı misaldan da aydın ola bilər. Həmçinin başqa bir ayədə də Allahın "qeybət edənlər" haqqında böyük xəbərdarlığı var. Ayədə belə hökm edilir:

**Qeybət edib göz-qaş hərəkətləri ilə lağ edən hər kəsin vay halına! (Hüməzə surəsi, 1)**

**Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. (Hüməzə surəsi, 4-6)**

Göründüyü kimi, ayənin davamında həmin davranış tərzini mənimsəyənlərə qarşı qəti cəhənnəm təhdidi var. Bu pis əxlaqın möminlərin çox diqqət yetirməli olduğu Qurandan kənar bir davranış olduğu aydındır. Şeytan, inkarçıların bir-birinə bəslədiyi kin, həsəd və paxıllıqdan irəli gələn təcəssüs və qeybət kimi davranışları möminlərə məntiqli göstərmək üçün, bunları din adından etdirməyə çalışa bilər. Məsələn, səhv və nöqsanları olan bir möminin arxasınca qeybət etməyi onun yaxşılığı və ya dinin mənfəəti üçün olan hərəkət kimi göstərməyə çalışa bilər. Halbuki Allah bu davranışı möminlərə Quranda qəti qadağan etmişdir.

Ayədə bildirilən, möminlərin çəkinməsi lazım olan səhvlər arasında başqa bir davranış da "zənnə qapılmamaq"dır. Qeybət və təcəssüs zənnə görə daha konkret, yəni kənardan görünə bilən səhvlərdir. Buna görə də, bu səhvləri edənləri görən digər möminlər onları xəbərdar edib bu davranışdan çəkindirmək imkanı əldə edirlər. Lakin zənn, qəlbdə yaranan və aşkara çıxarılmadıqca möminin təkcə özünün müəyyən edib tədbir ala biləcəyi bir hadisədir. Bunu etməyib qəflətə düşsə, öz-özünə düşünərkən ayədə günah sayılan bir çox pis zənnə qapıla bilər. Buradan möminin təkcə etdiklərindən deyil, niyyətindən, duyğu və düşüncələrindən də məsul olduğunu anlayırıq. Kitab boyunca təhlil edəcəyimiz kin, həsəd, qorxu, sevgi və buna bənzər bir çox anlayış da məsuliyyət gətirən bu duyğulardandır. Buna görə də, möminin ağlından keçirdikləri və hiss etdikləri də Allahın hüdudlarını aşmamalıdır. Quranı və sünnəni rəhbər tutaraq öz duyğu və düşüncələrini tərbiyə edən insan isə şübhəsiz ki, ən doğru yola çatar.

## Qəzəbi boğmaq

Möminin qəzəbini boğması, onun səbəb ola biləcəyi müxtəlif səhvlərdən və zərərlərdən qorunmasına vəsilə olar. Quranda qəzəbi boğmaqla əlaqədar belə buyurulur:

**Onlar, bolluq zamanı da, qıtlıq zamanı da mallarından Allah yolunda xərcləyənlər, qəzəblərini boğanlar və insanlar(dakı haqqların)dan bağışlayaraq (vaz) keçənlərdir. Allah yaxşılıq edənləri sevər. (Ali İmran surəsi, 134)**

Müəyyən hallarda insanın qəzəblənməsi, yaradılışından qayanaqlanan bir davranış olsa da, ayədə bildirildiyi kimi mömin bu davranışı davam etdirməməli, qəzəbini boğmalıdır. Çünki qəzəb insanın əqli funksiyalarını pərdələyən, onun hadisələri sağlam şəkildə qiymətləndirib doğru qərar qəbul etməsinə mane olan amildir. Belə olan halda da insanın Allahın hüdudlarını lazımınca qoruya bilməsi təhlükə qarşısında qalır. Ədalətdən uzaqlaşmaq, Quranda qəzəbin ən mühüm zərərlərindən biri kimi göstərilir. Çünki qəzəbin ağla pərdə çəkməsi nəticəsində aparılan qiymətləndirmələr və verilən qərarlar emosional olur ki, bu da Qurana uyğun ədalətli nəticəni vermir.

İnsanlara, xüsusən də möminlərə qarşı bəzi şəxsi məsələlərə görə duyulan qəzəb dərhal aradan qaldırılmalı, şəfqət və mərhəmət hissi əsas götürülməlidir. Qəzəblənən insan haqsızdırsa, onsuz da qəzəblənməyə heç bir haqqı olmadığı kimi, haqsız olduğunu qəbul edib səhvini düzəltməlidir. Əgər haqlıdırsa da, yenə qəzəbini boğmalı və ayənin bildirdiyi kimi, bağışlayan olmağı seçməlidir.

Aləmlərə rəhmət olan, mübarək Peyğəmbərimiz (s.ə.v) də qəzəbi boğmağın əhəmiyyətini bir hədisində belə bildirmişdir:

**...İbn Ömər (r.ə)-dən rəvayət edildiyinə görə; Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "bir (mömin) qulun sırf Allah rizasını tələb etmək üçün udduğu qəzəb qurtumundan Allah dərgahında savab baxımından daha böyük qurtum yoxdur". (Mace, 10-cu cild, səh. 462)**

Bura qədər bəhs etdiyimiz nümunələr, gündəlik həyatda möminlərin başına gələ biləcək müəyyən hallardandır. Bunlardan başqa, yerli-yersiz hər şeyə qəzəblənən insan qrupu da vardır ki, bunlar, təvəkkül, insanların və hadisələrin tamamilə Allahın nəzarəti altında olması kimi əsas imani məsələləri lazımınca dərk edə bilməmişlər. Bu imani çatışmazlıq da ruh hallarına əsəbilik şəklində əks olunmuşdur. Həmişə əsəbi vəziyyətdə olduqlarına görə qəzəblərini boğmağı bacara bilmirlər. Buna görə ilk öncə imani zəifliklərini aradan qaldırmalı, imanlarını çox gücləndirməlidirlər. Eyni zamanda möminin vətənsevərlik duyğusunu digərləriylə qarışdırmamaq lazımdır. Möminlərə qarşı bir haqsızlıq və zülm ediləndə, müsəlmanlara qarşı hər hansı təhqir və ya hücum olanda, möminin vətənsevərliyinin olması onun imanından irəli gələn haqlı və doğru davranışdır. Bu möminlərin elmi mübarizə şövqünü və həyəcanını artıran, onları motivasiya edən ilahi duyğudur.

## Fasiqin xəbərinə əsasən hərəkət etməmək

Doğru yoldan azmış, Allaha üsyana əsaslanan həyat tərzini mənimsəmiş insan fasiqdir. Dolayısilə, ondan Quranın hüdudlarını qoruması, ədalət, doğruluq, dürüstlük, etibarlılıq kimi möminə xüsusiyyətlərinə sahib olmasını gözləmək olmaz. Həmçinin fasiq Allah qorxusu olmayan, möminlərin imanını qısqanan, əlindən gəlsə möminləri də doğru yoldan azdırmaq istəyən, onlara zərər vurmaqdan və öz aləmində onları kədərləndirməkdən zövq alan insandır. Lakin, əlbəttə ki, bu məqsədinə nail olması qeyir-mümkündür. Çünki hər nə etsə də, öz aləmində möminlərin əleyhinə necə bir tələ qursa da, Allah bütün bu planları alt-üst edəcək və yaşanan hər hadisə möminlərin xeyirinə olacaq.

Fasiqdən möminlərə çatan bir xəbər dəqiq məlumat xüsusiyyəti daşımayan, doğru olub-olmadığının araşdırılması lazım olan bir məsələdir:

**"Ey iman gətirənlər! Əgər bir fasiq sizə bir xəbər gətirsə, onu "ətraflı şəkildə araşdırın". Yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!" (Hucurat surəsi, 6)**

Doğru olub-olmadığını araşdırmadan, fasiqdən gələn bir xəbərdən ötrü (Quranın meyarlarına əsasən) etibarlı məlumat olmadan hökm vermək, Allahın ayədə bildirdiyi kimi

"cahilcəsinə" hərəkət olar. Həmçinin başqa bir ayə ilə də iman gətirənlərin, **"haqqında məlumatları olmayan bir şeyin arxasına düşmələri"** (İsra surəsi, 36) qadağan edilmişdir.

## Hörmətli Adnan Oktarın müsəlmanların birlik olmalarının əhəmiyyəti ilə əlaqədar açıqlamaları

**Adnan Oktar:** Bir də müsəlmanlara baxın ən asanını deyirəm, bir kərə **müsəlmanları sevsinlər, bunun nə çətinliyi var? Bir-birlərinə şübhə ilə baxırlar, bir kərə bu camaat ayrılıqları, məzhəb ayrılıqlarından irəli gələn qəzəb və ayrılığı tamamilə yox etməlidirlər.** Baxın ən asanını deyirəm, bunu edə bilmirəm deyə bilməz, bunda əziyyət vardırmı? Çətinlik vardırmı? Gedəcək salam aleykum – aleykum salam qardaşım necəsən deyəcək. Yemək yeyəcək, söhbət edəcək, baxın ən asanını söyləyirəm. Bu çox böyük fitnədir, bir kərə bu aradan qalxmalıdır. **Müsəlmanlara hüsnü-zənn bəslənilməlidir.** Dedi-qoduya çox meyllidir müsəlmanlar, çox hissəsi belədir, yaxşı olanlar da var, onları da tənzih edirəm. Hətta məsələn bir dərs mühiti, nəsə olan kimi, dərhal camaatlar barədə dedi-qodu etməyə başlayırlar. Mən bunu çox gördüm. Ən şirin gələn şeylərdən biri bu olur. Yəni iki insan bir yerə gəlsə dərhal dedi-qodu etməyə başlayırlar. **Dedi-qodu haramdır, Allah müsəlmanın ətini yeməyə bənzədir. Həmçinin bu bərəkətsizlik, uğursuzluq gətirər.** Çox pis şeydir inşaAllah. Bundan başqa İslam əxlaqının dünyaya hakim olması üçün dua edilməlidir. Məsələn, internet saytı; hər kəs saytına yerləşdirsin; "ey Rəbbim, Türk-İslam Birliyini görməyi bizə nəsib et". Elə deyil? "Bütün müsəlmanların birlikdə yaşadığını görməyi bizə nəsib et". "Ey Rəbbim, məsələn Mehdi (ə.s)-ın zühurunu bizə nəsib et". Bir çox başlıq qoya bilərlər. Onların saytına girən, bununla qarşılaşsın. Bu dua yayılsın. Yəni bu əsrdə İslamın hakim olmasını istəyən çox az insan var. *(Adnan Oktarın Kayseri, Samsun AKS və Gaziantep Olay telekanallarına verdiyi müsahibədən, 2 dekabr 2009-cu il)*

## Allahın ayələrinə qarşı mübarizə aparan insanlara sevgi bəsləməmək

Möminin bütün dəyər mühakimələri Quran və sünnəyə əsaslanır. Sevgi də bunlardan biridir. Mömin təkcə Allahı və Allahın sevdiklərini sevər. Allahın və möminlərin düşmənlərinə qarşı isə əsla sevgi bəsləməz. Bu, Allahın Quranda müəyyən etdiyi açıq və qəti hökm olmaqla yanaşı, onsuz da səmimi mömin imanının təbii nəticəsi olaraq başqa cür hiss edib hərəkət edə bilməz. Bunu içindən gələrək səmimi şəkildə edər. İmanının dərəcəsi ölçüsündə, Allaha və möminlərə duyduğu sevginin dərəcəsi də artar. Buna görə, ən yaxınları üçün olsa da, möminin bu meyardan kənara çıxan dünyagörüşünə sahib olması qeyri-mümkündür.

Ayədə bu hal belə bildirilir:

**Allaha və axirət gününə iman gətirən hər hansı qövm (camaat) tapa bilməzsən ki, onlar Allaha və Elçisinə asi olanlarla - ataları, övladları, bacı-qardaşları, öz əşirətləri (nəsilləri) olsa belə - sevgi (və dostluq) əlaqəsi yaratmış olsunlar. Onlar elə kimsələrdir ki, (Allah) onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir... (Mücadilə surəsi, 22)**

Lakin hər şeyə baxmayaraq, bəzən Quran hökmlərini yeni öyrənən, iman və İslamla yeni tanış olmuş insanlarda keçmişdə yaşadıqları yanlış sevgi və dostluq anlayışlarını davam etdirmə

meyli ola bilər. Əsasən bilik çatışmazlığından və imani baxış prizmasının hələ tam olaraq qəlbə yerləşməmiş olmasından irəli gələn bu hərəkətin nə qədər yanlış olduğu Quranda belə bildirilir:

**Ey iman gətirənlər, mənim düşmənimi də, öz düşməninizi də özünüzə vəli tutmayın. Siz onlara qarşı sevgi bəsləyirsiniz, halbuki onlar haqqdan sizə gələni inkar ediblər, Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün elçini də, sizi də (yurdunuzdan) qovub çıxardıblar. Əgər siz Mənim yolumda cəhd etmək (səy göstərmək) və Mənim rizamı axtarmaq məqsədiylə çıxmısınızsa (necə) onlara qarşı hələ də sevgi bəsləyirsiniz? Mən, sizin gizlətdiklərini və aşkar etdiklərinizi bilirəm. Sizdən kim bunu etsə, artıq o, əlbəttə, yolun ortasından azmış olar. (Mumtəhənə surəsi, 1)**

Ayədəki bu açıq və qəti xəbərdarlıqdan sonra hələ də əvvəlki sevgi anlayışını davam etdirən, Qurana uyğun dəyər mühakimələrini mənimsəməyən bir insanın yolun ortasından azacağı bildirilir. Əgər insan bu azğın ruh halını gizlədib müəyyən mənfəətləri naminə möminlərin arasında qalmağa çalışsa da, Allah bunu gec-tez ortaya çıxardacaq. Bir ayədə belə bildirilir:

**Yoxsa siz, aranızdan cəhd edənləri (səy göstərənləri), həmçinin Allahdan, Onun Elçisindən və möminlərdən başqa sirdaş tutmayanları Allah "bilib (ortaya) çıxartmadan" buraxılacağınızı güman etdiniz? Allah nə etdiklərinizdən xəbərdardır! (Tövbə surəsi, 16)**

## Qınayanın qınağından qorxmamaq

Möminlər hər dövrdə, Allaha qulluq etmələri, Onun əmrlərini yerinə yetirmələri, insanların deyil, yalnız Allahın rizasını qazanmağa çalışdıqları üçün, yaşadıqları cəmiyyətlər tərəfindən yad qarşılanıblar. İnkarçıların formalaşdırdığı yanlış həyat tərzini və fəlsəfəsini rədd etdiklərinə və Quranda bildirilən əxlaqı mənimsədiklərinə görə müxtəlif reaksiyalarla üzləşiblər. İnkarçı cəmiyyətin bu reaksiyası, əks mövqeyə keçmə, mənəvi təzyiq, qınaq, fiziki hücum və əziyyət formasında baş tutub. Lakin Allaha qarşı tam etimada və sarsılmaz imana sahib olan möminlər, bu təzyiq və qınaqlar qarşısında dinlərindən azca da olsa güzəştə getməyiblər. Bu gözəl əxlaqlarından ötrü də, Allahın kömək və dəstəyini qazanaraq inkarçılar üzərində qələbə çalıblar.

Mömin, İslam əxlaqını yaşayarkən hər zaman fiziki hücumla qarşılaşmaya bilər. Lakin Allahın əmrlərini yerinə yetirməkdəki həssaslığı və inkarçıların batil düşüncə sistemini yox etməkdəki əzmkarlığından ötrü, ətrafındakı insanlar tərəfindən müxtəlif tənqid və qınaqlara məruz qala bilər. Lakin bu insanlar qısa müddət ərzində bu cür qınaqlara güzəştə getməyən, güclü iradəyə sahib olan, Allaha və özünə olan inamı tam olan möminləri yollarından azdıra bilməyəcəklərini dərk edərlər. Möminlər özlərini qınayanlardan deyil, təkcə Allahdan qorxarlar. Tam əksinə, ağılları, səbirləri, fərasətləri, qətiyyətləri və elmi mübarizələrindəki müvəffəqiyyətləri ilə, özlərini qınayanlarda böyük qorxu hissi yaradarlar. Bu cür qınaqlar möminləri daha da ruhlandırar.

Qınayanın qınağından qorxmaq eyni zamanda Allaha şirk qoşmaq deməkdir. Çünki Allah ayələrində "təkcə Özündən qorxulmasının lazım olduğunu" bildirir. Belə bir insan isə İslama deyil,

təkcə özünə zərər yetirər. Allah onun yerinə qınayanın qınağından qorxmayan və aşağıdakı ayədə sadalanan üstün xüsusiyyətlərə malik möminləri gətirər:

**Ey iman gətirənlər! Sizdən hər kim dinindən dönsə (bilsin ki), Allah (onun yerinə) Özünün onları sevdiyi, onların da Özünü sevdiyi, möminlərə qarşı təvazökar, kafirlərə qarşı isə "güclü və şərəfli", Allah yolunda cəhd edən (səy göstərən) və qınayanın qınağından qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (mərhəməti ilə) genişdir, biləndir. (Maidə surəsi, 54)**

## Nəfsi təmizə çıxartmamaq

Səhvsiz olmaq ilahi xüsusiyyətdir və yalnız Allaha məxsusdur. Quranda ən yüksək imana və əxlaqa sahib olan peyğəmbərlərin belə müxtəlif səhvlərindən bəhs edilir. Möminlərin də belə səhvlərdən və günahlardan çəkinməsi nəsihət edilir. Quranın bir çox yerində peyğəmbərlərə və bütün möminlərə bağışlanma diləmələri əmr edilir. Həmçinin Quranda iman gətirənlərin bilərəkdən və ya bilməyərəkdən günah edə biləcəkləri də bildirilir. Bu vəziyyət insanın Allah qarşısındakı acizliyinin, hər mövzuda, o cümlədən günah işləməmək, Allahın əmrlərini yerinə yetirmək və qadağalarını pozmamaq mövzusunda belə, yenə Allaha möhtac olduğunun bir göstəricisidir.

Möminin vəzifəsi isə səhv və günahını gördüyü zaman peşman olub imtina etmək, tövbə edib Allahdan bağışlanma diləyərək, eyni günahı yenidən etməməyə çox diqqət yetirməkdir. Yoxsa özünü səhvsiz, günahsız göstərmək, təmizə çıxartmaq deyil... Çünki belə etmək onsuz da Allahın bəyənmədiyi davranışdır:

**Belə ki, onlar, kiçik günahlar istisna olmaqla, böyük günahlardan və iyrənc əməllərdən çəkinərlər. Şübhəsiz ki, sənin Rəbbin çox bağışlayandır. O, sizi daha yaxşı tanıyandır; həm sizi torpaqdan yaratdığı və siz hələ analarınızın bətnində rüşeym halında olanda da. Elə isə özünüzü təmizə çıxartmayın. O, çəkinəni daha yaxşı tanıyandır. (Nəcm surəsi, 32)**

Özünü təmizə çıxartmaq narahatlığının altında yatan səbəb, insanın digər insanlar arasında özünü səhvsiz və qüsursuz göstərərək ucaltmaq istəməsidir. Halbuki bunu edən insan, nəinki yüksək yer tutmaq, tam əksinə, Allahın dərgahında və möminlərin gözündə alçalar. Açıqca olmasa da, müəyyən mənada ilahlıq iddia etdiyi üçün (Allahı tənzih edirik) səmimi möminlərin qəlbinə sıxıntı və narahatlıq verər. Öz aləmində möminləri aldadıb onların gözündə dəyər və üstünlük qazandığını güman etdiyi halda, acınılan və idarəedilən biri olduğunu görə bilməz. Bir müddət sonra özü də həqiqətən qüsursuz olduğuna inanmağa başlayar və gündən-günə özünü daha da alçaldan hərəkətlər edər.

Nəfsini təmizə çıxardan insan özünü günahsız gördüyü üçün Allahdan bağışlanma diləməyə, Allaha yalvarıb Ondan əfv diləməyə ehtiyac duymaz. Təkəbbürlənən, heç kimə ehtiyacı olmadığını zənn etdiyindən azıb, sanki özünü ilahlaşdırmış bir insana (Allahı tənzih edirik) çevrilər. Öz fəlakətini hazırlayar. Səmimi mömin isə öz acizliyini, qüsurunu dərk edər və buna görə də, həmişə

Allahdan bağışlanma diləyər. Allahın rəhmətini və rizasını qazanmağı umar. Bu halda Allah da onun qüsurlarını örtər, günahlarını bağışlayar, onu həqiqi mənada təmizləyər və üstün mövqeyə gətirər:

**Özlərini (tərifləyərək) təmizə çıxardanları görmədinmi? Xeyr; Allah istədiyini təmizə çıxardıb ucaldar. Onlara, "bir xurma çəyirdəyindəki nazik tel qədər" belə haqsızlıq edilməz. (Nisa surəsi, 49)**

## Hörmətli Adnan Oktarın fasiqlərin xəbərinə inanmağın əhəmiyyəti ilə əlaqədar açıqlamaları

### "Bəzi insanlar müsəlmanlara atılan böhtanlara araşdırmadan inanarlar"

"Masonların böhtanlarına, kommunistlərin böhtanlarına inanmaq müsəlmanı axirətdə məsul edər. Bax, deyir ki, Allah, "bir fasiq" deyir, yəni Quranın hökmünə əməl etməyən bir insan, Qurana görə hərəkət etməyən bir insan, "sizə bir xəbər gətirəndə", şeytandan Allaha sığınıram, "onu araşdırın, təhqiq edin, yəni gözünüzlə görün, qulağınızla eşidin, yoxsa inanmayın" deyir. Lakin indi belə olmur.

Məsələn, baxıb görürsən ki, bir mason nəşriyyat orqanında bir müsəlmanla əlaqədar müəyyən yazı dərc olunur. "Vay nələr olurmuş?" deyir. Lakin evdə qəhvəsini ağzını marçıldadaraq içir. Ayaqlarını üst-üstə aşırmışdı. Heç bir riskə girməz. Heç bir mübarizəyə daxil olmaz. Bundan başqa, bir əli yağda, bir əli baldadır, öz işində gücündədir, oğul-uşaq sahibidir. Öz ağlına görə işləri yolunda gedir dünyəvi mənada. Lakin digər tərəfdə müsəlman insan Allah rizası üçün varını-yoxunu Onun yolunda xərcləmiş, həyatın bütün ictimai yönlərindən çəkilmiş, hər cür təhlükənin içinə girmiş, dolayısilə hər cür böhtana, təzyiqə, zülmə məruz qalmışdır. Buna baxmayaraq, evindəki o kef içində yaşayan insanların mason qəzetlərdən öyrəndikləri xəbərlərin həmsöhbəti olur. Üstəlik, bir də özünü müdafiə etmək məcburiyyətində qalır.

Bax, o təbliğ etməyən, dini yaymayan insanlar onun haqqında şərh verirlər. O müsəlman da təbliğini dayandırır, bu dəfə onların şərhini də düzəltməklə məşğul olur. Halbuki burada heç olmasa o əhli-kef dəstə, "yoldaş" deməlidir, "mən bir ibadət edim, barı fasiqdən gələn xəbəri araşdırım, inanmayım, gözümlə görüm, qulağımla eşidim" deməli olduğu halda, bunu etmirlər. Bunu etmədikdə nə olar? Müsəlmanın aldığı savab on isə, milyon olar. Savab qazandırma səbəbidir bu varlıqlar. Yəni mütləq hikmətlə yaradılarlar. Məsələn, o olmasa, o fasiqin xəbərinə inanan insanlar olmasa, müsəlman daha az savab qazanar. Müsəlmanın savabını çoxaldan varlıqlardır onlar, bunun üçün onlar da xeyirlə, hikmətlə yaradılarlar. Lakin doğrusunu bilsinlər deyə söyləyirəm. Axirət məsuliyyətini anlasınlar deyə. Yoxsa fayda gətirirlər bu cəhətdən". *(Hörmətli Adnan Oktarın 25 yanvar 2010-cu ildəki Adıyaman Asu və Kral Karadeniz telekanallarına verdiyi müsahibədən)*

### Sevilən şeylərdən Allah yolunda xərcləmək

Səmimi və ixlaslı şəkildə, Allahın rizasından başqa heç bir məqsəd və əvəz güdmədən Allah yolunda xərcləmək imanın göstəricisidir. Allah yolunda xərcləyən möminlər bir çox ayədə təriflənmiş və müjdələnmişlər. Allah Ali İmran surəsinin 92-ci ayəsində Öz yolunda xərcləməklə bağlı belə buyurur:

**Sevdiyiniz şeylərdən Allah yolunda xərcləməyincə əsla xeyrə nail olmayacaqsınız. Şübhəsiz ki, Allah xərclədiyiniz hər şeyi biləndir! (Ali İmran surəsi, 92)**

İnsanın bir insana və ya bir şeyə verdiyi dəyər, onu əldə etmək üçün fəda etdiyi şeyin ölçüsü ilə düz mütənasibdir. Əgər insan bəzi şeyləri fəda edə bilmirsə, deməli, bu şeylər onun üçün daha dəyərlidir. Heç nə Allahın rizasından və rəhmətindən daha dəyərli ola bilməyəcəyi üçün əsil mömin bütün bunları əldə etmək üçün sahib olduğu hər şeyi bir anda gözdən çıxarda bilər. Belə etmədiyi təqdirdə sevgi və bağlılıq duyduğu bəzi dünyəvi şeyləri Allahın rizasından üstün tutduğu ortaya çıxar. Bu halda da ayənin bildirdiyi kimi, əsla xeyrə nail ola bilməz.

Bir insan Allah yolunda çox şey sərf edə, böyük xidmətlər göstərə, həmişə ibadət edə bilər. Dini biliyi çox artıq ola bilər. Lakin vəziyyət tələb etdikdə sevdiyi bir şeydən ayrıla və onu Allah yolunda sərf edə bilmirsə, bu, imani zəiflik və çox böyük çatışmazlıqdır. Çünki həmin şeyi Allah rizasından üstün tutur. Əməli nə olsa da, bu insan, imanın mahiyyətini qavraya bilməmiş, əvvəllər yaxşı işlər gördüyünü güman etdiyi halda, əməlləri puç olmuşdur. Sevginin təkcə Allaha duyulması, sevilən digər şeylərin və insanların isə yalnız Allahın təcəllası olaraq, Allah da onları sevdiyi üçün, Allahın rizasını qazanmaq üçün sevilməli olduqlarını əvvəlki fəsillərdə qeyd etmişdik. Allahın dərgahında qəbul edilən sevgi forması da budur.

Belə olan halda insan onsuz da sevdiyi, sahib olduğu şeyləri həmişə və heç tərəddüd etmədən sevə-sevə fəda edər. Sevgisi Allah üçün olduğundan heç nəyi itirməz. Çünki Allah hər yeri əhatə etmişdir. Ona şah damarından daha yaxındır. Heç nə itirmədiyi kimi Allahın istədiyi şəkildə davrandığı üçün Allahın daha böyük sevgi və lütfünə nail olar. Əlindən çıxan üçün kədərlənməz, əksinə daha çox sevinər. Əsil mömin davranışı da elə budur. Halbuki insan sevdiyi şeyi və ya insanı Allahdan müstəqil varlıq kimi sevirsə, onu Allaha şirk qoşmuş, bütləşdirmiş olar. Bu şeyi Allah yolunda sərf etməsi lazım gəldikdə, əgər, hər şeyə baxmayaraq, Allahın əmrlərinə tabe olub səmimi şəkildə Onu Allah yolunda sərf edərsə, Allahın diləməsi ilə, cahilliyi və nəfsi ucbatından içinə düşdüyü bu şirkdən təmizlənər. Nəticədə isə xeyrə nail olar və Allahın rəhmətini qazanar.

## Bəyənilməyən şeyi Allah yolunda xərcləməmək

Bütün ibadətlərdə olduğu kimi, Allah yolunda xərcləyərkən də bu ibadətin hikmətinin yadda saxlanılması çox əhəmiyyətlidir. Allah yolunda xərcləmək möminlər üçün mənəvi təmizlənmə vasitəsidir. İnsan sevdiyi, dəyər verdiyi şeyləri təkcə Allah rızası üçün, Onun rizasını qazanmaqdan ötrü fəda edirsə, yalnız bu zaman sərf etdiyinin Allah dərgahında mənası və dəyəri olar. Beləliklə, mömin Allahın rəhmət və rizasını dünyadakı heç nəyə dəyişməyəcəyini, bu yolda hər şeyini fəda edə biləcəyini sübut etmiş olar. Mömin insan bu şəkildə davranaraq Allahın rizasını və rəhmətini qazanmağa möhtacdır. Allah isə heç nəyə möhtac deyil. Bu mövzu ilə bağlı bir ayədə belə buyurulur:

**Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin yaxşısından Allah yolunda xərcləyin! Özünüzə verildiyi təqdirdə ancaq göz yumub**

**alacağınız pis şeylərdən xərcləməyə çalışmayın. Bilin ki, Allah heç nəyə möhtac deyildir və təriflənməyə layiqdir! (Bəqərə surəsi, 267)**

Allah yolunda xərcləmək üçün, xoşlamadığı, onsuz da başından sovmaq istədiyi, hətta dəyərsiz hesab etdiyi şeyləri verməyə cəhd etmək göründüyü kimi ayədə də qadağan edilmişdir. Zahirən Allah yolunda xərcləmiş olmaq məqsədiylə belə bir hərəkət etmək insana Allahın dərgahında heç nə qazandırmaz. Buna görə də, mömin, yuxarıdakı ayədə bildirilən və Quran əxlaqına zidd olan bu səhvdən diqqətlə çəkinməlidir.

## Xəsislik etməmək, mal-dövləti yığıb toplamamaq

Quran əxlaqından uzaq cəmiyyətlərdə Allah yolunda xərcləmək məsələsində geniş yayılmış yanlış anlayış var. Bu anlayışa görə, vicdanını rahat etmək üçün insan öz mal-dövlətindən az miqdarını xərcləyər. Beləliklə də böyük bir dini vəzifəni yerinə yetirməyin rahatlığı ilə mal-dövlətinin yerdə qalan böyük hissəsini əlində saxlayar. Halbuki Quranda bu hərəkətin yanlış olduğu açıqca bildirilir. Ayələrdə belə buyrulur:

**İndi, o üz döndərəni gördünmü? Azca verdi və gerisini daş kimi möhkəmcə əlində tutdu? (Nəcm surəsi, 33-34)**

Allahın Quranda bildirdiyi, Öz yolunda xərcləmək ibadəti isə tamamilə fərqlidir. Qurana görə, Allah yolunda xərcləməkdəki meyar; **"ehtiyacdan artıq qalan"**dır (Bəqərə surəsi, 219).

Bu, Allahı hər kəs üçün fərz buyurduğu bir hökmdür. Rəbbimiz ayədə belə buyurur:

**...Və səndən Allah yolunda nə xərcləyəcəklərini soruşarlar. De: "ehtiyacınızdan artıq qalanı". Beləliklə, Allah Öz ayələrini sizə açıqlayar; ümid edilir ki, düşünərsiniz. (Bəqərə surəsi, 219)**

Bu hökmə riayət etməyən insan, Allahın sevmədiyi bir davranışı etməklə axirəti baxımından böyük məsuliyyət yüklənir. Çünki ehtiyacdan artıq qalanı əlində saxlayan insan Allahın qəti olan hökmünü israrla yerinə yetirmir. Xəsislik etməkdə və əslində hamısı Allaha aid olan, Allahın özünü sınamaq üçün verdiyi və xərcləməsini bildirdiyi mala haqsız olaraq sahib çıxıb özü üçün saxlayır. Allah əslində inkarçılara məxsus olan bu davranışı göstərən insanları Quranda belə təsvir edir:

**Onlar, xəsislik edər, insanlara da xəsislik etməyi əmr edərlər (təklif edərlər). Allahın lütfündən özlərinə verdiyini gizlədərlər. Biz o kafirlər üçün alçaldıcı əzab hazırlamışıq. (Nisa surəsi, 37)**

Özündən istəyərlər qorxusuyla Allahın verdiyi malı və nemətləri gizlədən insanların axirətdəki acı aqibətləri Quran ayələrində belə bildirilmişdir:

**Ey iman gətirənlər! Həqiqət budur ki, (yəhudi) alimlərindən və (xristian) rahiblərindən əksəriyyəti, insanların mallarını haqsızlıqla yeyər və Allah yolundan döndərərlər. Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli əzabla müjdələ! O gün yığdıqları qızıl-gümüş cəhənnəm odunda qızdırılıb alınları, böyürləri və kürəkləri bunlarla dağlanacaq: "Məhz bu, özünüz üçün yığıb saxladıqlarınızdır; yığıb saxladıqlarınızı dadın!" (deyiləcək). (Tövbə surəsi, 34-35)**

**O şəxs ki, mal-dövlət toplayıb onu təkrar-təkrar sayır və elə güman edir ki, var-dövləti onu əbədi saxlayacaqdır. Xeyr! O, mütləq Hutəməyə atılacaqdır. Sən haradan biləsən ki, Hutəmə nədir? Bu, Allahın qaladığı Oddur. (Hüməzə surəsi, 2-6)**

Əlbəttə ki, mömin bu ayələrdə göstərilən ölçüdə xəsislik edə və ya mal yığıb saxlaya bilməz. Lakin diqqət yetirməli olduğu şey, azacıq da olsa ayələrdə qınanılan davranışa meyl etməkdir. Bir insan malının çox böyük hissəsini Allah yolunda sərf etmiş ola bilər. Lakin ehtiyacından artıq olan çox az hissəsini özünə ayırmağa və ya gələcəyi üçün saxlamağa normal baxırsa, yuxarıdakı ayələrdə bildirilən düşüncəyə meyl etmiş olar. Çünki xəsisliyin və mal yığmağın əsasını təşkil edən təməl səbəblər gələcək üçün narahatlıq, kasıblıq qorxusu, dünyanı axirətdən ön planda tutmaq kimi narahatlıqlardır. Bu narahatlıqların səbəbi də Allaha olan etibarın zəif olması və təvəkkülsüzlükdür. Təvəkkülsüzlük də iman zəifliyindən irəli gələn mühüm məsələdir. Göründüyü kimi, çox kiçik, əhəmiyyətsiz hesab edilən nöqsanın kökündə çox mühüm qüsurlar dayana bilər. Allahın digər hüdudlarını qorumaqda olan nöqsanlar kimi Allah yolunda xərcləmək məsələsindəki bu nöqsan da insanın həqiqi iman halını, ixlas və səmimiyyət dərəcəsini göstərir. Əsil mömin kiçik mənfəətlərə tamah salmadan, dünyada və axirətdə böyük itki verməkdən qorxub çəkinməklə, Allahın bu hökmünü diqqətlə yerinə yetirməlidir.

## İsraf etməmək

Allahın verdiyi nemətin dəyərini qiymətləndirə bilməmək, verilən nemətlərdən istifadə edərkən və ya onları sərf edərkən şüursuz hərəkət etmək israfa səbəb olar. Allah insanları bu mövzuda belə xəbərdar edir:

**...Lakin malını israf etmə. Çünki israfçılar şeytanların qardaşları olublar. Şeytan isə Rəbbinə qarşı nankordur. (İsra surəsi, 26-27)**

Nemətin qiymətini bilməmək, onun haqqını verməmək Allahın lütfünə qarşı nankorluq etmək deməkdir. Ayədə bildirildiyi kimi, nankorluq şeytanın əsas xüsusiyyəti olduğuna görə israf edərək nankorluq edənlər də şeytana tabe olmuş olar, onun qardaşından fərqsiz olarlar. Nemətin, insanın

şükrünü daha da artırması lazım olduğu halda, onu boş yerlərə sərf etmək neməti verən Allahı qiymətləndirə bilməmək deməkdir. Bunun axirətdəki əvəzi də Allahın cənnətindən, rəhmətindən və nemətlərindən uzaq qalmaq deməkdir. Cənnət Allahın sonsuz nemətləri ilə təchiz edilmiş möhtəşəm yerdir. Lakin hələ bu dünyadakı nemətlərə etinasız yanaşan, onların qiymətini bilməyən, Allaha lazımınca şükür edə bilməyən insanın, cənnət nemətlərini layiqincə qiymətləndirib Allahı uca tutması da mümkün deyildir. Cənnətə layiq ola bilmək üçün əvvəlcə dünyadakı bu üstün əxlaqı qazana bilmək lazımdır. Açıqca görünən israfçılıq halları olmasa belə, ən kiçik şeylərdə israfçılıq etmək, neməti diqqətsiz istifadə etmək, zay olmasına, ziyan gəlməsinə səbəb olmaq, bildiyi halda əvvəlcədən zərərin qarşısını alacaq tədbirlər görməmək kimi hərəkətlər də, yenə nemətə nankorluq etmək mənasına gələr. Mömin ən çox, belə nəzərdən yayına biləcək israfçılığa qarşı diqqətli olmalı və Allahın verdiyi nemətlərə nankorluq etməkdən çox qorxmalıdır. Allah sonsuz nemətindən möminlərin ən gözəl şəkildə istifadə etmələrini istəyər; lakin israf etməmək şərti ilə...

**Ey Adəm oğulları! Hər məscidin yanında zinətlərinizi taxın, yeyin-için, lakin israf etməyin, çünki Allah israf edənləri sevməz! (Əraf surəsi, 31)**

## Mal-dövləti göstəriş üçün xərcləməmək

Allah yolunda xərcləmək məsələsində, Allahın razı qalmayacağı bir rəftar da bu ibadətə göstərişin qarışmasıdır. Göstəriş məqsədiylə xərcləmək münafiqlərə və inkarçılara məxsus davranışdır:

**Və onlar, öz mallarını insanlara göstəriş etmək üçün xərcləyər, Allaha və axirət gününə inanmazlar. Şeytan, kimə yoldaş olsa, artıq o nə pis yoldaşdır. (Nisa surəsi, 38)**

Lakin yenə mömin də özünü belə səhvdən uzaq görməməli, malını xərcləyərkən şüur altında da olsa, niyyətinə Allah rizasından kənar məqsədlərin, gözləntilərin qarışmamasına diqqət yetirməlidir. "Xərcləmədi, az verdi deməsinlər", "qınamasınlar", "canını və malını satmış təqva sahibidir desinlər", "ən çox xərcləyəndir desinlər", "çox üstün imana sahibdir desinlər", "daha çox etibar etsinlər, sevsinlər və hörmət etsinlər", "yer, vəzifə, imkan versinlər" kimi şeytani təlqinlərin, hiss etmədən niyyətinə qarışıb əməlini şirkə döndərməsinə, axirətini təhlükə altına salmasına əsla imkan verməməlidir.

## Boş danışmamaq

Boş danışıq, Allahın xatırlanmadığı, Allah rizasının nəzərə alınmadığı, insanın axirəti üçün heç bir faydası olmayan danışıqlara deyilir. Heç bir faydası olmadığı və ruha da sıxıntı verdiyi halda, cahil insan, vaxtının böyük hissəsini boş danışıqlarla keçirər. Bir yerə toplandıqları zaman insanları boş danışıqlarla məşğul etmək, şeytanın ən böyük hiylələrindən biridir. Bu üsulla şeytan, insanları Allahı xatırlamaqdan uzaqlaşdırmaq, onların Allahın ətrafda Öz varlığının dəlilləri olaraq

yaratdığı saysız-hesabsız ayə və möcüzələri görmələrinə, təfəkkür etmələrinə, yaradılış məqsədlərini düşünmələrinə mane olmaq və axirət üçün istifadə etmələri lazım olan qiymətli vaxtlarını boş yerə sərf etdirmək istəyər.

Şeytan insanları, sosial təbəqələrinə, mədəniyyət və zəka səviyyələrinə əsaslanaraq, onların nəfs və həvəslərinə ən çox uyğun olan mövzuları təlqin edərək, həmişə boş danışıqlara sövq edər. Məsələn, aşağı mədəni səviyyəyə malik insanlar arasında daha çox onların öz sözləri ilə desək, "futbol matçı söhbəti", "cavanlıq söhbəti", "uşaq, yemək ve ev söhbəti" adlandırılan mövzular rəğbətlə qarşılanar.

İş dünyasını əhatə edən digər təbəqədə də, yerli-yersiz hər növ ticari və iqtisadi, birja, faiz kimi mövzular insanların bütün gündəlik həyatlarını məşğul edən məsələlərdir. Özünü ziyalı, intellektual, mədəni göstərmək istəyən bir qrup insan da öz aralarında müxtəlif siyasi və sosial mövzularda, bu günə qədər heç bir konkret faydası görülməmiş müzakirə və danışıqlarla vaxtlarını boş yerə sərf edərlər. Çox mühüm problemləri həll etdiklərini güman edərlər. Çox vaxt televiziyadakı dəyirmi masalarda saatlarla, heç vaxt nəticə əldə edə bilməyəcəklərini, bunların heç nəyə yaramadığını bildikləri halda, sırf özlərini göstərmək və özlərinə, cəmiyyəti və ətrafındakıları düşünən, problemləri həll edən insanlar görünüşü vermək səyindən ötrü müzakirələr apararlar. Üstələməyə, önə keçməyə çalışaraq müxtəlif komplekslərini qane etməyə çalışarlar. Bəzən mövzu din olduqda da, bəziləri Bu boş və məqsədsiz danışıq mühitini, din əxlaqına hücum etmək, kin və nifrətlərini göstərmək üçün fürsət sayarlar. Allah ayəsində bu insanların davranışlarından belə bəhs edir:

**İnsanlar içərisində elələri də var ki, cahilliyindən Allahın yolundan azdırmaq və onu əyləncə məsələsi etmək üçün "boş və məqsədsiz" sözləri satın alırlar. Məhz bunlar üçün alçaldıcı əzab var. (Loğman surəsi, 6)**

Boş danışıq necə ki, inkarçıların təyinedici xüsusiyyətidirsə, boş danışıqlara məhəl qoymamaq, bundan narahat olmamaq da möminlərin xüsusiyyətidir:

**Belə ki, onlar, yalan yerə şahidlik etməyənlər, boş və faydasız sözlə rastlaşdıqları zaman şərəflə ötüb keçənlərdir. (Furqan surəsi, 72)**

**"Boş və faydasız" söz eşitdikləri zaman ondan üz döndərib: "Bizim əməllərimiz bizə, sizin əməlləriniz də sizə aiddir; sizə salam olsun, biz cahillərə qoşulmaq istəmirik" deyərlər. (Qəsas surəsi, 55)**

Şeytan hər bir azğın mövzuda olduğu kimi, Quran əxlaqına zidd olan bu cahil vərdişi də məqbul örtüklər altında möminlərin həyatına daxil etməyə çalışacaq, möminlərin diqqətsiz olduqları vaxtın gəlməsini gözləyəcək. Buna görə də mömin hər zaman ayıq-sayıq olmalı, belə mühitlərlə qarşılaşdığı zaman aludə olmadığı kimi, dərhal müdaxilə edərək Allahın xatırlandığı

şəraiti təmin etməlidir. Mömin, inkarçıların cəhalət, ağılsızlıq, boş danışıq kimi kiçik və bəsit olmağın göstəricisi olan vərdişlərini və əxlaq xüsusiyyətlərini heç vaxt özünə yaraşdırmamalıdır.

Cənnətdə möminin ruhunu sıxan hər cür əzab kimi boş danışığın da olmaması çox böyük nemətdir:

**Ədn cənnətləri (onlarındır) ki, Rəhman (olan Allah, onu) Öz qullarına qeybdən vəd etmişdir. Şübhəsiz ki, Onun vədi yerinə yetəcəkdir. Onda "boş söz" eşitməzlər; yalnız salam(ı eşidərlər). Səhər-axşam, onların ruziləri ordadır. (Məryəm surəsi, 61-62)**

## Boş şeylərdən üz döndərmək

Möminlər boş və mənasız danışıqlara məhəl qoymadıqları kimi, axirətləri üçün heç bir faydası olmayacaq, hətta onlara zərər verəcək boş işlərlə də vaxtlarını itirməzlər. Möminlərin bu xüsusiyyəti ayədə belə bildirilir:

**Onlar "bütün boş" şeylərdən üz döndərənlərdir. (Muminun surəsi, 3)**

Allahın rizasının nəzərə alınmadığı hər bir iş Quranda bildirilən bu boş şeylərə aiddir. İnsan, Quranda əmr edilən gözəl rəftarı belə, Allahın rizası üçün deyil, vərdiş olduğu üçün, həmin anda özünə asan gəldiyi üçün, prioritetli, lakin nəfsinə ağır gələn başqa işdən qaçmaq üçün və ya hamı edir deyə edərsə etdiyi iş puç ola bilər (doğrusunu Allah bilər). Möminlərin Quranda bildirilmiş və gündəlik həyatlarında yerinə yetirmələri fərz olan müxtəlif ibadətlər var. Mömin, bunlardan savayı qalan vaxtını İslam üçün ən faydalı, Allahın rizasının ən çoxunu qazanacağı işlərlə keçirməli, bu işlərdən maksimum fayda götürəcək şəkildə özünü inkişaf etdirməlidir. Görülən işlərdəki birincilik və aktuallıq sırası da çox əhəmiyyətlidir. Müəyyən vaxtlarda görülməsi lazım olan işləri başqa vaxtda etməyə cəhd etmək, əmək və vaxt itkisinə səbəb ola bilər. Çünki həmin işlər ola bisin ki, o anda ən zəruri və prioritet kəsb edən işlərdir. Bütün bu səbəblərə görə, mömin, cahillərin bütün həyatları boyunca aludə olduğu boş işlərlə maraqlanmamağı kifayət hesab etməməli, etdiyi saleh əməllərə nəfsinin qarışmamasına, hər zaman Allah rizasının daha çoxunu qazanacağı bir işi daha azını qazanacağı işdən üstün tutmağa diqqət yetirməlidir (baxın: "bir işi bitirdikdən sonra başqa işə başlamaq" hissəsi).

## Namazda huşu içində olmaq

Hər gün müəyyən vaxtlarda nizamlı şəkildə yerinə yetirilməsi fərz sayılan ibadətlər var. Lakin bu ibadətləri həmişə yerinə yetirmək, bunları, möminlərdə heç vaxt düşünülmədən yalnız vərdişlə yerinə yetirilən tətbiqlərə döndərməz. Tam əksinə, bu ibadəti Allah üçün yerinə yetirdiyini bilmək, möminə hər dəfə yeni həyəcan və yeni şövq verməlidir. 5 vaxt namaz da bu şəkildə həmişə diqqətlə yerinə yetirilən ibadətlərdəndir. Quranda möminlərin namazlarında huşu içində olduqları bildirilir:

**Möminlər, həqiqətən nicat tapmışdır. Onlar namazlarında huşu içində olanlardır. (Muminun surəsi, 1-2)**

Huşu, Allaha qarşı duyulan "hörmət dolu qorxu" mənasına gəlir. İnsanın namazda yaşamalı olduğu ruh halı da elə budur. Şüursuzca, düşünülmədən, qeyri-səmimi olaraq Allaha yönələrək yerinə yetirilən ibadətlərin Allah dərgahında hər hansı qiyməti olmaya bilər. İnsanın yerinə yetirdiyi ibadət onun Allaha olan yaxınlığını, təqvasını artırır, təfəkkür və mənəviyyatını inkişaf etdirir, əxlaqını gözəlləşdirir və həmin insanı pis əməllərdən çəkindirirsə, o zaman uca Allahın bu ibadətdən razı qalacağına ümid etmək olar.

Peyğəmbərimiz (s.ə.v) namaza göstərilməsi lazım olan diqqətlə əlaqədar bunları buyurmuşdur:

**Səd ibn Əbu Vəqqasdan rəvayət edilmişdir. Sad deyir ki; "mən Rəsulullahdan, namazlarına qarşı qəflət içində olanlar barədə soruşdum". Buyurdu ki; "onlar namazlarının vaxtlarını keçirənlərdir". Əbu Bərzə deyir ki; "onlar o kəslərdir ki, namazlarına qarşı qafildirlər" ayəsi nazil olduqda Rəsulullah belə buyurdu: "Allahu əkbər, bu namaz sizin üçün hər birinizə bütün dünya qədər şeylər verilməsindən daha xeyirlidir. Namazına qarşı qafil olan kimsə qıldığı namazdan xeyr ümid etməyən və qılmamaqdan ötrü Rəbbindən qorxmayan kimsədir". (Ebu Cafer Muhammed b. Cerir etTaberi, Taberi Tefsiri, Hisar nəşriyyat evi, 9/238239)**

Yalnız axirət üçün çalışan, dünyanın əsil mahiyyətini dərk etmiş ağıllı mömin, əbədi əzabdan xilas olmaq və cənnətdə daha yüksək dərəcələr əldə edə bilmək üçün, gördüyü hər işi əbədi həyatına təsir edəcək vəsilə kimi görər. O, əlinə keçən, qarşısına çıxan əcr (savab) fürsətlərini əldən verməz. Bu fürsətləri şüurlu şəkildə qiymətləndirər. Bunun nəticəsində də ayələrdə bildirilən nicata qovuşar.

## Quran oxunanda susaraq onu dinləmək

**Quran oxunan zaman dərhal onu dinləyin və susun. Ümid edilir ki, sizə rəhm olunsun! (Əraf surəsi, 204)**

Ayədəki qəti ifadədən də aydın olacağı kimi, Quran oxunarkən susaraq onu dinləmək Allahın fərz buyurduğu hərəkətdir. Ayənin davamındakı ifadədən də, bu əmrə diqqət göstərməyin möminlərə rəhm olunmasına vəsilə olacağı aydın olur.

Quran Allahın sözüdür. Buna görə də, Allaha göstərilməli olan haşyət, yəni qorxu dolu hörmət eyni zamanda Allahın sözünə qarşı da göstərilməlidir. Bu hörmətin mühüm göstəricisi isə Allahın sözünü eşitdiyi zaman susub, o sözə qulaq asmaqdır. Quran istər ərəb, istərsə də türk dilində və ya başqa dillərdə oxunduğu zaman ona həmin hörmətin göstərilməsi şərtdir. Hər kəsin fərqli işlərlə məşğul olduğu bir mühitdə xəbər vermədən Allahın ayələrini oxumaq, insanların dalğınlıqla istəmədən bu ayənin hökmünə girməsinə səbəb ola bilər. Buna görə də, lazımi hörmət mühitini yaratmadan, Allah kəlamını oxumaq məqbul davranış olmaz.

Bəzən hamı başqa işlərlə məşğul olarkən və heç kim dinləmədiyi halda arxa planda, kasetdən və ya radiodan mütəmadi şəkildə Quran oxunması mühüm ibadət və təqva əlaməti sayıla bilir. Halbuki Quran hörmətlə, hər kəlməsi qəlbən diqqətlə dinlənilməli, yadda saxlanılmalı, üzərində düşünülüb nəsihət alınmalı və əməl edilməli olan "üstün və şərəfli" sözdür.

## Quran oxuyarkən şeytandan Allaha sığınmaq

Allah, sınaq vasitəsi olması üçün şeytanı, insanların düşüncələrinə gizli təlqinlər verə biləcək xüsusiyyətdə yaradıb. Bu təlqinin təsiri də insanların iman dərəcələrinə görə dəyişər. Şeytanın inkarçılara qarşı hər istədiyini etdirəcək gücü olduğu halda, səmimi möminlərin imanına zərər verə biləcək heç bir gücü və təsiri yoxdur (Hicr surəsi, 39-40). Lakin, hər nə qədər Allahın səmimi qullarını azdırmaq gücü olmasa da, onların nəzərlərini yayındırmaq, unutqanlıq vermək, diqqətlərini dağıtmaq kimi narahatlıqlar verməyə çalışa bilər. Şübhəsiz ki, şeytanın təsiri ilə hərəkət edən insanlar öz sözləri, danışıqları, davranış və hərəkətləri ilə möminləri narahat edərlər. Bunun kimi şeytan da özünün görünməzliyi ilə bu cür narahatlığı verməyə çalışar. Bu yolla zehinlərini məşğul edib, diqqətlərini yayındıraraq möminlərin gördüyü xeyirli işlərə əngəl törətməyi qarşısına məqsəd qoyar.

Şeytanın bəhs etdiyimiz bu üsulla nail olmaq istədiyi məqsədlərdən biri, möminlərin Allahın sözü olan Quranı oxuyub dərk etmələrinin və ondan gözəl şəkildə istifadə etmələrinin qarşısını almaqdır. Çünki möminlər Quranla ən doğru yola yönəldilirlər, şeytanın yeganə məqsədi isə möminlərin doğru yoldan azmalarıdır. Buna görə də, onların Quranı anlaya bilməmələrini, yanlış anlamalarını, hətta mümkündürsə Qurandan uzaqlaşıb onu tərk etmələrini arzulayar. Allah şeytanın bu səyinin müqabilində möminin Ona sığınmasını bildirmiş və bunu bir hökm kimi möminlərə fərz buyurmuşdur:

**Elə isə Quran oxuduğun zaman, qovulmuş şeytandan Allaha sığın. (Nəhl surəsi, 98)**

Allah inanıb, Ona güvənərək, belə davranan insanlara şeytanın heç bir zərər verə bilməyəcəyi belə bildirilir:

**Həqiqət budur ki, iman gətirənlər və Rəbbinə təvəkkül edənlər üzərində onun (şeytanın) heç bir məcburedici gücü (hakimiyyəti) yoxdur! (Nəhl surəsi, 99)**

## Qısqanclıq və həsəddən çəkinmək

İnsan iman gətirməklə digər insanlardan xeyli üstün davranışa malik olar. Lakin bu onun imtahanının bitməsi demək deyil. Möminin də bütün insanlar kimi nəfsi var. Allah imtahanın mühitinin tələbi olaraq ona fücurunu (pis xüsusiyyətlərini) və bundan çəkinməyi ilham etdiyini Quranda bildirmişdir (Şəms surəsi, 8). Qısqanclıq, həsəd kimi mənfi əxlaq xüsusiyyətləri də bu fücurlar arasındadır və bütün insanların nəfslərində vardır:

**...Nəfslər isə “qısqanclığa və eqoist ehtiraslara” hazır (əlverişli) edilmişdir. Əgər yaxşılıq etsəniz və çəkinsəniz, şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır. (Nisa surəsi, 128)**

Qısqanclıq, başqasında olan bir şeyin özündə olmamasından, başqasının bacardığı bir işi özünün bacara bilməməsindən, başqasının aldığı dəyər və tərifi özünün almamasından və buna bənzər hallardan irəli gələn mənfi hissdir. Mal, mülk, gözəllik, zənginlik, dünya və ya axirətlə əlaqədar məqamlar və bunlara bənzər Allahın öz qulları arasında payladığı hər cür maddi və mənəvi nemət, qısqanclığa səbəb ola bilər:

**Yoxsa onlar Allahın Öz lütfündən insanlara verdiyi şeyə görə onları qısqanırlar? Həqiqətən Biz İbrahimin nəslinə Kitab və hikmət bəxş etdik və onlara böyük mülk də verdik. (Nisa surəsi, 54)**

Möminlər, nəfslərinə imtahan məqsədiylə ilham olunan bu cür pis xüsusiyyətlərdən qorunmaq üçün həmişə mübarizə aparar, nəfslərini təmizləyərlər. Mömin qısqanclıq hissinə səbəb olacaq hər bir hadisədə Qurana uyğun şəkildə davranar. Yəni hər şeyin Allaha aid oluğunu, hər şeyin Allahın diləməsi ilə baş verdiyini, Allahın istədiyini seçdiyini, istədiyinə istədiyi neməti verdiyini, seçimin və qərarın yalnız Ona aid olduğunu bilər.

Rəbbimizin hər şeyi ən gözəl və ən xeyirli şəkildə yaratdığını, dünyada verilən hər cür nemətin insanlar üçün sınaq vasitəsi olduğunu, gediləcək əsil yurdun axirət olduğunu, Allah dərgahındakı dəyər ölçüsünün təqva ilə olduğunu qəlbinə yerləşdirmiş şəkildə hərəkət edər. Qısqanclıq, təkəbbür və eqoistlik, nəfsi cahilcəsinə ilah hesab etməyin (Allahı tənzih edirik) bir nəticəsidir. Buna görə də şeytanın ən xarakterik xüsusiyyətidir. İblisin Allaha üsyan edib inkarçılardan olmasının səbəbi də, eqoistliyi ucbatından Allahın hz. Adəmə verdiyi üstünlüyü qısqanmasıdır.

Şeytanın bu xüsusiyyəti onun ardınca gedən müşriklər və münafiqlərin üzərində geniş şəkildə əks olunar. Qısqanclıq müşriklər arasında gündən-günə artaraq bunun daha sonrakı mərhələsi olan həsəd hissinə çevrilər. Bütün hərəkət və davranışlarına nüfuz edər. Belə insan şeytanın insanlar arasındakı təmsilçisinə çevrilər. Buna görə də Allah həsəd aparanların pis əməllərindən qorunmaları üçün möminlərin Ona sığınmalarını bildirir:

**De: "Sığınıram sübhün Rəbbinə!..." (Fələq surəsi, 1)**

**Həsəd apardığı zaman, həsəd aparanın şərrindən. (Fələq surəsi, 5)**

## Salam verildikdə, onu eyni dərəcədə və ya daha üstün tərzdə almaq

Salam vermək möminlərin bir-birinə ən gözəl dilək və istəklərini təqdimetmə formalarından biridir. Cənnətə daxil olarkən möminlər salamla qarşılanar və cənnətdə də bir-birləri ilə salamlaşarlar. Salam verən bir insanın həmin salama daha gözəl şəkildə və ya ən azı eyni dərəcədə cavab verməsi fərzdir:

**Biri sizinlə salamlaşdığı zaman siz onun salamını daha böyük ehtiramla alın və ya verilən salamı olduğu kimi qaytarın! Həqiqətən, Allah hər şeyin haqq-hesabını çəkəndir. (Nisa surəsi, 86)**

Cahillərin pis əxlaq modelində, verilən salamı almamaq, eşitməməzlik etmək kimi davranışlar qarşı tərəfə üstünlük nümayişi olaraq edilər. İctimai mövqeyi baxımından özündən daha aşağı hesab etdiyi insanları əzmək, onlara həddini bildirmək kimi çirkin niyyətlərlə bu cür davranışlara tez-tez əl atarlar. İslam dinində isə möminlər arasında belə üstünlük anlayışı və qiymətləndirmə modeli qətiyyən yoxdur. Mövqeyindən asılı olmayaraq, özünə verilən salamı almaq hər mömin üçün Quranda bildirilən əmrdir.

## Evlərə daxil olanda salam vermək

Quranda həyatın hər anında, ən kiçiyindən ən böyüyünədək hər hadisədə Allahla mütəmadi əlaqədə olmağa və həmişə axirəti xatırlamağa əsaslanan iman anlayışı təsvir edilir. Həmçinin Quranda peyğəmbərlərdən misal gətirildiyi zaman bir çox yerdə onların hər vəziyyətdə Allaha üz tutan və axirət yurdunu xatırlayan üstün əxlaqlı insanlar olduqlarından bəhs edilir. Bəzi hallarda Allahı və axirəti xatırlayıb, gündəlik həyatda hər gün qarşılaşılan hadisələrdə qəflət içində olmaq kimi bir anlayış Quran əxlaqına tamamilə ziddir. Möminin hər anı, içində olduğu hər vəziyyət, gördüyü hər iş, yaşadığı hər hadisə, onun Allaha yaxınlaşması, əxlaqını gözəlləşdirməsi, savabını artırması üçün verilmiş fürsətdir.

Quranda möminin həyatının hər anında bunu necə edə biləcəyi ilə bağlı bir çox nümunə verilmişdir. Məhz bunlardan biri də möminlərin evlərə daxil olarkən salam verərək gözəl əxlaq göstərməsidir:

**...Evlərə daxil olduğunuz zaman Allah dərgahından mübarək və gözəl yaşama arzusu olaraq bir-birinizi salamlayın. Allah ayələri sizə belə izah edir ki, düşünüb daşınasınız! (Nur surəsi, 61)**

Rəbbimiz, möminlərin evlərə girdikləri zaman bir-birlərinə salam vermələrini, lakin bunu edərkən bir-birlərinə mübarək və gözəl yaşama arzusu ilə, Qurana və dinə uyğun yaşama arzusu ilə salam verməyə niyyət etmələrinin lazım olduğunu xatırlatmışdır. Buna görə də, salamın niyyətinə diqqət yetirilməsi də çox əhəmiyyətlidir. Möminlər bir-birləriylə qarşılaşdıqları zaman uca Allah (c.c)-dan rəhmət və sağlamlıq diləyərlər. Özlərinə salam verən hər kim olsa da salamı alar və ona daha gözəl şəkildə cavab verərlər. Möminin bu davranışı, Quran əxlaqının insanlar arasındakı sosial münasibətlərə gətirdiyi gözəlliklərdən biridir. Salam ilə, bir-birini tanımayan insanlar arasında

sevgi, istiqanlılıq və yaxınlıq əlaqəsi qurulmuş olar. Bu əxlaqın yaşanmasıyla, cahil cəmiyyətlərdə yaşanan hörmətin göstərilmədiyi gərgin mühitlər müsəlmanların olduğu yerlərdə qətiyyən yaranmaz.

Ayədə bildirildiyi kimi ağıl işlədilsə və bu sözün mənası düşünülsə verilən salamla bu ibadətlər yerinə yetirilmiş olar: ən əhəmiyyətlisi Allahın ayə ilə fərz buyurduğu bir hökm yerinə yetirilmiş olar. Bununla yanaşı, Allahın sülh və əmin-amanlıq bəxş edən, mənasındakı "Salam" adı xatırlanar. Möminlər belə bir vəsilə ilə tez-tez bir-birinə ən gözəl arzularını çatdırıb, qarşılıqlı sevgi və bağlılıqlarını möhkəmləndirərlər. Birlikdə Allahı xatırlayar və cənnət davranışı olan salamlaşma ilə axirətə duyduqları həsrəti ifadə edərlər. "Salam" sözü aralarında olan etimad və əmin-amanlığın da bir ifadəsi olar.

# Hörmətli Adnan Oktarın salam verməyin əhəmiyyəti ilə əlaqədar açıqlamaları

## "Salam verməyin əhəmiyyəti"

**Adnan Oktar:** "Salamı yaymaq sevgini, hörməti artırar. Mən çölə çıxıram, heç kim heç kimə salam vermir. Allaha çox şükür kəndlərdə, qəsəbələrdə o davam edir. Təbii ki, tanıdıqları üçün bir-birlərinə salam verirlər. Lakin şəhərlərdə bu yoxdur. Bu çox ürküdücüdür. Dostluq, sevgi və qardaşlıq çox yayılmalıdır. Məsələn, tənha küçədən keçərkən "salam aleykum" deyərsən, "aleykum salam" deyər. Bu nə deməkdir, "mən etibarlı bir insanam sən də etibarlı bir insansan, məndən sənə zərər gəlməz, səndən də mənə zərər gəlməz". Bu hüzur verər. İnsanın kim olduğu bəlli deyil, qarşıdan qaranlıq kölgə gəlir. Məsələn, gənc bir qız, uşaq narahat olar. Yaxud cavan oğlan olsa da narahat olar. Qəsbkar da çıxa bilər, oğru da çıxa bilər, psixopat da çıxa bilər, nə olacağı bəlli deyil. Lakin salam yayılmış olsa bu tamamilə ortadan qalxar, mehribanlıq, sevgi mühiti olsa, məhz intiharların kökündə də bunlar var". *(Hörmətli Adnan Oktarın 17 noyabr 2009-cu ildə Mavi Karadeniz və Ekintürk telekanallarında canlı yayımlanan müsahibəsindən)*

### "Cəmiyyət içində salam verməkdən çəkinilməsi şeytanın bir oyunudur"

**Adnan Oktar:** "Şübhə duyan, bir-birindən nifrət edən, qorxuyla yaşayan bir cəmiyyət həsrəti içərisində şeytan bir siyasət tətbiq edir. Heç kim bu oyuna aldanmasın. Çölə çıxın, gözünü kim yerdən qaldıra bilir? Belə həyat olarmı? Gözünü yerdən qaldıra bilmir insanlar. Baxa bilmir üzünə. Sən çöldə bir-birinin üzünə baxa bilən insan görürsənmi? Çox nadir. Salam verən bir-birinə, yəni mümkündürmü? Harada salam vermək! Salam versən, arxasını dönə-dönə baxar, nə baş verir deyə.

"Çox üzr istəyirəm" deyir, "nə üçün, niyə salam verdin" deyir, elə deyil? Yəni salam deyə bilmirsən. Gülər üz məsələn, gülər üz göstərsən, insan heyrətlə baxır, dəhşətə gəlir. Hətta bir də təqib də edir, bir şey mi oldu görəsən deyir, bunlar agentdirmi deyir. Yəni bir hissəsində dəlisov paranoya (şübhəçilik) var. Məsələn, bir kompliment demək qeyri-mümkündür. Məsələn, avtomobili gözəl olsa, desən ki, avtomobilin çox gözəldir, insan üçün çox təhlükəli vəziyyət yarana bilir". *(Hörmətli Adnan Oktarın 17 fevral 2010-cu ildə Kayseri telekanalında canlı yayımlanan müsahibəsindən)*

## Özgə evlərə icazəsiz daxil olmamaq

Quranda möminlərin haqlarını qoruyacaq, maddi və mənəvi rahatlıqlarını təmin edəcək, onların narahat olmalarının qarşısını alacaq hər cür tədbir alınmışdır. Məsələn, yad bir insanın

evinə hansı niyyətlə olsa da, icazəsiz və xəbərsiz daxil olmaq Quranda qəti şəkildə qadağan edilən bir davranışdır:

**Ey iman gətirənlər, başqalarının evlərinə, yaxınlıq qurub (icazə almadan) və (ev camaatına) salam vermədən daxil olmayın. Bu sizin üçün daha xeyirlidir; ümid edilir ki, öyüd alıb düşünərsiniz. (Nur surəsi, 27)**

Pis niyyətlə olmasa belə, ayədə bildirilənin əksinə davranmaq, pis təəssürat və etimadsızlığa səbəb ola biləcək, ev sahibinin can, mal, namus kimi dəyərləri üçün təhlükə yarada biləcək hərəkət tərzi olar.

## Allaha hər an şükür etmək

Şükür etmək, verilən hər cür nemətə görə dil və qəlblə Allaha olan minnət və təşəkkürünü ifadə etmək, bu nemətləri Quranda göstərilən şəkildə istifadə edərək haqqını vermək deməkdir.

Qəlb və dillə yanaşı, şükrün əməl cəhətdən edilməsi də çox əhəmiyyətlidir. Bu da verilən neməti Allah yolunda, Allah rizasının ən çox olduğu yöndə dəyərləndirməklə mümkün olar. İnsan mal, mülk, zənginlik, məqam, mövqe, etimad, zəka, sağlamlıq, güc kimi nemətləri Allah yolunda və Allahın əmr etdiyi şəkildə istifadə etməsə, verilən nemətə layiqincə şükür etməmiş olar.

Buna görə də şükür etmək Quranın bir çox ayəsində təkrarlanan və möminlərin çox diqqətlə qorumalı olduqları bir ibadətdir. Bu ayələrdən bəziləri belədir:

**Xeyr, artıq (yalnız) Allaha qulluq et və şükür edənlərdən ol! (Zumər surəsi, 66)**

**Elə isə Allahın sizə verdiyi halal (və) pak ruzilərdən yeyin; əgər Allaha qulluq edirsinizsə, Onun nemətinə şükür edin. (Nəhl surəsi, 114)**

Mömin şükür etməklə Allahın sevgisini və rizasını qazanar, Ona daha çox yaxınlaşar. Səbəblərə, vasitələrə ilişib qalmaz, sahib olduğu hər şeyin yalnız Allahdan gəldiyini bilər və şirkdən uzaqlaşar. Bu yolla verilən nemətin maddi zövqündən dəfələrlə artıq olan mənəvi zövqü alar. Verilən bu nemətlər vəsiləsi ilə Allahı ucaldar.

Bu dünyada verilən bütün nemətlər şükrü və ya nankorluğu ortaya çıxartmaq üçün yaradılmış imtahan vasitəsidir. Bu mühüm həqiqət Quranda belə xəbər verilir:

**Öz yanında kitabdan xəbəri olan biri dedi: "Mən, (gözünü açıb yummadan) onu sənə gətirərəm". Birdən (Süleyman) onu öz yanında hazır durmuş vəziyyətdə gördükdə dedi: "Bu, Rəbbimin lütfüdür, görək şükür edəcəyəm, yoxsa nankor olacağam deyə məni sınadığı üçün (bu fövqəladə hadisə baş verdi). Kim şükür etsə, artıq o öz**

**xeyrinə şükür etmişdir, kim də nankorluq etsə, həqiqətən, Rəbbim Qanidir (heç nəyə və heç kimə ehtiyacı olmayandır), Kərimdir. (Nəml surəsi, 40)**

Həmçinin hz. Süleymanın Quranda keçən ifadələrindən şükür edə bilməyin belə Allahın çox böyük neməti olduğunu və təkcə Allahın lütfü və diləməsilə ilə insanın şükür edə biləcəyini anlayırıq. Hz. Süleymanın şükür etməklə bağlı çox böyük batini sirrə malik duası ayədə belə bildirilir:

**(Süleyman) Bu sözünə gülümsədi və dedi: "Rəbbim, mənə, ana və atama verdiyin nemətə şükür etmək və Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham ver və məni öz mərhəmətinlə saleh bəndələrinin zümrəsinə daxil et". (Nəml surəsi, 19)**

İman və bütün saleh əməllər üçün olduğu kimi şükür etməyin də Allahın ilhamı ilə olduğu ayədə açıqca bildirilmişdir.

Vicdanlı insan ətrafına baxdığı zaman hər tərəfdən Allahın nemətləri ilə əhatə edildiyini, bunların heç birini öz gücü ilə əldə edə bilməyəcəyini, təkcə Allahın diləməsi ilə bu nemətlərə qovuşa bildiyini anlayar. İnsanın özünə aid hesab etdiyi vücudu, ağlı və zəkası, hissləri, sağlamlığı və gücü belə bu nemətlərin yalnız bir hissəsidir. Buna görə də, şükür etmək yalnız müəyyən vaxtlarda böyük qazanc və ya fayda əldə edildikdə, gözəl yemək yeyildikdə və ya bəd hadisədən sağ-salamat xilas olduqda dilucu ilə; "əlhamdulillah, Allaha çox şükür" demək deyil. Şükür hər an bütün qəlblə yaşanmalı ruh halıdır. Çünki Allahın nemətlərini saymaqla, hətta ayədə bildirildiyi kimi, ümumiləşdirmə aparmaqla belə bitirmək qeyri-mümkündür:

**Əgər Allahın nemətlərini saysanız, onu ümumiləşdirmə apararaq da sayıb qurtara bilməzsiniz. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! (Nəhl surəsi, 18)**

Allahın nemətlərinə şükür etməmək və ya az şükür etmək nankorluqdur. Bu isə şeytanın insanlara qarşı qurduğu çox böyük tələdir. Şeytan həmişə insanları şükür etməkdən uzaqlaşdırmaq istəyər. Şeytanın bu azdırması ayələrdə belə xəbər verilir:

**O da belə dedi: "Madam ki, elədir, məni azdırdığına görə onlar(ı insanları azdırmaq) üçün mən də Sənin dosdoğru yolunda (pusqu qurub) oturacağam. Sonra onların yanına önlərindən və arxalarından, sağlarından və sollarından soxulacağam. Onların əksəriyyətini şükür edən görməyəcəksən". (Əraf surəsi, 16-17)**

Göründüyü kimi şeytanın bütün səyləri tək bir əsas hədəf ətrafında toplanır; insanların şükür etmələrinə mane olmaq. Bu mövzuda əksər insanlar üzərində təsir sahibi də olmuşdur:

**...Şübhəsiz ki, Allah insanlara qarşı böyük lütf sahibidir, lakin onların əksəriyyəti şükür etməz. (Yunis surəsi, 60)**

Şeytanın, xüsusən şükür etmək məsələsində insanlara yaxınlaşacağının bildirilmiş olması, bu ibadətin əhəmiyyətini də göstərir. Şübhəsiz ki, bu qədər mühüm ibadəti tərk edərək nankorluq etməyin Allah dərgahındakı əvəzi də buna uyğun olacaq:

**Rəbbiniz belə buyurmuşdu: "And olsun, əgər şükür etsəniz həqiqətən sizə artıraram və and olsun, əgər nankorluq etsəniz, şübhəsiz ki, Mənim əzabım çox şiddətlidir". (İbrahim surəsi, 7)**

## Bağışlanma diləmək

Bir ayədə Allah belə bildirilir:

**Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Ayədə insanların, zülmlərindən ötrü sorğu-sual ediləcəkləri təqdirdə, yer üzündə istisnasız heç bir canlının qalmayacağından bəhs edilir. Bura iman gətirənlərin də daxil olduğu çox aydındır. Belə olan halda heç bir mömin özünü xətasız və günahsız hesab edə bilməz.

İman gətirənlər də gün ərzində bilərəkdən və ya bilməyərəkdən bir çox səhvlərə yol verə bilərlər. Ağlının, imanının, şüurunun dərəcəsinə görə bu səhv və günahlar da artıb-azala bilər. Lakin heç kim özünü səhv etməkdən uzaq hesab edə bilməz. Özünü mükəmməl hesab etmək özlüyündə bir səhv olar. Quranda belə mükəmməlik iddiasının fironlara məxsus azğın anlayış olduğu bildirilir.

Mömin insan imanı və bundan irəli gələn şüuru da artdıqca özünü günahsız hesab etməyə deyil, tam əksinə öz səhv və günahlarını daha yaxşı dərk etməyə başlayar. Olduğu şəraiti daha yaxşı dərk etdiyi, Allah qorxusu daha çox artdığı üçün, bir tərəfdən, səhvlərini düzəltməyə, onları təkrarlamamağa çalışarkən, digər tərəfdən isə istəyərək və ya istəmədən etdiyi günahlar üçün həmişə bağışlanma diləyər. Məhz şüurlu mömininin göstərməli olduğu davranış budur. Üstəlik, bağışlanma diləmək onsuz da bütün möminlərə fərz buyurulmuşdur:

**Və Rəbbinizdən bağışlanma diləyin; sonra Ona tövbə edin. O da sizi, təyin edilmiş vaxtadək gözəl bir meta (fayda) ilə faydalandırsın və hər ehsan sahibinə Öz ehsanını versin. Əgər üz döndərsəniz, bilin ki, həqiqətən mən, sizin üçün böyük bir günün əzabından qorxuram. (Hud surəsi, 3)**

Bağışlanma diləməyin nemət verilməsinə səbəb olacağı da bu ayədən aydın olur.

Bir çox Quran ayələrində peyğəmbərlərin müxtəlif səbəblərdən Allahdan bağışlanma dilədiklərindən bəhs edilir. Həmin anda hər hansı bir günahı etmiş olsalar da, Allahın əzabını xatırladıqları zaman və ya Allahın bir imtahanı ilə qarşılaşdıqları zaman peyğəmbərlərin dərhal Allahdan bağışlanma dilədiklərini görürük. Bir ayədə də Peyğəmbərimiz (s.ə.v)-ə insanların dəstə-dəstə dinə daxil olduqlarını gördükdə, Allahı həmd ilə təqdis edib bağışlanma diləməsi bildirilir. Başqa bir ayədə isə cənnətə daxil olan möminlərin təriflənən xüsusiyyətləri arasında onların müntəzəm qaydada bağışlanma dilədiklərindən bəhs edilir:

**Sübh çağı isə bağışlanma diləyirdilər. (Zəriyət surəsi, 18)**

Göründüyü kimi, bağışlanma diləmək üçün mütləq həmin anda günah işləmiş olmağa ehtiyac yoxdur. Bağışlanma diləmək, müəyyən mənada, möminin qulluğunu, Allah qarşısındakı acizliyini, Onun yardımı olmadan günahdan belə uzaq olmasının mümkün olmadığını dilə gətirməsidir. Bağışlanma diləməyə əhəmiyyət verməməyin əsasında öz acizliyindən, qüsurundan, günahlarından xəbərsiz olmaq kimi qəflət və şüursuzluq halı dayanır. Bunun təbii nəticəsi olaraq insanın qəlbi qatılaşar və vaxt keçdikcə, o, öz nəfsini ilahlaşdırıb (Allahı tənzih edirik) şeytani eqoistlik və müstağnilik (özündən razı) halına girər. Müstağniyyət (özündən razılıq) isə Quranda bildirildiyi kimi, insanları azğınlaşdırar, şeytanın dostlarından birinə döndərər (Yasin surəsi, 75).

## Əmanətə və əhdlərə riayət etmək

Əmanət deyildiyi zaman bu, yalnız məhdud mənada, yəni verilən bir şeyi müəyyən müddətə saxlamaq kimi anlaşılmamalıdır. Boyuna götürülən hər cür vəzifə və məsuliyyət insan üzərində əmanətdir. Bu vəzifə lazımınca yerinə yetirilməzsə, əmanətə xəyanət edilmiş olar.

Quranda tərif edilən mömin dürüst, əmin və məsuliyyət sahibi insandır. O, kiçik məsələlərin, kiçik mənfəətlərin ardınca qaçmaz. Buna görə də, verilən əhdi yerinə yetirmə və ya üzərinə götürdüyü əmanətə ən gözəl şəkildə riayət etmə məsələsində özünə tam etimad edilər. Möminlərin bu xüsusiyyətindən Quranda bir çox ayədə təriflə bəhs edilir:

**Onlar, əmanətlərinə və əhdlərinə riayət edənlərdir. (Muminun surəsi, 8)**

**Onlar özlərinə verilən əmanətə və verdikləri əhdə (tamamilə) riayət edənlərdir. (Məaric surəsi, 32)**

**...Əhd verdikləri zaman əhdlərinə vəfa göstərənlərlə çətinlikdə, xəstəlikdə və döyüşün qızışdığı anlarda səbir edənlər(in münasibət və davranışlarıdır). Məhz bunlar, dürüst olanlardır və müttəqi olanlar da bunlardır. (Bəqərə surəsi, 177)**

Əhd vermək və əmanət boynuna götürmək məsələsində, insanın, daşıya bilməyəcəyini bildiyi yükün altına girməsi düzgün olmaz. Çünki verilən əhdə riayət etməmək, əmanətə xəyanət etmək, Allah dərgahında hesabı veriləcək məsuliyyətlərdir:

**...Əhdə vəfa göstərin. Çünki əhd məsuliyyətdir. (İsra surəsi, 34)**

**Ey iman gətirənlər! Allaha və Onun Elçisinə xəyanət etməyin, bilə-bilə əmanətlərinizə də xəyanət etməyin. (Ənfal surəsi, 27)**

Lakin burada mühüm olan xüsus, insanın bacara biləcəyi işlərdə, bacara bilməmək qorxusu, tənbəllik və buna bənzər səbəblərlə məsuliyyət götürməkdən qaçmamasıdır. Bacara bilməyəcəyi işi boynuna götürmək kimi, bacara biləcəyi xeyirli işdən, məsuliyyətdən yayınmaq da insanı məsuliyyətə salar. Məsuliyyət götürmək hər zaman insanın öz seçiminə bağlı deyil. Hələ Allahın əmri kimi qəti itaət tələb edən hallarda onsuz da mömінin öz istəyinə görə seçim haqqı yoxdur.

Allah yolunda mübarizə aparılarkən hər kəsə öz təcrübəsinə və qabiliyyətinə görə müxtəlif vəzifələr verilə bilər. "Edə bilmərəm, mən bu məsuliyyətin altından çıxa bilmərəm" kimi səbəblərin heç bir qanuni əsası ola bilməz. Mömінin tam itaət, səmimi niyyət və səmimi dua ilə özünə verilən məsuliyyəti ən mükəmməl şəkildə yerinə yetirə bilməməsi üçün heç bir səbəb yoxdur.

## İş həyatında və gündəlik həyatda fərqli xarakterdən göstərməkdən çəkinmək

Möminin diqqət yetirməli olduğu məsələlərdən biri də, gündəlik həyatda dünyəvi hadisələrin axarına qapılaraq əsil məqsədini unutmamaqdır. Möminin əsil məqsədi, Allahın qulu olduğunun şüuru ilə hərəkət etmək, Quranda bildirilən əmr və tövsiyələri dəqiqliklə yerinə yetirməkdir. İnsan əldə etdiyi imani yaxınlığı həmişə təzələmək və inkişaf etdirmək yönündə səy göstərmədiyi təqdirdə mövcud vəziyyətini də qoruya bilməz. Mənəviyyatı sürətlə zəifləməyə, imani həssaslığı və ağlı isə azalmağa başlayar.

Bəzi insanlar üçün rahat şərait çətin şəraitə nisbətən daha böyük imtahan vəsiləsidir. Çətinlik və əziyyət zamanı ağıl və şüur açıldığı üçün Allahla olan mənəvi əlaqəni qorumaq bəzilərinə görə daha asandır. Lakin mühüm olan bu əlaqəni hər şəraitdə qorumaqdır.

Allah yolunda bir çox çətinliklərin və ağır imtahanların üstəsindən gəlmiş bir insan belə, düşüncəsini, imandan irəli gələn şövqünü, həyəcanını aktiv saxlamalı və əsil məqsədini unutmamalıdır. Əks təqdirdə insanın qəlbi qatılaşar, vicdanı hissiyyatsız olar, dolayısilə düşdüyü fəlakəti görə bilməyəcək və öyüd ala bilməyəcək vəziyyətə düşər. Allahın diləməsi xaricində, geri dönüşü olmayan yola girər. Korlaşan qəlbi artıq axirəti görə bilmədiyi üçün bu müvəqqəti dünyaya yönələr. Dünya və dünyanın müvəqqəti bəzəkləri, saxta cazibəsi ona Allahdan, Rəsulundan və Allah yolunda mübarizə aparmaqdan daha sevimli gəlməyə başlayar. Allah belə təhlükəyə qarşı möminləri Quranda belə xəbərdar edir:

**De: "Əgər atalarınız, övladlarınız, bacı-qardaşlarınız, həyat yoldaşlarınız, əşirətiniz, qazandığınız mallar, az qazanc gətirməsindən qorxduğunuz ticarət, xoşunuza gələn evlər sizə Allahdan, Onun Rəsulundan və Allah yolunda cəhd etməkdən (səy göstərməkdən) daha sevimlidirsə, artıq Allahın əmri gələnədək gözləyin. Allah fasiqləri doğru yola yönəltməz". (Tövbə surəsi, 24)**

Mömin bilməyərəkdən dünya həyatına meyllənmək təhlükəsi qarşısında xeyli ayıq-sayıq olmalıdır. Möminin hərdənbir qəflətə qapılaraq Allah rizasının olduğu bir işi tərk edib, nəfsinin istəkləri yönündə bəzi dünyəvi faydalara tamah salması, ona yaraşmayan haldır. Belə hərəkətlər mütəmadi hal aldıqda hər zaman küfrə, münafiqliyə açılan bir qapı vardır. Şüurları qapanaraq dünyəvi mənfəəti Allahın Rəsulundan üstün tutaraq, onu ayaqda qoyub gedənlərin vəziyyəti də belədir:

**Halbuki onlar (tamamilə Allaha və İslama təslim olmayanlar) ticarət və ya əyləncə gördükləri zaman, (dərhal) ona yüyürdülər və səni ayaq üstə qoydular. De: "Allahın dərgahında olan əyləncədən və ticarətdən daha xeyirlidir. Allah ruzi verənlərin ən yaxşısıdır". (Cümə surəsi, 11)**

Qəlbində həmişə Allah qorxusu, qiyamət və cəhənnəm qorxusu olan səmimi möminlər isə dünyanın aldadıcılığına aludə olmazlar:

**O kəslər ki, nə ticarət, nə də alışveriş, onları Allahı zikr etməkdən, dosdoğru namazı qılmaqdan və zəkatı verməkdən yayındırmaz. Onlar qəlblərin və gözlərin haldan-hala düşəcəyi bir gündən qorxarlar. (Nur surəsi, 37)**

## Başqalarını xəbərdar edib özünü unutmamaq

**Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz? Halbuki siz kitabı oxuyursunuz. Yenə də ağıllanmayacaqsınız? (Bəqərə surəsi, 44)**

Quranı yaxşı bilən zəkalı və təcrübəli bir insan başqalarının dini mövzulardakı səhv və nöqsanlarını ən kiçik incəliklərinə qədər diaqnoz edə bilər. Onlara bu mövzuda xəbərdar edə bilər. Bu, məqbul xüsusiyyətdir, lakin bunu etmək, insanın eyni səhv və günahları özünün etməsini qanuniləşdirməz. Tam əksinə başqalarına etdiyi xəbərdarlıqdan özü də öyüd almalı və eyni səhvləri etməkdən ciddi surətdə qaçmalıdır. Əks təqdirdə başqalarına etdiyi xəbərdarlıqlar əcr (savab) deyil, axirətdə öz əleyhinə bir dəlil olaraq qarşısına çıxar.

Bir səhvi, başqasını xəbərdar edəcək qədər yaxşı diaqnoz edə bilən bir insanın, eyni səhvi öz nəfsində diaqnoz edə bilməməsi kimi vəziyyət qeyri-mümkündür. Əlbəttə, o, öz səhvlərini və günahlarını da bilir. Bu isə onun qeyri-səmimi olduğunu göstərir. Məsələn, yalançı birinin insanları doğruluğa, riyakar birisinin insanları səmimiyyətə, namaz qılmayan birisinin isə insanları namaz

qılmağa çağırması çox böyük qeyri-səmimilik və ikiüzlülükdür. Yuxarıdakı ayənin sonunda belə insanların "yenə də ağıllanmayacaqsınız?" sözləri ilə xəbərdar edilmələri də, söylədikləri şeyləri əvvəlcə özlərinin yerinə yetirməli olduqlarının açıq göstəricisidir.

Belə ikiüzlü hərəkətlərin əsasını, insanlar üzərində mənəvi nüfuz qazanmaq, çəkinilən, sözü dinlənilən insan olmaq kimi Qurana zidd düşüncələr təşkil edir. Əlbəttə, belə davranan insanın əsil məqsədi Allahın hüdudlarının, dinin maraqlarının qorunması, batilin yox olması, möminlərin səhv və günahlarının düzəlməsi deyil. Etdiyi xəbərdarlıqlar bu səhvlərin işlənməsi məsələsindəki həssaslığından və Allah qorxusundan irəli gəlsəydi, şübhəsiz ki, eyni günahları işləməkdən ən çox özü çəkinərdi. Belə insanlar möminlərin səhv və günahlarını özlərinin məqam, vəzifə və etibarları üçün böyük fürsət sayarlar. Halbuki dini mövzuları, Quranda bildirilən hökmləri, bu cür nəfsani hörmət və etibar qazanmağa alət etmək insanı axirətdə böyük fəlakətə sürükləyə bilər.

Özündə olan bir səhvi başqa mömin qardaşında da gördüyü zaman mömin insanın edəcəyi ən gözəl və səmimi hərəkət, ona əvvəlcə eyni səhvin özündə də olduğunu demək, bununla bağlı həmişə bir-birinə xatırlatma edərək, ortaq səhvlərini düzəltməkdə bir-birini izləmək və təşviq etməkdir.

## Verilən borcu yazmaq

**Ey iman gətirənlər! Müəyyən müddətədək bir-birinizə borc verdikdə onu yazın. Qoy bunu aranızda bir katib düzgün qeyd etsin. Katib Allahın onu öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın və yazsın. Qoy o yazsın, üzərində haqq olan da (borc alan) yazdırsın, Rəbbi olan Allahdan qorxsun və borcdan heç nə əskiltməsin. Əgər üzərində haqq olan (borc alan) ağıldan zəif və ya acizdirsə və yaxud özü yazdırmağa qadir deyilsə, vəlisi düzgün yazdırsın. Aranızdakı kişilərdən iki nəfəri şahid tutun. Əgər iki kişi olmazsa, razı olduğunuz şahidlərdən bir kişi və iki qadını şahid tutun ki, qadınlardan biri çaşdıqda, o birisi onun yadına salsın. Şahidlər şahidlik etməyə çağırıldıqda boyun qaçırmasınlar. Az da olsa, çox da olsa, həmin məbləği və onun vaxtını yazmaqdan usanmayın. Bu, Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməyiniz üçün daha münasibdir. Yalnız aranızda gedən nağd ticarət istisnadır. Bunu yazmamağınız isə sizin üçün günah deyildir. Alver etdikdə də şahid tutun. Lakin katibə və şahidə zərər verilməməlidir. Əgər zərər yetirsəniz, şübhəsiz ki, bu, sizin üçün günahdır. Allahdan qorxun. Allah sizi öyrədir. Allah hər şeyi bilir. (Bəqərə surəsi, 282)**

Bu ayədə olduqca aydın və müfəssəl şəkildə borc verildiyi zaman yazılmalı olduğu bildirilir. Buradakı ən mühüm xüsus isə yaxınlıq, qohumluq, səmimiyyət, dostluq kimi anlayışları meyar qəbul edərək, ayənin əmrini qulaq ardına vurmamaqdır. Kimlər arasında olmasından və miqdarından asılı olmayaraq, ayə həmin hökmü tətbiq etməmək üçün heç bir istisna göstərməmişdir. Buna görə də əgər insan həqiqətən mömindirsə, ayənin hökmünə qeyd-şərtsiz əməl etməlidir. Həqiqətən də ayədə bildirildiyi kimi, ədalətdən kənara çıxmamaq, irəlidə hər hansı şübhəyə, yanlış anlama və haqsızlığa yol verməmək üçün, bu cür tədbir ən mühümdür. Tənbəllik kimi nəfsani vəziyyət də ayənin hökmünün ehmal edilməsinə qətiyyən səbəb ola bilməz.

## Allahın və dinin əleyhinə danışılan mühiti tərk etmək

Möminlər heç bir halda inanclarından güzəştə getməzlər. Hər bir mömin olduğu mühitdə, Allahın və Onun dininin təmsilçisidir. Bu həqiqəti dərk edən və bu məsuliyyəti daşıyan möminə Allahın və dininin əleyhinə danışılan mühitlərdə olmaq yaraşmaz. Onsuz da, bu vəziyyət Quran ayələrində qəti olaraq qadağan edilmişdir:

**O, sizə Kitabda: "Allahın ayələrinin inkar edildiyini və onlara istehza edildiyini eşitdiyiniz zaman, onlar başqa söhbətə dalıb keçənə qədər, onlarla bir yerdə oturmayın, yoxsa siz də onlar kimi olarsınız" deyə nazil etdi. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə toplayacaq. (Nisa surəsi, 140)**

**Ayələrimizi lağlağıya qoyanları gördüyün zaman, (onlar başqa söhbətə keçənə qədər) onlardan üz çevir. Əgər şeytan bunu sənə unutdursa, xatırladıqdan sonra zalım tayfa ilə birgə oturma. (Ənam surəsi, 68)**

Cahil cəmiyyətin üzvlərinin əsas xüsusiyyəti Allahı qiymətləndirə bilməmələri və Onun gücündən xəbərsiz olmalarıdır. Müşriklər bu düşüncəsizliyin verdiyi çirkin cəsarətlə, öz aləmlərində vicdanlarını rahat etmək üçün bəzən Allahın və dinin əleyhinə danışa bilərlər. Bu, bəzən açıq hücum, bəzən eyhamlı söz atmaq, bəzən də din haqqında cahilcəsinə verilən hökm formasında ola bilər. Şərtlər nə olsa da, belə mühit yarandıqda, əgər bu vəziyyəti düzəltmək imkanı yoxdursa, oranı tərk etmək möminə fərzdir. Bu hala laqeyd qalmaq, mühitin bir parçası olmaq, Allahın şanını və şərəfini ucaltmaq vəzifəsi daşıyan möminə yaraşmadığı kimi, onsuz da Quranda haram buyurulmuşdur.

## Allaha müəyyən olunmuş vaxtlarda həmd etmək və onu təqdis etmək

Həmd və təqdis etmək möminin həyatının bir hissəsidir. Həmd hər növ tərif, ucaltma və iltifata təkcə Allahın layiq olduğunu, təqdis isə Allahın ağla gələn hər cür qüsur və səhvdən uzaq olduğunu həm dildə, həm də qəlbən təsdiq etməkdir.

Həmd və təqdisin təkcə möminlərin deyil, eyni zamanda bütün kainatın ibadəti olduğu ayələrdə belə xəbər verilir:

**Yeddi göy, yer və onlarda olanlar Onu təqdis edər; Onu təriflə təqdis etməyən heç nə yoxdur, lakin siz onların təqdisini qavramırsınız. Şübhəsiz ki, O, Həlimdir, Bağışlayandır. (İsra surəsi, 44)**

**Göy gurultusu Onu həmd ilə, mələklər də Ona olan qorxularından təqdis edərlər... (Rad surəsi, 13)**

5 vaxt namaz qılmaq kimi, müəyyən edilmiş vaxtlarda Allahı təqdis etmək və Ona həmd etmək də Quranda keçən fərzlərdəndir. Mömin Allahın fərz buyurduğu məsələlər arasında öz anlayışına görə əhəmiyyətlilik ardıcıllığı apara bilməz. Yəni namaz qılmağı təqdis etməkdən və ya oruc tutmağı zəkat verməkdən daha əhəmiyyətli və ya əhəmiyyətsiz hesab edə bilməz. Allahın əmrlərini tam yerinə yetirər. Allah insanı yalnız Özünə qulluq etməsi üçün yaratmışdır. Allahı Quranda bildirilən beş vaxtda, Allahın istədiyi şəkildə təqdis etmək möminin gündəlik həyatında ən mühüm vəzifələrindən biridir. Sübh namazı və əsr namazı vaxtlarında təqdislə yanaşı, həmd edilməsi ayələrdə xüsusən bildirilmişdir.

## Möminlərə qarşı təvazökar, inkarçılara qarşı isə caydırıcı (fikrindən daşındıran) olmaq

Təvazökar olmaq Quranda Allahın təriflədiyi davranışdır. Təvazökar mömin digər möminlərə əminlik və şövq verər. Həqiqi mənada təvazökarlıq insanın sahib olduğu bütün xüsusiyyətləri Allaha borclu olduğunu bilməsi, Allahdan başqa heç bir gücün olmadığını qəbul etməsi ilə mümkündür. Bu düşüncəyə malik insan nə qədər gözəl, müvəffəqiyyətli, zəngin, ağıllı və ya güclü olsa da, bütün bunların Allahın verdiyi müvəqqəti xüsusiyyətlər, özü üçün imtahan vəsiləsi və saleh əməl işləmək üçün fürsət olduğunu bilər. Sahib olduğu heç bir xüsusiyyət onun təkəbbürlənməsinə, lovğalanmasına səbəb olmaz. Bu üstün əxlaqı, Allahın ruhunu daşıyan, Onun yer üzündəki xəlifəsi olan möminlərə qarşı hörmət və təvazökarlıq formasında əks olunar. Bu əxlaqa malik olan möminlər ayələrdə təriflənmiş və müjdələnmişlər:

**...Sən təvazökar olanlara müjdə ver! (Həcc surəsi, 34)**

**Ey iman gətirənlər! Sizdən hər kim dinindən dönsə (bilsin ki), Allah (onun yerinə) Özünün onları sevdiyi, onların da Özünü sevdiyi, möminlərə qarşı təvazökar, kafirlərə qarşı isə "güclü və şərəfli" olan, Allah yolunda cəhd edən (səy göstərən) və qınayanın qınağından qorxmayan bir camaat gətirər. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah (mərhəməti ilə) genişdir, biləndir. (Maidə surəsi, 54)**

Yuxarıdakı ayədən də aydın olduğu kimi, təvazökar rəftar göstəriləcək insanlar təkcə möminlərdir. Cahil insanlara qarşı davranış isə bunun tam əksi olacaq. Çünki iman gətirməyənlər Allaha üsyan etmişdir, Allaha, Onun elçisinə və möminlərə qarşı müharibə başlatmışdır. Quranda möminlərin, yer üzündəki varlıqların ən aşağısı kimi xarakterizə edilən və Allaha üsyan edən bu insanlara necə davranmalı olduqları belə bildirilmişdir:

**Ey Peyğəmbər! kafirlərə və münafiqlərə qarşı cəhd et (səy göstər). Onlara qarşı sərt və caydırıcı (fikrindən daşındıran) davran. Onların sığınacaqları yer Cəhənnəmdir. Ora nə pis dönüş yeridir. (Tövbə surəsi, 73)**

**Onlarla vuruşun ki, Allah sizin əllərinizlə onlara əzab versin, onları alçaltsın, sizə onların üzərində qələbə çaldırsın, mömin camaatın qəlbini sevindirsin və möminlərin qəlbindən qəzəbi silib aparsın. Allah istədiyi kəsin tövbəsini qəbul edər. Allah Biləndir, Hökm və Hikmət sahibidir. (Tövbə surəsi, 14-15)**

Möminlərin bu xüsusiyyətləri digər bir ayədə belə ifadə edilmişdir:

**Məhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər. (Fəth surəsi, 29)**

Allah Quranda müsəlmanlara, yaxın və səmimi dost olaraq Allaha iman gətirənləri göstərmişdir. Həmçinin Allah müsəlmanların kafirlərə və münafiqlərə qarşı fikri mübarizə aparmalarını əmr etmişdir. Buna görə də, bir müsəlman münafiqə və ya kafirə qarşı həmişə Quranda bildirilən şəkildə davranar. Quran və sünnədən başqa, iman gətirən insanın rəftarını təyin edən başqa meyar ola bilməz. Bir müsəlmanın digər müsəlmanlara hörmət və sevgi göstərməsi, həmçinin münafiq və dinsizlərə qarşı caydırıcı (fikrindən daşındıran) davranması da bir ibadətdir. Qəlbində Allahın dininə kin bəsləyən və əlindəki imkanlardan gizli və açıq şəkildə müsəlmanların əleyhinə istifadə edən münafiqə sevgi və isti münasibət göstərmək, bu insanın dinə və Allaha qarşı olan kinli davranışına müəyyən mənada dəstək vermək və təsdiqləmək mənasına gələr. Lakin burada işlənmiş caydırıcı (fikrindən daşındıran) sözündən yanlış məna çıxartmamağın lazım olduğunu da xatırlatmaqda fayda var. Çünki burada nəzərdə tutulan caydırıcılıq (fikrindən daşındırma) fiziki qüvvə ilə tətbiq edilən caydırıcılıq (fikrindən daşındırma) deyil. Buradakı caydırıcı (fikrindən daşındıran) sözünün mənası, müsəlmanların dinlərinə olan güclü bağlılıqları və qətiyyətlərindən ötrü, münafiqlərin həvəsdən düşməsi və dinə qarşı mübarizə aparmaqdan geri çəkilmədir. Həmçinin münafiqlər və iman gətirməyənlərin müsəlmanlara qarşı açıq və ya gizli fəaliyyətlərini aşkar edərək mane olmaq, onların Allaha və dinə qarşı olan davranışları müqabilində ortaya açıq davranış tərzi qoymaq, onlarla yaxın dost olmamaq mənasındadır. Münafiqlərin ən çox qorxduqları insanlar təqva sahibi müsəlmanlardır. Allah Öz ayələrində münafiqlərin möminlərdən Allahdan qorxan kimi, hətta daha çox qorxduqlarını bildirir. Buna görə də, Allaha və müsəlmanlara düşmən olanların qəlbində qorxu yaradacaq təqvaya sahib olmaq müsəlman üçün çox gözəl ibadətdir. Müsəlman olmayan, lakin din mövzusunda möminlərə qarşı mübarizə aparmayan insanlarla yaxşı yola getmək və ya din əxlaqının yenicə təbliğ edildiyi insanlarla gözəl rəftar etmək, gözəl danışmaq da yenə bu mövzunun hüdudlarını təyin edən Quran meyarlarıdır.

## Din əxlaqını yaşamaqda zəiflik göstərməmək və asta davranmamaq

Bir möminin imanının gücü, səmimiyyəti və qətiyyəti onun Allah yolundakı elmi mübarizəsindən və vətənsevərlik hissinin gücündən aydın olar. İnsanın din əxlaqı məsələsində zəif və ya şövqlü olmasını, bu elmi mübarizədə göstərdiyi münasibət və davranışlar müəyyən edər.

Dində zəiflik göstərmək, möminlər arasında olduğu halda, imani kamilliyə tam nail ola bilməmiş insanlara məxsus xüsusiyyətdir. Bu insanda zəiflik, çətin anlarda geri çəkilmək, risk etməmək, nəfsinə zərər gəlməsindən çəkinmək, nəfsinin rahatlığını və mənfəətlərini dinin mənfəətlərindən üstün tutmaq şəklində ortaya çıxar. Rahatlıq vaxtlarında isə özünü, iman gətirməyənlərin və fitnənin varlığından narahat olmamaq, onlarla elmi mübarizə aparmaq yönündə heç bir düşüncəyə sahib olmamamaq və ya cəhd göstərməmək, məsuliyyət götürməkdən və nəfsini çətinliyə salmaqdan qaçmaq, hadisələr qarşısında passiv və reaksiyasız davranmaq, asta hərəkət etmək kimi formalarda özünü göstərər. Bu yanlış anlayışları, bu insanların məntiqi mühakimələrini və hadisələri qiymətləndirmələrini də tərsinə döndürər. Belə ki, onların şüuru, Allah yolunda üzləşdikləri çətinlik və ya təhlükədən qaçmağı özləri üçün qazanc, hətta Allahın neməti olaraq görəcək qədər qapanmışdır:

**Şübhəsiz ki, aranızda asta hərəkət edənlər var. Əgər, sizə bir müsibət üz versə: "Doğrusu Allah mənə lütf etdi ki, onlarla birlikdə olmadım" deyər. (Nisa surəsi, 72)**

Belə insanların öz aləmlərində vicdanlarını rahat etmək üsulları da, onsuz da lazım gələni edənlərin olduğunu irəli sürmələridir. Lakin çətinlik və sıxıntı anları sovuşaraq, onların heç bir payının olmadığı zəfər anı gəldiyi zaman peşman olduqlarını dilə gətirərlər. Möminlərin sahib olduğu şərəfli məqamlardan nə qədər uzaq olduqlarını dərk edərlər:

**Əgər sizə Allahdan bir lütf (zəfər) yetişsə, o zaman da, sanki onunla aranızda heç bir yaxınlıq yoxmuş kimi, şübhəsiz, belə deyər; "kaş ki, onlarla birlikdə olsaydım, beləliklə mən də böyük "qurtuluş və xoşbəxtliyə" nail olaydım". (Nisa surəsi, 73)**

Beləliklə, axirətləri üçün qazana biləcəkləri çox böyük əcr (savab) fürsətlərini, üstün məqamları da əldən vermiş olarlar. Allah möminlərin arasında olan bu zəif kəslərin, möminlərə mənfi yöndə təsir göstərməməsi, onların şövqlərini, həvəs və əzmlərini yox etməməsi üçün səmimi möminləri xəbərdar edir və bənzər xarakteri qadağan edir:

**Elə isə sən səbir et; şübhəsiz ki, Allahın vədi haqdır; yəqinliklə inanmayanlar qətiyyən səni təşvişə salıb zəiflik göstərməyə (və ya ruh düşkünlüyünə) sövq etməsinlər. (Rum surəsi, 60)**

Əlbəttə ki, daimi zəiflik həqiqi iman sahibi olan bir insana aid edilə bilməz. Lakin mömin müvəqqəti zəiflikdən, laqeydlikdən, məsuliyyətsizlikdən, hərdənbir nəfsinə tabe olmaq kimi zəifliklərdən kəskin şəkildə qaçmalıdır. Möminlərə müxtəlif məsələlərdə zəiflik göstərməyi qadağan edən ayələrdən bəziləri bunlardır:

**(Düşməniniz olan) Qövmü axtarmaqda zəiflik göstərməyin. Siz əziyyət çəkirsinizsə, şübhəsiz ki, onlar da sizin əziyyət çəkdiyiniz kimi əziyyət çəkirlər. Halbuki siz onların ümid etmədiklərini Allahdan ümid edirsiniz. Allah biləndir, hökm və hikmət sahibidir. (Nisa surəsi, 104)**

**Ruhdan düşməyin, kədərlənməyin. Əgər (həqiqətən) iman gətirmisinizsə ən üstün olan sizsiniz. (Ali İmran surəsi, 139)**

Quranda tərif edilən ideal mömin əxlaqı isə bütün həyatı boyu istər sıxıntı və çətinlik anlarında, istərsə də rifah və rahatlıq anlarında dinin mənfəətlərindən heç bir güzəştə getməyən, bütün vəziyyətlərdə Allahın rizasını nəfsinin arzularına dəyişməyən insandır. O, öz şövq və həyəcanını, qətiyyətini heç bir halda itirməz, zəiflik göstərməz və boyun əyməz. Bu mömin əxlaqı Quranda keçmiş ümmətlərdən nümunə gətirilərək belə tərif edilir:

**Neçə-neçə peyğəmbərlə birlikdə bir çox Rəbbani (alim)lər döyüşdülər ki, Allah yolunda özlərinə üz verən (çətinlik və əziyyət)dən ötrü nə ruhdan düşdülər, nə də boyun əydilər. Allah səbir edənləri sevər. (Ali İmran surəsi, 146)**

Digər bir ayədə isə axirət üçün ciddi səy göstərməyin dəyərindən bəhs edilir:

**Kim də axirəti istəyər və mömin olaraq ciddi səy göstərməklə onun üçün çalışarsa, məhz belələrinin səyi şükürə layiqdir. (İsra surəsi, 19)**

## Hörmətli Adnan Oktarın müsəlmanların çətinliklərə talib olmasının əhəmiyyəti ilə əlaqədar açıqlamaları

**Adnan Oktar**: "Hay maşaAllah, Siirtin igidləri, Cənub-Şərqi Anadolunun igid qardaşları, bizim canımız ciyərimizdir onlar inşaAllah. Könülləri çox-çox rahat olsun, çox gözəl qurtuluşa doğru gedir bütün İslam ümməti, bütün türklük aləmi, o qoç igidlər də çox rahat edəcəklər inşaAllah. Bir-birini çox yaxşı sevsinlər, qorusunlar, mədəniyyətlərini və biliklərini artırsınlar, hər şeyə çox humanist yanaşsınlar, könülləri çox rahat olsun. Sonunda tam qurtuluşa gedəcək, inşaAllah. Amma baxın, məsələn, mən dünən səhər Quran oxuyurdum, baxdım; həmişə qövmlərin həlaklarından bəhs edilir, budur Ad qövmü, Səmud qövmü, Firon qövmü Allahın sözünü dinləməyiblər, həmişə fəlakətə uğrayıblar, lakin Allahın həmişə axtardığı bir şey var, üstündə dayandığı bir şey var. Yəni əziyyət olmadan, çətinlik olmadan Allah o dini qəbul etmir. Xalq arasında yanlış klassik ənənəvi quruluş kök saldı. Zənn edirlər ki, doğularlar, böyüyərlər, məktəbə gedərlər, namazlarını qılarlar, sakit, mülayim həyatları olar. Lazım gəlsə Avropada da təhsil alarlar, işləri olar, evlənərlər, əsil-nəsəb sahibi olarlar, namazlarını qılarlar və ölərlər. Mən belə bir həyat görə bilmədim Quranda, yəni görən varsa mənə desin, belə şey yoxdur.

Əksinə Allah deyir; **"daha əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən dərhal cənnətə girə biləcəyinizi mi zənn etdiniz"** deyir Allah. **"Onlara elə dözülməz çətinliklər üz verdi ki,"** deyir, elə deyil, şeytandan Allaha sığınıram. Təbii ki, çox şiddətli imtahanlardan keçir möminlər. Dolayısilə belə rahat həyatı hər kəs seçə bilər, mən də edə bilərdim bunu, Süleyman Hilmi Tunahan həzrətləri də edə bilərdi. Bədiüzzaman da edə bilərdi, elə deyil? Abdulhakim Arvasi həzrətləri edə bilərdi, Əli Heydər əfəndi edə bilərdi; heç biri etməyiblər. "Mübarəklər onlar etsin, biz seyr edək"; belə şey yoxdur, yəni onlar öz qurtuluşunu təmin etmiş olar, özü xilas olar. Yəni onların bizim qurtuluşumuza təsiri olmaz, belə şey yoxdur. Dolayısilə hər kəs ayrı-ayrılıqda Bədiüzzaman ruhunda, Süleyman Hilmi Tunahan həzrətlərinin ruhunda, Abdulhakim Arvasi həzrətlərinin ruhunda olmalıdır. Təbii ki. Mən xəbərdar edirəm, yəni bax doğrusunu deyirəm. Çünki bax mehdiyyət dövründəyik, mehdiyyət dövründə çox böyük hadisələr var. Çox böyük əziyyət mühitləri olacaq". *(Hörmətli Adnan Oktarın Kanal 35, Kayseri və Kanal Avrupa telekanallarındakı canlı müsahibəsi, 7 fevral 2010-cu il)*

## Heç nəyin möminləri ədalətsizliyə sövq etməməsi

Ədalət, insanlar arasındakı anlaşmazlıqlara çıxış yolu gətirərkən haqq sahibinə heç bir tərəf tutmadan haqqını vermək mənasını verər. Lakin Quran əxlaqını yaşamayan insanlar əsasən tam və qəti ədalət anlayışı ilə hərəkət etməzlər. Qərar verərkən bir çox xarici amil onların qərarlarına müsbət və ya mənfi yöndə təsir edə bilər. Məsələn, haqqında qərar verəcəyi insanlardan, özünə daha yaxın hesab etdiyi insanın lehinə qərar qəbul edə bilər. Yaxud mənfəətinə uyğun gördüyü, özünə fayda təmin edəcəyini düşündüyü şəkildə hökm verə bilər. Yəni hər növ şəxsi mənfəət naminə ədalətli qərar verməyə bilər. Lakin insanların ədalətsizlikləri daha çox kin bəslədikləri insanlara qarşı olan davranışlarında ortaya çıxar. Nəfsini kin hissi bürüyən insan, qarşısındakı şəxslə bağlı ədalətli qərar qəbul etməkdə çətinlik çəkə bilər. Keçmişdən gələn içində saxladığı kin, qarşı tərəfdə haqq payı olsa belə, bu haqlılığı ortaya çıxartmasına icazə verməyə bilər. Yaxud kin bəslədiyi cəmiyyət və ya insanın haqqına təcavüz etməyə sövq edə bilər.

Buna görə də, Allah kinin ədalətə mane olma cəhətinə xüsusən diqqət çəkmiş və müsəlmanları bu mövzuda xəbərdar etmişdir:

**Ey iman gətirənlər! Allah xatirinə ədaləti qoruyan şahidlər olun. Hər hansı bir camaata qarşı olan kin-küdurət sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun! Bu, təqvaya daha yaxındır. Allahdan qorxun! Şübhəsiz ki, Allah nə etdiklərinizdən xəbərdardır (Maidə surəsi, 8)**

Ayənin əmrinə əsasən müsəlmanlar yaxınlıq, mənfəət, qohumluq əlaqəsi və ya kin kimi səbəblərə görə, qarşılarındakı insan və ya cəmiyyətə heç vaxt ədalətsizlik etməzlər. Qarşılarındakı insanın inancı, düşüncəsi, fəlsəfəsi nə olsa da, hətta müsəlmanların öz inanclarına zidd də olsa, bu onların bu cəmiyyət haqqında doğru qərarı almalarına əngəl deyil. Heç vaxt hisslərinə qapılaraq hərəkət etməz və ağılla düşünməkdən uzaqlaşmazlar. Verəcəkləri hökm əleyhlərinə belə olsa, doğrunu gizlətməz və ya düz yoldan azmazlar.

## Müsəlmanları müjdələmək

**Şübhəsiz ki, Biz səni haqla müjdə verən və xəbərdar edən biri olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən biri gəlmiş olmasın! (Fatir surəsi, 24)**

Müsəlmanların xəbərdaredici xüsusiyyətləri ilə yanaşı, müjdəçi xüsusiyyətləri də var. Çünki Quran insanlara həm xəbərdarlıq, həm də müjdə kimi nazil edilmişdir.

Quranda gözəl xarakterli insanlar üçün bir çox müjdələr var. Şübhəsiz ki, bunların ən əhəmiyyətlilərindən biri gözəl əxlaqlı insanlar üçün hazırlanan cənnətdir. Allah insanların səbirli, səmimi, ədalətli, gözəl sözlü, təvazökar, gözəl xarakterli olacaqları təqdirdə axirətdə, bir çox mükafatlarla qarşılıq görəcəklərini bildirmişdir. Cənnət bu dünya ilə müqayisə edilməyəcək qədər böyük sənətə, zənginliyə və möhtəşəmliyə malikdir. İnsanlar, evlər, məkanlar o günə qədər bənzərinə heç rast gəlmədiyimiz şəkildə və ən gözəl halda yaradılacaq. Mənəvi cəhətdən də insanların dünyada heç yaşamadığı qədər böyük xoşbəxtlik, sevinc və fərəh hissi yaşanacaq. Allah cənnət haqqında Quranda daha bir çox məlumat verir. Allahın cənnəti müsəlmanlar üçün bu cür tərif etməsi və incəliklərinə qədər açıqlaması müsəlmanlar üçün böyük şövq və həyəcan mənbəyidir. Müsəlmanlar cənnət barədə düşündükcə, onların axirət üçün çalışmaq və xidmət etmək istəkləri daha da artar. Allahın heç bir əməli əvəzsiz qoymadığını və ən kiçik yaxşılığın mükafatının da qat-qat olduğunu bir daha düşünər və Allaha daha böyük qətiyyətlə bağlanarlar.

Allah müsəlmanlara həm də bu dünyada qarşılıq verir. Bu müjdələr də Quranda bildirilmişdir. İslam əxlaqının bütün dünyaya hakim olması, Axırzamanda hz. İsa (ə.s)-ın yenidən dünyaya gəlməsi, Allahın verdiyi qəlb rahatlığı, iman gətirməyənlər üzərindəki mütləq qalibiyyət, mülkə varis etməsi, gözəl həyatla yaşatması kimi bir çox vədlər bu müjdələrə aiddir. Bu müjdələrin müsəlmanlara təşviq və sevinc səbəbi olması üçün Allah onları ayələrlə bildirmişdir. Buna görə də müsəlmanların Quranla bildirilən bu mövzularda bir-birinə müjdə vermələri mühüm ibadətdir. Müsəlmanların güclənməsiylə, varlanmalarıyla, müvəffəqiyyətləriylə, irəliləyişləri ilə əlaqədar və onlara Allahın necə kömək etdiyi, Allahın onları necə qoruduğu və necə zəfərlər verdiyi ilə bağlı müjdələr, iman gətirənlərin güclənməsinə səbəb olduğu halda, münafiqlərin və kafirlərin isə ruh düşkünlüyünün artmasına səbəb olacaq. Buna görə də Allah peyğəmbərlərini "xəbərdaredici" olmaqla yanaşı, həm də "müjdə verənlər" kimi təsvir edər.

## “İnşaAllah demək”

Allah insanları zaman və məkandan asılı şəkildə yaratmışdır. Lakin Allah, zamanı və məkanı onsuz da Özü yaratdığı üçün bunlardan asılı deyil və bunları hər tərəfdən əhatə edir. İnsan yaradılışının tələbi olaraq zaman və məkan daxilində yaşamaq məcburiyyətindədir. O, heç vaxt və heç bir şəkildə bu vəziyyətini dəyişdirə bilməz. Lakin Allah zamanı və məkanı həm daxildən, həm də xaricdən görər və Öz nəzarəti altında saxlayır. Bu, bu deməkdir: Allah insanın yaşadığı həyatın əvvəlini,, ortasını və sonunu eyni anda görür və bilir. Allah üçün kainatın ilk başlanğıc anı ilə qiyamət saatı arasında heç bir zaman fərqi yoxdur. İnsan üçün isə bu arada çox uzun bir zaman fərqi var. Lakin bizim otuz santimetrlik xətkeşə baxdığımız zaman onun əvvəli ilə sonunu eyni anda gördüyümüz kimi, Allah da kainatın əvvəlini və sonunu eyni anda bilmək və görmək gücünə malikdir.

Buna görə də, insanların keçmişi, indiki zamanı və gələcəyi Allah dərgahında əvvəlcədən müəyyənləşdirilmiş bir yazıdır. Allah bizə bunu Quranda tale anlayışı ilə bildirmişdir. İnsan qətiyyən bu taledən kənara çıxa bilməz. Bir sözlə, insanın gələcəyi yalnız Allahın müəyyən etdiyi şəkildə olar.

Buna görə də, Allah insanların gələcəkdə görəcəkləri işlər haqqında danışarkən "inşaAllah" demələrini bildirmişdir. Çünki insan hansı planı qursa da, nəticədə Allahın istədiyindən başqa heç nə baş tutmayacaq.

Müsəlmanlar da qeyblə bağlı yalnız Allahın istədiklərinin baş verəcəyinə iman gətirdikləri üçün, bir dəqiqə sonra üçün belə olsa, əsla qəti şəkildə danışmaz və öz sözlərini mütləq Allahın istəməsi ilə mənasına gələn "inşaAllah" deyərək bitirər:

**Heç nə haqqında: "Mən bunu sabah mütləq edəcəyəm!" demə. Təkcə: "Allah istəsə!" (inşaAllah edəcəyəm de)... (Kəhf surəsi, 23-24)**

## Məlumat sahibi olunmayan məsələni müdafiə etməmək

İnsanların yaydıqları, müdafiə və tətbiq etdikləri bir fikrin və inancın vicdanən mütləq doğru olduğuna qənaət gətirmələri şərtdir. Bunun əksi, yəni insanların doğru olmasına vicdanən qənaət gətirmədiyi və haqqında məlumatı olmadığı hər hansı fikrin, insanın və ya hadisənin ardınca getmələri Quranda qadağan edilmişdir.

Allah Quranda insanların doğru olduğuna hökm verib ardınca getdikləri hər fikir üçün axirətdə gözləri, qulaqları və qəlbləri ilə hesab verəcəklərini bildirir:

**Haqqında məlumatın olmayan şeyin ardınca getmə; çünki qulaq, göz və ürək - bunların hamısı bundan ötrü məsuliyyət daşıyır. (İsra surəsi, 36)**

Mənbəyi sağlam olan və doğruluğu qəti şəkildə açıq olan yeganə fikir sistemi isə Allahın doğru olduğunu bildirdiyi sistemdir. Bu da Quranda və Peyğəmbərimiz (s.ə.v)-in hədislərində hər bir təfərrüatı ilə bildirilib. Buna görə də, müsəlmanlar vicdanlarının, Quranın və sünnənin təsdiqləmədiyi heç bir düşüncəni təsdiqləməzlər. Müsəlmanın bir insanı və ya fikri dəstəkləməsi üçün, həmin fikir Quran və sünnəyə uyğun olmalı və ya həmin insanın Quran əxlaqı çərçivəsində hərəkət etməsi vacibdir. Buna görə də müsəlmanlar insanlara anlatdıqları və tövsiyyə etdikləri, doğru olaraq çatdırdıqları hər hansı elmi, sosial və ya dini mövzuda böyük diqqətlə danışarlar.

Onlar haqqı müdafiə etməyən heç bir insanı dəstəkləməzlər. Vicdanlarına uyğun olmayan heç bir ticarət və ya sosial işlərə şərik olmazlar. Doğruluğu şübhəli olan heç bir fikri müdafiə etməzlər. Müsəlmanların danışdığı, tövsiyyə və ya müdafiə etdiyi hər bir fikrin doğruluğu hər kəsin açıqca görə bildiyi aydınlıqda olar.

## İnkarçıların var-dövlətinə qibtə etməmək və həyat tərzinə rəğbət bəsləməmək

**Əsla onlardan bəzilərinə verdiyimiz şeylərə gözünü dikmə... (Hicr surəsi, 88)**

Allah var-dövləti həm müsəlmanlara, həm də inkarçılara verə bilər. Quranda bu vəziyyət açıq şəkildə bildirir. Lakin ayələrə baxanda, zənginliyin hər iki tərəfə də verilmə məqsədinin fərqli olduğu görünür. Müsəlmanlara verilən var-dövlətin səbəbi gözəl əxlaqlarının əvəzi olaraq Allahın onlara gözəl həyat vəd etməsinin tələbidir. Allah müsəlmanları yer üzünün mülklərinə varis edəcəyini bildirmişdir. Bununla yanaşı, Allaha və dinə düşmən olduqları halda, yenə də böyük var-dövlət içində yaşayan insanlar vardır. Allah bu insanlara da var-dövlət vermişdir. Lakin Allahın belə insanlara mal-dövlət verməsinin məqsədi müsəlmanlarda olduğundan çox fərqlidir. Bu məqsəd Quranda belə bildirilir:

**Onların malları və övladlarına qibtə etmə; Allah bunlarla, ancaq onlara dünyada əzab vermək və canlarının inkar edərkən çətinlik içində çıxmasını istəyir. (Tövbə surəsi, 85)**

Allahı inkar edən və bu inkarında inad göstərən insanlar üçün özlərinə verilən var-dövlət, gözəllik, gözəl evlər, geyimlər və ya imkanlar imtahan vasitəsidir. Bu verilənlər, onların özlərinə verilən bütün bu nemətlərə baxmayaraq, necə nankorluq etdiklərini, hər cür imkanlarına baxmayaraq Allaha qarşı sədaqətsizliklərinin ölçüsü insanların yaxşı görmələri üçündür.

Allah sonsuz ağıl sahibidir. Buna görə də, insanları müxtəlif formalarda cəzalandırar. İnsanın heç düşünə bilməyəcəyi və əsla anlaya bilməyəcəyi bir çox üsulla bir inkarçıya əvəz verə bilər. Bu əvəz çox açıq şəkildə görünən təbii fəlakət, dağıntı ola bilər və ya görünməyən, lakin insanı daxildən sarsıdan sıxıntı da ola bilər. Əzabın bir növü də insanın özü üçün xeyirli hesab etdiyi bir vəziyyətlə onun axirətdəki məsuliyyətinin artması ola bilər. Məhz buna görə də, müsəlmanın kafir insanlarda olan imkanlara qibtə etməsi, Quran əxlaqına uyğun olmaz. Qibtə ediləcək müsəlmanların əxlaqı və təqvasıdır.

Buna görə də, Allah din əxlaqını yaşamayan insanların zənginliyinə, yaşadıqları həyata, imkanlarına və ya hər hansı xüsusiyyətlərinə qarşı, insanda hər hansı heyranlıq hissi yaranmamasını əmr etmişdir.

## Dində məcburiyyətin olmaması və din əxlaqına hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət etmək

**İnsanları Rəbbinin yoluna hikmətlə, gözəl öyüd-nəsihətlə dəvət et və onlarla ən gözəl tərzdə mübarizə et. Şübhəsiz ki, Rəbbin azğınlığa düşənləri və doğru yolda olanları tanıyır. (Nəhl surəsi, 125)**

İslam dininin xüsusiyyəti, insanın təkcə içindən gələrək və qəlbən qəbul edərək yaşaması ilə Allah dərgahında qəbul edilən bir inanc sistemi olmasıdır. Allah dinin bu xüsusiyyətini Quranın bir çox ayəsində bildirmişdir. Məsələn, 5 vaxt namaz qılan bir insan namazını Allah üçün istəyərək və sevərək qılmalıdır. Yaxud mal-dövlətindən Allah yolunda xərcləyən bir insanın bu ibadətinin Allah dərgahında qəbul edilməsi, verdiyi bu sədəqəni istəyərək və sevərək verməsinə bağlıdır.

Bir insan müsəlman olmaq üçün dini və Allahı ağlıyla dərk etməli və qəlbən də təsdiq etməlidir. Həmçinin yerinə yetirdiyi xidmətləri nə üçün etdiyini bilməlidir. Müsəlmanın dinə olan bağlılığı onun Allahın varlığına olan qəti inamından irəli gəlir. Buna görə də, din əxlaqının tələblərini istəyərək və sevərək yerinə yetirir. Dolayısilə İslam yalnız insanın öz rizası olduğu təqdirdə, həqiqi mənada yaşana biləcək bir sistemdir.

Buna görə də dində məcburiyyət yoxdur. Allah müsəlmanlara dinə qarşı istəksiz olan insanlara İslamı zorla qəbul etdirmək üçün səy göstərməmələrini əmr etmişdir. Çünki Allah dini, insanın məcbur etməsiylə deyil, qəlbdən gələrək yaşana biləcəyi şəkildə yaratmışdır. Qəlbən qəbul etməyib, insanlar təzyiq göstərdiyi üçün yaşanan bir dinin Allahın dərgahında heç bir əsası olmaya bilər və dolayısilə insanın belə ruh halı ilə din əxlaqını yaşaması və yaşamaması arasında da heç bir fərq də olmayacaq.

Müsəlmanların din əxlaqını izah etmələri, təkcə gözəl sözlü dəvət şəklindədir. İstəyənlərin və Allahı sevənlərin din əxlaqını yaşamasına istiqamətlənən dəvətdir. Dində məcburiyyət olmaması ilə bağlı bir ayədə belə buyrulur:

**Dində məcburiyyət (və təzyiq) yoxdur. Şübhəsiz ki, doğru yol azğınlıqdan açıq-aydın fərqlənir. Artıq hər kim tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

Ayənin əmrinə əsasən müsəlmanlar İslamı təbliğ edərkən və imanı sevdirərkən sözün ən gözəlini işlədərlər. Qarşılarındakı insanı incitməyəcək, müsəlmanlara qarşı qəlbində sevgi oyandıracaq şəkildə din əxlaqını təbliğ edərlər. Çünki müsəlmanlara qarşı qəlbində sevgi yaranan bir insanda, onları bu qədər gözəl əxlaqlı insanlar edən inanc sisteminə qarşı da maraq və sevgi hissi əmələ gələcək. Dolayısilə gözəl söz onun qəlbini İslama isinişdirəcək mühüm səbəb olacaq.

## Bir şeyi unudan zaman Allahı zikr etmək

İnsan bir çox çatışmazlıqları və nöqsanları olan bir varlıqdır. Çünki o, yaradılmışdır və onun yaradılanlara məxsus acizliyi vardır. Çatışmazlıq və qüsurdan uzaq olan isə yalnız Allahdır. İnsanın Allah qarşısında nə qədər aciz və çarəsiz vəziyyətdə olmasını anlaya biləcəyi qüsurlarından biri də unutqanlıqdır.

Unutqanlıq, dünyanın ən zəkalı insanının belə qarşısını ala bilməyəcəyi acizlikdir. İnsanların Allaha nə qədər möhtac olduqlarını dərk etmələri üçün onların yalnız bu acizlikləri barədə düşünmələri kifayətdir. Çünki insan müəyyən mənada öz hafizəsi ilə birlikdə məna ifadə edir.

Harada doğulduğunu, kim olduğunu, harada böyüdüyünü, inanclarını, etdiklərini, necə bir həyat keçirdiyini, zövqlərini və vərdişlərini bütün məlumatlar hafizəsində olduğu üçün bilir.

Lakin insana ağzından çıxan cümləsinin sonunu bir anda unutduran Allah, ona keçmişi ilə bağlı hər şeyi təkcə bir anda unutdura bilər. İnsan, özünə sahib ola bilməsi üçün Allahın hər an onun yaddaşında canlı saxladığı məlumatlara möhtacdır. Əgər Allah bunlardan yalnız birini unutdursa, insanın onu geri qaytarmaq üçün edə biləcəyi heç nə yoxdur. Məhz Quranda belə acizlik vəziyyətində insanların Allaha sığınmaları və Ondan kömək diləmələri əmr edilir:

**...Unutduğun zaman Rəbbini yad et və de: "Ümid edilir ki, Rəbbim məni bundan daha yaxın müvəffəqiyyətə yönəldər. (Kəhf surəsi, 24)**

İnsanın unutduğu şeyi xatırlaya bilməsi və hər hansı mövzuda müvəffəqiyyət qazana bilməsi təkcə Allahın diləməsi ilə mümkündür. Buna görə də belə aciz vəziyyətdə insanın edə biləcəyi yeganə şey Allahın özünü daha yaxın müvəffəqiyyətə yönəltməsini diləməkdir.

## Allahın rəhmindən ümid kəsməmək

**(Məndən onlara) De: "Ey Mənim öz əleyhlərinə həddi aşmış bəndələrim. Allahın rəhmindən ümid kəsməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayar. Çünki, O bağışlayandır, rəhm edəndir". (Zumər surəsi, 53)**

Ayədə bildirildiyi kimi, insanlar bəzən bilərəkdən və ya bilməyərəkdən səhvlər edirlər. Ayədə Allahın rəhmətini uman insanlara səslənilir. Yəni ayədə bildirilən öz əleyhlərinə həddi aşan insanlar, Allaha iman gətirən insanlardır. Buna görə də belə bir hal, müsəlmanlara da aiddir.

Allah bir çox ayədə müsəlmanların, hətta çox təqvalı müsəlmanların da səhv edə biləcəklərini vurğulamışdır. Bu açıqlamalar iman gətirənlərin qəlbinə fərəh verir. Əks təqdirdə bilərəkdən və ya bilməyərəkdən səhv edən müsəlman böyük sıxıntı və vicdani təzyiq altına girə bilərdi. Lakin müsəlmanların Allaha qarşı hər hansı nöqsana yol verməməkdə çox diqqətli olduqlarını bilən Rəbbimiz, Quranda təriflə bəhs edilən peyğəmbərlərdən də nümunələr verərək, istisnasız hər insanın böyük və ya kiçik bir çox səhv edə biləcəyini xəbər vermişdir. Beləliklə, ayələrdəki bu şövq verən və qəlbi fərəhləndirən açıqlamalar, müsəlmanların hər hansı səhvdən sonra ümidsizliyə qapılmasının qarşısını alır. Hətta Allah insanların etdikdən sonra peşmanlıq duyub tövbə etdikləri təqdirdə, istisnasız hər səhvin bağışlanacağını bildirmişdir.

Lakin Qurandakı qəlbi fərəhlədən, insanlara ümid verən müxtəlif açıqlamalara baxmayaraq, qüsurlu olmağı qəbul edə bilməyən bir çox cahil insan da var. Ayələrdə bildirilən müjdələrə baxmayaraq, səhv etdikdən sonra ümidsizliyə qapılmaq, kədərlənmək və sıxılmaq, xətasızlıq iddiasında olan insanlara məxsus bir davranışdır. Səhv etməyi təkəbbürü ucbatından və lovğalığına görə heç bir vəchlə qəbul etmək istəməyən bir insan, etdiklərinə görə xeyli kədərlənər. Asanlıqla səhv edə bilən, yanlış qərarlar qəbul edə bilən, yanlış davrana bilən və ya yanlış danışa bilən bir varlıq olduğunu qəbul etməkdə çətinlik çəkər. Qüsursuzluğun və xətasız olmağın təkcə Allaha məxsus xüsusiyyət olduğunu düşünə bilməz. Özü də qüsursuz olmaq istəyər. Lakin bunu heç cür

bacara bilməməsi və bir çox yanlış davranışının olması onu ümidsizliyə sürükləyər. Müsəlmanlar isə Allahın qarşısında qüsurlarını və acizliklərini qəbul etməyin verdiyi rahatlıq içində yaşayar və heç vaxt səhvsizlik iddia etməzlər.

Bunu unutmamaq lazımdır ki, insanların çox imanlı belə olsalar, qüsurlu və asanlıqla səhv edə biləcəkləri kimi yaradılmaları, Allahın qüsursuzluq xüsusiyyətini daha yaxşı dərk edə bilmələri üçündür. Çünki insan qüsursuzluğu təkcə qüsur və əskiklik görərək dərk edə bilər. Buna görə də, öz acizliyini görməsi, Allahın mükəmməlliyini və hər cür əskiklikdən uzaq olduğunu tam anlamasına və Allahı lazımınca qiymətləndirib təqdis etməsinə vəsilə olacaq.

## Yalan danışmamaq

Quran əxlaqından uzaq yaşayan bəzi insanlar qarşılarındakı insanı öz istədikləri şəkildə istiqamətləndirmək üçün tez-tez yalan danışarlar. Yalanın arxasında bəzən insanın öz qürurunu xilas etmək təlaşı, bəzən qeyri-səmimi davranışa zəmin hazırlamaq, bəzən də üstünlük əldə etmək arzusu dayanır. Lakin səbəbindən asılı olmayaraq, yalan Quranda haram buyurulan hərəkətlərdəndir. Allahın yalanı insanlara haram etməsi Quranda belə bildirilir:

**And içərkən söylədiyiniz "təsadüfi, boş sözlərə" görə məsul olmazsınız, lakin and içərkən dediyiniz sözlərə görə məsul olarsınız... (Maidə surəsi, 89)**

**Andlarınızı qoruyun. Allah Öz ayələrini sizə belə açıqlayar, ümid edilir ki, şükür edərsiniz. (Maidə surəsi, 89)**

Qarşı tərəfi bilərək və istəyərək yanlış istiqamətlənirmək üçün deyilən, doğru olmayan hər söz, yalan hökmündədir. Belə ki, Allah yalanda, insanın qəlbindəki niyyətin əhəmiyyətli olduğunu bildirir. Bir insanın ağzından düşünmədən bir söz çıxa bilər və ya həmin anda dalğın olub doğru bir söz deməyə bilər. Bunları bilərəkdən, qarşı tərəfi aldadaraq mənfəət əldə etmək üçün deməyən bir insan, dərhal bu səhvini düzəldər. Lakin yalanda niyyət pozğunluğu var. İnsan qarşı tərəfi yanlış istiqamətləndirərək kiçik və ya böyük hər hansı mənfəət əldə etmək ardındadır. Məhz Allah bu cür niyyətlə deyilən sözdən insanı axirətdə məsul tutacaq. Buna görə də müsəlmanlar aşağıdakı ayənin tələbi olaraq, hər zaman doğru sözü söyləməlidirlər:

**Ey iman gətirənlər! Allahdan qorxun və doğru sözü söyləyin! (Əhzab surəsi, 70)**

Müsəlman dalğın olduğu bir anda ağzından əsassız bir söz çıxsa belə, bunu dərhal düzəldər edər. Lakin axirətdə hesabını verə bilməyəcəyi şəkildə bir insanı bilərəkdən aldatmağa qətiyyən yanaşmaz. Çünki bu, həm axirətdə, həm də dünyada qınanan hərəkətdir. Mübarək Peyğəmbərimiz (s.ə.v) də hədislərində yalandan çəkinməklə əlaqədar belə buyurmuşdur:

**"Qiyamət günü Allah dərgahında məxluqların ən sevimsizləri yalançılar, təkəbbürlülər və qardaşlarına qarşı qəlblərində amansız kin bəsləyənlər olacaq..." (İmam Gazali, İhya'u Ulum'id-din, 3-cü cild, səh. 355)**

**"Siz doğruluğa davam edin, çünki doğruluq mütləq sahibini xeyirlərə nail edər. Yaxşılıqlar da cənnətə hidayət edər, aparar. Doğruluğa davam etdikcə və doğrunu axtardıqca Allahın dərgahında sıddıq (sadiq) olaraq yazılar. Yalandan çəkinin, şübhəsiz ki, yalan insanı fücura (günaha) aparar, fücur (günah) isə oda, yəni cəhənnəmə aparar, qul yalana davam etdikcə və yalanı axtardıqca Allahın dərgahında yalançı yazılar". (Mehmed Zahid Kotku, Hadislerle Nasihatlar, 1-ci cild, səh. 279; Buhari ve Müslim'den)**

## Sözünə etimad edilməyəcək insanlara etibar etməmək...

Həqiqəti tapa bilmək üçün insanın öz ağılı, biliyi və ya təcrübəsi kifayət etmədiyi hallarda, başqa insanın öyüdü ilə hərəkət etməsi Quranda tövsiyə edilən əxlaq formasıdır. İnsanlar çox vaxt səhv edəcəklərini düşündükləri məsələlərdə, doğrunu tapa bilmək və yanlış hərəkət etməmək üçün qarşılarındakı insanlarla məsləhətləşərlər. Yəni öyüd almaqda məqsəd həqiqəti tapa bilməkdir.

Lakin hər insan hər hadisədə doğru olan variantı tapa biləcək ağla və şüura malik deyil. Ən azından doğrunu görə bilsə də, öz mənfəətlərini görməzlikdən gəlib bu həqiqəti qarşı tərəfə çatdırmaq əxlaqına sahib deyil. Buna görə də, yol göstərməsi üçün məsləhət alınacaq insanlarda müəyyən xüsusiyyətlər olmalıdır. Bu xüsusiyyətlərin əvvəlində insanın Allaha iman gətirməsi gəlir. Çünki bir insanın həqiqəti dərhal müəyyənləşdirə bilməsi və öz mənfəətlərinin əleyhinə belə olsa, bunu qarşı tərəfə çatdırması vicdanından istifadə etməsiylə mümkün olar. Bir insanın vicdanını heç bir əngəl tanımadan istifadə etməsini təmin edən tək güc də Allah qorxusu və Allah sevgisidir.

Əxlaqında nöqsan olan, yəni vicdanı ilə hərəkət etməyən bir insan nə özü həqiqəti görə bilmək gücünə, nə də qarşısındakı insanı doğruya yönəldə bilmək üstünlüyünə sahib ola bilər. Dolayısılə insanlar məsləhət alacaqları və verəcəkləri fikrə etimad edəcəyi şəxsləri yaxşı seçməlidirlər. Buna görə də, Allah Quranda bu məsələdə insanlara yol göstərəcək çox təfsilatlı açıqlamalar vermişdir. Ayələrdə fikrinə etimad göstərilməməsi lazım olan insanların əxlaq xüsusiyyətləri bildirilib və bu insanların göstərdiyi yola tabe olmaq qadağan edilib. Ayələrdə belə buyrulur:

**Bunların heç birinə itaət etmə: tez-tez and içənə, alçağa, dayanmadan insanları pisləyənə, söz aparıb gətirənə (gizlincə söz və xəbər daşıyana), xeyirə mane olmağa davam edənə, təcavüzkara, xeyli günahkara, zorakı-bihörmətə, sonra da qulağı kəsiyə; mal (sərvət) və uşaq sahibi oldu deyə, özünə ayələrimiz oxunduğu zaman: "(Bunlar) keçmişdəkilərin uydurma nağıllarıdır!" deyənə. (Qələm surəsi, 10-15)**

Həmçinin digər bir ayədə də sözünün dinlənilməməsi lazım olan insanların xüsusiyyətləri belə bildirilmişdir:

**Elə isə Rəbbinin hökmünə səbir et. Onlardan günahkar və ya nankor olana itaət etmə. (İnsan surəsi, 24)**

Ayələr, çox açıq və aydın şəkildə kimlərin sözlərinə etimad edilməməli, yəni göstərdiyi yola, nəsihətinə etibar edilməməli olduğunu sadalayır. Bu açıqlamaya görə bir müsəlman özünə maddi və ya mənəvi tövsiyə verən yalançı, dedi-qoduçu, təcavüzkar, mübahisəçi, Allahın hüdudlarını asanlıqla poza bilən, hiyləgər və ya lağlağı insanın tövsiyələri ilə hərəkət etməməlidir.

## İbadətdə qətiyyətli olmaq

**O, göylərin, yerin və hər ikisi arasında olanların Rəbbidir; o zaman Ona ibadət et və Ona ibadətdə qətiyyətli ol. Heç Ona oxşarını tanıyırsanmı?! (Məryəm surəsi, 65)**

"Qətiyyətlilik" bir məsələdə mətinlik göstərmək, nəticəyə çatmaqda heç bir əngəl tanımamaq və əzmlə çalışaraq hər nə olsa da edilməli şeyləri etmək mənasına gəlir.

Yuxarıdakı ayədə qeyd olunan qətiyyətlilik sözü də bu mənada işlədilib. Allah müsəlmanlardan təkcə ibadət etmələrini deyil, eyni zamanda ibadətdə qətiyyətli olmalarını istəyir.

Lakin bəzi insanlar ibadətdə qətiyyətli olmağı çox məhdud çərçivədə qiymətləndirərlər. Çünki onlar ibadət sözünün yalnız namaz, oruc, həcc, zəkat kimi insana fərz olan hökmlər mənasına gəldiyini zənn edərlər. Əlbəttə ki, hər mömin bu ibadətləri tam yerinə yetirməklə məsuldur, lakin ibadət qulluq mənasına gəlir. Yəni insanların qul kimi Allah üçün etdiyi hər hərəkət, danışıq, hal və davranış bir ibadətdir. 5 vaxt namaz insan üçün necə, mühüm və fərz ibadətdirsə, eynilə qəzəbi boğmaq, gözəl söz söyləmək, insanları xəbərdarlıq edib qorxutmaq, zənnə qapılmamaq və ya mübahisəçi olmamaq da bir ibadətdir. Buna görə də, Allahın "ibadətdə qətiyyətli ol" əmri həm feli ibadətlərə, həm də əxlaqa aiddir.

Lakin ayələrdə müsəlmanlara dinlərində qətiyyətli olmaq əmri verilərkən, mühüm bir xüsus daha bildirilmişdir. Bu da müsəlmanların qətiyyətdə imtahana çəkiləcəklərinə dair verilən açıqlamalardır. Ayələrdə keçmişdə yaşayan müsəlmanların və peyğəmbərlərin həyatından nümunələr verilərkən, tez-tez onların imanının və qətiyyətinin imtahana çəkildiyi hadisələr də xəbər verilir. Çünki bu cür vaxtlar, müsəlmanların Allaha olan bağlılıq və sədaqətlərini isbat edəcəkləri dəyərli fürsətlərdir.

Allah müsəlmanların dinlərinə olan bağlılıqlarının imtahana çəkildiyi vaxtlara dair ən çox, inkarçıların sözlü və ya əməli surətdə hücum anlarını nümunə verir. Yaxud müsəlmanlara iftira atıldığı, insanların kütləvi şəkildə üz döndərdiyi, xəstəlik üz verdiyi, aclıq, susuzluq, yorğunluq olduğu, çətin və təhlükəli halla qarşılaşıldığı və xüsusən də insan həyatını risk altına alan anlar nümunə kimi verilir. Belə vəziyyətlər müsəlmanların öz dinlərini yaşmaqda və yaşatmaqda əzmkarlıq göstərəcəkləri vəziyyətlərdir.

Bundan əlavə, Allahın böyük bolluq, sağlamlıq, gümrahlıq, zənginlik və ya hakimiyyət verdiyi hallar da var ki, bu vaxtlarda da insanın ruhdan düşməyəcəyi və din əxlaqını yaşamaqdakı qətiyyətini göstərəcəyi çox dəyərli vaxtlardır. Yəni müsəlmanlar həm çətinliklə, həm də asanlıqla imtahana çəkilərlər. Hər iki vəziyyət də müsəlmanların rəftarlarında mənfi dəyişikliyə səbəb olmaz.

# İnsanları xəbərdar etmək

Cahil cəmiyyətin əsas həyat fəlsəfəsi, insanın təkcə özü qarşısında məsuliyyət daşıdığı düşüncəsinə əsaslanır. Bu batil düşüncəyə görə, insanlar özlərini ən yaxşı şəratlər altında yaşatmaqla, ən rahat mühiti təmin etməklə məsuldur. Buna görə də, insanların bir çoxu dinlərini təkcə öz-özlüklərində yaşamaqla məsul olduqlarını və digər insanlara din əxlaqını təbliğ etmək məsuliyyətini daşımadıqlarını zənn edərlər. Halbuki Qurana baxanda, bunun tam əksi olan bir əxlaq forması ilə qarşılaşarıq. Müsəlmanın ən böyük məsuliyyətlərindən biri İslam əxlaqını ətrafında olan insanlara təbliğ etmək və onları da Allaha iman gətirməyə təşviq etməkdir. Quranda müsəlmanların insanları xəbərdar etməsi ilə bağlı çox qəti və açıq hökmlər var. Bunlardan biri də Müddəssir surəsinin 1-ci və 2-ci ayələrində bildirilir:

**Ey bürünüb örtünən, qalx (və) bundan belə xəbərdar et. (Müddəssir surəsi, 1-2)**

Müsəlmanlar dinlərini özləri yaşadıqları kimi, eyni zamanda ətraflarındakı insanları da təşviq etməklə məsuldurlar. Hətta Quranda müsəlmanların bütün həyatlarını təbliğ, yəni dinlərini yaymaq təməli üzərində qurmalarının lazım olduğu bildirilir. Müsəlmanlar işlərini, məskunlaşdıqları əraziləri, həyat tərzlərini bu məsuliyyətlərinə görə tənzimləyərlər. Müsəlman üçün Allahın varlığının bütün insanlar tərəfindən bilinməsi, dərk edilməsi, bütün insanların cəhənnəmin necə yer olmasından və haqq-hesab günü sorğu-sual ediləcəklərindən xəbərdar olması öz ticarətindən, əyləncəsindən və ya rahatlığından daha çox əhəmiyyətlidir. Cəhənnəmdəki əzabın şiddətini və Allahın qüdrətini çox yaxşı bilən müsəlmanlar insanların din əxlaqını yaşamadıqları təqdirdə, necə bir aqibətə yaxınlaşmaqda olduqlarını mütləq öyrənmələri üçün əllərindən gələn səyi göstərərlər. Lazım gəlsə işlərindən, lazım gəlsə də evlərindən və ya mülklərindən imtina edərək insanları xəbərdar etməyə və Allahın bu əmrini yerinə yetirməyə davam edərlər. Allahın möminlərə olan bu əmri başqa bir ayədə belə bildirilir:

**İş(in) hökm verilib bitəcəyi, həsrət gününə qarşı onları xəbərdar et; onlar qəflət içindədirlər və onlar inanmırlar. (Məryəm surəsi, 39)**

# İman gətirənlərin həyatlarında bir dəfə də olsa oxumaları lazım olan dualar

Allah Quranda müsəlmanlara nələr üçün dua etməli olduqlarını bir çox ayə ilə bildirmişdir. Dua, onsuz da bizi taleyimizdə olana doğru istiqamətləndirər. Taleyimizi təyin edən də, bizə duanı etdirən də Allahdır. Dua, müsəlmanın ən mühüm ibadətlərindən biridir. Dua edən mömin Allaha qarşı acizliyini bilib, həmişə təslimiyyətli ruh halında olar. Dualarının qarşılığında Allahın dərgahında dəyərli, təqva sahibi bir qul ola biləcəyini ümid edər. Allah bir ayəsində belə buyurur:

**"De: Duanız olmasaydı Rəbbim sizə dəyər verərdimi?.." (Furqan surəsi, 77)**

Bu başlıq altında Quranda xəbər verilən və iman gətirənlərin həyatlarında bir dəfə də olsa oxumaları lazım olan dualardan bəzilərinə yer verilir.

**"...İnsanlardan eləsi vardır ki: "Rəbbimiz, bizə dünyada ver" deyər; bunun axirətdə nəsibi yoxdur. Onlardan eləsi də vardır ki: "EY RƏBBİMİZ, BİZƏ DÜNYADA DA YAXŞILIQ VER, AXİRƏTDƏ DƏ YAXŞILIQ (VER) VƏ BİZİ ODU ƏZABINDAN QORU" deyər..." (Bəqərə surəsi, 200-202)**

**Elçi, öz Rəbbindən ona nazil edilənə iman gətirdi, möminlər də. Hamısı Allaha, Onun mələklərinə, kitablarına və elçilərinə iman gətirdi. "BİZ ONUN ELÇİLƏRİ ARASINDA FƏRQ QOYMURUQ. EŞİTDİK VƏ İTAƏT ETDİK. RƏBBİMİZ SƏNDƏN BAĞIŞLANMA DİLƏYİRİK. DÖNÜŞ TƏKCƏ SƏNƏDİR" dedilər. (Bəqərə surəsi, 285)**

**..."EY RƏBBİMİZ, UNUTSAQ VƏ YA XƏTA ETSƏK BİZİ CƏZALANDIRMA. RƏBBİMİZ, BİZƏ, BİZDƏN ƏVVƏLKİLƏRƏ YÜKLƏDİYİN KİMİ AĞIR YÜK YÜKLƏMƏ. EY RƏBBİMİZ, GÜCÜMÜZ ÇATMAYAN ŞEYİ BİZƏ YÜKLƏYİB DAŞITDIRMA! BİZİ ƏFV ET. BİZİ BAĞIŞLA. BİZƏ RƏHM ET! SƏN BİZİM MÖVLAMIZSAN. KAFİRLƏRƏ QARŞI BİZƏ KÖMƏK ET". (Bəqərə surəsi, 286)**

**EY RƏBBİMİZ! BİZİ HİDAYƏT YOLUNA YÖNƏLTDİKDƏN SONRA QƏLBİMİZİ SAPDIRMA VƏ BİZƏ ÖZ TƏRƏFİNDƏN MƏRHƏMƏT BƏXŞ ET. ŞÜBHƏSİZ Kİ, ƏN ÇOX BƏXŞ EDƏN SƏNSƏN. (Ali İmran surəsi, 8)**

**"EY RƏBBİMİZ, ŞÜBHƏ EDİLMƏYƏN BİR GÜNDƏ İNSANLARI HƏQİQƏTƏN SƏN TOPLAYACAQSAN. HƏQİQƏTƏN, ALLAH VƏDİNƏ XİLAF ÇIXMAZ". (Ali İmran surəsi, 9)**

**Onlar: "EY RƏBBİMİZ! ŞÜBHƏSİZ Kİ, BİZ İMAN GƏTİRDİK ARTIQ BİZİM GÜNAHLARIMIZI BAĞIŞLA VƏ BİZİ ODUN ƏZABINDAN QORU" deyənlər. (Ali İmran surəsi, 16)**

**Onların dedikləri ancaq: "EY RƏBBİMİZ! GÜNAHLARIMIZI VƏ ƏMƏLLƏRİMİZDƏ HƏDDİ AŞMAĞIMIZI BİZƏ BAĞIŞLA; QƏDƏMLƏRİMİZİ SABİT ET VƏ KAFİR QÖVMƏ QƏLƏBƏ ÇALMAQDA BİZƏ YARDIM ET!" olmuşdur. (Ali İmran surəsi, 147)**

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "EY RƏBBİMİZ, SƏN BUNU**

BOŞUNA YARATMADIN. SƏN ÇOX UCASAN, BİZİ ODUN ƏZABINDAN QORU". (Ali İmran surəsi, 191)

"EY RƏBBİMİZ! ŞÜBHƏSİZ Kİ, SƏN KİMİ ODA SALMISANSA, ARTIQ ONU ALÇALTMISAN EDƏRSƏN; ZALIMLARIN KÖMƏKÇİLƏRİ YOXDUR". (Ali İmran surəsi, 192)

"EY RƏBBİMİZ! HƏQİQƏTƏN, BİZ: “RƏBBİNİZƏ İMAN GƏTİRİN!” DEYƏ İMANA ÇAĞIRAN BİR KİMSƏNİN ÇAĞIRIŞINI EŞİDİB İMAN GƏTİRDİK. EY RƏBBİMİZ! GÜNAHLARIMIZI BİZƏ BAĞIŞLA, PİS ƏMƏLLƏRİMİZİN ÜSTÜNÜ ÖRT VƏ CANIMIZI YAXŞILIQ EDƏNLƏRLƏ BİR YERDƏ AL". (Ali İmran surəsi, 193)

"EY RƏBBİMİZ, ELÇİLƏRİNƏ VƏD ETDİKLƏRİNİ BİZƏ VER, QİYAMƏT GÜNÜ BİZİ ALÇALTMA. ŞÜBHƏSİZ Kİ, SƏN VƏDİNDƏN DÖNMƏYƏNSƏN". (Ali İmran surəsi, 194)

Allahın elçisinə nazil ediləni dinlədikləri zaman haqqı bildiklərinə görə onların gözlərinin yaşla dolduğunu görərsən. Onlar deyərlər: “EY RƏBBİMİZ! BİZ İMAN GƏTİRDİK, BİZİ DƏ ŞAHİDLƏRLƏ BİR YERƏ YAZ!” (Maidə surəsi, 83)

Gözləri cəhənnəm sakinlərinə tərəf çevrildikdə isə deyəcəklər: "EY RƏBBİMİZ, BİZİ ZALIMLARLA BİRLİKDƏ ETMƏ". (Əraf surəsi, 47)

Onlar dedilər: “BİZ ALLAHA TƏVƏKKÜL ETDİK. EY RƏBBİMİZ! BİZİ ZALIM QÖVMÜN ƏLİNDƏ SINAĞA ÇƏKMƏ”. (Yunis surəsi, 85)

"VƏ BİZİ ÖZ MƏRHƏMƏTİNLƏ KAFİR QÖVMÜN ƏLİNDƏN QURTAR". (Yunis surəsi, 86)

Və: “RƏBBİMİZ UCADIR! RƏBBİMİZİN VƏDİ HƏQİQƏTƏN YERİNƏ YETMİŞDİR!” deyirlər. (İsra surəsi, 108)

O gənclər mağaraya sığındıqları zaman belə demişdilər: "EY RƏBBİMİZ, BİZƏ ÖZ TƏRƏFİNDƏN MƏRHƏMƏT BƏXŞ ET VƏ İŞİMİZDƏ BİZƏ DOĞRUNU ASANLAŞDIR (BİZİ MÜVƏFFƏQİYYƏTLİ ET)". (Kəhf surəsi, 10)

Ancaq: "ALLAH İSTƏSƏ!" (İNŞAALLAH EDƏCƏYƏM DE). Unutduğun zaman Rəbbini yad et və de: "ÜMİD EDİLİR Kİ, RƏBBİM MƏNİ BUNDAN DAHA YAXIN MÜVƏFFƏQİYYƏTƏ YÖNƏLDƏR". (Kəhf surəsi, 24)

"Çünki həqiqətən Mənim bəndələrimdən bir qrup: "EY RƏBBİMİZ, İMAN GƏTİRDİK, SƏN ARTIQ BİZİ BAĞIŞLA VƏ RƏHM ET, SƏN RƏHM EDƏNLƏRİN ƏN YAXŞISISAN, DEYƏRDİLƏR Kİ, siz onları məsxərəyə qoymuşdunuz; elə ki, sizə mənim zikrimi unutdurdular və siz onlara gülürdünüz". (Muminun surəsi, 109-110)

Və də: "EY RƏBBİM, BAĞIŞLA VƏ RƏHM ET, SƏN RƏHM EDƏNLƏRİN ƏN YAXŞISISAN". (Muminun surəsi, 118)

# III hissə
# Quran möcüzələri

## Od olmayan yanma

**Allah göylərin və yerin nurudur. Onun nurunun məsəli, <u>içində çıraq olan bir taxça</u> kimidir; <u>çıraq bir şüşə içərisindədir</u>; şüşə, sanki mirvari kimi bir ulduzdur ki, <u>şərqə də, qərbə də aid olmayan</u> mübarək bir zeytun ağacından yandırılar; (bu elə ağacdır ki,) demək olar ki, <u>od ona toxunmasa da yağı işıq saçar</u>. (Bu,) nur üstünə nurdur. Allah istədiyini Öz nuruna yönəldər. Allah insanlar üçün məsəllər çəkir. Allah hər şeyi biləndir! (Nur surəsi, 35)**

Nur surəsindəki bu ayədə işıq verən bir cisimdən bəhs edilir. İşıq verən cisim isə bir ulduza oxşadılır. Ayədə ulduza oxşadılan işıq verən cismin yanacağının şərqə və qərbə aid olmaması isə bu cismin fiziki ölçülərdə olmamasına bir işarə ola bilər. Yanacağın mənbəyinin enerji ölçüsündə olması düşünülsə, ayədə təsvir edilən yanacağın elektrik enerjisinə, işıq verən cismin də elektrik lampasına işarə etməsi ehtimal oluna bilər.

Elektrik lampası ayədəki təriflərə olduqca uyğun gələn, şüşənin içində ulduz kimi parıldayan və işıqsaçan bir cisimdir. Elektrik lampası, çıraq, yağ ilə işləyən çıraq və digər oxşar işıqsaçan cisimlər kimi yağla yandırılmır və elektrik lampasında, ayədəki təriflərə uyğun olaraq od olmadığı halda yanma hadisəsi baş verir. Elektrik lampasının içindəki hərarətə dözümlü olan volfram telinin atomları arasındakı titrəyiş nəticəsində 2000 $^{0}$C-dən çox hərarət yaranar. Digər metalları əridən bu istilik o qədər yüksəkdir ki, o, adi gözlə görünən güclü bir işığın ortaya çıxmasına səbəb olar. Lakin bu yüksək istiliyə baxmayaraq, elektrik lampasının içində oksigen olmadığı üçün ayədəki ifadələrə uyğun olaraq, orada yanğın hadisəsi baş verməz. Bundan başqa, elektrik lampasının ortasında parıldayan tel də parıldayan ulduzun uzaqdan görünüşünə çox bənzəyir.

Elektrikin dünya tarixinin ən böyük kəşflərindən biri olması, dünyanın demək olar ki, hər tərəfinin elektrik enerjisi ilə işləyən elektriklampaları vasitəsilə işıqlandırılması nəzərə alınsa, ayənin məhz bu mühüm kəşfə işarə etməsi düşünlə bilər (doğrusunu Allah bilər).

Bu məsələ ilə bağlı digər bir izah da, ulduzlardakı nüvə reaksiyaları nəticəsində meydana gələn işıq kimi düşünülə bilər. Ulduzlar nüvə reaksiyalarından irəli gələn çox böyük miqdarda istilik və işıq yayan, olduqca isti, parlaq, fırlanan qaz kütlələridir. Yeni əmələ gələn böyük ulduzlar əksərən öz cazibə qüvvələri ilə büzülməyə başlayarlar. Bunun nəticəsində onların mərkəzi daha sıx və daha isti olar. Ulduzların mərkəzindəki maddə kifayət qədər isinəndə (ən azı 10.000.000 $^{0}$C olanda) isə nüvə reaksiyaları başlayar.[(1)] Bir ulduzun daxilində baş verən hadisə hidrogenin nəhəng enerji ilə (termonüvə reaksiyası) heliuma çevrilməsidir. Ulduzlarda kütlənin böyüklüyündən irəli gələn cazibə qüvvəsi, 4 hidrogen atomunu 1 helium atomu əmələ gətirmək üçün birləşdirər. Bu zaman meydana gələn enerji işıq və istilik halında kütlənin səthindən kənara yayılar. Hidrogen bitdikdə, ulduzda eyni yolla daha ağır elementlər yaratmaq üçün helium yanmağa (termonüvə reaksiyasına) davam edər. Bu reaksiyalar ulduzun kütləsi bitənədək davam edər.

Lakin ulduzlardakı reaksiyalarda oksigen istifadə edilmədiyi üçün burada yanan odunda olduğu kimi, adi yanma hadisəsi baş verməz. Ulduzlarda nəhəng alovlar şəklində müşahidə olunan yanma hadisəsi də, əslində, oddan irəli gəlməz. Necə ki, ayədə də bu cür yanma hadisəsinə işarə edilir. Həmçinin ayədə bir ulduzdan, onun yanacağından və od olmayan yanma hadisəsindən (yəni reaksiyadan) bəhs edildiyi düşünülsə, ayənin ulduzlarda işıq əmələgəlmə prosesinə və yanma formasına işarə etdiyini də düşünmək olar (doğrusunu Allah bilər).

## Buludların ağırlığı

Buludların ağırlığı çox heyrətamiz göstəricilərə çatır. Məsələn, kumulo-nimbus növlü fırtına buludunda 300.000 tona yaxın su toplanır.

Göy üzündə 300.000 tonluq kütlənin dayana biləcəyi nizamın "yaradılmış" olması, şübhəsiz ki, heyranlıq oyandıran vəziyyətdir. Quranın digər bəzi ayələrində də buludların ağırlığına belə diqqət çəkilir:

**Küləkləri öz mərhəməti önündə müjdəçi olaraq göndərən Odur. Bunlar <u>çox ağır buludları yuxarı qaldırıb yükləndikdə</u>, onları (quraqlıqdan) ölmüş bir şəhərə sürükləyərik və bununla oraya su endirib bütün məhsullardan çıxardarıq. (Əraf surəsi, 57)**

**Sizə qorxu və ümid məqsədiylə şimşək göstərən və (yağışla yüklü) ağırlaşmış buludları yaradan Odur. (Rad surəsi, 12)**

Əlbəttə ki, Quranın nazil edildiyi dövrdə insanların buludların ağırlığı ilə bağlı bu məlumatı bilmələri mümkün deyildi. Quran ayələrində diqqət çəkilən və yaxın keçmişdə kəşf edilən bu məlumat, Quranın Allahın sözü olduğunu göstərən dəlillərdən biridir.

## Yağışdakı miqdar

Quranda yağış haqqında verilən digər bir məlumat isə yağışın müəyyən miqdarda yağdırılmasıdır. Zuxruf surəsində belə buyurulur:

**Belə ki, O, <u>göydən müəyyən miqdarda su endirdi</u> ki, onunla ölü bir məmləkəti “diriltdi (və hər yanına həyat) yaydı”; siz də belə (qəbirlərinizdən dirildilib) çıxardılacaqsınız. (Zuxruf surəsi, 11)**

Yağışdakı bu miqdar da, yenə dövrümüzdəki tədqiqatlar sayəsində müəyyən edilib. Hesablamalara görə, Yer üzündən bir saniyədə 16 milyon ton su buxarlanır. Bir ildə bu miqdar 505

trilyon tona (505.000 $km^3$) çatır. Bu, eyni zamanda, bir ildə Yer səthinə yağan yağışın miqdarıdır. (mənbə: http://en.wikipedia.org/wiki/Water_cycle)

Digər bir sözlə, su həmişə müəyyən tarazlıq əsasında, “müəyyən miqdar”da dövr edir. Yer üzündə həyatın davamlılığı da bu su dövranı sayəsində təmin olunur. İnsan sahib olduğu bütün texniki imkanlardan istifadə etsə belə, bu dövranı əsla süni şəkildə gerçəkləşdirə bilməz.

Əgər bu miqdarda çox kiçik dəyişiklik olsa belə, qısa müddət sonra böyük ekoloji natarazlıq yaranacaq və bu da həyatın sonuna səbəb olacaq. Lakin heç vaxt belə olmaz. Çünki Quranda bildirildiyi kimi, yağış Yer üzünə hər il eyni miqdarda yağmağa davam edər.

Təkcə yağan yağışın miqdarında deyil, eyni zamanda yağış damcılarının düşmə sürətində də müəyyən ölçü var. Yağış damcıları nə qədər böyük olsa da, yer üzünə düşmə sürətləri müəyyən həddən artıq olmaz.

Nobel mükafatı almış alman fiziki Filipp Lenard (Philipp Lenard) araşdırmaları nəticəsində müəyyənləşdirib ki, yağış damcılarının diametri artdıqca onların düşmə sürəti də artır. Lakin düşmə sürətindəki bu artım yağış damcısının diametri 4,5 mm. olana kimi davam edir. Daha böyük yağış damcılarında isə düşmə sürəti saniyədə 8 mm-i keçmir.[(2)] Bunun səbəbi damcıların düşərkən aldığı formadır. Yağış damcılarının bu xüsusi forması atmosferin sürtünmə təsirini artırır və damcıların müəyyən sürət həddini keçməsinə mane olur.

Göründüyü kimi Quranda, yağışın endiirilməsi ilə bağlı, 1400 il əvvəl bilinməsi mümkün olmayan həssas nizama diqqət çəkilir.

## Yağışın əmələ gəlməsi

Yağışın necə əmələ gəlməsi insanlar üçün uzun müddət sirr olaraq qalıb. Lakin hava radarlarının kəşf edilməsindən sonra yağışın hansı mərhələlərdən keçərək əmələ gəlməsi tam dəqiqləşdi. Yağış üç mərhələdən keçərək əmələ gəlir. Əvvəlcə yağışın “xammalı” külək vasitəsi ilə havaya qalxır, sonra buludlar əmələ gəlir, nəhayət, sonda yağış damcıları ortaya çıxır.

Quranda yağışın əmələ gəlməsi ilə əlaqədar nəql edilənlərdə isə, tam bu proseslərdən bəhs edilir. Bir ayədə bu əmələgəlmə prosesi haqqında belə bir məlumat verilir:

**Allah <u>küləkləri göndərər, beləliklə bir bulud qaldırar ki, onu istədiyi kimi göydə yayar və onu topa-topa edər; nəhayət onun arasından yağış çıxdığını görərsən</u>. Nəhayət Öz qullarından istədiklərinə verdikdə, dərhal sevinərlər. (Rum surəsi, 48)**

İndi ayədə ifadə edilən üç mərhələni araşdıraq:

**1-ci mərhələ: “Allah küləkləri göndərər...”**

Okeanlardakı suyun köpüklənməsi nəticəsində fasiləsiz şəkildə çoxsaylı hava qabarcıqları əmələ gəlir və su zərrəcikləri mütəmadi surətdə havaya fırlanır. Duzlarla zəngin olan bu su zərrəcikləri daha sonra küləklər vasitəsilə aparılar və atmosferə yuxarıya doğru hərəkət edərlər.

Aerozol adlandırılan bu kiçik zərrəciklər dənizlərdən qalxan su buxarını "su tələsi" adlandırılan bir mexanizmlə öz ətrafında kiçik damcılar halında toplayaraq bulud damcılarını əmələ gətirərlər.

**2-ci mərhələ: "...beləliklə bir bulud qaldırar ki, onu istədiyi kimi göydə yayar və onu topa-topa edər..."**

Duz kristallarının və ya havadakı toz zərrəciklərinin ətrafında sıxlaşan su buxarı sayəsində buludlar əmələ gələr. Bunların içindəki su damcıları çox kiçik (0,01 və 0,02 mm) olduğuna görə, onlar havada asılı qalar və havaya yayılarlar. Beləliklə, göy buludlarla örtülər.

**3-cü mərhələ: "...nəhayət onun arasından yağış çıxdığını görərsən".**

Duz kristalları və toz zərrəcikləri ətrafında yığılan su damcıları xeyli sıxlaşaraq yağış damcılarını əmələ gətirərlər. Beləliklə, havadan daha ağır vəziyyətə gələn damcılar, buluddan ayrılaraq yağış şəklində yerə düşməyə başlayarlar.

Göründüyü kimi, yağışın əmələ gəlməsindəki hər mərhələ, Quran ayələrində bildirilir. Üstəlik bu mərhələlər düzgün ardıcıllıqla açıqlanıb. Dünyadakı bir çox təbii hadisədə olduğu kimi, bunda da Allah ən doğru açıqlamanı verir, üstəlik bunu kəşf edilməsindən əsrlərlə əvvəl Quran vasitəsilə insanlara çatdırır.

Başqa bir ayədə isə yağışın əmələ gəlməsi haqda bu məlumatlar verilir:

**Məgər görmürsənmi ki, Allah buludları sürükləyir, sonra onları birləşdirir, sonra da onları üst-üstə toplayır; beləliklə, onun arasından yağış çıxdığını görürsən. Göydən içində dolu olan dağlar (kimi buludlar) endirər, onu istədiyinə tuş edər, istədiyindən də onu uzaq edər; şimşəyinin parıltısı az qala gözləri qamaşdırıb kor edəcək. (Nur surəsi, 43)**

Bulud tipləri üzərində tədqiqat aparan elm adamları yağışın əmələ gəlməsi ilə bağlı heyrətamiz nəticələrlə qarşılaşıblar. Yağışlı buludlar (nimbus) müəyyən sistem və mərhələ daxilində əmələ gəlir və öz formasını alır. Yağışlı buludlardan (nimbus) biri olan kumulo-nimbus növlü buludların əmələgəlmə mərhələləri elmi cəhətdən belədir:

**1-ci mərhələ: sürüklənmə -** buludlar olduqları yerdən küləklər tərəfindən tərpədilərək qovularlar.

**2-ci mərhələ: birləşmə -** külək tərəfindən qovulan bu kiçik buludlar (kumulo-nimbus) qovulduqları başqa yerdə toplanıb yeni böyük buludları əmələ gətirirlər.(3)

**3-cü mərhələ: toplanma -** kiçik buludlar birləşəndən sonra böyük buludun içindəki qaldırma qüvvəsi artar. Buludun mərkəzindəki qaldırma qüvvəsi kənarlardakı qaldırma qüvvəsindən daha çoxdur. Bu qaldırma qüvvəsi buludun gövdəsinin şaquli istiqamətdə böyüməsinə səbəb olar. Bununla da buludlar yuxarıya doğru genişlənərək üst-üstə toplanar. Bu da şaquli istiqamətdə böyümüş buludun gövdəsinin atmosferin daha sərin yerlərinə tərəf uzanmasına səbəb olar. Məhz bu məqamda atmosferin sərin hissələrində buludda olan su damcıları və dolu dənələri böyüməyə başlayar. Bu mərhələlərin nəticəsində su damcıları və dolu dənələri (qaldırma qüvvəsinin onları qaldırmağa gücü çatmayacağı həddə qədər) ağırlaşdıqları zaman da, buludlardan yağış, dolu və s. şəklində düşməyə başlayarlar.(4)

Unutmaq olmaz ki, meteoroloqlar buludun əmələ gəlməsi, quruluşu və funksiyası ilə bağlı təfərrüatları, təkmilləşmiş avdanlıqlardan (təyyarələr, peyklər, kompyuterlər və s.) istifadə edərək son dövrlərdə öyrəniblər. Görünən budur ki, Allah bu ayələrində də bizə 1400 il əvvəl bilinməsi mümkün olmayan bir məlumat vermişdir.

## Torpağın titrəyib qabarması

**...Sən yer üzünü qupquru ölü kimi görərsən, lakin Biz ona yağış endirdiyimiz zaman o, titrəyər (hərəkətə gələr), qabarar və hər gözəl növdən (məhsullar) bitirər. (Həcc surəsi, 5)**

Yuxarıdakı ayədə "titrəyər" kimi tərcümə edilən kəlmənin ərəbcəsi "ihtezzet"dir və bu kəlmə "hərəkətə keçmək", "canlanmaq", "titrəmək", "tərpənmək", "qımıldamaq", "bitkinin hərəkətə keçməsi və uzanması" mənalarına gəlir. "Qabarar" kimi tərcümə edilən "rebet" kəlməsi isə "artmaq", "çoxalmaq", "qabarmaq", "böyümək", "inkişaf etmək", "(bitkinin) ucalması", "ərzaq təmin etmək", "şişmək", "içi hava ilə dolmaq" mənalarına gəlir. Ayədə qeyd edilən bu kəlmələr yağış zamanı torpağın molekulyar quruluşundakı dəyişiklikləri ən düzgün kəlmələrlə ifadə edir.

Ayədə təsvir edilən hərəkətlilik, yer qabığının zəlzələlər zamanı olduğu kimi kütləvi hərəkətindən fərqlidir və torpağı təşkil edən hissəciklərin titrəməsi kimi ifadə edilir. Torpaq hissəcikləri bir-birinin üstünə keçən təbəqələrdən yaranır və su bu təbəqələrin arasına daxil olduqda, torpaq hissəciklərinin həcm etibarilə böyüməsinə və qabarmasına səbəb olar. Ayədə bəhs edilən mərhələlər elmi cəhətdən bu formadadır:

**1) Torpağın titrəməsi -** torpaq yağış suyunu kifayət qədər özünə çəkəndə torpaq hissəciklərinin səthində yaranan elektrostatik yük, tarazlığın pozulmasına səbəb olar. Bu da torpaq hissəciklərinin titrəməsinə gətirib çıxardar. Bu titrəmə, torpaq hissəciklərinin elektrik yükü tarazlanana qədər davam edər. Torpaq hissəciklərinin hərəkətə gəlib titrəməsi, onların su zərrəcikləri ilə toqquşması nəticəsində də baş verər. Su zərrəcikləri müəyyən istiqamətdə hərəkət etmir. Hər tərəfdən dəyən su zərrəcikləri, torpaq hissəciklərinin yerlərini dəyişdirməsinə səbəb olar. Bu, hərəkət hazırda "Braun hərəkəti" (Brownian movement) kimi tanınan və 1827-ci ildə Robert Braun (Robert Brown) adlı şotland botanikin tərif verdiyi mikroskopik zərrəciklərin hərəkətidir.[(5)] Braun (Brown) yağış damcılarının torpağa düşdükdə torpaq molekullarında bir növ silkələnmə və titrəyiş yaratdığını kəşf etmişdir.

**2) Torpağın qabarması -** yağış yağanda müxtəlif istiqamətlərdən gələn su damcıları, torpaq hissəciklərinin titrəməsinə, beləliklə, suyu özünə çəkərək həcminin böyüməsinə səbəb olar. Çünki suyun miqdarı bol olanda torpaq hissəciklərinin arasındakı məsafə artar. Bu boşluqlar su zərrəciklərinin və həll olmuş ionların torpağın içinə daxil olmasını təmin edər. Su və suyun içində həll olmuş şəkildə mövcud olan başqa qidalandırıcı maddələr təbəqələr arasında yayılar. Bu da torpaq hissəciklərinin həcminin böyüməsinə səbəb olar. Dolayısilə, bu hissəciklər torpağı canlandırmaq üçün zəruri olan su anbarı kimi fəaliyyət göstərirlər. Yerin cazibə qüvvəsinə

baxmayaraq, suyun sızmadan torpaq hissəciklərinin təbəqələri arasına toplanması Allahın insanlara olan sonsuz mərhəmətinin nümunələrindən biridir. Əgər torpağın suyu saxlama xüsusiyyəti olmasaydı və torpaqda bu mineral anbarları yaranmasaydı, su torpağın dərinliklərinə sızar və bitkilər qısa vaxtda məhv olardı. Lakin Rəbbimiz torpağı müxtəlif məhsullar çıxmasını təmin edəcək xüsusiyyətlərlə birlikdə yaradıb.

**3) Torpağın məhsul verməsi -** torpaqdakı suyun miqdarı kifayət edəcək həddə çatanda, toxumlar aktivləşər və bəsit qidalandırıcı elementləri əmməyə başlayarlar. Getdikcə inkişaf edən bitkilər su ehtiyaclarını 2-3 ay ərzində bu anbarların hesabına təmin edərlər.

Quru torpağa yağış düşəndə baş verən proseslərdən yuxarıdakı ayədə üç mərhələli şəkildə bəhs edilir: torpağın titrəməsi, torpağın qabarması və torpağın məhsul verməsi. Göründüyü kimi, Quranda dövrümüzdən 14 əsr əvvəl bildirilən bu mərhələlər elmi izahlarla tamamilə üst-üstə düşür. Digər bir ayədə isə bununla bağlı belə buyurulur:

**Ölü torpaq onlar üçün bir ayədir (dəlildir). Biz onu diriltdik, ondan dənələr çıxartdıq, beləliklə ondan yeyirlər. (Yasin surəsi, 33)**

## Ölü diyarı canlandıran yağışlar

Quranda, yağışın "ölü bir diyarı diriltmə" funksiyasına bir çox ayədə diqqət çəkilir:

**...Biz göydən tərtəmiz su endiririk ki, onunla ölü bir diyarı (torpağı) canlandıraq və yaratdığımız neçə-neçə heyvanlara və neçə-neçə insanlara ondan içirdək. (Furqan surəsi, 48-49)**

Yağış suyunun canlılar üçün həyati əhəmiyyət kəsb etməsi ilə yanaşı, onun həm də gübrələmək xüsusiyyəti var. Dənizlərdən buxarlanaraq buludlara çatan yağış damcılarında ölü torpağı "canlandıracaq" bəzi maddələr var. Bu xüsusiyyətə malik olan yağış damcılarına "səthi gərilmə damcıları" deyilir. Bu damcılar bioloqların dəniz səthinin mikro təbəqəsi adlandırdıqları üst təbəqədə əmələ gəlir. Millimetrin onda bir hissəsindən daha nazik olan bu səthi pərdədə mikroskopik yosunlarının və zooplanktonların çürüməsindən yaranan çoxlu üzvi tullantı var. Bu tullantıların bəziləri, dəniz suyunda çox az mövcud olan fosfor, maqnezium, kalium kimi elementləri və həmçinin mis, sink, kobalt və qurğuşun kimi ağır metalları seçib ayıraraq özündə toplayar. Yer üzündəki toxum və bitkilər, yetişmələri üçün lazım olan çoxsaylı minerallar və elementləri məhz bu yağış damcılarından alarlar.

Quranın digər bir ayəsində bu hadisə belə bildirilir:

**Və göydən mübarək (bərəkət və rəhmət yüklü) su endirdik; beləliklə onunla bağlar və biçiləcək dənələr yetişdirdik. (Qaf surəsi, 9)**

Yağışla torpağa enən bu duzlar məhsuldarlığı artırmaq üçün istifadə edilən ənənəvi gübrələrin bəzilərinin (kalsium, maqnezium, kalium və başqalarının) kiçik nümunələridir. Bu cür aerozollarda olan ağır metallar isə bitkilərin inkişafı və daha yaxşı məhsul verməsi üçün lazım gələn elementləri meydana gətirirlər. Bir sözlə, **yağış mühüm gübrədir**. Kasıb torpaq, yalnız yağış vasitəsilə gələn bu gübrələrlə belə, əsrlik müddət ərzində bitkilər üçün lazım olan bütün elementləri əldə edə bilər. Meşələr də yenə bu dəniz mənşəli aerozolların köməyi ilə qidalanar və inkişaf edərlər.

Bu yolla quru torpaq sahəsinə hər il 150 milyon ton gübrə düşür. Bu təbii gübrələnmə olmasaydı, Yerdə daha az bitki olar, həyatın nizamı pozulardı. Ayədə verilən, yağışın canlandırma xüsusiyyəti ilə əlaqədar məlumat, Quranın çoxsaylı möcüzəvi xüsusiyyətindən yalnız biridir.

## Dolu, şimşək və göy gurultusunun əmələ gəlməsi

**"...Allah göydən, oradakı dağlar kimi buludlardan dolu yağdırır. Sonra da onunla istədiyini vurur, istədiyindən də onu uzaq edir. Bu buludların şimşəyinin parıltısı az qalır ki, gözləri kor etsin. (Nur surəsi, 43)**

Yuxarıdakı ayədə şimşəyin dolu ilə əlaqəsinə diqqət çəkilir. Dolunun şimşəyin əmələ gəlməsinə təsirinin olub-olmaması araşdırıldığı zaman, ayədə mühüm bir meteoroloji həqiqətə işarə edildiyi görünər.

"Meterology Today" ("Meteorologiya bu gün") adlı kitabda dolunun və şimşəyin əmələ gəlməsi ilə bağlı belə bir izah verilir:

"Həddindən artıq soyumuş damcılardan və buz kristallarından əmələ gələn bir bulud zonasıdan dolu düşdükcə buludlar elektriklə yüklənər. Maye halındakı damcılar da dolu dənələri ilə toqquşan kimi donar və potensial istilikləri azalar. Bu da dolunun səthinin buz kristallarının kənarından daha isti qalmasını təmin edər. Dolu buz kristalı ilə təmasa keçdikdə isə mühüm bir hadisə baş verər. Elektronlar daha soyuq olandan daha isti olana tərəf hərəkət edərlər. Bunun nəticəsində dolu mənfi yüklü olar. Eyni təsir çox soyumuş su damcıları bir dolu dənəsi ilə təmasa keçəndə və müsbət yüklü çox kiçik buz zərrəcikləri sındıqda da baş verər. Daha yüngül və müsbət yüklü zərrəciklər hava cərəyanı ilə buludların yuxarı tərəfinə doğru daşınarlar. Mənfi yüklə qalan dolu, buludun aşağısına tərəf düşər, bununla da buludun aşağı tərəfi mənfi yüklə yüklənər. Bu mənfi yüklər ildırım şəklində Yer üzünə tərəf istiqamətlənməklə boşalarlar. Buna görə də dolu ildırımın əmələ gəlməsində əsas amildir".(6)

Aşağıdakı ayədə isə əsas yağışlı buludların (nimbus) şimşəklərlə əlaqəsinə və bu yaranma proseslərinin ardıcıllığına diqqət çəkilmişdir ki, bunlar da elmi kəşflərlə tam şəkildə üst-üstə düşür:

**Yaxud (bunlar) qaranlıq, göy gurultusu və şimşək(lər)lə yüklü, "göydən şiddətlə yağan fırtınaya tutulmuş kimidirlər ki, ildırımların saldığı dəhşətlə"; ölüm qorxusundan barmaqlarıyla qulaqlarını tıxayarlar..." (Bəqərə surəsi, 19)**

Yağışlı buludların (nimbus) tutduğu sahə 25,6 $km^2$-256 $km^2$ olub, 9-12 km. yüksəkliyində olan çox böyük kütlələr halındadır. Bu buludların oturacağı onların belə fövqəltəbii dərəcədə qalın olması səbəbi ilə qaranlıqdır. Buludu təşkil edən su və buz zərrəciklərinin miqdarı çox olduğu üçün günəş şüaları bu buluddan keçə bilmirlər. Bu sıxlıqdan ötrü də, Yer səthinə çox az miqdarda günəş şüası çatar və buna görə də Yerdən baxan insan buludu qaranlıq kimi görər. Buludun üst hissələrində isə qaranlıq daha azdır və Yer üzünə yaxınlaşdıqca qaranlıq daha da artar.(7)

Qaranlıqdan sonra ayədə diqqət çəkilən göy gurultusu və şimşəyin əmələgəlmə mərhələləri isə belədir: yağışlı buludların (nimbus) içində elektrik yükü toplanar. Buludlardakı bu elektriklənmə, donma, damcıların bölünməsi, təmas zamanı elektriklənmə kimi proseslər nəticəsində baş verər. Bu cür elektrik yükünün toplanması araya girən havanın onları təcrid edə bilməyəcək vəziyyətə gəlməsi ilə, böyük qığılcım, müsbət və mənfi elektrik sahələri arasında boşalar. Əks yüklərlə yüklənmiş iki sahə arasındakı gərginlik bir milyard volta çata bilər. Qığılcım buludda da əmələ gələ bilər, müsbət yüklü sahədən mənfi yüklü sahəyə tərəf iki bulud arasında axa bilər və ya bir buluddan Yer üzünə doğru boşala bilər. Bu qığılcımlar gözqamaşdırıcı şimşək çaxmalarını əmələ gətirər. Şimşək xətti boyunca meydana gələn elektrik yükündəki bu qəfil artım çox yüksək hərarətə (10.000 $^0$C) səbəb olar. Bunun nəticəsində havada ani genişlənmə baş verər və çox böyük partlayış səsi şəklində üzə çıxan göy gurultusu yaranar.(8)

Göründüyü kimi, bir yağışlı buludda (nimbus) ardıcıllıqla qaranlıq təbəqələr, şimşək kimi bilinən elektrik yüklü qığılcımlar və göy gurultusu kimi bilinən partlayış səsi meydana gələr. Müasir elmin buludların əmələ gəlməsi, göy gurultusunun və şimşəyin səbəbləri ilə bağlı söylədiklərinin hamısı, Quranın müvafiq ayələrinin bütün tərifləri ilə böyük uyğunluq təşkil edir.

## Döllәndirici küləklər

Quranın bir ayəsində küləklərin "döllәndirmə" xüsusiyyətinə və bunun nəticəsində yağışın əmələ gəldiyinə belə diqqət çəkilir:

**Və <u>döllәndirən (mayalandıran) küləkləri göndərdik</u> və beləliklə də, göydən yağış endirib sizə su içirtdik... (Hicr surəsi, 22)**

Ayədə, yağışın əmələ gəlməsindəki ilk mərhələdə küləklərin rol oynadığına diqqət çəkilir. Halbuki, XX əsrin əvvələrinə qədər belə təsəvvür olunurdu ki, yağışın yağması ilə külək arasında yeganə bir əlaqə varsa da, bu da küləyin buludu qovmasıdır. Müasir meteoroloji kəşflər isə küləklərin yağışın əmələ gəlməsində "döllәndirici" rol oynadıqlarını göstərdi.

Küləklərin bu "döllәndirmə" xüsusiyyəti daha əvvəl də toxunduğumuz kimi belə gerçəkləşir: okean və dənizlərin səthində baş verən köpüklənmədən ötrü hər an çoxsaylı hava qabarcığı əmələ gəlir. Bu qabarcıqlar partladıqları anda isə millimetrin yüzdə bir hissəsi diametrindəki minlərlə hissəciyi havaya atarlar. "Aerozol" deyilən bu hissəciklər küləklərin quru səthindən gətirdiyi tozlara qarışaraq atmosferin üst qatlarına qalxarlar. Küləklərin bu yolla yuxarıya apardığı həmin hissəciklər burada su buxarına təmas edərlər. Su buxarı da bu hissəciklərin ətrafına toplanaraq sıxlaşar və su

damcılarına çevrilər. Bu su damcıları əvvəlcə birləşərək buludları əmələ gətirər, bir müddət sonra da yağış halında yerə düşürlər. Göründüyü kimi, küləklər havada sərbəst halda mövcud olan su buxarını dənizlərdən daşıdıqları hissəciklərlə "döllendirir" və bununla da yağışlı buludların (nimbus) əmələ gəlməsini təmin edirlər.

Əgər küləklərin bu xüsusiyyəti olmasaydı, atmosferin yuxarı qatlarındakı su damcıları heç vaxt əmələ gələ bilməyəcək və yağış deyilən bir şey də olmayacaqdı.

Buradakı mühüm xüsus isə küləklərin yağışın əmələ gəlməsindəki bu ciddi rolunun bundan əsrlərlə əvvəl Quranda bildirilmiş olmasıdır. Özü də insanların təbiət hadisələri haqqında demək olar ki, heç nə bilmədikləri bir dövrdə...

Ayədə küləklərin döllendirici (mayalandırıcı) xüsusiyyəti ilə əlaqədar xəbər verilən digər bir məlumat da, küləklərin bitkilərin mayalanmasındakı roludur. Yer üzündəki əksər bitkilər öz növlərinin davamını, tozcuqlarını külək vasitəsilə yayaraq təmin edərlər. Əksər çılpaqtoxumlu bitkilər, şam ağacları, palmalar və buna bənzər digər ağaclar, həmçinin çiçəkverən bütün toxumlu bitkilərlə alaq otlarının hamısı küləklərlə mayalanar. Külək çiçək tozlarını bitkilərdən alıb onları eyni növdən olan başqa bitkilərə apararaq mayalanma prosesini həyata keçirər.

Küləyin bitkiləri necə mayalandıra biləcəyi yaxın vaxtlara qədər bilinmirdi. Lakin bitkilərin də erkək və dişi olmaqla cins fərqinə malik olması məlum olduqdan sonra, küləklərin belə mayalandırıcı təsirinin olduğu aşkarlandı. Bu həqiqətə Quranda; **"Biz göydən su endirdik, beləliklə orada <u>hər gözəl olan cütdən bir bitki bitirdik</u>"** (Loğman surəsi, 10) ayəsi ilə diqqət çəkilir.

## Küləklərin əmələ gəlməsindəki nizam

**...Və küləkləri (müəyyən nizamla) istiqamətləndirməsində ağlını işlədən bir qövm üçün ayələr var. (Casiyə surəsi, 5)**

Külək müxtəlif istilik mərkəzləri arasında əmələ gələn hava cərəyanıdır. Atmosferdəki müxtəlif temperaturlar, müxtəlif hava təzyiqləri yaratdığı üçün, hava fasiləsiz surətdə yüksək təzyiq sahəsindən alçaq təzyiq sahəsinə hərəkət edər. Təzyiq mərkəzləri, yəni atmosferdəki temperaturlar arasındakı fərq böyük olsa, hava cərəyanı, yəni külək də şiddətli olar. Böyük dağıntılara səbəb olan qasırğalar bu yolla əmələ gəlir.

Burada heyrət oyandıran məsələ, ekvator və qütblər kimi aralarında çox böyük fərq olan istilik və təzyiq qurşaqlarının mövcudluğuna baxmayaraq, Allahın müəyyən nizamla yaratması sayəsində, Yer kürəsinin çox sərt küləklərə məruz qalmamasıdır. Əgər qütblərlə ekvator arasında yaranan nəhəng hava cərəyanı yumşaldılmasaydı, Yerin səthi fasiləsiz olaraq şiddətli qasırğaların baş verdiyi ölü planetə çevrilərdi.

Yuxarıdakı ayədə (ərəbcəsində) "tasrifir riyah" ifadəsindəki "tasrif" kəlməsi "bir şeyi çox çevirib döndərmək", "istiqamətləndirmək", "bir işə istiqamət vermək", "idarə etmək", "yayılmasını təmin etmək" mənalarına gəlir. Göründüyü kimi, külək üçün seçilən bu kəlmə küləklərin nizam içindəki hərəkətlərini tam tərif edir. Həmçinin bu vəziyyət küləyin öz-özünə, necə gəldi əsmədiyinin

də çox aydın izahıdır. Küləkləri insanların həyatda yaşamasına imkan verəcək tərzdə idarə edən Allahdır.

## Fotosintezin səhər vaxtı başlaması

**Qaralmağa ilk başladığı zaman gecəyə and olsun və nəfəs almağa başladığı zaman səhərə... (Təkvir surəsi, 17-18)**

Məlum olduğu kimi, bitkilər fotosintez edərkən havadakı karbon qazını, yəni insanların istifadə etmədiyi zərərli qazı qəbul edər və atmosferə onun əvəzinə oksigen buraxarlar. Nəfəs alanda içimə çəkdiyimiz və əsil həyat mənbəyimiz olan oksigen, fotosintezin əsas məhsuludur. Atmosferdəki oksigenin təxminən 30 faizi torpaqdakı bitkilər tərəfindən əmələ gətirildiyi halda, qalan 70 faiz də dənizlərdə və okeanlarda mövcud olan və fotosintez edə bilən bitkilər və təkhüceyrəli canlılar tərəfindən əmələ gətirilər.

Fotosintez elm adamlarının bu gün belə hələ tam izah edə bilmədikləri bənzərsiz prosesdir. Bu əməliyyatı adi gözlə görə bilmərik, çünki bu mexanizm fəaliyyətə keçmək üçün atomlardan və molekullardan istifadə edir. Lakin fotosintezin nəticələrini nəfəs almağımızı təmin edən oksigendə və sağ qalmağımızı təmin edən qidalarda görə bilərik. Başa düşülməsi çətin olan kimyəvi düsturlara, gündəlik həyatda heç rastlaşmadığımız kiçiklikdə ədəd və kütlə vahidlərinə malik olan fotosintez, çox həssas tarazlıqlar üzərində qurulmuş bir sistemdir. Ətrafımızdakı bütün yaşıl bitkilərdə bu əməliyyatın həyata keçirildiyi trilyonlarla kimya laboratoriyaları var. Üstəlik bitkilər bizim möhtac olduğumuz oksigeni, qidaları və enerjini milyonlarla ildir bir an da dayanmadan əmələ gətirirlər.

Fotosintezin ən məhsuldar olduğu vaxt oksigenin ən çox əmələ gətirildiyi vaxtdır. Bu da Günəş şüasının ən çox olduğu səhər vaxtlarında gerçəkləşir. Günəşin çıxması ilə birlikdə yarpaqlarda tərləmə prosesi (buxarlanma) və bununla bağlı olaraq da fotosintez sürətlənməyə başlayar. Günortadan sonra isə bu hadisə əksinə baş verər, yəni fotosintez prosesi yavaşlayar, tənəffüs artar, çünki hərarətin artması ilə birlikdə, tərləmə prosesi də sürətlənir. Gecə isə istiliyin azalması ilə tərləmə prosesi yavaşlayar və bitki rahatlanar.

Təkvir surəsində səhər vaxtı ilə bağlı diqqət çəkilən «iza teneffese», yəni «nəfəs almağa başladığı zaman» ifadəsi məcazi mənada tənəffüs etmək, nəfəs almaq, dərindən nəfəs almaq mənalarına gəlir. Ayədə vurğulanan bu ifadə səhər vaxtı oksigen əmələgəlmə prosesinin başlaması, nəfəs almağın əsas şərti olan oksigenin ən çox bu vaxtda əldə edilməsi baxımından xeyli diqqətçəkəndir. Ayədə səhər vaxtı ilə bağlı olan bu vəziyyətə and içilməsi də mövzunun əhəmiyyətini ayrıca vurğulayır. XX əsrin mühüm kəşfləri arasında olan fotosintez fəaliyyəti Allahın yuxarıdakı ayə ilə işarə etdiyi Quranın elmi möcüzələrindən biridir.

Aşağıdakı qrafikdə fotosintez və işıq miqdarı arasındakı əlaqə görünür.

## Dənizlərin bir-birinə qarışmaması

Dənizlərin tədqiqatçılar tərəfindən çox yaxın keçmişdə aşkarlanan bir xüsusiyyəti Quranın Rəhman surəsində belə bildirilir:

**O, qarşı-qarşıya gələn iki dənizi bir-birinə qovuşdurdu. Onların arasında maneə vardır, onu keçə bilməzlər. (Rəhman surəsi, 19-20)**

Bir-birinə qovuşan, lakin suları bir-birinə qətiyyən qarışmayan dənizlərin ayədə bildirilən bu xüsusiyyəti okeanoloqlar tərəfindən yaxın zamanda kəşf edilib. "Səthi gərilmə" adlandırılan fiziki bir qüvvədən ötrü qonşu dənizlərin sularının qarışmadığı ortaya çıxmışdır. Dəniz sularının fərqli sıxlıqlarından irəli gələn səthi gərilmə, sanki bir divar kimi suların bir-birinə qarışmasını mane olar. (9)

Əlbəttə ki, insanların fizikadan, səthi gərilmədən, okeanologiya elmindən xəbərdar olmadıqları bir dövrdə, bu həqiqətin Quranda bildirilmiş olması son dərəcə diqqətçəkən vəziyyətdir.

## Dənizlərdəki qaranlıq və daxili dalğalar

**Ya da (inkar edənlərin əməlləri) əngin dənizdəki qaranlığa bənzəyər; onun üstünü bir dalğa örtər, onun üstündə bir dalğa, onun da üstündə bir bulud vardır. Bir qisimi bir qismi üzərində olan qaranlıqlar; əlini çıxartdığı zaman onu belə az qala görə bilməyəcək. Allah kimə nur verməsə, artıq onun üçün nur yoxdur. (Nur surəsi, 40)**

Dərin dənizlərdəki ümumi şərait "Oceans" ("okeanlar") adlı kitabda belə təsvir edilir:

Bu gün bilirik ki, dərin dənizlərdəki və okeanlardakı qaranlıq təxminən 200 metr və daha dərin yerlərdə olar. Bu dərinlikdə demək olar ki, heç işıq yoxdur. 1000 metrdən aşağı dərinliklərdə isə işığa rast gəlmək heç cür mümkün deyil.(10)

Hazırkı dövrdə hər hansı dənizin ümumi coğrafi quruluşu, burada yaşayan canlıların xüsusiyyətləri, duzluluq miqdarı kimi məlumatlarla yanaşı, ondakı su miqdarı, səthinin sahəsi və dərinliyi kimi məlumatları da əldə etmək mümkündür. Müasir texnologiyadan istifadə edilərək istehsal edilmiş sualtı qayıqlar kimi vasitələr və müxtəlif xüsusi alətlər, bu məlumatları əldə etməkdə istifadə edilən mühüm vasitədirlər.

Bu alətlər olmadan, insanın dənizin 70 metrdən artıq dərinliyinə getməsi demək olar ki, qeyri-mümkündür. Bununla yanaşı, bir insanın kömək alamadan okeanların 200 metrə yaxın dərinliyindəki qaranlıq dərinliklərdə yaşaması da qətiyyən mümkün deyil. Buna görə də elm adamları dənizlər haqqında ətraflı məlumatı çox yaxın dövrlərdə kəşf ediblər. Halbuki, əngin (dərin) dənizlərin qaranlıq olması məlumatı Quranda hələ 1400 il bundan əvvəl xəbər verilmişdir. Heç bir texnologiyanın, dolayısılə insanların dənizlərin dərinliyinə daxil olacaq vasitələrinin olmadığı bir dövrdə, belə bir məlumatın verilmiş olması, əlbəttə ki, Quranın möcüzələrindən biridir.

Bununla yanaşı, Nur surəsinin 40-cı ayəsində bildirilən; **"...əngin dənizdəki qaranlığa bənzəyər; onun üstünü bir dalğa örtər, onun üstündə bir dalğa, onun da üstündə bir bulud vardır..."** ifadəsi də Qurandakı başqa bir elmi möcüzəyə işarə edir:

Elm adamları yaxın zamanda "müxtəlif qalınlıqda olan qatların ara səthlərində meydana gələn daxili dalğalar"ın olduğunu kəşf ediblər. Daxili dalğalar dəniz və okeanların dərinliklərini əhatə edər. Çünki dərin dənizlərin qalınlığı onların üzərindəki sudan, əslində, daha çoxdur. Daxili dalğalar səth dalğaları kimi hərəkət edər. Səth dalğaları kimi onlar da sına bilir. Daxili dalğaları insan gözü ilə görülə bilməz, lakin müəyyən zonadakı temperatur və duzluluq dəyişiklikləri araşdırılanda bu dalğaların varlığı hiss edilə bilər.(11)

Ayədəki ifadələrlə yuxarıdakı izahat bir-biri ilə tamamilə paraleldir. Tədqiqatlar aparmadan bir insan təkcə dənizin səthində olan dalğaların mövcudluğundan xəbərdar ola bilər. Bundan savayı dənizin daxilində baş verən dalğalanmalardan xəbərdar olması isə qeyri-mümkündür. Lakin Nur surəsində Allah dənizlərin dərinliklərində olan ikinci bir dalğa formasına diqqət çəkib. Əlbəttə ki, elm adamlarının yaxın vaxtlarda kəşf etdiyi bu həqiqət də, Quranın Allahın sözü olduğunu bir daha göstərir.

## Hərəkətlərimizi istiqamətləndirən nahiyə

**Xeyr; əgər o, (bu hərəkətinə) son qoymasa, onu kəkilindən (alnından) tutub sürükləyəcəyik; o yalançı, günahkar olan alnından. (Ələq surəsi, 15-16)**

Yuxarıdakı ayələrdə qeyd edilən "yalançı, günahkar olan alın" ifadəsi xeyli diqqətçəkəndir. Çünki son illərdə aparılan tədqiqatlar, kəllənin ön alın nahiyəsində hissəsində, beynin bəzi fəaliyyətləri idarə edən hissəsinin olduğunu göstərmişir. 1400 il əvvəl Quranda diqqət çəkilən bu nahiyə və onun vəzifəsi haqqındakı məlumatlara dövrümüzün elm adamları, təkcə son 60 il ərzində izah verə biliblər. Kəllənin daxilinə, başın ön hissəsinə baxanda beynin ön alın nahiyəsi görünər. Fiziologiya sahəsində bu nahiyənin funksiyaları haqqında aparılan araşdırmalar nəticəsində əldə edilmiş məlumatlar, *"Essentials of anatomy and physiology" ("Anatomiya və Fiziologiyanın əsasları")* adlı kitabda belə qeyd olunur:

Hərəkətlərin motivasiyası, planlaşdırma proqnozu və başladılması, alın nahiyələrinin ön hissəsi olan ön alın nahiyəsində (cerebrum) gerçəkləşər. Bu yer assosiasiya (birlik) korteksinin bir nahiyəsidir.(12)

Həmçinin kitabda bu nahiyə ilə bağlı bu ifadələr də qeyd olunur:

Hərəkətlə olan əlaqəsi ilə yanaşı, ön alın nahiyəsinin eyni zamanda aqressiyanın da funksional mərkəzi olduğu düşünülür.(13)

Bu açıqlamalardan da aydın olduğu kimi, beynin ön alın nahiyəsi planlaşdırma, motivasiya, yaxşı və pis hərəkətlərin başladılması, yalan və ya doğrunun söylənməsi ilə əlaqəli fəaliyyət növlərinin hamısını idarə edir.

Göründüyü kimi, Ələq surəsində qeyd edilən "yalançı, günahkar olan alın" ifadəsi ilə yuxarıdakı tərif arasında böyük paralellik var. Elm adamlarının son 60 ildə kəşf etdiyi bu cür elmi həqiqətləri, Allah insanlara Quran ayələrində hələ əsrlərlə əvvəl xəbər vermişdir.

## Qan dövranı və südün əmələ gəlməsi

**Sizin üçün heyvanlarda da, əlbəttə, ibrətlər var, sizə, onların qarınlarındakı fərs (yarımçıq həzm olunmuş qidalar) ilə qan arasından çıxan, içənlərin boğazından rahat keçən dumduru süd içirdirik. (Nəhl surəsi, 66)**

Vücudun qidalanmasını təmin edən əsas maddələr həzm sistemindəki kimyəvi reaksiyalar nəticəsində əmələ gələr. Həzm olunan bu qida maddələri daha sonra bağırsaq divarından sorularaq qan dövranı sisteminə keçər. Beləliklə, bu qida maddələri qan dövranı sayəsində müvafiq orqanlara ötürülər.

Bədənin başqa toxumaları kimi süd vəziləri də onlara qan dövranı yolu ilə gətirilən həzm olunmuş qida maddələri ilə qidalanarlar. Buna görə də qan, qidalardan gələn qida maddələrinin yığılıb ötürülməsində çox mühüm rol oynayır. Süd də bütün bu mərhələlərdən sonra süd vəziləri tərəfindən ifraz edilər və həzm edilmiş qidanın qan dövranı ilə daşınması nəticəsində əmələ gəldiyi üçün qida dəyəri xeyli yüksəkdir. İnsanlar nə heyvanın qarnındakı yarımçıq həzm olunmuş qidanı, nə də heyvanın qanını birbaşa istehlak edə bilərlər. Bunları birbaşa istehlak etmələri ciddi zəhərlənmələrə, hətta ölümə səbəb ola bilər. Lakin Allah, yaratdığı son dərəcə mürəkkəb bioloji sistemlər sayəsində, bu mayelərin içindən təmiz və sağlam bir qidanı insanların faydasına təqdim edir. Bununla da insanların birbaşa istehlak edə bilməyəcəyi qan və yarımçıq həzm olunmuş qidadan içilən xüsusiyyətdə, qidalandırıcı süd əmələ gəlmiş olar.

Ərəb alimi İbn ən-Nəfis, 1242-ci ildə insan vücudundakı qan dövranını ilk dəfə doğru təsvir edən insan olmuşdur. İngilis həkim Uilyam Harveyin (William Harvey) 1616-cı ildə elan etdiyi qan dövranı modeli isə, mövzu haqqındakı məlumatların yayılmasında təsirli olmuşdur. Dolayısilə Quranda südün komponentlərinin əsil mənbəyi, əsrlərlə əvvəl ən doğru şəkildə təsvir edilmişdir. Məməlilərin həzm sisteminə, qan dövranına dair mütəxəssislik tələb edən belə bir məlumatın, Quranın endirildiyi dövrdə insanlar tərəfindən bilinməsinin mümkün olmayacağı son dərəcə aydındır. Göründüyü kimi, Nəhl surəsinin 66-cı ayəsində südün bioloji əmələgəlmə prosesi ilə bağlı tərif edilənlər, Fiziologiya və Anatomiya kimi elmlərin hazırkı dövrdə ortaya qoyduğu məlumatlarla böyük uyğunluq təşkil edir.

## Barmaq izindəki şəxsiyyət vəsiqəsi

Quranda insanları ölümündən sonra diriltməyin Allah üçün çox asan olduğu bildirilərkən, insanların xüsusən barmaq uclarına diqqət çəkilir:

**Bəli; onun barmaq uclarını belə bərpa edib (yenidən) nizama salmağa qadirik. (Qiyamət surəsi, 4)**

Ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətamizdir. Çünki barmaq izindəki formalar və incəliklər, tamamilə hər insanın özünəməxsusdur. Hazırda yer üzündə yaşayan və tarix

boyu da yaşamış bütün insanların barmaq izləri bir-birindən fərqlidir. Üstəlik eyni DNT düzülüşünə malik olan və eyni yumurtadan yaranan əkizlər də fərqli barmaq izlərinə sahibdir.[14]

Barmaq izi doğuşdan əvvəl dölün üzərində son formasını alar və daimi yara olmadığı təqdirdə, ömür boyu sabit qalar. Məhz buna görə də, barmaq izi hər kəsə məxsus çox mühüm "şəxsiyyət vəsiqəsi" sayılır və barmaq izlərini öyrənən elm isə insanlar tərəfindən yanılmaz şəxsiyyət müəyyənləşdirmə üsulu kimi istifadə edilir.

Lakin mühüm məsələ, barmaq izlərinin xüsusiyyətinin yalnız XIX əsrin sonlarına yaxın kəşf edilmiş olmasıdır. Bundan əvvəl insanlar barmaq izlərini heç bir xüsusiyyəti və mənası olmayan cizgilər kimi qəbul edirdilər. Lakin Quranda, o dövrdə heç kimin diqqətini belə çəkməyən barmaq izləri vurğulanır və bu izlərin təkcə dövrümüzdə görülən əhəmiyyətinə diqqət çəkilir.

## Dişi bal arısı

**Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və insanların düzəltdikləri çardaqlarda özünə pətəklər <u>hör</u>. Sonra bütün meyvələrdən <u>ye</u> və Rəbbinin səndən ötrü asanlaşdırdığı <u>yollarla get (uç)</u>". O arıların qarınlarından tərkibində insanlar üçün şəfa olan müxtəlif rəngli bal çıxır. Həqiqətən, bunda düşünən adamlar üçün dəlillər vardır. (Nəhl surəsi, 68-69)**

Hər bir arının çoxlu vəzifəsinin olduğu arı koloniyalarındakı yeganə istisna erkək arılardır. Erkək arılar nə şanın müdafiəsinə və təmizliyinə, nə qida toplamağa, nə də pətək və bal hazırlamağa kömək edərlər. Erkək arıların şanın içindəki yeganə işi ana arını dölləndirməkdir.[15] Cütləşmə orqanlarından başqa digər arılarda olan xüsusiyyətlərin demək olar ki, heç birinə sahib olmadıqları üçün erkək arıların ana arını dölləndirməkdən başqa iş görmələri də qeyri-mümkündür.

Koloniyanın bütün yükü üzərlərində olan işçi arıların isə, ana arılar kimi dişi olmasına baxmayaraq, onların yumurtalıqları inkişaf etməyibdir, yəni onlar sonsuzdurlar. İşçi arıların, şanı təmizləmək, arı sürfələrinə və körpə arılara qulluq etmək, ana arını və erkək arıları qidalandırmaq, bal hazırlamaq, pətək hörmək, onlardakı təmir işlərini yerinə yetirmək, pətəyin havasını müntəzəm şəkildə dəyişmək, pətəyin təhlükəsizliyini təmin etmək, nektar, çiçək tozu, su, qatran kimi maddələri toplamaq və bunları ehtiyat halında toplamaq kimi vəzifələri var.

Ərəb dilində felin iki növ işlədilməsi mövcuddur və fellərin bu cür istifadə edilməsindən icraçının erkək, yoxsa dişi olması məlum olur. Belə ki, yuxarıdakı ayələrdə arı üçün işlədilən fellər (altı cızılmış kəlmələr) felin dişi üçün olan şəklində qeyd edilmişdir. Beləliklə, Quranda bal hazırlayan arıların dişi olmasına işarə edilir.[16]

Yaddan çıxarılmamalıdır ki, arılarla bağlı bu həqiqətin bundan 1400 il əvvəl bilinməsi mümkün deyildi. Lakin Allah bu həqiqətə diqqət çəkərək Quranın bir möcüzəsini daha bizə göstərmişdir.

## Mikroskopik həyatın mövcudluğu

**Yerin yetişdirdiklərindən, onların özlərindən və hələ bilmədikləri neçə-neçə şeylərdən bütün cütləri yaradan (Allah çox) ucadır! (Yasin surəsi, 36)**

**...Hələ sizin bilmədiyiniz nələri yaratmaqdadır? (Nəhl surəsi, 8)**

Yuxarıdakı ayələrdə Quranın nazil edildiyi dövrdə insanların bilmədiyi canlıların olmasına işarə edilir. Belə ki, mikroskopun kəşf edilməsiylə birlikdə insan gözünün görə bilmədiyi kiçiklikdə yeni canlılar kəşf edildi. Beləliklə, Quranda diqqət çəkilən bu canlıların mövcudluğu haqqında insanlar məlumat sahibi olmağa başladılar. Adi gözlə görünməyən və əsasən bir hüceyrədən ibarət olan mikro canlıların mövcudluğuna işarə edən digər ayələr isə belədir:

**...Göylərdə və yerdə zərrə qədər bir şey Ondan uzaqda (gizli) qalmaz. Bundan daha kiçik olanı da, daha böyük olanı da, istisnasız, mütləq açıq-aydın bir kitabda (yazılmış)dır. (Səba surəsi, 3)**

**...Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən uzaqda (gizli) qalmaz. Bunun daha kiçiyi və daha böyüyü yoxdur ki, açıq-aydın bir kitabda (yazılmış) olmasın. (Yunis surəsi, 61)**

Yer üzünün hər yanına yayılmış bu gizli dünyanın mənsubları, yəni mikroorqanizmlər, Yer üzündəki heyvanlardan 20 dəfə çoxdur. Gözlə görünməyəcək qədər kiçik olan bu mikroorqanizmlər aləmi bakteriyalardan, viruslardan, göbələklərdən, su yosunlarından və akaridlərdən ibarətdir. Bu mikrocanlılar Yer üzündəki həyat tarazlığının mühüm bir ünsürüdür. Məsələn, Yerdə həyatın əmələ gəlməsini təmin edən əsas ünsürlərdən biri olan azot dövranı, bakteriyalar tərəfindən həyata keçirilir. Bitkilərin torpaqdakı mineralları qəbul edə bilməsini təmin edən ən mühüm ünsür kök göbələkləridir. Tərkibində nitrat olan tərəvəz və ya ət kimi qidalardan zəhərlənməyimizin qarşısını isə dilimizdə olan bakteriyalar alır. Həmçinin bəzi bakteriyalar və yosunlar, dünyada həyatın davam etməsinin əsas şərti olan fotosintez etmək qabiliyyətinə malikdirlər və bu vəzifəni bitkilərlə bölüşürlər. Bəzi akarid növləri üzvi maddələri parçalayaraq qidaları bitkilərin istifadə edə biləcəyi hala gətirə bilirlər. Göründüyü kimi, haqqında yalnız texnologiya alətlərinin köməyi ilə məlumat əldə edə bildiyimiz bu kiçik canlılar, insan həyatının davam etməsində əvəzedilməz əhəmiyyətə sahibdirlər.

Quranda bundan əsrlər əvvəl gözlə gördüyümüz canlı aləmlərindən başqa bir canlı aləminin olacağına diqqət çəkilməsi, şübhəsiz ki, Quranın digər bir möcüzəsidir (ətraflı məlumat almaq üçün baxın: Harun Yəhya, *"Mikrodünya möcüzəsi").*

# Qeydlər:


1) Meyers Lexikon in drei Bänden Bibliographisches Institut & F.A. Brockhaus AG, Mannheim 1995, Digitale Ausgabe LexiRom

2) http://www.islandnet.com/~see/weather/history/lenard.htm

3) Richard A. Anthes, John J. Cahir, Alistair B. Fraser, Hans A. Panofsky, The Atmosphere, 3-cü nəşr, Columbus, Charles E. Merrill Publishing Company, 1981, səh. 268-269; Albert Millers, Jack C. Thompson, Elements of Meteorology, 2-ci nəşr, Columbus, Charles E. Merrill Publishing Company, 1975, səh. 141

4) Richard A. Anthes, John J. Cahir, Alistair B. Fraser, Hans A. Panofsky, The Atmosphere, 1981, səh. 269; Albert Millers, Jack C. Thompson, Elements of Meteorology, 1975, səh. 141-142

5) Brian J. Ford, "Brownian Movement in Clarkia Pollen: A Reprise of the First Observations", The Microscope, 1992, vol. 40, no. 4, səh. 235-241; http://www.brianjford.com/wbbrowna.htm

6) C. Donald Ahrens, Meterology Today: An introduction to weather, climate and environment, 3-cü nəşr, West Publishing Company, 1988, St. Paul, səh. 437

7) http://webhome.idirect.com/~alila/Writings/Physics.htm; The Quran and Modern Physics.

8) http://webhome.idirect.com/~alila/Writings/Physics.htm; The Quran and Modern Physics.

9) Richard A. Davis, Principles of Oceanography, Addison-Wesley Publishing Company, Don Mills, Ontario, səh. 92-93

10) Danny Elder, John Pernetta, Oceans, Mitchell Beazley Publishers, London, 1991, səh. 27

11) M. Grant Gross, Oceanography, A View of Earth, 6. baskı, Englewood Cliffs, Prentice-Hall Inc., 1993, səh. 205

12) Rod R. Seeley, Trent D. Stephens, Philip Tate, Essentials of Anatomy & Physiology, 2-ci nəşr, Mosby-Year Book Inc., St. Louis, 1996, səh. 211; Charles R. Noback, N. L. Strominger, R. J. Demarest, The Human Nervous System, Introduction and Review, 4-cü nəşr, Lea & Febiger, Philadelphia, 1991, səh. 410-411.

13) Rod R. Seeley, Trent D. Stephens, Philip Tate, Essentials of Anatomy & Physiology, 2-ci nəşr, Mosby-Year Book Inc., St. Louis, 1996, səh. 211

14) http://www.ridgesandfurrows.homestead.com/fingerprint.html

15) Hayvanlar Ansiklopedisi-Böcekler, Phoesbus Publishing Company, İstanbul, 1979, səh. 97

16) Dr. Mazhar U. Kazi, 130 Evident Miracles in the Qur'an, Crescent Publishing House, New York, ABD, 1998, səh. 68-69

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

“Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür”. *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

## Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: “Növlərin mənşəyi, təbii seleksiya yolu ilə...”

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və “Növlərin mənşəyi” adlı kitabında: **“Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

"Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər". *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, "Növlərin mənşəyi" kitabının "Nəzəriyyənin qarşısında duran çətinliklər" (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

"Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?" *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı

olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

"Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər". *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın "təkamülü" yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

"Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

**Göz və qulaqdakı texnologiya**

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır.

Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah’ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah’ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül

mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm

adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**